AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ADMİU

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

**“Mədəniyyət: problemlər və perspektivlər”**
**mövzusunda Respublika elmi konfransı**



*Heydər Əliyev*
*102*

**Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr olunmuş**

# DOKTORANT VƏ GƏNC TƏDQİQATÇILARIN XVII RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI

**Bakı 2025**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

***https://doi.org/10.36719/0805/2025***

***Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr olunmuş***

# MƏDƏNİYYƏT: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

## DOKTORANT VƏ GƏNC TƏDQİQATÇILARIN XVII RESPUBLİKA ELMİ KONFRASININ

## *M A T E R İ A L L A R I*

*Konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin 31 yanvar 2025-ci il tarixli 3-29-68/2-180/2025 №li məktubuna əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti tərəfindən keçirilmişdir.*

**Bakı — 2025**

**Elmi redaktor:** **Sədaqət Əliyeva**
*Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent*

**Redaksiya heyəti**

**Redaktor:** **Fəridə Cəlilova**
*Elm və doktorantura şöbəsinin müdiri, dosent*

**Jurnalın üz qabığının tərtibi və dizaynı:** **Vüqar Əli**
*Əməkdar rəssam*

**Korrektor:** **Sevinc Məmmədova**
*Elm və doktorantura şöbəsinin mütəxəssisi*

**Texniki redaktor:** **Pərvanə Lətifli**
*Yaradıcılıq layihələrinin idarə olunması şöbəsinin mütəxəssisi*

Mədəniyyət: problemlər və perspektivlər (*Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr olunur*), – Bakı: "ADİLOĞLU" Nəşriyyatı, – 06 may 2025-ci il, – 2025, – 126 s.

**ISBN: 978-9952-39-379-8**

## TƏŞKİLAT KOMİTƏSİ

**Ceyran Mahmudova** – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, professor (sədr)
**Sədaqət Əliyeva** – ADMİU-nun Elm və yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Nigar Rüstəmova** – ADMİU-nun Tədris işləri üzrə prorektoru, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Rüfət Quliyev –** ADMİU-nun Mühasibat uçotu və hesabat şöbəsinin müdiri, baş mühasib

## ELMİ KOMİTƏ

**Sədaqət Əliyeva** – ADMİU-nun Elm və yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Sevil Kərimova** – ADMİU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Validə Məmmədova** – Rektorun tədrisdə innovasiyalar üzrə müşaviri, Əməkdar incəsənət xadimi, professor
**Məlahət Fərəcova** – Tarix elmləri doktoru, dosent
**Məryam Əli-Zadə** – Sənətşünaslıq elmləri doktoru, professor

**UOT 719**

# HEYDƏR ƏLİYEVİN MİLLİ DÖVLƏTÇİLİK STRATEGİYASINDA TARİXİ VƏ MƏDƏNİ İRSİN QORUNMASI PRİORİTETLƏRİ

Pəri Ədilova Mübariz qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
peri.abdulmanafova@gmail.com

**Xülasə**

Qlobal tendensiyaların misli görünməmiş templərlə cərəyan etdiyi və yeni dünya nizamının spesifik üsullarla qurulduğu müasir dövrdə tarixi keçmişin öyrənilməsi və tarixi-mədəni irsin yüksək səviyyədə qorunması fövqəladə aktuallıq kəsb edən məsələlər sırasına daxildir. Bu səbəbdən tarixi irsə və mədəni dəyərlərə qayğıkeş və mühafizəkar münasibət hər bir suveren dövlətin inkişaf konsepsiyasında ən mühüm elementlərdən biri sayılır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycana birinci (1969-1982) və ikinci (1993-2003) rəhbərliyi dövründə bu sahəyə xüsusi diqqət ayrılmış və müstəqil Azərbaycan Respublikasının dövlətçilik strategiyasında tarixi-mədəni irsin qorunması prioritet məsələ elan edilmişdir. Məhz Ulu öndərin Azərbaycanın tarixi irsinə və mədəniyyətinə belə qayğıkeş münasibəti XX yüzilliyin 70-ci və 90-cı illərində Azərbaycanın tarixi və mədəni irsinin öyrənilməsi və qorunması sahəsində möhtəşəm işlər görülmüş, axeologiyanın intensiv inkişafı ilə əlaqədar maddi mədəniyyətin qiymətli nümunələri aşkar edilmiş, akademik səviyyədə tarixi qədimliyin adekvat obrazı yaradılmışdır. Təqdim olunan məqalədə Ulu öndər Heydər Əliyevin Azərbaycanın tarixi və mədəni irsinin qorunmasına verdiyi misilsiz töhfədən bəhs olunur və o, Azərbaycan xalqının mədəni intibahını yüksək səviyyəyə qaldırmış hadisə kimi qiymətləndirilir.

**Abstract**

**PRIORITIES OF PROTECTING HISTORICAL AND CULTURAL HERITAGE IN HEYDAR ALIYEV'S NATIONAL STATESMANSHIP STRATEGY**

Pari Adilova

In the modern period of history, when global trends are occurring at an unprecedented pace and a new world order is being established in specific ways, the study and preservation of the historical past and the protection of cultural and historical heritage are of extreme importance and relevance. In this regard, constant care for historical heritage and reliable protection of cultural and historical values is one of the important elements in the concept of development of each sovereign state. During the first (1969-1982) and second (1993-2003) leadership of the National Leader Heydar Aliyev in Azerbaijan, special attention was paid to this area and the protection of the cultural and historical monument was declared a top priority in the strategy of the independent Republic of Azerbaijan. It was thanks to the attention and care of the National Leader Heydar Aliyev about the historical and cultural heritage of Azerbaijan that in the 70s and 90s of the 20th century, a lot of work was done in the study and protection of the historical and cultural heritage of Azerbaijan. And in connection with the intensive development of archeology, valuable examples of material culture have been discovered and an adequate image of the historical past has been created at the academic level. This article tells about the incomparable contribution of the National Leader Heydar Aliyev to the

protection of the historical and cultural heritage of Azerbaijan, and it is assessed as a great event that raised the cultural revival of the Azerbaijani people to the highest level.

**Аннотация**

**ПРИОРИТЕТЫ ЗАЩИТЫ ИСТОРИКО-КУЛЬТУРНОГО НАСЛЕДИЯ В НАЦИОНАЛЬНОЙ СТРАТЕГИИ ГОСУДАРСТВЕННОСТИ ГЕЙДАРА АЛИЕВА**

В нынешний период истории, когда глобальные тенденции происходят невиданными темпами и новый мировой порядок устанавливается специфическими способами, изучение и сохранение исторического прошлого и охрана культурно-исторического наследия имеет чрезвычайно важное значение и актуальность. В связи с этим постоянная забота об историческом наследии и надежная охрана культурно-исторических ценностей является одним из важных элементов в концепции развития каждого суверенного государства. В период первого (1969-1982) и второго (1993-2003) руководства Общенационального лидера Гейдара Алиева Азербайджаном, этой области уделяли особое внимание и в стратегии государственности независимой Азербайджанской Республики защита культурно-исторического наследия объявлялась главным приоритетом. Именно, благодаря вниманию и заботе Общенационального лидера Гейдара Алиева об историческом и культурном наследии Азербайджана, в 70-х и 90-х годах XX столетия в изучения и охраны исторического и культурного наследия Азербайджана были сделаны очень большие работы. А в связи с интенсивным развитием археологии обнаружены ценные образцы материальной культуры и на академическом создан адекватный образ исторического прошлого. В данной статье повествуется о несравнимом вкладе Общенационального лидера Гейдара Алиева в охрану исторического и культурного наследия Азербайджана, и она получает оценку как великое событие, возводившее культурное возрождение азербайджанского народа на высочайший уровень.

**Açar sözlər**: Heydər Əliyev, tarixi-arxeoloji abidə, tarixi-mədəmi irs.

**Keywords**: Heydar Aliyev, historical and archaeological monument, historical and cultural heritage,

**Ключевые слова**: Гейдар Алиев, историческое и культурное наследие, историко-археологический памятник

Azərbaycanın son yarıməsrlik tarixində elə bir mütərəqqi hadisə, milli tarixin gərdişini dəyişən elə bir məqam yoxdur ki, o, müasir türk və müsəlman dünyasının ən görkəmli şəxsiyyətlərindən biri olan, Azərbaycan xalqının böyük oğlu və Ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti onn üzərində olmasın. Doğma xalqının və məmləkətinin taleyi, rifahı, istiqbalı və gələcəyi haqqında daim və dərindən düşünən o dahi insan milli toplumun hərtərəfli inkişafı və onun dünya xalqları sırasında layiqli yer tutması üçün durmadan və usanmadan çalışırdı. O, yaxşı bilirdi ki, şanlı keçmişi, zəngin dövlətçilik ənənələri, davamlı insan potensialı olan bir xalqın iqtisadi, siyasi və mədəni həyatını müasir dövrün tələblərinə uyğun şəkildə nizamlamaq üçün, əvvəl onun şanlı keçmişini yaddaşlarda bərpa etmək və ona öz tarixi ilə qurur duymaq şansı yaratmaqdır. Məhz bu səbəbdən Ümummilli liderin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründə Azərbaycanın tarixi keçmişinini öyrənilməsinə və bu tarixi sübuta yetirən artefaktların, maddi-mədəni dəyərlərin qorunması dövlət siyasətinin ən vacib komponentlərindən biri olmuşdur. İxtisasca tarixçi olan Ümummilli lider tarixi keçmişin öyrənilməsinə və xalqın qədimliyini sübuta yetirən tarixi

abidələrin yüksək səviyyədə qorunmasına milli dirçəlişin grçəkləşməsi və parlaq gələcəyin qurulmasına aparan yolun açılması kontekstində baxırdı. Beləliklə, Ulu öndərin tərənnüm etdiyi unikal həyat fəlsəfəsi milli dəyərlərimizin, tarixi keçmişimizdən sarsılmaz güc alan milli ruhun intibahı və tərəqqisi üzərində köklənmişdi. Nəticədə, fiziki və intellektual imkanlarını səfərbər edərək müasir azərbaycanlını öz şanlı tarixinə qovuçdurmuşdur.

**Azərbaycan xalqının milli dirçəliş və tərəqqi missiyasını üzərinə götürmüş ulu insan və dahi şəxsiyyət**

XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda həyata keçirilən milli mədəni inqilabın yüksək templərlə cərəyan edən dinamikasına qısaca nəzər salmaq kifayət edir ki, Azərbaycan milli ideyasının gerçəkləşməsi naminə Ulu öndər Heydər Əliyevin möhtəşəm fəaliyyətinin əsrarəngiz portretini yarada biləsən. Bu portretdə hər şey mütləq nizama, dayanıqlılığa, təhlükəsizliyə, tərəqqiyə yönəlik optimizmə, böyük ümidlər verən və xoş təəssüratlar yaradan perspektivliyə əsaslanır [Vəliyeva, İbrahimova, Hüseynova., 2018, s. 23].

Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycana rəhbərliyə başladığı ilk gundən məmləkətin gələcəyi və tərəqqisi naminə atdığı addımlar biri də məhz tarixi keçmişimizin daha dərindən öyrənilməsi istiqamətində irimiqyaslı elmi və akademik tədbirlərin görülməsi olmuşdur. Məhz XX yüzilliyin 70-ci illərində Azərbaycan milli arxeologiyası inkişafının pik həddinə çatmış, Azərbaycan tarixinin öyrənilməsi, tarixi və mədəni irsin qorunması milli konsepsiya elan olunmuşdur. Arxeoloji axtarışların nəticəsində aşkara çıxarıalan qiymətli tarixi abidələrin muzeyləşdirilməsi və müvafiq norma və qaydalara uyğun qorunması həyata keçirilmişdir. XX əsrin 70-ci illərinin əvvəllərində, məhz Ulu öndərin Azərbaycana birinci rəhbərliyinin ilk illərində Şəki rayonunun ərazisində də irimiqyaslı arxeoloji qazıntılara start verilmiş, nəticədə əski tarixin özünəməxsus repruduksiyası sayəsində indiyədək gizli qalan tarix artefaktların və bioloji faktların dili ilə danışmağa başlamışdır. Sözügedən dövrdə Azərbaycanda arxeologiya elminin fövqəladə inkişafı ilə əlaqədar rayon mərkəzlərində və şəhərlərdə tarix-diyarşünaslıq muzeyləri yaradılmış, həmiçinin 1974-cü ildə Azərbaycan Elmlər Akademiyasının (AEA) strukturunda fəaliyyət göstərən "Tarix institutunun" nəzdində "Arxeologiya və etnoqrafiya sektoru" yaradılmışdır. Sektor Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci rəhbərliyi dövrünün əvvələində (1993-cü il) fəaliyyətini AMEA-nın tərkibinə Arxeologiya və Etnoqrafiya İnstitutu kimi davam etdirmişdir. XX yüzilliyin 70-ci illərinin əvvəllərindən bugünə qədər Şəki bölgəsində həyata keçirilən arxeoloji qazıntılar və aparılan tədqiqatlar zamanı aşkara çıxarılmış tarixi abidələrin böyük qismi Azərbaycan ərazisində ibtidai cəmiyyətin tarixini tədqiq üçün istifadə olunur. Əsasən ibtidai cəmiyyətin eneolit, son tunc və ilk dəmir dövrünə aid olan bu abidələrin çoxu qəbir abidələri, dini məzmun kəsb edən tikililər, kurqan və nekropollardır. Şəki bölgəsində aparılmış arxeoloji qazıntılar zamanı antik dövrə aid çox sayda qəbir abidələri və nekropollar aşkar edilmişdir. Bu abidələrin külliyyatı isə ən qədim, qədim və antik dövrdə Azərbaycanın Şəki bölgəsində yaşamış əhalinin dünyagörüşü, məişəti, dini ayinləri və ənənələri haqqında geniş və düzgün təsəvvürlər yaratmağa imkan verir. XX əsrin 70-ci illərindən bugünədək Şəki bölgəsində aşkara çıxarılmış tarixi-arxeoloji abidələr Azərbaycan xalqının qədim tarixini əsaslı şəkildə öyrənməyə və rekonstruksiya etməyə yol açır. Əldə edilən artefaktlar, ətraflı və dəqiq öyrənilən qəbir abidələri, dini xarakterli binaların qalıqları, qədim qala divarlarının və istehkamların fraqmentləri ölkəmizin digər bölgələrində olduğu kimi Şəki bölgəsində də qədim, antik və erkən orta əsrlər dövründə burada mövcud olmuş ictimai-siyasi, sosial-mədəni və hərbi-siyasi vəziyyətin müvafiq elmi təsvirini yaratmağa və bölgədə ictimai-mədəni inkişafa təsir göstərən bir çox amilləri təyin etməyə əsas yaradır. Bu dövrdə Azərbaycanın

qədim və orta əsrlər tarixinin daha dərindən, real tarixi faktlar əsasında öyərinilməsinə istiqamətlənən milli arxeologiyanın inkişafı Ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərləyi (1969-1982) dövründə milli mədəni inkişaf konsepsiyasının tərkib hissəsi və milli dövlətçilik strategiyasının ən mühüm komponentlərindən biri idi. Qeyd edək ki, XX əsrin 70-ci illərindən indiyədək Şəki bölgəsində həyata keçirilən arxeoloji qazıntılar zamanı arxeoloji tariximizin müxtəlif dövlərinə işıq salan abidələr aşkar olunmuş və öyrənilmişdir. Müstəqillik dövründə Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci rəhbərliyi zamanı milli arxeologiyanın inkişafı, tarixi-arxeoloji abidələrin bərpası və mühafizəsi keyfiyyətcə yeni dövrə qədəm qoydu. Azərbaycan Respblikasının digər bölgələrində olduğu kimi Şəki bölgəsinin qədim və orta əsrlərə aid arxeoloji tarixinin öyrənilməsi bu gün də çox yüksək templərlə davam edir.

Bu gün ümumdünya mədəni və təbii irsinin qorunması ilə bağlı qəbul olunmuş BMT konvensiyasına uyğun olaraq Azərbaycan Respblikasının ərazisində yerləşən bir neçə tarixi-mədəni obyekt UNESCO-nun Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir. Onların sırasında Qobustan Dövlət Tarix və Bədii qoruğu, Şəki Xan sarayı da daxil olmaqla Şəkinin mərkəzi hissəsində yerləşən abidələr daxildir. Bir çox tarixi-mədəni və arxeoloji abidələr, o cümlədən Şəkinin Kiş kəndində yerləşən “Kiş” Tarix-Memarlıq Qoruğu UNESCO-nun “Ümumdünya Mədəni İrsi Siyahısı”na daxil olmaq üçün namizəddir. Qeyd edək ki, “Kiş” Tarix-Memarlıq Qoruğunda orta əsrlərə aid Müqəddəs Yelisey məbədi, çoxlu sayda müxtəlif artefaktlar və müxtəlif dövrlərə aid qəbirlər var [Karaaxmedova, 2000, s. 90].

Azərbaycan Respublikası siyasi müstəqillik əldə etdikdən sonra Azərbaycanda tarixi-arxeoloji irsin öyrənilməsi yeni mərhələyə qədəm qoydu. Tədqiqatlar zamanı alimlər və arxeologiya sahəsində çalışan mütəxəssislər arxeoloji obyektlərə, tarixi dəyər kəsb edən faktlara obyektiv, tarixi həqiqətlərə uyğun adekvat qiymət verməyə başladı. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin verdiyi Sərəncamla 1836-cı ildə Rusiya imperatoru I Nikaolay Romanovun (1825-1855) 11 mart 1836-cı il tarixli Fərmanına uyğun olaraq, Rus Pravoslav Kilsəsinin Müqəddəs Sinodu tətəfindən ləğv edilmiş və Rusiya Senatının 10 aprel 1836-cı il Əsasnaməsi ilə Erməni Apostol Kilsəsinin idarəçiliyinə verilmiş Alban Həvari (Apostol) Kilsəsinin bərpa edilməsi Albaniya xristianlığının öyrənilməsində yeni bir səhifə açdı [Xəlilov, 2011, s. 43]. 2003-cü ildə Şəkinin Kiş kəndində “Kiş” Tarix-Memarlıq Qoruğunun təşkili, qədim tarixin öyrənilməsi və tarixi-arxeoloji irsin qorunması istiqamətində tədbirlərə start verdi. 2011-ci ildə əsaslı təmir edilmiş və müvafiq restavrasiya işləri aparılmış Müqəddəs Yelisey məbədində Qafqaz Albaniyası Muzeyinin işə başlaması isə Azərbaycanda ümumdünya mədəni irsinə hörmət və mühafizəkar münasibət üzərində qurulmuş milli siyasətin bariz nümunəsi oldu.

1995-ci ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanan Konstitusiya layihəsində tarixi qədimliyin öyrənilməsi və mühafizə edilməsi dövlət strategiyasının mühüm komponenti kimi təsbit olundu. Azərbaycan Respblikası Konstitusiyasının 77-ci maddəsində tarixi-mədəni abidələrin, o cümlədən tarixi-arxeoloji irsin qorunması, öyrənilməsi və ondan istifadə edilməsi ilə əlaqədar yaranan münasibətlərin tənzimlənməsi qaydaları müəyyənləşdirildi. Qanunda təsbit edildi ki, tarixi abidələrin və arxeoloji irsin qorunması tək bu sahədə rəsmi öhdəlikləri olan müvafiq qurumların vəzifəsi deyil, həm də hər bir vətəndaşın vəzifəsi olmalıdır

2006-cı ildə Şəki rayonunun Fazıl (1999-cu ildən Fazil kəndi “Fazıl” adlanır) kəndində yaradılmış dünya şöhrətli “Labirint” (“Əbədi Sükut Dünyası”) muzeyinin əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Muzey, onu ziyarət edən Almaniyanın Azərbaycandakı keçmiş səfiri Peer

Stankində elə bir güclü təəssürat yaratmışdı ki, o, Azərbaycan xalqının qədim tarixini rəngarəng artefaktlarla nümayiş etdirən bu abidə haqqında demişdi: “Burada (Şəkidə) ümumdünya tarixinin böyük bir dövrü haqqında çox möhtəşəm muzey yaradılmışdır”. Məlum olduğu kimi “Labirint” muzeyi Şəkidən 20 km aralıda arxeoloq Nəsib Mirsaleh oğlu Muxtarovun rəhbərliyi altında yaradılmışdır. Bu gün “Labirint” muzeyinin əhəmiyyəti o qədər böyükdür ki, Azərbaycanda akkreditə olunmuş xarici ölkə səfirliklərinin, demək olar ki, bütün nümayəndələri həmin abidəni ziyarət etmişlər. Bu Muzeydə sərgilənən eksponatların külliyatı qədim dünya tarixində (e.ə.VII-III minilliklər) baş vemiş birinci qloballaşma (Qafqaz-Avropa və Qafqaz-Mərkəzi Aiya) dövrü haqqında qiymətli informasiya verir [2014, s. 11]. “Labirint” muzeyində sərgilənən predmetlərin (məs., mis əritmək üçün nəzərdə tutulmuş soba) məzmunu, strukruru və təyinatı, həm də bəşər tarixində ilk texniki inqilab kimi qəbul edilən “Neolit inqilabının” necə olmasından, bu möhtəşəm ictimai-iqtisadi və sosial-mədəni hadisənin sürətli templərlə baş verməsində Cənubi Qafqaz regionunun, xüsusilə də tarixi Azərbaycanın ərazisində mövcud olmuş ibtidai cəmiyyətlərin rolundan bəhs edir.

Şəki bölgəsində tarixi-arxeoloji abidələrin qorunması ilə bağlı problemlərin həlli xarici təsirlər nəticəsində ilkin görkəmini və ya formasını itirmiş abidələrin bərpasını (restavrasiya) nəzərdə tutur. Hazırda Azərbaycanın digər bölgələrində olduğu kimi Şəki bölgəsində də tarixi-arxeoloji abidələrin restavrasiyası ilə bağlı kompleks işlərin görülməsi planlaşdırılır. Qeyd edək ki, Şəki bölgəsinin arxeologiya sektorunun bu sahədə çox zəngin təcrübəsi var. Beləki, son illər Azərbaycan Respblikasında həyata keçirlən restavrasiya tədbirlərinin bir qismi də məhz Şəkinin payına düşür. Şəki xan sarayı kompleksi və məşhur Kiş məbədi restavrasiya olunmuş abidələr sırasındadır. Restavrasiya prosesində həm Azərbaycana dəvət olunmuş və restavrasiya sahəsində ixtisaslaşan xarici ölkə mütəxəsisləri (məsələn, Xan sarayının restavrasiyasını həyata keçirmiş “Dortman Miklenburq” alman şirkəti, Kiş məbədinin restavrasiya olunması üzrə birgə “Azərbaycan-Nörveç layihəsi” - 2000-2003-cü illərdə Norveç hökmətinin maliyə dəstəyi ilə həyata keçirilən bu layihədə Azərbaycanın tanınmış restavratorları ilə yanaşı çox tanınmış Norveç alimi və səyyahı Tur Xeyerdal da - 1914-2002, iştirak etmişdir), həm də Azərbaycanda arxeoloji restavrasiya sahəsində ixtisaslaşmış bəzi təşkilatlar (məs., Azərbyacan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən “Arxitektura abidələrinin qorunması və restavrasiyası” üzrə elmi-tədqiqat laboratoriyası, həmçinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Şəki “Azərbərpa” şöbəsi) iştirak edir

**Nəticə**

Azərbaycan Respublikasının digər bölgələrində olduğu kimi Şəkidə də tarixi-arxeoloji irsin öyrənilməsi, qorunması və muzeyləşdirilməsi işinin milli dövlətçilik strategiyasında və sverenliyimizin təmin edilməsində fövqəladə mühüm hadisə kimi qiymətləndirilir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin bu sahəyə veridyi töhfə isə möhtəşəmdir. Bu gün qlobal tendensiyaların baş verdiyi müasir informasiya cəmiyyətində unifikasiya və qlobalizasiya prosesləri misli görünməmiş templərlə baş verir, sivilizasiyasların bir-birinə qovuşması və milli mədəniyyətlərin inteqrasiyası prosesi gedir. Qabaqcıl texnologiyalara və süni intellektə əsaslanan yeni industrial münasibətlər sistemi qurulur, lakin qədim tarixə maraq aktuallığını itirmir, onun mühafizəsi isə daim diqqət mərkəzində olaraq qalır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan konqresinin materialları. Bakı. – 2014. – S. 11

2. Heydər Əliyev: biblioqrafiya / Layihə rəhbəri Ə.Qarayev; tərtib edən: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı, 2018. - S. 23

3. Xəlilov M.C. Albaniyanın xristian abidələri (IV-X əsrlər). Bakı, 2011. – S. 43. – 341 s.

4. Karaaxmedova, A.A. (2000). “Qruntovıe poqrebeniya Kişskoy tserkvi” (rus dilində). AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun “Qafqazın Arxeologiya və Etnoqrafiyası” Beynəlxalq elmi konfransının materialları. Bakı. S. 90

**UOT 069**

# İKİ BÖYÜK ŞƏXSİN DOSTLUĞU

Aqil Əliyev Mahmud oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
kitabsevas@gmail.com

**Xülasə**

Heydər Əliyev elə bir dahi şəxsiyyətdir ki, yaşadığı dövr ərzində gördüyü xeyriyyə işlərilə insanların yaddaşında dərin və silinməz izlər yazmışdır. Bu zəmində Heydər Əliyevin hakimiyyəti dövründə intibahı şərtləndirən işlərini görürük. Bakıda doğulmuş maestro Mstislav Rostropoviçi Bakıya dəvət edərək, ordenlər ilə mükafatlandırmış və Bakıda yaşadığı evdə xatirə-ev muzeyinin açılmasına təşəbbüs göstərmişdir.

**Abstract**

**THE FRIENDSHIP OF TWO GREAT PEOPLE**

Agil Aliyev

Heydar Aliyev was such a great personality that his charitable deeds left a deep and indelible mark on people's memory throughout his lifetime. During his leadership, we observe initiatives that sparked a cultural renaissance. He invited maestro Mstislav Rostropovich, who was born in Baku, back to the city, awarded him with orders, and initiated the opening of a memorial house museum in the apartment where he had lived.

**Аннотация**

**ДРУЖБА ДВУХ ВЕЛИКИХ ЛЮДЕЙ**

Агиль Алиев

Гейдар Алиев – это выдающаяся личность, чья благотворительная деятельность оставила глубокий и неизгладимый след в памяти людей. В период его правления были реализованы инициативы, способствующие культурному возрождению. Он пригласил маэстро Мстислава Ростроповича, родившегося в Баку, вернуться в родной город, наградил его орденами и выступил с инициативой открытия мемориального музей-дома в квартире, где он жил.

**Açar sözlər:** Leopold və Mstislav Rastropoviçlər, xatirə-ev muzeyi, violonçel, orden, Slava.

**Keywords**: Leopold and Mstislav Rostropovich, memorial house museum, cello, order, Slava.

**Ключевые слова:** Леопольд и Мстислав Ростроповичи, музей-квартира, виолончель, орден, Слава.

Heydər Əliyev güclü iradəsi olması ilə bərabər, daxilən həssas, incə musiqi duyumuna malik və romantik təbiətli şəxs olmuşdur. Ulu öndər demişdir, "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir" [3].

Bu zəmində Heydər Əliyevin hakimiyyəti dövründə intibahı şərtləndirən işlərini görürük. Təhsilə, mədəniyyətə, incəsənətə, musiqiyə göstərdiyi xüsusi qayğı nəticəsidir ki, Mstislav Rostropoviçi öz vətəninə qaytarmışdır. Mstislav Rostropoviç həyatının çətin dövründə sürgünlərə, haqsız təzyiqlərə məruz qaldığı dövrədə Bakıya gəlir. Heydər Əliyev, maestro Niyaziyə Mstislav Rostropoviçi olduqca böyük qayğı və diqqətlə əhatə etməsi üçün tapşırıq verir. Beləliklə, mənən sarsıntı keçirən Mstislav Rostropoviç, qayğıkeş rəhbər Heydər Əliyev və bəstəkar Q.Qarayev, T.Quliyev, A.Rzayev, gənc pianoçu F.Bədəlbəyli, rejissor T.Kazımovski, bir sözlə, bakılı dostların əhatəsində layiq olduğu münasibəti görür.

1997-ci ildə Mstislav Rostropoviç ona hər zaman arxa duran dostu Heydər Əliyev cənablarını 70 illik yubileyinə Parisə dəvət edir. Azərbaycan Prezidenti Heydər Əliyev həmyerlisinin dəvətini qəbul edir. Elə bu zaman Heydər Əliyevin sərəncamı ilə təşkilat komitəsi yaradıldı. Maestronun doğma vətəni Bakıda, Rostropoviçlər ailəsinin yaşadıqları mənzilin yerləşdiyi küçəyə və 21 saylı musiqi məktəbinə ata və oğul Rostropoviçlərin adı verilir. Yaşadıqları mənzilin qarşısında isə xatirə lövhəsi açıldı. Bunlarla yanaşı, dövlət başçısı tərəfindən həmin mənzildə Leopold və Mstislav Rostropoviçlərin xatirə ev-muzeyi yaradılması haqqında sərəncam verildi. Bütün bunlar isə Heydər Əliyevin dahi Maestronu dönə-dönə dəyərləndirməsinin təzahürü idi [4].

Sənədə əsasən, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 23 may 1997-ci il tarixli, 571 nömrəli Sərəncamına əsasən, Leopold və Mstislav Rostropoviçlərin yaşadıqları mənzildə ev-muzeyin təşkil olunması, köhnə adı Kolodeznaya olan küçəyə Rostropoviçlər adının verilməsi və 21 nömrəli 11 illik musiqi məktəbinə Leopold və Mstislav Rostropoviçlər adı verilmişdir. Bu təşəbbüs, XX əsrin görkəmli musiqiçilərinin sənət irsini qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək məqsədini daşıyır. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Bakı Şəhər İcra Hakimiyyəti bu sərəncamdan irəli gələn məsələlərin icrasını təmin etmişdir.

1998-ci ildə Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə görkəmli musiqiçilərin Leopold və Mstislav Rostropoviçlərin xatirə-ev muzeyi yaradılmışdır. Muzey 2002-ci il mart ayının 4-də açılmışdır. Muzeyin ilk direktoru Şeyla Heydərova təyin olunur. 2022-ci il aprel ayından isə Günay Əliyeva muzeydə direktor vəzifəsini müvəqqəti icra edən işci kimi fəaliyyət göstərir [Məlikova (Qurbanova), E., 2009, S. 232].

Mstislav Rostropoviç dünya musiqi mədəniyyətinin korifeylərindən sayılır. Onun ustad dərsləri keçməsi, musiqiçiləri dinləməsi, onlara tövsiyələrini bildirməsi də az əhəmiyyət daşımır. Milli liderimiz unudulmaz Heydər Əliyev öz sevimli dostunun sədaqətliliyi vətən oğlunun yaradıcılığını, ictimai-siyasi fəaliyyətini yüksək qiymətləndirmişdir: “Siz 1997-ci ildən sonra… hər il Azərbaycana gəlir, burada ustad dərsləri keçir, bizim incəsənət xadimlərimizlə görüşürsünüz. Təbii ki, sizinlə görüşərkən biz də şadıq. Sizin bu işləriniz Azərbaycan mədəni həyatında böyük töhfə verir” [İbazadə R., Salmanova R., 2012, s. 213].

Azərbaycanın milli azadlığı və dövlət müstəqilliyinin əldə olunmasında xidmət göstərən hər kəsə böyük ehtiram və minnətdarlıq hissi ilə yanaşırıq. Onlardan biri də dünya şöhrətli musiqiçi, görkəmli şəxsiyyət Mstislav Rostropoviç olmuşdur. Moskvada fəaliyyəti dövründə belə, o, Azərbaycanla əlaqələrini kəsməmiş, ölkəmizin musiqi və incəsənət xadimləri ilə sıx dostluq və yaradıcılıq münasibətləri saxlamışdır. O, doğulduğu, valideynlərinin yaşayıb-yaratdığı Azərbaycan torpağını heç vaxt unutmamışdır. Buna görə də Azərbaycanın mədəniyyət xadimləri ona daim böyük hörmət və məhəbbət bəsləmişlər. Bu xidmətlərinə görə 1998-ci il 12 iyun tarixində Prezident Heydər Əliyev tərəfindən ona “Şöhrət” ordeni təqdim olunmuşdur [5].

Azərbaycan incəsənətinin tərəqqisində, xüsusilə də beynəlxalq mədəni əlaqələrinin yaranıb möhkəmlənməsində Mstislav Rostropoviç xüsusi xidmətlər göstərir. Onun bu fədakarlığı 2002-ci ilin martında cənab Heydər Əliyev tərəfindən qiymətləndirilərək dövlətimizin ən ali mükafatına – (İstiqlal) ordeninə layiq görülüb [6].

2002-ci il martın 3-də Azərbaycan Prezidenti Heydər Əliyev Prezident sarayında dövrümüzün görkəmli musiqiçisi Mstislav Rostropoviçi və həyat yoldaşı, tanınmış opera müğənnisi Qalina Vişnevskayanı, həmçinin Qlobal Vaksinasiya Fondunun prezidenti Jak Fransua Marteni qəbul etmişdir. Görüş zamanı Prezident Heydər Əliyev qonaqları səmimi şəkildə salamlamışdır. Tədbirdə Heydər Əliyev dedi: “Əziz Slava, Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında, Azərbaycan musiqisinin inkişafında görkəmli xidmətlərinizə görə, Siz Prezidentin Fərmanı ilə Azərbaycanın ən yüksək ordeni - “İstiqlal” ordeni ilə təltif olunmusunuz”. Musiqiçi aldığı mükafatı müxtəlif ölkələrin hökumətləri tərəfindən ona verilən 42 ordendən ən qiymətlisi adlandırıb. Onun sözlərinə görə, “bu, ona görə dəyərlidir ki, onu prezident təqdim edib, onun sayəsində vətəni – Azərbaycan həqiqətən müstəqil dövlət olub” [7].

Bu görüş zamanı Rostropoviç Bakıda yerləşən Azərbaycan Dövlət Filarmoniyasının yenidən bərpası təşəbbüsünü irəli sürmüş və bu prosesi gələn ilin – 2003-cü ilin may ayına qədər yekunlaşdırmağı təklif etmişdir. O, Filarmoniyanın mayın 10-da – ümummilli lider Heydər Əliyevin doğum günündə təntənəli şəkildə açılmasını planlaşdırırdı. Bu məqsədlə dostlarını bu təşəbbüsə qoşulmağa dəvət etmiş və bərpa işlərinin yüksək keyfiyyətlə aparılması üçün Prezidentdən dəstək istəyəcəyini bildirmişdi.

Lakin bu planlar həyata keçmədən, 2003-cü ilin dekabrında Heydər Əliyev vəfat etdi. Ulu öndərin itkisi ilə bağlı dərin kədərini ifadə edən Rostropoviç, Filarmoniyanın açılışının artıq onun üçün bayramla yanaşı, hüzn günü olduğunu bildirmişdir. 2004-cü il yanvarın 26-da Azərbaycan Dövlət Filarmoniyasının rəsmi açılış mərasimində çıxış edən maestro Mstislav Rostropoviç bu hadisəni öz dostu Heydər Əliyevin xatirəsinə həsr etdiyini qeyd etmişdir. O, səhnədə İohan Sebastyan Baxın II nömrəli süitasından “Sarabanda” əsərini ifa etmiş və bu musiqini dua kimi təqdim etmişdir. Onun sözlərinə görə, Sarabanda heç bir konkret dinə aid olmayan, bütün bəşəriyyəti əhatə edən bir dua kimi səslənir. Rostropoviç bu əsərlə əziz dostu ilə musiqi vasitəsilə vidalaşmaq istədiyini bildirmiş və tamaşaçılardan alqışlamamalarını xahiş etmişdir. Zalda bir neçə dəqiqəlik dərin sükut hökm sürmüşdür [8].

## Ədəbiyyat siyahısı:

1. İbazadə R., Salmanova R. “Musiqi dünyası” jurnalı. Jurnal №-si 4/53. 2012. S.108-111
2. Məlikova (Qurbanova) E. Azərbaycanın memorial xatirə muzeyləri, dərslik, Bakı, 2009, 232 səh.

*İnternet resursları*

3. https://www.anl.az/down/meqale/musiqi_dunyasi/2021/2 87/763950(meqale).pdf
4. Heydərova Şeyla. Heydər Əliyev və Mstislav Rostropoviç dostluğu. https://www.anl.az/down/meqale/medeniyyet/2008/may/47911(meqale).pdf
5. Dünyaşöhrətli violonçel ifaçısı Mstislav Rostropoviçin xatirəsi anılıb. https://azertag.az/xeber/dunyasohretli_violonchel_ifachisi_mstislav_rostropovichin_xatiresi_anilib-2548709
6. M.L.Rostropoviçin “İstiqlal” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin fərmanı.

https://azertag.az/xeber/MLROSTROPOVICHIN_ISTIQLAL_ORDENI_ILA_TALTIF_EDILMASI_HAQQINDA__AZARBAYCAN_RESPUBLIKASI_PREZIDENTININ_FARMANI-879259

7. Böyük sənətkarın irsini yaşadan muzey. https://azertag.az/xeber/boyuk_maestronun_azerbaycana_her_bir_gelisi_respublikamizin_medeni_heyatinda_elametdar_hadisedir__azerbyacan_prezidenti_heyder_eliyev_muasir_dovrun_gorkemli_musiqichisi_mstislav_rostropovichi_qebul_etmisdir-879263

8. Гейдар Алиев и Мстислав Ростропович: история мужской дружбы Двух Великих (фотосессия). https://www.trend.az/life/culture/1599124.html

**UOT 745/749**

# QARABAĞ QADIN GEYİMİNİN BƏDİİ-ESTETİK OBRAZINDA DEKORATİV MATERİALLARIN YERİ

Nigar Abbasova İlqar qızı
Doktorant
Azərbaycan Rəssamlıq Akademiyası
Bakı, Azərbaycan
abbasovan036@gmail.com
https://orcid.org/0009-0006-6190-9594

**Xülasə**

Məqalə Azərbaycanın Qarabağ bölgəsinin geyiminin bədii-estetik obrazında önəmli yer tutan dekorativ materialların tədqiqinə həsr olunub. Təhlilə XIX – XX əsrlərin əvvəllərinə aid qadın geyim nümunələri cəlb olunub. Milli qadın geyimində istifadə olunan bəzək materiallarının təhlili bizə həm bu və ya digər geyim növünün hazırlanmasında əsas material kimi, həm də zərgərlik formasında təqdim olunan qadın geyimləri və aksesuarlarının bəzəyi kimi istifadə olunan qeyri-ənənəvi bəzək materialları – xəz və dəri ilə təmsil olunan onun əsas növlərini təsnif etməyə və xarakterizə etməyə imkan verdi. Sonuncular geyim üçün bağlayıcı və bəzək kimi xidmət etmiş və Qarabağın milli qadın geyiminin dekorativ tərtibatında mühüm rol oynamışdır.

**Abstract**

**THE ROLE OF DECORATIVE MATERIALS IN THE ARTISTIC AND AESTHETIC IMAGE OF WOMEN'S CLOTHES OF KARABAKH**

Nigar Abbasova Ilgar
Doctoral student at Azerbaijan State Academy of Arts

The article is devoted to the study of decorative materials that play an important role in the artistic and aesthetic appearance of clothing in the Karabakh region of Azerbaijan. Samples of women's clothing of the 19th and early 20th centuries were included in the study. The analysis of decorative materials used in national women's clothing allowed us to classify and characterize its main types, represented by non-traditional decorative materials – fur and leather – used both as the main material in the manufacture of this or that type of clothing, and as decoration of women's clothing and accessories, presented in the form of jewelry. The latter served as fasteners and decorations for clothing and played an important role in the decorative design of the national women's clothing of Karabakh.

**Аннотация**

**РОЛЬ ДЕКОРАТИВНЫХ МАТЕРИАЛОВ В ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКОМ ОБРАЗЕ ЖЕНСКОЙ ОДЕЖДЫ КАРАБАХА**

Нигяр Аббасова Ильгар гызы
Докторант Азербайджанской Государственной Академии Художеств

Статья посвящена исследованию декоративных материалов, играющих важную роль в художественно-эстетическом облике одежды Карабахского региона Азербайджана. К

исследованию были привлечены образцы женской одежды XIX и начала XX века. Анализ декоративных материалов, используемых в национальной женской одежде, позволил классифицировать и охарактеризовать ее основные виды, представленные нетрадиционными декоративными материалами – мехом и кожей, – используемыми как в качестве основного материала при изготовлении того или иного вида одежды, так и в качестве украшения женской одежды и аксессуаров, представленных в виде ювелирных изделий. Последние служили застежками и украшениями одежды и играли важную роль в декоративном оформлении национальной женской одежды Карабаха.

**Açar sözlər:** Qarabağ, qadın, geyim, bəzək, dekorativ, tərtibat, bədii-estetik obraz, zinət əşyaları.

**Keywords:** Karabakh, woman, clothing, decoration, decoration, design, artistic and aesthetic image, jewelry.

**Ключевые слова:** Карабах, женщина, одежда, украшение, декоративность, дизайн, художественно-эстетический образ, ювелирные изделия.

Azərbaycan xalqı özünün çoxəsrlik tarixi ərzində ən zəngin sənətkarlıq irsini yaratmış, bu irs empirik bilik və bacarıqlar hesabına təkmilləşmişdir. Onların bir çoxu adət-ənənə şəklində nəsildən-nəslə keçərək günümüzə qədər gəlib çatmışdır. Bu sənət növləri Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi-etnoqrafik zonasında da geniş yayılmışdır. Onlar öz məmulatları, mahir sənətkarlar və onların davamçıları ilə şöhrət qazandılar. Azərbaycan əhalisinin milli geyimi dekorativ bəzəyinin zənginliyi ilə seçilirdi ki, burada müxtəlif tikmə növləri ilə yanaşı, bafta, şərid və s. formasında tamamlayıcı materiallarından, dəri və xəzdən də istifadə olunurdu.

Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafik Fondunda saxlanılan və Qarabağ bölgəsinə aid olan kürdülər əsasən tirmə parçadan hazırlanır. Qarabağda kürdünü bəzən "bədənçə" adlandırırdılar. Bu geyim növü XX əsrin 70-ci illərinə qədər Qarabağ kəndlərində istifadə olunub. Çəpkən kimi tikilən kürdünün içinə qoyun dərisindən astar tikilir, yaxasına, qoluna və ətəyinə samur xəzi çəkilirdi. Qarabağ kürdünün yanal proyeksiyası "yarmaç" adlanırdı.

Qarabağın belə zəngin təbii bazasında müxtəlif sənət növləri, o cümlədən zərgərlik yaranıb və inkişaf edib. Azərbaycan zərgərlik sənətinin ən mühüm və məşhur mərkəzlərindən biri də şöhrəti təkcə Qafqazda deyil, onun hüdudlarından kənarda da məşhur olan Şuşa şəhəri olmuşdur. Azərbaycan qadın geyimləri bədənin siluetini və formasını vurğulayan tikilmiş zinət əşyaları – dekorativ düymələr, lövhələr, qarmaqlar və s. şəklində təqdim olunan çoxlu sayda aksesuarla zənginləşdirilmişdir. Aksessuarlar Azərbaycan milli geyimində görkəmli rol oynayıb, bütün ansamblın görkəmini tamamlayır, ona tamlıq verirdi. *"Kostyum elementlərinin seçilməsində təkcə yaş və cins deyil, həm də insanın maddi və ailə vəziyyəti mühüm əhəmiyyət kəsb edirdi – və bütün bu nüanslar ətrafdakılar üçün sosial statusun göstəricisi olan geyimdə öz əksini tapırdı"* [Məlikova, Ş.Y., 2017, s. 200].

Kostyumun yaradılmasında geyim furniturası da mühüm rol oynayır. Əsasən utilitar funksiyanı yerinə yetirməklə yanaşı, bərkidici elementi olmaqla, həm də dekorativ yük – paltarların bəzədilməsi üçün bəzək funksiyasını daşıyır.

Azərbaycanın milli qadın geyimini həm fərdi geyim əşyalarının tərkib hissəsi olan, həm də qadın görkəmini formalaşdıran milli geyim dəstinə daxil olan dekorativ ornamentlər, o cümlədən metal naxışlarsız təsəvvür etmək çətindir.

Həm utilitar, həm də dekorativ məqsədlər üçün istifadə olunan metal fitinqlər həm paltarın bərkidilməsi, həm də bəzədilməsi üçün xidmət edirdi və uzunsov formalı, tuncdan tökülmüş, ortada yastılaşdırılmış bərkidicilər idi. Paltarları bərkitmək üçün böyük tunc sancaqlardan da istifadə olunurdu. Onlar həkk olunmuş ornamentlərlə bəzədilmiş kürə, disk və ya dəyirmi papaq şəklində bir başlıq ilə tamamlanırdı. Sonralar minilliyin əvvəllərində sadə sancaq müəyyən dəyişikliklərə məruz qalmışdır.

Ənənəvi zərgərlik istehsalında geyim zərgərlik məmulatları mühüm yer tuturdu. Qadın geyimlərinin bəzəkləri müxtəlif bərkidicilərdən, sancaqlardan, düymələrdən, o cümlədən yaxasını, ətəyini, üst paltarın və köynəklərin qollarını, baş örtüyü dingə üçün nəzərdə tutulmuş əşyalardan ibarət idi.

Müəyyən növ geyim bəzəklərinin yerləşdirilməsi möhtəşəm boyun xəttini vurğulayırdı və ya əksinə, geyimin daha az sərfəli elementlərini örtürdü. Köynəyin yan kəsiklərinin və ətəyinin orijinal tərtibatı bir sıra qızıl və ya gümüş sikkələrlə və ya möhürlənmiş gümüşdən "qoza yaxalıq" olan parça zolaqla təmsil olunurdu.

Geyim bəzəklərinin əksəriyyəti bağlama və bərkitmə qrupuna aid idi. Düymələr həm utilitar, həm də dekorativ məqsədlərə xidmət edirdi. Onlar yaxası bir-birinə yaxın yerləşdirilmiş qızıl və gümüş düymələrlə bəzədilmiş alt köynəklər üçün bərkidici kimi xidmət edirdilər.

Düymələr iki yolla hazırlanırdı: ştamplama üsulu və basma texnikasından istifadə etməklə. Möhürlənmiş düymələr dairəvi formada olub, naxışlı mirvarilərlə əhatə olunmuş altıguşəli ulduzla bəzədilib. Basma texnikası ilə qönçələr şəklində təqdim olunan və səthi bitki ornamenti ilə bəzədilmiş iki yarımkürədən ibarət "qoza düymə" adlı içi boş düymələr hazırlanırdı. Xüsusi diqqətə şəbəkə texnikasında hazırlanmış qızıl gül düymələr layiqdir. Döymə, çaxmapilək üsulunda da istifadə edilərək ərsəyə gətirilmiş düymələr XX əsrin əvvəlinə aid edilir və Tərtər r-n sakini qızllı Rəxçandənin istifadəsində olmuşdur. Hal-hazırda qızı Solmaz Məmmədovanın şəxsi kolleksiyasına daxildir.

XIX əsrin birinci yarısında sikkələrin zərgərlik məmulatlarına daxil edilməsi onların nüfuzlu və maddi dəyərinin artması ilə əlaqədar geniş vüsət almışdır. Müxtəlif ölçülü sikkələrin müxtəlifliyi onlardan müxtəlif kompozisiyalar yaratmağa, hərəkət edərkən yüngül cingilti səsi çıxarmağa imkan verirdi. XIX əsrin ortalarında bəzək elementi kimi metal pullara (təkcə Azərbaycanda deyil, Volqaboyu, Qafqaz və Sibir xalqları arasında da) o qədər tələbat var idi ki, Rusiya və digər Avropa ölkələrinin zavodlarında sikkələrin imitasiyaları hazırlanırdı.

Paltarın müxtəlif hissələrinə sikkələr tikilirdi. Varlı təbəqədən olan qadınların paltarlarını bəzəyən tipik bəzəklər çiyin paltarının kənarlarına və tumanın ətəyinə yapışdırılan "ətəkliklər" idi. Oxşar bəzək növü rus zərb sikkələri (əşrəfi, boqazlı imperial, çervon) ilə təmsil olunurdu [Садыхова, С.Ю., 2007, s. 44].

Tərkibinə sikkələrin daxil olduğu kostyum və bəzək hissələri müəyyən simvolik funksiyalara malik idi. Şübhəsiz ki, bu, kostyum semiotikasının ümumi qanunlarına tabedir. Sikkələrin olması sosial semantikanı ifadə edə bilər: sərvət nümayiş etdirmək (kostyum dekorasiyasında böyük gümüş sikkələrin bolluğu ilə), ailənin yüksək maddi vəziyyəti; nüfuzlu sosial qrupa mənsub olduğunu göstərmək; müəyyən bir bəzək növü ilə birlikdə müəyyən yaş və cins qrupuna (qızlar, gənc qadınlar) aid olduğunu göstərir.

Sikkə boyunbağılar müxtəlif ölkələrin qızıl və gümüş sikkələrindən hazırlandıqları üçün müxtəlif adlarla tanınırdılar. Belə boyunbağıların tərkibinə "bacaqlı", "imperial", "əşrəfi" və ya

“məcdiyə” boyunbağılar daxildir. İşlənmiş sikkələrdən olan boyunbağı həm də sikkənin zərb edildiyi ölkənin adı ilə tanınırdı.

Sikkələrin estetik əhəmiyyəti onların dekorativ kompozisiyaya daxil edilməsi yolu ilə də müəyyən edilirdi. Bu baxımdan pərəkli arpa ilə bəzədilmiş qızıl boyunbağı maraq doğurur. Döymə, çaxmapilək, cızma texniki üsulu ilə hazırlanmış boyunbağı altı ədəd pul sikkəsi ilə tərtib edilmişdir. XX əsrin əvvəlinə aid edilən boyun bəzəyi Ağdam rayonu Seyidli kənd sakini Kifayət Axundovanın şəxsi saxlancı hesab edilir. Digər bir nümunə vaxtılə Ağcabədi rayonu Qaravəlli kənd sakini Şahxanım Şikar qızı tərəfindən istifadə olmuşdur. Hazırda gəlini Həqiqət Zahidovanın şəxsi saxlancı olan 36 qram çəkisi olan qızıl boyunbağı, şüşə, şəvə ilə b əzədilmiş və döymə, çaxmapilək, cızma texnikasında işlənmişdir.

Kəmərin əsasını tamamilə örtmək üçün də sikkələrdən istifadə olunurdu. Bu halda, sikkələr kəmərin dəri halqası boyunca bir sıra möhkəm bağlanaraq qoruyucu örtük görünüşü yaradırdı. Qadınların kəmərləri arasında paylanma baxımından ən populyar olanı “sallama” – “adını toqqadan asılan uzun zəncirlərdən və hər iki cinahından onlara bərkidilmiş “ay-ulduz” şəklində medalyonlarla bağlayan” kəmərlər olub [Садыхова, С.Ю., 2009, s. 218].

Şəbəkə texnikası ilə hazırlanmış kəmər əşyaları xüsusilə dəbdəbəli idi. Belə kəmərlər iki şəkildə bəzədilmişdir: “aynalı şəbəkə” və “qabartma”. Nümunə olaraq Milli Azərbaycan Tarixi Muzeyinin, Azərbaycan Milli İncəsənət Muzeyinin və Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından muzey nümunələrini göstərmək olar. Kəmərlərin tərtibatında minadan da istifadə olunurdu. Rəngli mina təkcə toqqanı deyil, həm də kəmər bağlarını bəzəyirdi. Bu kəmərləri bəzəyən bitki motivlərinin yaradılmasında mavi, yaşıl və qırmızı minadan istifadə edilmişdir. Xüsusi diqqətə Milli Azərbaycan Tarixi Muzeyində sxlanılan (XF 345) gümüş. toqqa və kəmər bəzəkləri layiqdir. Döymə, çaxmaqəlib, oyma, qarasavad texnikaında işlənən bel bəzəkləri XX əsrin əvvəlinə aiddir. 1318 hicri tarixinə aid edilən kəmərin üzərində cızma üsulu ilə “Əməli Həbib” və “Sahibi Həbib” yazılmışdır.

Birbaşa geyimə bağlanan bəzəklərə baş, alın və məbəd bəzəkləri daxildir.

Tarixən Azərbaycanda baş ornamentlərinin çox zəngin tipoloji diapazonu yaranmışdır. Azərbaycan qadınlarının baş bəzəkləri dəsti “cığcığa” və ya “syus” adlanırdı. Sonrakı dövrlərdə onun müxtəlif növlərindən “tac” (“dinqə”, “cığqa”), daha sonra “gəfəsə”, “alınlıq”, “tetir”, “qıraqlıq”, “çutqabağı”, “gəlintac”, “təsəkqabağı” və asma baş bəzəkləri istifadə edilmişdir. Bölgəyə görə fərqlənən qadın baş geyimləri zinət əşyaları ilə bəzədilib. XX əsrin əvvəllərinə qədər “alınlıq” alın bəzəyi ənənəvi qadın baş geyimləri arasında xüsusi yer tuturdu.

Ümumilikdə qeyd etmək olar ki, Azərbaycanda zərgərlik bəzəkləri bir neçə funksiya yerinə yetirirdi:

1. utilitar funksiya daşıyan və geyimin konkret dəstinə və ya ayrı-ayrı elementlərinə uyğun gələn və eyni zamanda üst paltarı bəzəmək üçün istifadə edilən geyim bəzəkləri. Bunlar düymələr, bərkidicilər, lövhələr, həmçinin müxtəlif nominallı sikkələr (gümüş və qızıl), həmçinin baş örtüyü (dinqə) saxlamaq üçün kəmərlər və çənə altı (qarmaq) idi;

2. müstəqil bəzəklər, yəni geyim dəstinə aid olmayanlar. Onların müstəqil estetik və ilkin olaraq, yəqin ki, dini-sehrli funksiyası var idi. Bu qrupun bəzəkləri kostyuma bədii-dekorativ tamlıq (üzüklər, bilərziklər, nişan üzükləri, alın və gicgah bəzəkləri, saç bəzəkləri (hörüklər üçün), amuletlər, sırğalar, boyunbağılar və müxtəlif muncuqlar).

Müəyyən edilmiş və təhlil edilən dekorativ elementlər Azərbaycan xalqının ənənəvi qadın geyiminin bədii-estetik obrazının formalaşmasına mühüm təsir göstərmişdir. Ənənəvi geyimi

bəzəyən dekorativ elementin əhəmiyyəti həm də ondan ibarətdir ki, o, geyim sahibi haqqında təsəvvürünü formalaşdıran bir növ informasiya əlaməti idi. İnkişaf, formalaşma və təkmilləşmə prosesində dekorativ element insanın bədii-estetik obrazına təsir edən kostyumun sabit xüsusiyyətinə çevrilmişdir.

## Ədəbiyyat siyahısı:

1. Məlikova, Ş.Y. 2017, Azərbaycan Xalça Muzeyi kolleksiyasından bədii tikmələr. Bakı: Poliart MMC
2. Алиева, Н.А., 2022, Декоративная роль фурнитуры в национальном костюме Азербайджана. "Araşdırmalar". AMEA-nın Naxçıvan bölməsi İncəsənət, Dil və İncəsənət İnstitutu, 2(42), cild 16
3. Алиева, Н.А., 2018, Декоративные элементы национального женского костюма Азербайджана. "Elmi xəbərlər". Humanitar elmlər seriyası, №2
4. Кильчевская, З.А.,1952, Азербайджанский женский костюм XIX века из Карабаха. Вопросы этнографии Кавказа, Тбилиси
5. Садыхова, С.Ю., 2007, Азербайджанский костюм XIX века. Баку: Элм;
6. Садыхова, С.Ю.,2009, Ювелирное искусство Азербайджана в контексте развития многосторонних культурных взаимосвязей. Баку: Элм.

**UOT 338.48**

# QLOBAL ÇAĞIRIŞLAR FONUNDA AZƏRBAYCAN TURİZMİNİN QARŞILAŞDIĞI PROBLEMLƏR VƏ BUNA QARŞI GÖRÜLƏN TƏDBİRLƏR

Aydan Musayeva İmran oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
musayevaaydan87@gmail.com
https://orcid.org/0009-0001-2464-3356

**Abstract**

**PROBLEMS FACING AZERBAIJAN TOURISM AGAINST GLOBAL CHALLENGES AND MEASURES TAKEN TO OVERCOME THEM**

Aydan Musayeva

The article explores the nature of global challenges, their impacts, and related aspects. It then discusses the leading countries in the tourism industry today. In the context of these global challenges, the risks and problems emerging in Azerbaijan's tourism sector are emphasized. These challenges are further detailed through issues such as the negative effects of wars on Azerbaijani tourism and the measures taken against them; the negative impact of pandemics and the countermeasures; the impact of compliance risks and the solutions applied; the effects of climate change and environmental problems and the actions undertaken; the influence of global economic instability and the responses to it; the threats posed by theft, crime, and cyber risks, along with the preventive measures; and finally, the negative effects of international competition on tourism and the steps taken to address these issues.

**Аннотация**

**ПРОБЛЕМЫ, СТОЯЩИЕ ПЕРЕД АЗЕРБАЙДЖАНСКИМ ТУРИЗМОМ НА ФОНЕ ГЛОБАЛЬНЫХ ВЫЗОВОВ, И МЕРЫ, ПРИНИМАЕМЫЕ ДЛЯ ИХ ПРЕОДОЛЕНИЯ**

Айдан Мусаева

В статье исследуются глобальные вызовы, их влияние и другие связанные аспекты. Далее рассматриваются ведущие страны в сфере туризма на сегодняшний день. Затем в контексте этих глобальных вызовов акцентируется внимание на рисках и проблемах, возникающих в туристической отрасли Азербайджана. В частности, освещаются следующие вопросы: негативное влияние войн на туризм Азербайджана и принимаемые в связи с этим меры; негативное влияние пандемий на туризм и соответствующие меры; негативное влияние комплаенс-рисков на туризм и принятые меры; влияние изменения климата и экологических проблем на туризм и соответствующие меры; влияние глобальной экономической нестабильности на туризм и меры противодействия; влияние краж, преступности и киберугроз на туризм и меры безопасности; влияние конкуренции на туризм и предпринимаемые меры.

**Açar sözlər:** Azərbaycan turizmi, risk, turizm, qlobal çağırışlar, turizm strategiyaları, turizm siyasəti.

**Keywords:** Azerbaijan tourism, risk, tourism, global challenges, tourism strategy, tourism policy.

**Ключевые слова:** туризм Азербайджана, риск, туризм, глобальные вызовы, туристические стратегии, туристическая политика.

Əvvəlcə qlobal çağırışlardan bir qədər bəhs edək. Qlobal çağırışlar dünyada baş verən geniş miqyaslı problemlərdir. Bu problemlər ölkələrin bir çox strukturuna və sahəsinə təsir edər bilər. O cümlədən Azərbaycanda da son dövrlərdə bu problemlərlə tez-tez qarşılaşırıq. Problemlərin növündən, miqyasından və hansı sahələrə təsir göstərməsindən asılı olaraq həmin problemin təsirinin qalıcılığı da, aradan qaldırılması da müzakirə oluna bilər.

Qlobal çağırışların təsir göstərdiyi bu sahələrdən biri də turizm sahəsidir. Hazırda bir çox ölkə turizm sahəsini sürətlə inkişaf etdirir. Elə ölkələr var ki, orada turizm o qədər inkişaf edib ki, həmin ölkələrə turizm ölkəsi də deyirlər. Belə ölkələrə Fransanı, ABŞ-ı, İspaniyanı, Norveçi, Türkiyəni, Almaniyanı və s. misal göstərmək olar. Bu ölkələrdə xidmət sahələri, o cümlədən turizm sektoru ölkə iqtisadiyyatının böyük bir hissəsini təşkil edir.

Lakin hər sahədə olduğu kimi turizm sahəsində də çətinliklər, problemlər və risklər mövcuddur. Bunlar həm lokal, həm də qlobal olur. Biz bu məqalədə qlobal çağırışlar fonunda Azərbaycan Respublikasının turizm sektorunun üzləşdiyi problemlərə və buna qarşı görülən tədbirlərə nəzər yetirəcəyik.

Bütün dünyada, o cümlədən Azərbaycanda turizm sənayesinin inkişaf etməsinə mənfi təsir göstərən ən böyük faktorlardan biri olaraq siyasi gərginlikləri, müharibələri göstərmək olar. Heç kəs müharibə olan bir ölkəyə turist kimi getmək istəməz. Həmin bölgələr turistlər üçün təhlükəli zona kimi qəbul edilir. Bunu biz 2020-ci ildə, 44 günlük Vətən müharibəsində yaşadıq. Həmin vaxtda Azərbaycana olan turist axını demək olar ki, dayanmışdı. Hazırda gedən Rusiya-Ukrayna müharibəsi də buna misal ola bilər. Təəccüblü deyil ki, rusların hazırda Azərbaycana xeyli axını vardır.

Təbii ki, azərbaycanlı kimi Azərbaycan tərəfdən baxdıqda buna qarşı bizim ilk görəcəyimiz tədbir regionda sülhün bərqərar olunmasında yaxından iştirak etməkdir. Ümumiyyətlə bu problemin həlli ondan ibarətdir ki, bütün ölkələr əmin-amanlıq, sülh və sabitlik şəraitində yaşamağı bacarsın, sülh tərəfdarı olsun və özgə torpaqlarına göz dikməsin. Bu problemin ikinci həll yolu yoxdur.

Digər risk amili kimi pandemiyaları qeyd etmək olar. Şübhə yox ki, pandemiyalar və xəstəliklər turizmin əsas “düşmənlərindən” biridir. Bunu biz 2020-ci ildə COVİD-19 pandemiyası ilə yaşadıq. Həmin vaxtlar demək olar, dünyanın hər bir ölkəsində, o cümlədən Azərbaycanda karantin rejimi tətbiq edilmişdi, beynəlxalq uçuşlar təxirə salınmışdı, sərhədlər bağlanmışdı. Hətta həmin dövrü hər kəs “turizmin batışı” adlandırırdı.

Bu problemin həll yolu odur ki, təmizliyə riayət edilsin, insanlar gigiyena qaydalarına əməl etsinlər, tarixi keçmiş məhsullar istifadə edilməsin. Xəstəliklər olduğu zaman həkimə müraciət edilsin, xəstəliyin qarşısı vaxtında alınsın və yayılmasına imkan verilməsin. Çünki məhz burada qeyd olunanlara əməl etmədikdə epidemiyanın yaranmasına və yayılmasına, nəhayət, pandemiya səviyyəsinə çatmasına səbəb olur.

Daha sonra komplayens risklərini bu sıraya aid edə bilərik. Komplayens rikslər normalara, qanunvericiliyə, tələblərə riayət etməməklə bağlı olaraq yaranan risklərdir. Turizm sektorunda olduqca vacib olan tələblərdir. Anti-korrupsiya qaydalarına, vergi-maliyyə şəffaflığına, GDPR-yə və s. əməl olunması olduqca vacibdir. Bunlara əməl olunmadıqda xarici turizm şirkətləri və agentlikləri yerli turizm şirkətləri və agentlikləri ilə əlaqə qurmaz və bu da turist gəlişini azalda bilər.

Bu problemin həlli isə odur ki, hər bir turizm şirkəti və turizm agentliyi vaxtında komplayens risklərini aradan qaldırmağa çalışsın, komplayens tələblərinə əməl etsin, rüşvətxorluğun qarşısını alsın, təhlükəsizlik normalarını gözləsin, lisenziyalaşdırma və s. işlər beynəlxalq standarlara uyğun aparılsın.

Bu sahədə digər bir problem olaraq son illərdə daha çox müşahidə olunan iqlim dəyişikliklərini və ekoloji problemləri göstərə bilərik. Bu problem təkcə ekosistemlərə mənfi təsir göstərmir. Ölkənin bir çox sahəsi bir problemlərdən əziyyət çəkir. O sahələrdən biri də turizm sahəsidir.

Azərbaycanda dağ-xizək turizminin inkişaf etdiyi bölgələrdə qar örtüyünün olduğu mövsümlərin müddətinin qısalması bura gələn turistlərin sayını xeyli azaldır. Buna səbəb olan əsas amillərə isə məhz iqlim dəyişikliyi ilə bağlı olaraq yağıntıların miqdarında azalmanı, hava temperaturunun yüksəlməsini, qar örtüyünün azalmasını və s. misal göstərmək olar.

Daha sonra çimərliklərin çirkləndirilməsi dənizdə çimməyə, çimərlik turizminin inkişaf etdirilməsinə mane olur.

Turizm sektoruna mənfi təsir edən, inkişafını zəiflədən faktorlardan biri də meşə yanğınlarıdır. Bu problemin həll yolu isə odur ki, əvvəlcə ətraf mühitin çirklənməsinin qarşısı alınsın. Çünki yanğınların baş verməsinin, havanın çirklənməsinin əsas səbəblərindən biri də məhz budur. Dövlətimiz də öz növbəsində bunun üçün qanun layihəsi hazırlayıb və müəyyən cərimələr tətbiq edir. Ümumiyyətlə bu problemlə mübarizə aparmaq vətəndaş olaraq hər birimizin ən vacib vəzifələrindən biridir.

Ümumiyyətlə, son illərdə Azərbaycan təmiz, sağlam, dayanıqlı mühit üçün bir çox tədbirlər həyata keçirir. Bunlara “Yaşıl enerji”ni, “Yaşıl şəhər” və s. kimi layihələri nümunə göstərə bilərik. 2024-cü ilin noyabr ayında BMT-nin İqlim Dəyişmələri Konfransının (COP29) Azərbaycanın paytaxtı Bakı şəhərində təşkil təşkil olunması və vacib qərarların alınması da ölkəmizin və ölkəmizin prezidenti İlham Əliyevin bu məsələni diqqət mərkəzində saxladığının bariz nümunəsidir. COP29 konfransının Bakı şəhərində keçirilməsi həmçinin xeyli sayda xarici turistin ölkəmizə gəlməsinə, paytaxtımızla daha yaxından tanış olmasına səbəb oldu.

Digər bir problem kimi qlobal iqtisadi qeyri-sabitliyi misal göstərmək olar. Təbii ki, əgər bir ölkənin pulu dəyərdən düşürsə, inflyasiya yaranırsa, qiymət artımı baş verirsə, insanların turist kimi səyahətlərində problemlər yaranacaq. Bunu biz hazırda rus vətəndaşlarında da görürük. Rublun dəyərdən düşməsi rusların Azərbaycana səyahət etməsinə açıq şəkildə maneə törədir. Çünki insanlar əvvəlcə öz maliyyə vəziyyətlərini düşünürlər. Bu problemin həll yolu odur ki, qeyri-sabitlik aradan qaldırılsın, müxtəlif endirim kompaniyaları yaradılsın ki, turistləri daha da cəlb etsin.

Azərbaycan hökuməti də bu istiqamətdə bir sıra addımlar atır. Lakin düşünürəm ki, bu marketinq, reklam-təşviqat işləri daha da güclü olmalıdır. Xüsusən də, hazırda Rusiya-Ukrayna müharibəsinin davam etdiyi müddətdə buna daha çox ehtiyac vardır. Əks halda turizm sektoru çətin vəziyyətdə qalacaq. Çünki otellərin, nəqliyyatın, restoranların və s. qiymətlərində artımlar olacaq.

Digər bir risk kimi biz müxtəlif təhlükələri göstərə bilərik. Buraya oğurluğu, cinayətləri və hətta kibertəhlükələri də daxil etmək olar. Bu problemlər də Azərbaycan turizminin qarşılaşdığı ciddi problemlərdəndir. Şübhəsiz, heç kəs təhlükəli bir əraziyə, bölgəyə turist olaraq səyahət etmək istəməz. Əgər bir ölkədə cinayətlər, oğurluq və s. çoxdursa, insanlar həmin ölkəyə turist kimi getməz. Amma təəccüblüdür ki, bəzən də insanlar cinayətlərin, oğurluğun olduğu ölkələrə səyahət edirlər. Bunun səbəbi isə maraqdır. İnsanlara maraqlıdır ki, belə hallar necə baş verir?

Həmçinin, kibertəhlükələri də buraya aid etmək olar. Son illərdə kibertəhlükəsizlik məsələsi olduqca aktualdır. Nəzərə alsaq ki, hazırda turizm sahəsinin 90% işini texnologiyalar edir, bu zaman bu problem daha da önə çıxır. Bron etmə, biletlərin alınması və s. kimi bir çox proses texnologiyalar vasitəsilə həyata keçirilir. Beləliklə, dələduzluq halları şaxələnməyə başlayır. Buraya ən birinci şəxsi məlumatların oğurlanmasını aid edə bilərik ki, bu da çox həssas bir məqamdır. Çünki şəxsi məlumatlardan sonradan həmin şəxslər şantaj və müxtəlif vasitələr üçün istifadə edə bilirlər.

İkinci böyük kibertəhlükə kimi onlayn ödəmə sistemlərinə haker hücumlarını göstərə bilərik. Bu zaman hakerlər tərəfindən turistlərin etdiyi ödənişin ünvanını dəyişərək öz şəxsi hesab kartına yönləndirmə və s. kimi hallar yarana bilir. Bu cür bir çox kibertəhlükəni misal göstərmək olar.

Belə hallardan qorunmaq üçün Azərbaycan hökuməti bir çox tədbirlərə əl atır. Azərbaycan hazırda təhlükəsiz ölkələr sırasındadır. Burada polis və digər mühafizə orqanlarının güclü işləməsi nəticəsində oğurluqlar, cinayətlər ildən ilə azalmaqdadır.

Azərbaycan kibertəhlükəsizlik sahəsində də bir çox tədbirlər həyata keçirir. Bu tədbirlərdən ən başlıcası Daxili İşlər Nazirliyinin mütəmadi olaraq əhalini maarifləndirmə işləri aparmasıdır. Çünki belə halların baş verməsinin ən başlıca səbəbi məlumatsızlıqdır.

Digər və son problem kimi biz rəqabəti göstərə bilərik. Rəqabət bir çox sahədə mövcuddur. Eləcə də turizm sahəsində. Məqalənin əvvəlində qeyd etdiyim kimi bəzi ölkələr artıq turizm ölkələri kimi tanınırlar. Bu da o deməkdir ki, turistlərin ən çox səyahət etdiyi yerlər həmin regionlar və həmin ölkələrdir. Turizm sahəsində belə rəqiblərin olması Azərbaycan turizmi üçün böyük risk doğurur.

Azərbaycan da bu mənada bir çox işlər görməyə başlayıb. Mən deyərdim ki, Azərbaycan bu işləri son 15 ildə etməyə başladı. Bunlardan ən başlıcası reklamdır. Bu cür reklamlardan biri də “Land of Fire” tanıtımıdır.

Müasir dövrdə bu konsept Azərbaycanın turizm sloqanı kimi işlənir. İspaniya futbol klubu Atletiko Madrid, İngiltərə futbol klubu Şeffild Uensdey və Fransa futbol klubu Lans, oyunlara üzərinə “Land of Fire Azerbaijan” (Odlar Yurdu Azərbaycan) sözləri yazılmış formada çıxır [3].

2012-ci ildə Bakı şəhərində keçirilən 2012 Avroviziya Mahnı Müsabiqəsi də “Öz məşəlini alovlandır” (ing. Light your fire!) şüarı altında keçirilib [3].

Bundan başqa Azərbaycanda turizm xidmətləri artırılır, eko-turizm, aqro-turizm, dağ turizmi və s. turizm istiqamətləri yaradılıb və yaradılır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, “COP-un (Tərəflər Konfransı) tarixi”.

2. Nurizadə. Ə., 2024, “E-kommersiyanın turizm sahəsində komplayens riskləri”.

3. https://az.wikipedia.org/wiki/Odlar_Yurdu_(konsept)

4. https://businessinsider.az/az/news/id-55207

5. Turizm sektoru rəsmən batır: “Bu vəziyyət aprel-may aylarında da davam edərsə...” https://iqtisadiyyat.az/az/post/turizm-sektoru-resmen-batir-bu-veziyyet-aprel-may-aylarinda-da-davam-ederse-17288

6. Azərbaycan turistlər üçün “artan risk” ölkələri qrupunda – Qərbin növbəti QƏRƏZİ. https://musavat.com/news/azerbaycan-turistler-ucun-artan-risk-olkeleri-qrupunda-qerbin-novbeti-qerezi_1036241.html

7. Azərbaycan turizmdə rekordu yeniləyə bilmir – Səbəb. https://sfera.az/read/284583/test

8. Florian Zenqstşmid: “Aqroturizmin inkişafı üçün Azərbaycan unikal və geniş potensiala malikdir”. https://tourism.gov.az/news/florian-zenqstshmid-aqroturizmin-inkishafi-uchun-azerbaycan-unikal-ve-genish-potensiala-malikdir

9.Turizm xidmətləri sahəsində əsas problemlər. https://www.anl.az/down/meqale/xalqcebhesi/xalqcebhesi_mart2009/71424.htm

10. Turizm sektörü bu riskleri görüyor mu? https://www.turizmaktuel.com/haber/turizm-sektoru-bu-riskleri-goruyor-mu

**UOT 7.071.2**

# 1907-1908-Cİ İLLƏRDƏ BAKIDA İMPERATOR BALETİNİN ÇIXIŞI VƏ AYSEDORA DUNKANIN QASTROLU İLƏ BAĞLI YAZILAN RESENZİYALAR HAQQINDA

Aysel Məmmədova Etibar qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
Aylesmemmedov17@gmail.com

**Xülasə**

Məruzədə İmperator baletinin qastrolları, məhşur Amerika rəqqasəsi Aysedora Dunkanın Bakıdakı səfərindən danışılır. “Kaspi” qəzetində yer alan O.İ.Preobrajenskayanın və A. Dunkanın çıxlşları, tamaşaçıların onlara  münasibəti haqqındakı məqalələr şərh olunur.

**Abstract**

**REVIEWS WRITTEN ABOUT THE IMPERIAL BALLET’S PERFORMANCE IN BAKU IN 1907-1908 AND ISADORA DUNCAN’S TOUR**

Aysel Mammadova

In given thesis the tours of the Imperial Ballet and the visit of the famous American dancer Isadora Duncan to Baku are discussed. The articles published in the *Kaspi* newspaper about the performances of O.I. Preobrazhenskaya and A. Duncan, as well as the audience’s reactions to them, are analyzed.

**Açar sözlər:** Aysedora Dunkan, qastrol, balet, resenziya, Bakı.
**Keywords:** Isadora Duncan, tour, ballet, review, Baku.
**Ключевые слова:** Айседора Дункан, гастроли, балет, обзор, Баку.

1901-1911-ci illərdə Azərbaycan musiqi tənqidinin inkişaf təmayullərini tədqiq edərkən Bakıya qastrola gələn kollektivlərin çox zəngin çıxışlarının olması faktı aşkar olunur. Mətbutda nəşr olunan məqalələrə əsasən qeyd etmək lazımdır ki, operalar və simfonik konsertlərlə müqayisədə balet və rəqs nömrələri ilə tanışlıq “Kaspi” qəzetində nəşr olunan 1907-1908-ci illərə aid bir neçə resenziya ilə məhdudlaşır. “İmperator baletinin qastrolları” (14 may, 1907) adlı məqalədə bu rus baletinin bütün dünyada tanınması, Peterburq Marinsk teatrının Avropada çox üstün olması, prima-balerina O.İ.Preobrajenskayanın və gənc ulduz, istedadlı Kyakştın Tağıyev teatrında Delibin məşhur “Koppeliya” baleti ilə çıxış edəcəkləri haqqında məlumat verilir. Bakılıların baleti sevdiyi və Preobrajenskayanın ilk dəfə Rusiyanın cənubuna qastrol səfəri etməyə razılaşdığı üçün minnətdar olmaları bildirilir, çünki o adətən yay aylarında London, Paris, Nitsdə çıxış etməyə üstünlük verdiyi haqqında məlumat da yer alır. Dəvət olunan konsertmeyster İ.Çeprıqinin dirijorluğu ilə ilk qastrollarda “Kopelliya”dan başqa S.Puninin musiqisinə “Səyahət edən rəqqasə” və sonda “Yatmış gözəl”, “Qızıl balıq”, “Kiçik donqarlı at”, “Sonalar gölü” baletlərindən ən yaxşı nömrələrin daxil olduğu balet divertismentinin tamaşaya qoyulacağı yazılır. 16 may tarixli “İmperator baleti” adlı məqalədə Marinsk teatrında onlarla baletə baxan, xoreoqrafik poemanın təqdimatı üçün zəngin

şəraitin və işıq effektlərinin tamamilə vacib olduğunu hesab edən "Bal" imzalı müəllif – Tağıyev teatrındakı hər 3 tamaşada zalın dolu olmasını, Terpsixoranın muzasının və onun rəfiqələrinin təzimə haqqı olduğunu vurğulayır. Xüsusilə "Sonalar gölü"nün 2-ci şəklinin bakılıların çox xoşuna gəlməsi və Tağıyev teatrı çox kiçik olduğu üçün truppanin impressariosunun doğru qərarı kimi baletin növbəti sonuncu tamaşası üçün Nikitin qardaşları sirk-teatrının icarəyə götürdüyü qeyd olunur.

"Kaspi" qəzetinin 3 və 7 may 1908-ci il nömrələrində "yalınayaq" Aysedora Dunkanın Bakıya edəcəyi iki qastrol səfəri haqqında məlumat verilir. Dünyada məşhur olan Amerika rəqqasəsi A.Dunkanın (1877-1927) İmperator teatrının Böyük simfonik orkestrinin kapelmeysteri M.Kelerin dirijorluğu ilə Sankt-Peterburqda, Moskvada və əyalətlərdə hay-küyə səbəb olan uğurları haqqında yazılır. Dunkanın Bakıda qastrol səfərinin 16 və 19 mayda Nikitin qardaşları sirkində keçiriləcəyi, I gecədə "İfigeniya Avliddə", II – də isə "Dansez İdillues"in təqdim olunacağı xəbər verilir. I və II qastrollarının uğurları "Ev" imzası ilə nəşr olunan müəllifin "Aysedora Dunkan" (18 may) adlı yazısında verilir. Rəqqasənin çıxışında orta səviyyənin olmaması vurğulanır və bu da reklamla və Peterburq şərhçisinin "çılğın zövq" kimi xarakterizə etdiyi rəylə əlaqələndirilir ki, bəzən son dərəcə həvəsli tamaşaçılar çılğınlıqla ödədikləri pula təəssüflənmiş olurlar. Tiflisdə də onun çıxışlarının çılğınlıqla qarşılanması haqqında yazılır, daha praktik bakılılar isə baxaraq A.Dunkanın ayaqlarının böyük olması və fırlanma sisteminin yaxşı olması qərarını verirlər. Dunkanın "yeni incəsənət"inə öz münasibətini bildirən müəllif, rəqqasənin plastikasının "təbiiliyi"nin baletin, xüsusilə klassik rəqsin ciddi qayda-qanunlarına qarşı durduğu üçün onun müasir "sərbəst" rəqsi haqqında tamaşaçılarda yaranan fikirlərin "parçalanma"sını, məktəbin və təlimli tamaşaçının olmaması faktını vurğulayır, əksər tamaşaçıların məzmundan xəbərsiz olduğunu tənqid edir. A.Dunkanın (21 may) II qastrolu zamanı da I – də olduğu kimi teatrın dolu olması və onun I-dən daha isti qəbul edilməsi faktı, proqramın rəngarəng olması və çıxışlar arasındakı müddət ərzində tamaşaçıların öz təəssüratları haqqında düşünməsi və anlaması ilə əlaqələndirilir. Aysedoranın bakı tamaşaçısını soyuqluqla qınamağa haqqının olmaması, səhnəyə güllərin, buketlərin uçuşu, təkrarlamaq üçün sonu görünməyən tələblər – Aysedoranın proqramdan başqa Şopenin valsını, Moşkovskinin İspan rəqsini, Şubertin "Vyana vals"ını və 1 saylı "musiqi anı"nı ifa etməli olması yazılır. Dunkan sənətinin geniş ictimaiyyət tərəfindən başa düşüldüyünü söyləmək cəsarət olardı, lakin əsas odur ki, bu hiss olunurdu. Sonda isə A.Dunkanın Bakıya daha bir qastrolunun olacağı ilə bağlı şaiyələrin doğru olacağı təqdirdə, yəni həyata keçərsə gözəl olacağı vurğulanır.

**Ədəbiyyat siyahısı:**

1. Асейдора Дункан. Дом. «Каспий», 1908, 18 мая
2. Асейдора Дункан. «Каспий», 1908, 21 мая
3. Гастроли Дункан. «Каспий», 1908, 3-7 мая
4. Гастроли императорского балета. «Каспий», 1907, 14 мая
5. Императорский балет. Бал. «Каспий», 1908, 16 мая

**UOT 930.25**

# AZƏRBAYCANDA ARXİV İRSİNİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Azadə Nəzirova Kamil qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
azadenezirova26@gmail.com

**Xülasə**

Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki böyük xidmətləri olmuşdur. Dövlət idarəçiliyinin başlıca istiqamətlərindən biri xalqımızın tarixi yaddaşında özündə əks etdirən arxivlərin yenidən qurulması idi. XX yüzillikdə arxiv işinin mühafizəsi üçün əsas tədbirlərdən biri də Azərbaycanın tarixi keçmişinə məxsus sənədlərin toplanması və arxiv fondlarında sistemləşdirilməsi olmuşdu. Məqalədə XX yüzilliyin birinci rübündən başlayaraq Azərbaycan SSR və müstəqil Respublika dövrlərinə məxsus mənbələr əsasında Azərbaycanda arxiv işinin inkişafında Heydər Əliyevin çoxşaxəli fəaliyyyətinin istiqamətlərini qeyd edəcəyik. Sovet ideologiyadının hökm sürdüyü təxminən 70 il müddətində ölkəmizdə kommunizm ənənələrinə baxmayaraq milli arxiv irsinin qorunması ittifaq respublikaları içərisində Azərbaycan üçün də olduqca mühüm vəzifə olmuşdu.

**Abstract**

**THE ROLE OF HEYDAR ALIYEV IN THE PRESERVATION OF ARCHIVAL HERITAGE IN AZERBAIJAN**

**Azade Nazirova**

The national leader Heydar Aliyev had great services in the field of state building. One of the main directions of state administration was the reconstruction of archives that reflect the historical memory of our people. One of the main measures for the preservation of archival work in the 20th century was the collection of documents belonging to the historical past of Azerbaijan and their systematization in archival funds. In the article, we will note the directions of Heydar Aliyev's multifaceted activity in the development of archival work in Azerbaijan, starting from the first quarter of the 20th century, based on sources belonging to the periods of the Azerbaijan SSR and the independent Republic. During the approximately 70 years when Soviet ideology prevailed in our country, despite the traditions of communism, the preservation of the national archival heritage was a very important task for Azerbaijan among the union republics.

**Аннотация**

**РОЛЬ ГЕЙДАРА АЛИЕВА В СОХРАНЕНИИ АРХИВНОГО НАСЛЕДИЯ В АЗЕРБАЙДЖАНЕ**

**Азаде Назирова**

Общенациональный лидер Гейдар Алиев внес большой вклад в область государственного строительства. Одним из основных направлений государственного управления стало восстановление архивов, отражающих историческую память нашего народа. Одним из основных мероприятий по развитию архивного дела в XX веке явился сбор

документов, относящихся к историческому прошлому Азербайджана, и их систематизация в архивных фондах. В статье на основе источников, относящихся к периодам Азербайджанской ССР и независимой Республики, отметим направления многогранной деятельности Гейдара Алиева в развитии архивного дела в Азербайджане, начиная с первой четверти XX века. На протяжении примерно 70 лет советской идеологии, несмотря на традиции коммунизма в нашей стране, сохранение национального архивного наследия было для Азербайджана важнейшей задачей среди союзных республик.

**Açar sözlər:** arxiv, Heydər Əliyev, sənəd, mühafizə, dövlət, qanun.
**Keywords:** archive, Heydar Aliyev, document, protection, state, law.
**Ключевые слова:** архив, Гейдар Алиев, документ, защита, государство, закон.

Azərbaycanda arxiv işinin dövlətçilik milli-mədəni irsi əsasında təşkil olunmasında 1918-ci ildə 28 may tarixində yaradılan, müsəlman şərqində ilk demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin də çox mühüm fəaliyyətləri olmuşdu. AXC ölkəmizin tarixi keçmiş irsinə məxsus sənədlərin toplanması, sistemli şəkildə mühafizəsi və tədqiqatçılar üçün istifadəsində önəmli tədbirlər həyata keçirilmişdi. AXC-nin Xarici İşlər Nazirliyi tərəfindən 1919-cu il 59 nömrəli qərarıba əsasən "Cənubi Qafqazda türk-müsəlman əhalisinə qarşı düşmənçilik siyasəti yürüdən Sovet Rusiyasının fəaliyyətlərinə dair" arxiv sənədlərinin sistemli formada toplanması üçün xüsusi Arxiv Komissiyası yaradılmışdı. Lakin Sovet Rusiyası tərəfindən işğal olunduğu üçün cümhuriyyətin bu komissiyası fəaliyyətini dayandırmışdı. 1920-ci ildə Nəriman Nərimanovun Xüsusi İnqilab Komitəsinə rəhbərlik dövrdə 6 dekabr dekreti ilə dövlət səviyyəsində Mərkəzi Vahid dövlət Arxivinin yaradılması haqqında qərar qəbul edilmişdi. SSR Ali Sovetinin 1936-cı ildə ikinci konstitusiyası qəbul ediləndə mütəffiq respublikaların Arxiv İdarələri Xalq Daxili işlər komissarlığına verilmişdi.Ancaq bu kommisarlığın qarşısına qoyulan əsas tələbələrdə "kommunizm" ideologiyasına məxsus sənədlərin mühafizəsi təşkil edirdi [Səfərova İ.H. 2015, 125 s.]. Heydər Əliyev 1969-cu ildə Azərbaycan SSR Kommunist Partiyasın birinci katibi seçilmişdi.1969-1982-ci illərdə fəaliyyət dövrlərində Heydər Əliyevin sovet rəhbərliyinin təsirlərinə baxmayaraq ölkəmizdə xalqın tarixi keçmişinin sübut mənbəyi olan arxiv sənədlərinin toplanması, arxivlərdə mühafizəsi və tədqiqatçılar tərəfindən araşdırılması üçün proqramlar hazırlanmışdı. Onun idarəçilik dövründə ölkəmizdə altı dövlət arxivi, 48 bölgə rayon arxivi, eləcə də, Dövlət Arxivinin 15 yerli filliali fəaliyyət göstərmişdi. Rayon arxivlərində əhalinin statsitik təsvirləri,sosial-iqtisadi məzmunlu sənədlər sübut mənbələri olmuşdu. Dövlət Arxivinin yenidən qurulması üçün büdcədən vəsait ayrılmışdı. 1970-ci ildə Heydər Əliyevin qərarına əsasən Bakı Dövlət Universitetinin (o dövrdə adı Azərbaycan Dövlət Universiteti idi) tarixçi ixtisas qrupları yaradılmışdı.Bu qrupların əsasında tarixi məzmunlu dövlət əhəmiyyətli sənədlərin toplanması üçün axtarış tədqiqatçıların fəaliyyətinin istiqamətləri müəyyən edilmişdi.XX əsrin 60-70-ci illərində Azərbaycan arxivlərində mövcud olan sənədlərin əksəriyyəti Sovet Rusiyasının inzibati iddarəetmə, sosial-iqtisadi məzmunlu sənədləri olmuşdu [Rəsulov Ə. Həsənov H.2023, 6 s.].

1991-ci ildə Azərbaycan Dövlət Müstəqilliyinin bərpa edilməsindən sonra bütün sahələrdə yenidən dövlət quruculuğunum inkişaf proqramları başladıldı. Lakin baş verən siyasi proseslərə görə arxiv işinin yenidən qurilməsı bir qədər daha sonra 1999-cu ildə başlanıldı.1999-cu il 27 iyulda "Milli Arxiv Fondu" haqqında Azərbaycan Respublikasının qanunu qəbul edilmişdi. Qanun 23 müddəa, 5 fəsildən ibarət olmuşdu.Bu qanunda ölkəmizdəki arxiv fondlarının sistemli formada qruplaşdırlmasl, mühafizə, arxivlərin fəaliyyət istiqamətləri və dövlət proqramı çərçicəsində beynəlxalq əlaqələrin müddəaları qeyd olunmuşdur. Heydər Əliyevin ölkə rəhbərliyinin ikinci dövründə qəbul edilən bu

fərman Azərbaycanda arxivin inkişafının əsas prioritetlərini müəyyən etmişdi. Beynəlxalq əməkdaşlıq sahəsində bir çox dünya arxivlərində tariximizlə əlaqədar saxlanılan bir çox sənədlərin qarşılıqlı dəyişdirilməsi və sənədlərun müvəqqəti olaraq xaricə aparılması məsələləri də məhz qeyd olunmuşdu.[4].

Nəticə olaraq qeyd etməliyik ki, arxiv bir dövlətinin tarixi keçmişinin sübut mənbəyidir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlət quruculuğu sahəsində başlanılan ölkə əhəmiyyətli tədbirlər bu gün İlham Əliyev tərəfindən uğurla davam etdirilr. Bunun əsas nümunələrindən biri 2002-ci ildə " Dövlət Arxiv fondlarının təkmilləşdirilməsi"nə dair qərarlar və 2020-2025-ci illər çərçivəsində Dövlət İnkişaf Proqramının layihələrinin nəticəsi olaraq ölkədə keçirlən tədbirlər, arxivlərdə sənədlərin istifadə və mühafizəsində yeni texnoloji yeniliklərin tətbiqi üçün proqramlar hazırlanmışdı [Hüseynova İ., 2004, 140 s.].

**Ədəbiyyat siyahısı:**

*Azərbaycan dilində*

1. Əliyev H.H. (2007). "Müstəqilliyimiz əbədidir". Heydər Əliyev. Bakı, Azərnəşr, 408 s.
2. Hüseynova İ. (2004). "Müstəqil Azərbaycan Dövlətinin qurucusu". Bakı, Təhsil, s. 472
3. Mehdiyev Y. (2003). " Heydər Əliyev və azərbaycançılıq". Bakı, Nurlan, 204 s.
4. Milli Arxiv Fondu haqqında Azərbaycan Respublikasının qanunu, Bakı, 1999, 22 dekabr.
5. Rəsulov Ə, Həsənov H. (2023). "Heydər Əliyev və Azərbaycanda arxiv işi", № 79 , Bakı, s.6-7
6. Səfərova İ.H. (2015). "Arxivşünaslıq". Bakı, AMDİU, s. 163

*İnternet resursları*

7. Milli Arxiv Fondu haqqında qanun (1999). https://www.eqanun.az/framework/2095 (27 iyul 1999)
8. Milli Arxiv İdarəsi (2023) https://milliarxiv.gov.az/az/heydar-aliyev-arxiv-ishi- (04.06.2023)
9. Heydər Əliyev və Azərbaycanda arxiv işi. (2023), 525-ci qəzet. https://www.anl.az/down/meqale/525/2023/may/849306.htm (9 may 2023).

**UOT 78**

# AZƏRBAYCAN KİNOFİLMLƏRİNDƏ AŞIQ HAVALARININ TƏCƏSSÜMÜ

Amil Səlimli Qiyas oğlu
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin
Aşıq sənəti ixtisası üzrə III kurs tələbəsi
amil.salimli.g@admiu.edu.az

**Abstract**

**THE EMBODIMENT OF ASHUG MUSIC IN AZERBAIJANI FILMS**

Amil Salimli

Ashiq art is one of the oldest art forms of oral tradition of our nation. Ashiq activity has been used in various directions of art and musical culture. For example, in theatrical performances, in the works of composers, in the repertoire of singers and songsters and so on. In addition, ashiq music and the instrument “saz” melodies were often addressed in the field of Azerbaijani cinematography. Ashiq art played a significant role in enriching Azerbaijani films from an artistic point of view, increasing the power of influence on current events, revealing the inner-psychological world of images and other aspects. After six months of research, it was revealed that ashiq music was used in twenty-two different Azerbaijani films and in the article the statistical data on the form, in which this process is performed, is given.

**Аннотация**

**ВОПЛОЩЕНИЕ АШУГСКОЙ МУЗЫКИ В АЗЕРБАЙДЖАНСКИХ ФИЛЬМАХ**

Амиль Салимли

Ашугское искусство – один из древнейших видов устного традиционного искусства нашего народа. Творчество ашуга использовалось в различных направлениях искусства и музыкальной культуры. Например, в театральных постановках, в произведениях композиторов, в репертуаре певцов и певиц и т.д. Также, в азербайджанском кинематографе часто обращались к музыке ашуга, мелодиям саз. Творчество ашуга сыграло важную роль в художественном обогащении азербайджанских фильмов, увеличении влияния текущих событий, раскрытии внутренне-психологического мира персонажей и т. д. сыграли значительную роль. После исследования, проведенного в течение примерно шести месяцев, было обнаружено, что музыка ашуга используется в двадцати двух различных азербайджанских фильмах, в статье приводятся статистические данные о том, в какой форме этот процесс выполняется.

**Açar sözlər:** Azərbaycan filmləri, aşıq sənəti, aşıq musiqisi, saz melodiyaları, Azərbaycan aşıqları, “saz” alətinin hazırlanma qaydaları, şeir formaları.

**Keywords:** Azerbaijani films, Ashiq art, ashiq music, saz melodies, Azerbaijani ashiqs, rules of preparing the instrument “saz”, forms of poetry.

**Ключевые слова:** азербайджанские фильмы, ашугское искусство, ашугская музыка, мелодии саз, азербайджанские ашуги, правила настройки инструмента саз, поэтические формы.

Aşıq sənəti xalqımızın ən qədim sənətlərindən biridir. Aşıq sənəti əsrlərdir şifahi şəkildə ustaddan-ustada günümüzə qədər daşınıb gəlibdir. Zaman-zaman aşıq yaradıcılığından incəsənətin və musiqi mədəniyyətinin müxtəlif istiqamətlərində istifadə olunmuşdur. Məsələn, teatr tamaşalarında, bəstəkarların əsərlərində, müğənni və xanəndələrin repertuarında və s. Eləcə də, Azərbaycan kinematoqrafiya sahəsində aşıq musiqisinə, saz havalarına tez-tez müraciət edilmişdir. Altı ay müddətində araşdırmalar apardıq və yüzdən çox Azərbaycan filmlərinə nəzər yetirdikdən sonra ilkin olaraq aşağıdakı nəticələrə gəlmişik. Əldə etdiyimiz müəyyən məlumatlar var, lakin bu mövzu ilə bağlı axtarışlarımız davam edir. Artıq bir məqalə həcmində əlimizdə material olduğuna görə araşdırmamızı təqdim etmək qərarına gəldik.

Niyazi Bədəlovun rejissoru olduğu, 1938-ci ildə lentə alınan “Azərbaycan aşıqları” sənədli filmində öncə Aşıq Əsəd Rzayevin ifa etdiyi “Orta müxəmməs” aşıq havası başqa bir aşıq obrazı tərəfindən səsləndirilir (4, 0:30-2:20). Adətən aşıq məclislərinin sonunda ifa olunan “Orta müxəmməs” havası Orta pərdə kökündə ifa olunur və adına uyğun olaraq bu havada müxəmməs şeir şəklindən istifadə olunur. Sonra isə Aşıq Mirzə Bayramov “Göyçə gülü” aşıq havasını ifa edir (4, 5:30-6:27). Klassik aşıq havası olan “Göyçə gülü” Şah pərdə kökündə ifa edilir və qoşma şeir formasına əsaslanır. Daha sonra Aşıq Avaq və İbrahim Qaraçıoğlu “Ovşarı” aşıq havasını duet şəklində ifa edirlər (4, 6:28-8:25). Şah pərdə kökündə ifa olunan “Ovşarı” havasında qoşma şeir şəklindən istifadə edilir. Bundan sonra İbrahim Qaraçıoğlu “Misri” aşıq havasını olduqca mükəmməl formada ifa edir (4, 8:45-9:59). Onun ardınca isə Aşıq Əsəd Rzayev və Gəncə aşıqları xoru “Paşa köçdü” aşıq havasını səsləndirirlər (4, 10:00-11:10). Aşıqlarımız tərəfindən çox geniş istifadə olunan “Paşa köçdü” havası Orta pərdə kökündə ifa olunur və gəraylı şeir formasına əsaslanır. Həmçinin, bu film Azərbaycan aşıqlarının I qurultayına (1928) həsr olunduğu üçün burada bir çox tarixi ustad sənətkarlarımızı görə bilirik.

Həbib İsmayılovun rejissoru olduğu, 1958-ci ildə lentə alınan “Ögey Ana” bədii filmində “Cəlili” aşıq havası səslənir (15, 57:22-58:35). Bu hava filmin əsas qəhrəmanlarından biri olan Ayaz (Hacı Murad Yegizarov) xəstə yatağında yatarkən böyük ustad Aşıq Əkbər Cəfərov tərəfindən ifa edilir və Aşıq Əkbər Cəfərov bu hava üstündə Aşıq Nəcəf Əlimardanlının “Qadasın aldığım” rədifli şeirini oxuyur.

Bütün aşıqların geniş şəkildə istifadə elədiyi “Cəlili” havası Orta pərdə kökündə ifa olunur və qoşma şeir şəklinə əsaslanır.

Hüseyn Seyidzadənin rejissoru olduğu, 1960-ci ildə lentə alınmış “Koroğlu” bədii filminin bəstəkarı Cahangir Cahangirovdur. Cahangir Cahangirov “Misri” aşıq havasından təsirlənərək o havanın intonasiyalarına uyğun bir musiqi bəstələyibdir ki, bu musiqi “Koroğlu” bədii filminin bir neçə fraqmentlərində səslənir (13, 31:05-32:50). Filmin populyarlaşmasından sonra bir çox istedadlı aşıqlarımız həmin musiqi parçasını “Misri” aşıq havasının girişində müqəddimə kimi ifa etmiş və get-gedə bir növ ənənə halını almışdır.

Rejissoru Həbib İsmayılov olan, 1962-ci ildə lentə alınan “Böyük dayaq” bədii filmində “Mirzəcanı” aşıq havası səsləndirilir (6, 8:50-9:48). Rüstəm kişinin (Ələsgər Ələkbərov) oğlu Qaraş (Həsən Məmmədov) üçün elədiyi toy məclisində səsləndirilən bu ifa böyük ustad Aşıq Əkbər Cəfərova məxsusdur və Aşıq Əkbər Cəfərov bu hava üstündə Aşıq Ələsgərin “Öldürür” rədifli şeirini oxuyur.

Aşıqlarımız tərəfindən az istifadə edilən “Mirzəcanı” havası Şah pərdə kökündə ifa edilir və qoşma şeir formasına əsaslanır.

Şamil Mahmudbəyov və Rüfət Şabanovun rejissorları olub, 1966-cı ildə lentə aldıqları “Qaraca qız” qısametrajlı bədii filmində tütək alətində “Çoban bayatısı” ifa olunur (18, 23:23-25:10). Bu ifa Piri baba (Cabbar Əliyev) və qaraca qız, Tutu (Sevil Zeynalova) səhər yeməyi yeyəndə və ağalar üçün meyvə yığan zaman səsləndirilir. Klassik aşıq havalarından olan “Çoban bayatısı” Bayatı pərdə kökündə (eyni zamanda Orta pərdə kökündə və Şah pərdə kökündə də) ifa olunur və bu havanın oxunuşunda bayatı şeir şəklindən istifadə edilir.

Niyazi Bədəlovun rejissoru olduğu, 1967-ci ildə lentə alınan “Hanı mənim övladlarım” sənədli filmində “Ayaq şəşəngi” havası səsləndirilir (11, 21:15-22:05). Bu ifa sovxozun ənənəvi məhsul bayramı zamanı Şirvan aşıq mühitinin görkəmli nümayəndəsi Aşıq Məmmədağa Babayev tərəfindən ifa olunur və Aşıq Məmmədağa Babayev bu hava üstündə özünün müəllifi olduğu “Görmüşəm” şeirini səsləndirilir.

Şirvan aşıqları tərəfindən çox istifadə olunan “Ayaq şəşəngi” havası açıq kökdə ifa olunur və qoşma şeir formasına əsaslanır.

Rejissor Hüseyn Seyidzadənin 1969-ci ildə lentə aldığı “Dəli Kür” bədii filmində sazda çox qısa muğam parçası səsləndirilir (7, 41:17-41:26). Bu ifa Cahandar ağanın (Ələddin Abbasov) yoldaşı Mələk (Zemfira Sadıqova) tərəfindən ifa olunur.

Tofiq Tağızadənin rejissoru olduğu, 1970-ci ildə lentə alınan “Yeddi oğul istərəm” (digər adı “Komsomol poeması”) bədii filmində “Yanıq Kərəmi” aşıq havası səslənir (24, 58:35-1:00). Bu hava Gəray Bəyin (Həsənağa Turabov) əmri ilə Şəkər Bəyin oğlu Cəlalı (Ənvər Həsənov) hamının gözü qarşısında güllələtdirərkən tanınmış sənətkar Aşıq Ədalət Nəsibov (Aşıq Vəli obrazında) tərəfindən ifa edilir. Bütün aşıqların geniş şəkildə istifadə elədiyi, Baş pərdə kökündə ifa olunan “Yanıq Kərəmi” havasında qoşma şeir şəklindən istifadə edilir. “Yeddi oğul istərəm” filmindən sonra “Yanıq Kərəmi” havası daha da populyarlıq qazandı və əksər aşıqlar bu havanı Ədalət Nəsibovun dəsti xətti ilə ifa etməyə başladılar.

Rasim Ocaqovun rejissoru olub, 1975-ci ildə lentə alınmış “Tütək səsi” bədii filmində “Ruhani” aşıq havası səslənir (22, 1:02:39-1:04:18). Yaşlı bir ağsaqqal olan İsfəndiyar kişinin (Məmmədrza Şeyxzamanov) təlaşlı şəkildə qaçması zamanı səsləndirilən bu ifa, Borçalı aşıq mühitinin görkəmli nümayəndəsi və böyük ustad Aşıq Hüseyn Saraçlıya aiddir. Bəzən müəyyən mübahisələr yaransa da, ifanın Hüseyn Saraçlıya məxsus olduğu əksər tədqiqatçılar tərəfindən vurğulanmışdır. O cümlədən, müəllimim Kərimov Hafiz “Ürfani havalarının variantlarına dair” adlı məqaləsində bu məsələni ətraflı şəkildə izah etmişdir (Kərimov, H.V., 2020, s. 11-20). Ən populyar aşıq havalarından biri olan “Ruhani” havası Orta pərdə kökündə ifa olunur və qoşma şeir formasına əsaslanır.

Əbdül Mahmudov və Ənvər Əblucun rejissorları olduğu, 1975-ci ildə lentə alınan “Firəngiz” bədii filmində tütək alətində “Çoban bayatısı” ifa edilir (10, 3:00-5:05). Muradın (Rasim Balayev) qoyunlara baxış keçirməsi və mal-qaranın çöldə otlaması zamanı bu ifanın səsləndirilməsi havanın intonasiya-melodik məğzi baxımından tam yerinə düşür.

Rejissorları Məsud Pənahi və Hafiz Əkbərov olan, 1976-cı ildə lentə alınan “Dınqıl, sazım, dınqıl” (Звени, мой саз, звени) animasiya filmi “Baş müxəmməs” aşıq havasının leytmotivi ilə başlayır (orkestrin müşayiəti ilə) (25, 0:05-0:40). Sonra isə tanınmış sənətkar Aşıq Ədalət Nəsibovun ifa etdiyi “Baş müxəmməs” aşıq havası səsləndirilir (25, 4:54-5:10). “Baş muxəmməs” havası da adətən aşıq məclislərinin, dastanların sonunda ifa edilir, Baş pərdə kökünə və müxəmməs şeir formasına əsaslanır.

Rejissoru Nicat Bəkirzadə olan, 1978-ci ildə lentə alınan "Şuşa" sənədli filmində "Arazbarı" zərbi muğamı səsləndirilir (20, 2:45-3:18). Bu ifa zamanı arxa fonda Azərbaycan musiqi mədəniyyətində Şuşa şəhərinin rolu haqqında məlumat verilir. Məlum olduğu kimi "Arazbarı" zərbi muğamı xanəndə yaradıcılığına aşıq musiqisindən keçmişdir və həmçinin, dahi bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən orkestr üçün mükəmməl şəkildə işlənilmişdir. "Arazbarı" zərbi muğamına bu gün aşıqlarımız çox az müraciət edir.

Rejissor Nicat Feyzullayevin 1978-ci ildə lentə aldığı "Toy" qısametrajlı filmində "Cəlili" aşıq havası səsləndirilir. Bu hava filmin giriş hissəsində böyük ustad Aşıq Ədalət Nəsibov tərəfindən ifa olunur və Aşıq Ədalət havanı qısa müqəddimə ilə başlayır (21, 0-1:22). Bundan başqa, bu ifa Riyaziyyat müəlliminin (Hacı İsmayılov) gəlininin (Məlahət Salmanova) köhnə sevgilisi Şamilin (Kazım Abdullayev) traktor ilə toy karvanının qarşısını kəsməsi səhnəsində də səsləndirilir (21, 5:48-6:52).

Tofiq İsmayılovun rejissoru olduğu, 1979-ci ildə lentə aldığı "Mən mahnı qoşuram" (digər adı "Mən mahnı bəstələyirəm") bədii filmində tütək alətində "Çoban bayatısı" səsləndirilir (14, 1:02:15-1:04:03). Bu ifa Nadir (Elxan Cəfərov) tərəfindən Xudayar kişinin (Həsənağa Turabov) fikir çəkməsi zamanı ifa olunur.

Anar Rzayevin rejissorluğu ilə, 1981-ci ildə lentə alınmış "Üzeyir ömrü" (digər adı "Uzun ömrün akkordları") bədii filmində "Dilqəmi" aşıq havası səsləndirilir (23, 35:44-37:46). Borçalı aşıq mühütinin görkəmli nümayəndəsi Aşıq Hüseyn Saraçlı tərəfindən ifa olunan Dilqəmi havası qısa müqəddimə ilə başlayır. Aşıqlarımızın repertuarında mühüm yer tutan "Dilqəmi" havası Baş pərdə kökündə ifa olunur və qoşma şeir formasına əsaslanır. Bu filmdə eyni zamanda "Arazbarı" zərbi muğamı da səsləndirilir (23, 4:20-4:56).

Rejissorları Elxan Qasımov və Yefim Abramov olan, 1982-ci ildə lentə alınan "Qocalar, qocalar" (digər adı "Çobanbayatı") bədii filmində tanınmış bəstəkarımız Cavanşır Quliyevin saz üçün bəstələdiyi kiçik bir musiqi parçası ifa olunur (19, 39:12-39:53).

Xamis Muradovun rejissoru olduğu, 1983-ci ildə lentə alınan "Elin sazı, elin sözü" qısametrajlı sənədli filmində əvvəlcə "Qaraçı" aşıq havası ifa edilir (9, 0-0:44).

İfanın fonunda böyük ustad Aşıq Ələsgərin "Dağlar" şeirini səsləndirirlər.

Aşıqların repertuarında mühüm yer tutan "Qaraçı" havası Şah pərdə kökündə ifa edilir və bu havanın vokal partiyasında qoşma şeir formasından istifadə edilir. Borçalı aşıq mühitinin görkəmli nümayəndəsi Aşıq Əmrah Gülməmmədov ozan-aşıqlar – Dədə Qorqud, Dirili Qurbani, Xəstə Qasım, Abbas Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgərin adlarını çəkdikdən sonra digər Borçalı sənətkarı Aşıq Kamandar Əfəndiyev "Fəxri" aşıq havasında Qurbaninin "Dolana-dolana" şeirini oxuyur və ifanın fonunda Dirili Qurbani haqqında məlumat verilir (9, 1:11-2:28).

Orta pərdə kökündə ifa olunan "Fəxri" havası Aşıq Kamandar Əfəndiyev tərəfindən bəstələnib və gəraylı şeir şəklinə əsaslanır. Bundan sonra Aşıq Əmrah Gülməmmədov və Aşıq Kamandar Əfəndiyev "Baş dübeyti" havasını duet şəklində ifa edirlər (9, 2:29-3:08). Onlar böyük şairimiz Səməd Vurğunun "Dağlar" şeirini oxuyurlar.

"Baş dübeyti" havası ən populyar aşıq havalarındandır. Baş pərdə kökündə ifa edilir və havanın oxunuşunda gəraylı şeir formasından istifadə olunur. Daha sonra isə Şirvan aşıq mühitinin görkəmli nümayəndəsi, böyük ustad Aşıq Barat Əhmədoğlu Şirvan aşıq mühiti haqqında məlumat verdikdən sonra qoşanağaranın, balabanın müşayiəti ilə "Şirvan Şikəstəsi"ni səsləndirir və bu ifa zamanı ümumilikdə aşıq sənəti barədə məlumat verilir (9, 3:09-4:25). Aşıq Barat Əhmədoğlu "Şirvan

Şikəstəs”i üzərində aşıq sənətinin görkəmli nümayəndəsi olan Hüseyn Bozalqanlının “Ya dəyə” rədifli təcnisini oxuyur.

Şirvan aşıq mühitində geniş yayılmış “Şirvan Şikəstəsi” havası Baş pərdə kökündə ifa olunur və qoşma şeir formasına əsaslanır. Bütün bunlardan sonra isə tanınmış ustad sənətkarlar Aşıq Əkbər və Aşıq İmran bir el şənliyində Aşıq Ələsgərin “Gərəkdi” şeirini “Ovşarı” aşıq havası üstündə duet formada oxuyurlar (9, 4:26-6:16).

Həmçinin bu ifanın fonunda aşıq sənəti haqqında ümumi məlumat verilir. Sonda tanınmış sənətkar Aşıq Ədalət Nəsibov aşıq sənəti və özü haqqında məlumat verdikdən sonra “Orta sarıtel” aşıq havasını ifa edir (9, 6:17-8:12). Bu ifa zamanı ustad-şəyird münasibətləri haqqında məlumat səsləndirilir. “Orta sarıtel” havasının Aşıq Valeh tərəfindən yaradıldığı söylənilir. Bu hava Orta pərdə kökündə ifa olunur və gəraylı şeir formasına əsaslanır. Haqqında danışdığımız bu film Azərbaycan aşıqlarının IV qurultayına (1984) həsr olunduğu üçün burada bir çox aşıqlarımız iştirak etmişdir.

Rejissorları Ceyhun Mirzəyev və Vaqif Mustafayev olan, 1985-ci ildə lentə alınan “Bəyin oğurlanması” bədii filmində “Rza gözəlləməsi” aşıq mahnısı səslənir (5, 57:14-58:05). Həsən (Şamil Süleymanov) və Yasəmənin (Natəvan Məmmədova) toy yığıncağına hazırlıqlar görünən zaman Şirvan aşıq mühitinin görkəmli nümayəndəsi Aşıq Rza Məmmədov tərəfindən ifa olunur və Aşıq Rza Məmmədov bu mahnı üstündə özünün “Gözəldi” rədifli şeirini səsləndirir.

“Rza gözəlləməsi” mahnısı Aşıq Rza Məmmədov tərəfindən yaradılıb. Orta pərdə kökündə ifa olunan bu aşıq mahnısında qoşma şeir formasından istifadə edilir. Filmdə, həmçinin görkəmli bəstəkarımız Emin Sabitoğlunun bəstələdiyi “Toyun mübarək olsun” mahnısında saz alətinin müşayiəti var (5, 1:00:48-1:02:40).

Rejissorlar Əbdül Mahmudov və Həsənağa Turabovun 1985-ci ildə lentə aldıqları “Qanli zəmi” (digər adları “Qaçaq Nəbi”, “Atları yəhərləyin”) bədii flimində “Dərbəndi” aşıq havası sazda böyük şövqlə çalınıb-oxunur (17, 14:50-17:22). Həmçinin, çoban (uşaq aktyor) qoyun və keçilərini otara-otara “Dərbəndi” aşıq havasını (müşayiətsiz) oxuyur (17, 26:27-27:26).

Aşıqlarımızın repertuarında xüsusi yer tutan “Dərbəndi”, digər adı ilə “Qaçaq Nəbi” havası Baş pərdə kökündə ifa edilir və qoşma şeir formasına əsaslanır. Eyni zamanda bu filmdə bəstəkar Emin Sabitoğlunun bəstələdiyi musiqi aşıq musiqisinə yaxın olduğu üçün burada sazın müşayəti ön plandadır. Bu musiqi Nəbi və dəstəsinin köçü zamanı səsləndirilir.

Rejissoru Əbdül Mahmudov olan, 1989-cu ildə lentə alınmış “Doğma Sahillər” (digər adları “Doğma Sahillərdə”, “İki Sahil”) bədii filmində saz ifası səsləndirilir (8, 9:51-11:52). Fəhlələr üçün ifa edilən “Bu nə möhnət, bu nə qismət” musiqisi Dəli aşıq adlı bir aşıq tərəfindən oxunur.

Rövşən Almuradlının rejissoru olduğu, 1989-cu ildə lentə alınan “Hücum” qısa metrajlı bədii filmində də “Dərbəndi” aşıq havası səsləndirlir (12, 4:10-4:41). Bu havanı Mürsəl (Şahmar Qəribli) at belində ermənilərin hücumunu gözləyən zaman sazın müşayiəti olmadan oxuyur.

Rejissorları Həsən Əbluc və Ənvər Əbluc olan, 1991-ci ildə lentə alınan “Pəncərə” bədii filmində “Zülfüqar dübeytisi” aşıq havası oxunur (16, 6:58-7:40). Bu hava yetimlər evinə təzə gəlmiş Əhsən (İlham Babayev) tərəfindən səsləndirilir və Əhsən ənənəyə uyğun olaraq bu hava üstündə ustad Mikayıl Azaflının “Qoynunda, qoynunda” rədifli şeirini oxuyur.

Ən məşhur aşıq havalarından biri olan “Zülfüqar dübeytisi” (“Azaflı dübeyti”, “Qoca Qartal”) Baş pərdə kökündə ifa olunur və bu havada gəraylı şeir formasından istifadə edilir.

Nəticə olaraq qeyd etmək istərdik ki, nümunə göstərilən filmlərin bəziləri sırf aşıq sənətinə həsr olunduğuna görə aşıq havaları burada tam, bitkin formada özünü büruzə verir. Bəzilərində bir bənd olaraq, bəzilərində sadəcə instrumental şəkildə, bir çoxunda qısa fraqment kimi istifadə

olunmuşdur. Hansı formada istifadə edilməsindən asılı olmayaraq aşıq musiqisi Azərbaycan filmlərinin bədii baxımdan daha da zənginləşməsində, cərəyan edən hadisələrin təsiretmə gücünün artmasında, obrazların daxili-psixoloji aləminin açılmasında və s. cəhətdən mühüm əhəmiyyət kəsb edir. Bir daha vurğulayaq ki, bu mövzuda araşdırmamız yekunlaşmayıb. Nəzər yetirmədiyimiz digər filmlər üzərində də müşahidələr apararaq hazırkı yazını davam etdirmək niyyətindəyik. İndiki halda nəticələrimiz statistik xarakter daşıyır. Araşdırmamız tam başa çatdıqdan sonra bu mövzuda daha təfsilatlı və sistematik nəticələr əldə edəcəyimizə ümid edirik.

**Ədəbiyyat siyahısı:**

1. Kərimov, H.V. (2020), "Ürfani" aşıq havalarının variantlarına dair / *"Konservatoriya"* jurnalı, № 1-2(47), s. 11-20
2. Ozan-aşıq ensiklopediyası (2 cilddə). (2019). I cild. Bakı: "Gənclik", 500 s.
3. Ozan-aşıq ensiklopediyası (2 cilddə). (2020). II cild. Bakı: "Gənclik", 432 s.

*Elektron resurslar*

4. Azərbaycan aşıqları (1938) - https://www.youtube.com/watch?v=zoPr6bjUruY
5. Bəyin oğurlanması (1985) - https://www.youtube.com/watch?v=2auKCopLedM
6. Böyük dayaq (1962) - https://www.youtube.com/watch?v=M06c43Bc2-k
7. Dəli Kür (1969)- https://www.youtube.com/watch?v=yt-1zuQJ3nA&t=2487s
8. Doğma sahillər (1989) - https://www.youtube.com/watch?v=Co96ncXjO6w
9. Elin sazı, elin sözü (1983) - https://www.youtube.com/watch?v=LfiEli9U5jw
10. Firəngiz (1975) - https://www.youtube.com/watch?v=SJ4aSq5ZgO0
11. Hanı mənim övladlarım (1968) - https://www.youtube.com/watch?v=XMP_wmcqQsE
12. Hücum (1989) - https://www.youtube.com/watch?v=X6bhQB4NKj0
13. Koroğlu(1960) - https://www.youtube.com/watch?v=wuRVEu9TvrA&t=1968s
14. Mən mahnı qoşuram (1979) - https://www.youtube.com/watch?v=kZpBXp_Q4H0
15. Ögey ana (1958) - https://www.youtube.com/watch?v=Js9RX9k5VnI
16. Pəncərə (1991) - https://www.youtube.com/watch?v=wRFN5vfwcW8&t=9s
17. Qanlı zəmi (1985) - https://www.youtube.com/watch?v=MZBwLUbSL7g&t=1024s
18. Qaraca qız (1966) - https://www.youtube.com/watch?v=L5Tle5z60Ss
19. Qocalar, qocalar (1982) - https://www.youtube.com/watch?v=YRTFxJiuU-4&t=2397s
20. Şuşa (1978) - https://www.youtube.com/watch?v=GLJtIVVKFEI
21. Toy (1978) - https://www.youtube.com/watch?v=EsWkI0j5nxE
22. Tütək səsi (1975) - https://www.youtube.com/watch?v=bPjf942ZYmc
23. Üzeyir ömrü (1981) - https://www.youtube.com/watch?v=Iw-YsQQ3RRA
24. Yeddi oğul istərəm (1970) - https://www.youtube.com/watch?v=NI9D6hvuOGE
25. Звени, мой саз, звени | Dınqıl sazım, dınqıl (1976) https://www.youtube.com/watch?v=OxF25j2QPcA

**UOT 658**

## AZƏRBAYCAN MÜASİR TEATRINDA İDARƏETMƏ METODLARI

Əli Mehdixanov Xanlar oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
ali.mehdixanov@bk.ru

**Xülasə**

Teatr cəmiyyətdə mühüm rol oynayaraq, düşüncələri və incəsənət əsərlərini səhnə vasitəsilə insanlara ifadə edən sənət növüdür. Teatr canlı ifa olunub, cəmiyyətin psixologiyasına təsir edmiş olur. Bu teatrın digər incəsənət əsərlərindən ən fərqli xususiyyətidir. Burada aktyor, rejissor, musiqiçi, dekorator və s. kimi şəxslərin birgə əməyi nəticəsində meydana çıxır. Azərbaycan teatrın idarəedilməsində milli mövzuların qorunub saxlanılması üçün dövlətin dəsdəyi mühüm rol oynayır. Təbiki, bu sahədə yalnız yaradıcılıq kifayət deyil, maliyyə resursları, təşkilatçılıq, dövlətin dəstəyidə olmalıdır. Müasir alətlər teatrın təqdimat imkanlarını formalaşdırır və müasir idarəetmə metodlarını dahada artırmış olur.

**Abstract**

**METHODS OF MANAGEMENT IN MODERN AZERBAIJAN THEATER**

Theater is an art form that plays an important role in society, expressing thoughts and works of art to people through the stage. Theater is performed live and affects the psychology of society. This is the most distinctive feature of theater from other works of art. Here it appears as a result of the joint work of actors, directors, musicians, decorators, etc. In the management of Azerbaijani theater, state support plays an important role in preserving national themes. Naturally, creativity alone is not enough in this area, financial resources, organization, and state support must be provided. Modern tools shape the presentation capabilities of the theater and further enhance modern management methods.

**Аннотация**

**МЕТОДЫ УПРАВЛЕНИЯ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ТЕАТРЕ**

Театр – это вид искусства, который играет важную роль в обществе и выражает людям мысли и произведения искусства посредством сцены. Театр исполняется вживую и влияет на психологию общества. Это самая отличительная черта театра от других произведений искусства. Здесь актеры, режиссеры, музыканты, декораторы и т. д. Он возникает в результате совместной работы таких личностей. Государственная поддержка играет важную роль в управлении азербайджанским театром для сохранения и сбережения национальной тематики. Разумеется, в этой области одного лишь творчества недостаточно; также необходимы финансовые ресурсы, организация и государственная поддержка. Современные инструменты формируют презентационные возможности театра и еще больше совершенствуют современные методы управления.

**Açar sözlər:** Azərbaycan teatrı, idareetmə metodları,müasir, dövlət teatrı, özəl teatr.

**Keywords:** Azerbaijani theater, management methods, modern, state theater, private theater.

**Ключевые слова:** Азербайджанский театр, методы управления, модерн, государственный театр, частный театр.

Azərbaycanda teatr sənətinin kökləri qədimdən gəlir M.F.Axundovun 1873-cü ildə səhnədə gösdərilən “Lənkəran xanın vəziri” və “Hacı Qara” tamaşalarından başlanır. Artıq 70-80 illərdə Azərbaycanın bəzi yerlərində fəaliyyət gösdərən teatrşünaslar bakıdakı teatr xadimləri ətrafında toplaşmağa başlayır. Bunun əsasında 80-ci illərin sonları teatr canlanmış olur. Teatr sənəti formalaşmaqa başlayır. XIX əsrin sonlarından günümüzə qədər teatr sənəti milli adət və ənənələrimizi qoruyaraq gəlib çıxmışdır. Rəqəmsallaşma və texnologiyanın inkişafı teatr fəaliyyətində yeni əsaslı yanaşmalara gətirib çıxarır. Idarəetmə metodu son illər ərzində daha da aktuallaşır ənənəvi metodlar müasir əsaslı yanaşmalarla əvəz olunur.

Əvvəlki dövrdə teatrın idarə olunması mərkəzi bir sistemə tabe idi. Dövlət büdcəsindən maliyyələşirdi. Teatrın yaradıcı heyətləri Sovet dövründəki mərkəzi orqanlar tərəfindən təyin olunurdu. Burada teatr sahəsindəki olan sərbəstlik məhdud vəziyyətdə idi. Azərbaycan müstəqillik əldə etdikdən sonra teatr sahəsindədə dəyişiklik oldu. Teatrın idarəetmə metodunda bir-sıra dəyişikliklər oldu. Artıq dövlət teatrları ilə yanaşı özəl teatrlarda meydana gəldi. Lakin yeni dövrə keçid olduğundan resursların azlıqı, maliyyənin stabil olmamağı, idarəetmə sahəsində mənfi nəticələrə gətirib çıxardı. Lakin son illər ərzində dövlətimizin mədəniyyət sahəsinə gösdərilən diqqət teatr idarəetməsində yeni yanaşmalara və metodlara keçid olundu. Müşahidə edirik ki, Azərbaycan teatrın idarəetmə metodları fərqli dövrlərdən keçib gəlmişdir.

Azərbaycan teatrında formalaşan müasir idarəetmə metodları əsasən dövlət qanunları ilə formalaşır, o cümlədən respublikamızda fəaliyyət gösdərən teatrlar vardır hansı ki, bunlar dövlət teatrlarıdır. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Akademik Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və s. dövlət teatrları vardır. Bu teatrların üsdünlüyü ondan ibarətdir ki, Dövlət öz dəsdəyini gösdərir eyni zamanda bu teatrların maliyyə mövzusunda davamlılıq təmin olunur. Dövlət teatrlarında təcrübəli rejissorlar, aktyorlar işci heyəti çalışır. Azərbaycanın adət ənənəsinə məxsus səhnə əsərləri həmin bu teatrlar əsasında təqdim olunur. Dövlət teatrları ölkəmizim xalq mədəniyyətinin qorunması baxımından böyük rol oynayır. *Bunun əsasında Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu vardır Maddə 4. Teatr fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri:*

*4.0. Teatr fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:*

*4.0.1. teatrlara dövlət qayğısı;*

*4.0.2. teatrların müstəqilliyinə təminat verilməsi;*

*4.0.3. teatr şəbəkəsinin inkişaf etdirilməsi;*

*4.0.4. teatr mədəniyyətinin fərdiliyinin qorunub saxlanılması, millətlər-arası və beynəlxalq mədəni əlaqələrin inkişafına şərait yaradılması.*

Lakin Dövlət teatrı idarəetmə metodunda məhdudiyyətlərdə mövcuddur. Teatrlarda maliyyənin cəlb olunması uzun müddət vaxt apara bilər eyni zamanda dövlət teatrlarında daha çox isdifadə olunmuş əsərlərə üstünlük verilir. Bu öz növbəsində yeni müasir tamaşaların seçimini olmamağına gətirib çıxarır. Artıq tamaşaçıların cəlb olunma prosesidə çətinləşmiş olur. Bundan əlavə teatrlar arası rəqabət mühitinin olmaması teatrda kollektivin teatrın idarəedilməsini motivasiya etmir. Bu cəhətlər Azərbaycanın teatrın daha çevik idarəedilməsinə maneçilik törədir.Azərbaycan teatrının

idarəedilməsi metodları Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunularına əsasən formalaşır.

Son illərdə artıq özəl teatrlarda yaranmağa başlayıb, bu teatrlar daha yaradıcı və müştəri yönümlü fəaliyyət gösdərir. Burada idarəetmə metodu biraz daha fərqlidir. Sponsorlarla əməkdaşlıq, bilet satışından əldə olunan gəlirlər və s. hesabına formalaşmış olur. Özəl teatrlar tamaşaçı istəklərini, auditoriyanı maraqlarını nəzərdən keçirmiş olur. Müasir səhnədə isdifadə olunan texnologiyalardan, səs effektərindən istifadə olunmağa başlanılır. İlk müstəqil özəl teatr Azərbaycan Dağınıq Oda teatrıdır.

Dövlət özəl teatrlara sistemli dəsdək gösdərmir. Lakin bəzi istisna hallarda Mədəniyyət Nazirliyi ilə bəzi layihələrdə birgə olarsa dəsdəyi həyata keçirilə bilər. Gələcəkdə dövlətin bu sahədə dəsdəyi teatrın idarəetmə metoduna təsir edə bilər. Dövlət özəl teatrlara bir çox növ dəsdək verə bilər. Dövlətin mediasında özəl teatrları tanıtım edə bilər eyni zamanda dövlət tərəfindən peşekarlar cəlb oluna bilər. Özəl teatr tamaşaya qoyduqu mövzu seçimində sərbəstdir.

Azərbaycan teatrı idarəetmə metodunda maneçilik yarada biləcək vəziyyət ixtisaslı kadırların düzgün seçilməməsidir. Teatrlarda ola bilərki yaradıcı insanlar olsun amma idarəetmə sahəsində bilikləri kifayət qədər olmadıqından catışmamazlıqlar olur. Kadrlarda motivasiya zəif olduqundan, təlimlər kifayət qədər az olduğuna görə effektiv nəticə vermir. Təbiki bunun həll yoluna, bu isdiqamət üzrə təhsilin artırılması, serfikatlı teatr menecmenti kursların keçirilməsi eyni zamanda beynəxalq təlimlərin keçirilməsi lazımldır. Teatr müəsslərindəki menecerlər və gənc kadrlar xaricdəki teatr təcrübələrinidə öyrənməlidir. Öz növbəsində olaraq, ixtisaslı kadr olmadan idarəetmə metodunda effektiv inkişaf olmayacaq.

Teatrda idarəetmə heyətindən danışsaq, idarəetmə dövlətə bağlı fəaliyyət gösdərir. Rəhbər vəzifəsi teatrın direktoru tərəfindən icra olunur. Bundan əlavə direktor hər hansısa inzibati qərarlar qəbul edir. Ondan sonrakı şəxs baş rejissordur, teatrın yaradıcılıq fəalliyətinin məsuliyyətini üzərinə götürmüş şəxsdir. Bəzən bədii rəhbərdə ola bilər. Maliyyə sənəd işlərinə cavabdeh olan şəxs isə, baş mühasibdir. Digər mühüm vəzifə olan texniki direktor işiqlandırma, səsləndirmə, və s. digər texniki məsələrə baxır. İnsan resursları isə ixtisaslı kadırların toplanılmasını həyata keçirir. Özəl teatrlarda dövlət teatrlarına nisbətən fərqli olur, SMM, PR və Marketinq şöbələridə fəaliyyət gösdərə bilir.

Umumiyyətlə, Azərbaycan Republikası teatrın müasir idarəetmə metodlarına keçərkən bir-sıra çətinlikərnən üzləşdi. Əvvəlcə SSRİ respublikaları ilə sıx iqtisadi əlaqələrdə olan Azərbaycan birdən-birə həmin əlaqələri itirdiyinə görə teatrada təsirli baxışı oldu. Akademik teatrın binasının təmiri demək olar ki, altı il çəkdi. Milli peşekar teatrımızın dövrü isə Akademik milli dram teatrının təvəllüdür. İdarəetmə metotundan bəhs edsək isə, özünün dərzi, qrim, butafor, rekvizit, icraçı rəssam və qaynaqçılıq sexləri var. Aktyor truppası 6575 nəfər arası olur. Aktyorlar işə müqavilə ilə götürülər, müqavilə müddəti bir teatr mövümüdür, müqaviləni teatrın bədii rəhbəri bağlayır. Bağlanılan müqavilə isə, əsasən maaşladır. Aktyorlar dörd kateqoriyaya bölünürlər: aparıcı səhnə ustaları, birinci, ikinci və üçünçü kateqoriyalar, teatr repertuar təbiki seçməkdə sərbəstdir buna uyğun olaraq, dövlət sifarişləri olur, həmin xərci Republika Mədəniyyət Nazirliyi çəkimiş olur [R 55. İlham Rəhimli, 2005-864, s.433-434].

Dünya təcrübəsində teatrın müasir idarəetmə metoduna baxsaq, yeni formaların olduqunu görərik. CRM proqramı teatrda olan iş proseslərini və teatrın dahada effektiv işləməsini təmin edmiş olur. Rəqəmsal texnologiyalar teatr idarəetməsinin gələcəyidir. Hər hansısa beynəlxalq səviyyədə olan əməkdaşlıq teatrda idarəetmə metodunun formalaşmasında böyük oynayır. Teatrda əsas məsələlərdən biridə, insan resursların həmin peşekar heyəti teatrda təmin etmə prosesidir. Bundan

əlavə olaraq, peşəkarlıqla yanaşı dünya ölkələrində treninqlər keçirilir və teatrın inkişafı üçün praqramlar həyata keçirilir. Eyni zamanda, teatrın inkişafı üçün düzgün marketinq strategiyasının formalaşması teatr üçün daha effektiv sayılır. Müasir teatrlar maliyyə baxımından daha güclü olmaq üçün teatrın büdcəsinin formalaşmasında başqa, alternativ gəlir planı qurmuş olurlar. Ölkələrdə keçirilən teatr festivallarıda teatr üçün daha çox maraq sövq edir. Teatr müxtəlif beynəlxalq layihələrdə müntəzəm iştirak edir və müasir dramaturgiya qiraətləri təşkil edir, habelə geniş miqyaslı müzikllər yaratmaq üçün aktyorların və yaradıcı Heyətin peşekar təcrübəsini məqsədyönlü şəkildə artırır [Sadıxov Rafik, Əliyeva Yeganə 2020, 160, s. 138]. UNESCO teatr layihələrinə dəsdək verir ki, teatr daha da inkişaf etmiş olsun və əlilliyi olan şəxslər üçündə teatr şəraiti formalaşsın. Dünyəvi təcrübələr bir daha gösdərir ki, teatr müasir idarəetme metodlarında, peşekar idarəetmə daha vacib amildir.

Son zamanlarda, teatr sistemlərimiz yenilənməyə başlayır. Teatr müasir dövr tələbləri ilə, uyğunlaşır. Teatrlarımızın əksəriyyəti paytaxtımızda yerləşir. Lakin regionlarda olmaqıda teatr üçün daha məqsədə uyğundur. Mədəniyyət Nazirliyinin səyi nəticəsində, gənc kadrların xaricdə teatr tamaşaları ilə tanış olması şəraiti yaradılır. Bu da, müsbət nəticə verir. Teatr öz növbəsində cəmiyyətlə sıx əlaqədə olmalıdır ki, cəmiyyətdəki sosial problemi səhnəyə verə bilsin. Bu teatrın məsuliyyətini daha da, artırır. Müasir idarəetmə metodunda görünür ki, teatr tamaşaçılara daha dərin səhnə əsəri təqdim olunması üçün ənənəvi texnologiyalardan əlavə, müasir texnologiyalardan istifadə olunur.

**Nəticə**

Müasir dövrdə Azərbaycan teatrının idarəetmə metodunun təkmilləşməsi üçün tədbirlər görüldü. Bu sahədə ki, islahatlar nəticəsində teatrın idarəetmə sistemi daha effektiv işləməyə başlayır və maliyyə baxımından daha dayanıqlı olur. Teatrda uğurlu idarəetmə teatrın inkişafına müsbət yol açır. Müasir idarəetmə metodu teatrlar arası rəqabətin olmaqına təsir edir. Artıq teatr rəhbərlərin özüləridə ənənəvi texnologiyalardan keçid edərək müasir texnologiyalardan istifadə edir. Bu öz növbəsində, daha çox tamaşacı cəlb edir. Online bilet siteminin və digər proqramların mövcud olması teatrda idarəetməni kifayət qədər asanlaşdırır. Peşekar kadrlar üçün artıq teatr menecmenti ixtisası yenilənir, həmin kadrlar üçün şərait yaradılır. Bu kadrlar teatrda daha məhsuldar iş verə bilir. Eyni zamanda dövlət teatrları ilə yanaşı özəl teatrlarda dövlət tərəfindən dəsdəklənməlidir. Bu cür dəsdək teatrın inkişaf isdiqamətində yaxşı nəticəyə gətirib çıxara bilər. Mədəniyyət Nazirliyi tərəfindən bir çox layihələr, qrant praqramları, müzakirə platformları və s. tədbirləri görülür. Teatr müqəddəs yerdir! İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır (Əliyev, 2013). Bu gün üçün Azərbaycan teatrında formalaşan müasir idarəetmə metodu teatrın inkişafına zəmin yaradır.

**Ədəbiyyat siyahısı:**

1. Teatr və teatr fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu Bakı şəhəri, 29 dekabr 2006-cı il № 222-IIIQ.
2. R 55. İlham Rəhimli. Azərbaycan teatr tarixi. Bakı: Çaşıoğlu, 2005 - 864 s.
3. Sadıxov Rafik, Əliyeva Yeganə. Qloballaşma və müasir dünya teatrı (və ya teatr eskizləri). Dərs vəsaiti. Bakı: ADMİU, 2020, 160 s.
4. Conte D.M., Langley S. Theatre Management: Producing and Managing the Performing Arts. – 5-ci nəşr. – Hollywood: EntertainmentPro, 2007. – 496 s.

5. Kennedy H.D. Fundamentals of Arts Management. – 5-ci nəşr. – Amherst, Massachusetts: University of Massachusetts, Arts Extension Service, 2016. – 524 s.
6. Особенности национального театрального менеджмента. Опыт ТГАТ им. Г. Камала. – Kazan; Moskva: İzdavestvo GITIS, 2024. – 432 s.

**UOT 930.25**

# SEYİD ƏZİM ŞİRVANİNİN ARXİV FONDUNUN ELMİ-TƏDQİQAT İŞLƏRİNƏ İNTEQRASİYASI

Əli Məmmədli Əlisərvan
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
elii.memmedli.065@gmail.com

**Xülasə**

Bu tədqiqat işi XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Seyid Əzim Şirvaninin arxiv fondlarının elmi-tədqiqat proseslərinə inteqrasiyasını əhatə edir. Məqsəd Seyid Əzimin həyat və yaradıcılığı ilə bağlı mövcud arxiv materiallarını təhlil edərək onun ədəbi və ictimai fəaliyyətinə dair daha dərin və sistemli bilgilər əldə etməkdir. Tədqiqat zamanı arxiv sənədlərinin – məktubların, əlyazmaların, dövrün mətbu orqanlarında dərc olunmuş materialların – müasir elmi yanaşmalarla təhlili aparılmış, bu mənbələrin ədəbiyyatşünaslıq, tarix və maarifçilik sahələrindəki əhəmiyyəti göstərilmişdir. Nəticədə, Seyid Əzim Şirvaninin irsi yalnız ədəbi deyil, həm də ictimai-mədəni kontekstdə daha dolğun şəkildə təqdim olunur və müasir elmi diskursa daxil edilir.

**Abstract**

**INTEGRATION OF SEYID AZIM SHIRVANI'S ARCHIVE FUND INTO SCIENTIFIC RESEARCH WORK**

Ali Mamedli

This research work involves the integration of the archival funds of Seyid Azim Shirvani, a prominent representative of 19th-century Azerbaijani literature, into scientific research processes. The goal is to obtain deeper and more systematic knowledge about Seyid Azim's literary and social activities by analyzing the existing archival materials related to his life and work. During the research, archival documents - letters, manuscripts, materials published in the press of the time - were analyzed using modern scientific approaches, and the importance of these sources in the fields of literary criticism, history and enlightenment was shown. As a result, the legacy of Seyid Azim Shirvani is presented more fully not only in a literary, but also in a socio-cultural context and is included in the modern scientific discourse.

**Аннотация**

**ИНТЕГРАЦИЯ АРХИВНОГО ФОНДА СЕИДА АЗИМА ШИРВАНИ В НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКУЮ РАБОТУ**

Али Мамедли

В данной исследовательской работе рассматривается интеграция архивных фондов видного представителя азербайджанской литературы XIX века Сеида Азима Ширвани в научно-исследовательские процессы. Целью является получение более глубоких и систематических знаний о литературной и общественной деятельности Сеида Азима путем анализа существующих архивных материалов, связанных с его жизнью и творчеством. В ходе исследования были проанализированы архивные документы – письма, рукописи, материалы, опубликованные в прессе того времени, с использованием современных научных подходов, а также показано значение этих источников в области литературоведения, истории и

просвещения. В результате наследие Сеида Азима Ширвани представлено более полно не только в литературном, но и в социокультурном контексте и включено в современный научный дискурс.

Seyid Əzim Şirvaninin arxiv fondunun elmi-tədqiqat işlərinə inteqrasiyası onun zəngin ədəbi irsinin dərinliklərinin öyrənilməsi, mədəni və tarixi əhəmiyyətinin genişləndirilməsi və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu inteqrasiya prosesi, Şirvaninin əsərlərinin, şəxsi sənədlərinin və digər materiallarının elmi dairələr tərəfindən tədqiq olunmasını asanlaşdırmaq üçün arxivdəki materialların sistemləşdirilməsini, rəqəmsallaşdırılmasını, təsnifatını və geniş istifadəsini əhatə edir [1, s 264].

a) Arxiv materiallarının sistemləşdirilməsi;
b) Rəqəmsallaşdırma və onlayn əlçatanlıq;
c) Multidissiplinar yanaşmaların təşviqi;
d) Beynəlxalq tədqiqatçılar üçün platformaların yaradılması;
e) Tədqiqat layihələrinin təşviqi;
f) Əsərlərin mətnoloji və stilistik tədqiqatları;
g) Elmi tədbirlər və konfranslar;
h) Nəşrlərin təşkili;
i) Təhsil və tədris mühitində istifadəsi;
j) İnteraktiv elmi resurslar.

Seyid Əzim Şirvaninin arxiv fondunun elmi-tədqiqat işlərinə inteqrasiyasında arxiv materiallarının sistemləşdirilməsi mühüm addımlardan biridir və fondun tədqiqatçılar üçün əlçatanlığını, istifadəsinin asanlaşdırılmasını və məlumatların effektiv idarə edilməsini təmin edir. Sistemləşdirmə prosesi materialların təsnifatı, təsviri, kateqoriyalara ayrılması və rəqəmsal formatda təqdim edilməsini əhatə edir. Bu proses arxivdəki materialların tam mənimsənilməsini və elmi-tədqiqat fəaliyyətlərində daha məhsuldar istifadə edilməsini mümkün edir.

Sistemləşdirmə prosesi materialların inventarizasiyasından başlayır. Arxivdəki bütün sənədlər, əlyazmalar, məktublar, kitablar və digər materiallar diqqətlə yoxlanılır və siyahıya alınır. Hər bir materiala unikal identifikasiya nömrəsi təyin edilir və bu, materialların daha sonra izlənməsi və idarə olunmasını asanlaşdırır. Hər bir material haqqında əsas məlumatlar toplanır: adı, müəllifi (əgər məlumdursa), yaranma tarixi, ölçüləri, materialın növü və fiziki vəziyyəti.

Arxiv materiallarının effektiv istifadəsi üçün onların təsnifatı çox vacibdir. Bu məqsədlə materiallar müxtəlif kateqoriyalara ayrılır: [2, s. 89].

**Cədvəl 1. Arxiv materiallarının effektiv istifadəsi üçün materialların müxtəlif kateqoriyaları**

| 1 | Ədəbi əsərlər | Seyid Əzim Şirvaninin şeir divanları, qəzəlləri və digər ədəbi əsərləri. |
|---|---|---|
| 2 | Şəxsi sənədlər | Şirvaninin şəxsi məktubları, qeydləri və ailəsi ilə bağlı sənədlər. |

| | | |
|---|---|---|
| 3 | Tərcümələr və təfsirlər | Şirvaninin tərcümə etdiyi əsərlər və ya dini və elmi təfsirləri. |
| 4 | Bioqrafik məlumatlar: | Onun həyatına aid qeydlər, bioqrafik məlumatlar və başqalarının Şirvani haqqında yazdığı materiallar. |
| 5 | Arxiv qeydləri: | Tarixi mənbələr, Şirvani dövründəki ictimai və mədəni proseslər haqqında sənədlər. |

Bu təsnifat materialların mövzularına görə ayrılmasını və tədqiqatçılar üçün xüsusi maraq doğuran sənədlərin daha asan tapılmasını təmin edir.

Hər bir materialın elmi təsviri hazırlanır. Bu təsvirə materialın adı, növü, mövzusu, yaranma tarixi, fiziki vəziyyəti və digər texniki məlumatlar daxildir. Eyni zamanda, materialların məzmunu qısaca izah edilir ki, tədqiqatçılar onun elmi əhəmiyyəti haqqında ümumi təsəvvür əldə edə bilsinlər. Təsvir prosesində beynəlxalq arxiv standartlarından, məsələn, ISAD(G) (International Standard Archival Description) standartından istifadə olunur.

Sistemləşdirmə zamanı materiallar rəqəmsallaşdırılır və rəqəmsal arxivlərə yüklənir. Rəqəmsallaşdırma prosesi zamanı materialların yüksək keyfiyyətli surətləri yaradılır və fayllar xüsusi formatda saxlanılır (TIFF, JPEG və ya PDF). Rəqəmsal fayllara metadata əlavə edilir. Metadata hər bir material haqqında əlavə məlumat təqdim edir: adı, yaranma tarixi, təsviri, müəllifi, mövzusu və digər xüsusiyyətləri. Bu məlumatlar tədqiqatçılar üçün materialların axtarışını və istifadəsini asanlaşdırır [3, s. 22-25].

Tədqiqatçılar üçün materialların istifadəsini asanlaşdırmaq məqsədilə müxtəlif təqdimat formatları hazırlanır. Əsərlərin tam mətnləri, mətnlərin annotasiyaları, şəkillər və digər fayllar bir-birindən ayrı şəkildə təqdim edilir. Bu yanaşma həm materiallarla detallı işləmək istəyən tədqiqatçılar, həm də ümumi məlumat əldə etmək istəyən istifadəçilər üçün əlverişlidir.

Arxiv materiallarının sistemləşdirilməsi beynəlxalq standartlara uyğun aparılmalıdır. Məsələn, ISAD(G) və EAD (Encoded Archival Description) standartları materialların təsnifatı və təsviri üçün istifadə edilə bilər. Bu, arxivlərin qlobal tədqiqat şəbəkələrinə inteqrasiyasını asanlaşdırır və Şirvaninin irsini beynəlxalq elmi ictimaiyyətə təqdim etməyə imkan verir.

Sistemləşdirmə prosesinin effektiv idarə edilməsi üçün xüsusi arxiv idarəetmə sistemlərindən istifadə olunur. Bu sistemlər materialların təsnifatı, rəqəmsallaşdırılması və idarə edilməsi üçün müasir həllər təqdim edir. Populyar sistemlərə “ArchivesSpace”, “Preservica” və ya “AtoM” daxildir. Bu platformalar istifadəçilərə materialların asanlıqla axtarılması, təsviri və saxlanması üçün əlverişli interfeys təqdim edir [4, s. 60].

Sistemləşdirmə prosesi çərçivəsində materiallara giriş qaydaları müəyyənləşdirilir. Arxiv materiallarının fiziki və rəqəmsal versiyalarına giriş məhdudiyyətləri qoyula bilər. Məsələn, həssas və ya zəif vəziyyətdə olan materiallara yalnız xüsusi icazə ilə baxmaq mümkündür. Bu, materialların mühafizəsini təmin edir və onların uzunömürlü olmasına şərait yaradır.

Materialların təsnifatını asanlaşdırmaq üçün xüsusi axtarış mexanizmləri yaradılır. Tədqiqatçılar materialları müəllif, mövzu, yaranma tarixi və ya digər meyarlar üzrə axtarıb tapa bilərlər. Bu funksiyalar materialların istifadəsini sürətləndirir və tədqiqatçılar üçün vaxta qənaət edir.

Seyid Əzim Şirvaninin arxiv fondunun elmi-tədqiqat işlərinə inteqrasiyasında arxiv materiallarının sistemləşdirilməsi əsaslı addımdır. Bu proses materialların təsnifatı,

rəqəmsallaşdırılması, metadatalarla təmin edilməsi və elmi-tədqiqat işləri üçün əlçatanlığını əhatə edir. Sistemləşdirmə, materialların mühafizəsini təmin etməklə yanaşı, onların daha geniş elmi dairələrdə öyrənilməsi və istifadəsini mümkün edir. Bu yanaşma həm Azərbaycan, həm də beynəlxalq səviyyədə Şirvaninin irsinin tədqiqinə və tanınmasına şərait yaradır.

Seyid Əzim Şirvaninin arxiv fondunun elmi-tədqiqat işlərinə inteqrasiyasında rəqəmsallaşdırma və onlayn əlçatanlıq prosesləri xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma Şirvaninin zəngin ədəbi və tarixi irsinin qorunmasını, geniş auditoriyaya çatdırılmasını və tədqiqatçılar üçün daha əlçatan olmasını təmin edir. Rəqəmsallaşdırma və onlayn əlçatanlıq prosesləri bir neçə mərhələni əhatə edir və müasir texnologiyalar vasitəsilə materialların uzunmüddətli saxlanılması ilə yanaşı, istifadəsini də sadələşdirir [5, s 72].

Rəqəmsallaşdırma, Seyid Əzim Şirvaninin əsərlərinin, şəxsi məktublarının, əlyazmalarının və digər arxiv materiallarının fiziki zədələnməsinin qarşısını almaq, onların təhlükəsizliyini təmin etmək və tədqiqatçılar üçün daha geniş istifadəyə imkan yaratmaq məqsədini daşıyır. Rəqəmsallaşdırılmış materiallar yüksək keyfiyyətli rəqəmsal formatlarda saxlanılır, bu isə materialların istənilən yerdən və zamanda əlçatan olmasını mümkün edir.

Rəqəmsallaşdırma prosesinin mərhələləri: [6, s 91].

1. Materialların inventarizasiyası və təsnifatı;

Rəqəmsallaşdırmadan əvvəl arxivdə mövcud olan materiallar inventarlaşdırılmalı və təsnif edilməlidir. Hər bir material haqqında məlumat (adı, tarixi, fiziki vəziyyəti, məzmunu) toplanır və bu məlumatlar rəqəmsal fayllara əlavə edilir.

2. Rəqəmsal avadanlıqların seçimi;

Əlyazmaların və qədim kitabların zərifliyini nəzərə alaraq yüksək keyfiyyətli skanerlər və ya fotoqrafiya avadanlıqları istifadə olunur. Kontakt olmayan skanerlər materiallara toxunmadan yüksək keyfiyyətli rəqəmsal surətlər yaradır. Səhifələri olan materiallar üçün kitab skanerləri istifadə edilir ki, bu da materialların cırılmasının və ya zədələnməsinin qarşısını alır.

3. Faylların formatlaşdırılması və saxlanılması;

Materiallar yüksək qətnaməli formatlarda (TIFF, JPEG) skan edilir və saxlanılır. Yüngül istifadə üçün PDF kimi daha kompakt formatlar yaradılır. Faylların metadatası əlavə edilir ki, bu da materialların təsvirini, yaranma tarixini, müəllifini və digər məlumatları özündə əks etdirir.

4. Faylların ehtiyat nüsxələrinin yaradılması;

Rəqəmsal fayllar itkilərin qarşısını almaq üçün bir neçə surətdə saxlanılır. Ehtiyat nüsxələr müxtəlif serverlərdə və fiziki məlumat daşıyıcılarında qorunur. Bulud texnologiyaları bu məqsədlə geniş tətbiq olunur.

Rəqəmsallaşdırılmış materialların elmi-tədqiqat işləri üçün əlçatan olması məqsədilə xüsusi onlayn platformalar yaradılır. Bu platformalar materialların təsnif edilmiş şəkildə təqdim edilməsi, axtarışın asanlaşdırılması və istifadəçilər üçün rahat interfeysin təmin olunması ilə xarakterizə olunur.

Onlayn platformaların əsas xüsusiyyətləri: [7, s 122].

a) Axtarış mexanizmləri: Materiallar müəllif, mövzu, yaranma tarixi, janr və digər meyarlar üzrə axtarıla bilər. Bu, tədqiqatçılara lazımi məlumatları tez bir zamanda tapmağa imkan verir.

b) Tərcümələr və çoxdillilik: S.Ə. Şirvaninin əsərlərinin beynəlxalq tədqiqatçılar tərəfindən öyrənilməsi üçün onlayn platformalarda çoxdilli interfeys yaradılmalı və əsərlərin tərcümələri təqdim edilməlidir.

c) İnteraktiv məzmun: Virtual sərgilər, materiallarla bağlı interaktiv xəritələr və audiovizual məzmun əlavə edilməklə istifadəçilərin mədəni irsi daha dərindən mənimsəməsi təmin edilir.

Elmi məqalələrin inteqrasiyası: Şirvaninin əsərləri ilə bağlı elmi-tədqiqat məqalələri, təhlillər və şərhlər platformaya əlavə edilə bilər ki, bu da tədqiqat prosesini daha geniş və əhatəli edir.

Rəqəmsallaşdırma və onlayn əlçatanlıq prosesində bir sıra müasir texnologiyalardan istifadə olunur: [8, s 101-112].

1) Optik Simvol Tanıma (OCR): Şirvaninin mətni olan əsərləri OCR texnologiyası vasitəsilə rəqəmsal mətnə çevrilir. Bu, əsərlərin mətn üzrə axtarışını asanlaşdırır.

2) Bulud texnologiyaları: Materialların uzaqdan qorunması və onlayn təqdimatı üçün istifadə edilir. Bulud əsaslı saxlama həlləri materiallara təhlükəsiz və sürətli giriş təmin edir.

3) Süni intellekt: Süni intellekt texnologiyaları əsərlərin məzmununu təhlil etmək, dil üslublarını araşdırmaq və materialların avtomatik təsnifatı üçün istifadə edilə bilər.

Onlayn əlçatanlıq vasitəsilə tədqiqatçılar dünyanın istənilən yerindən Şirvaninin əsərlərinə çıxış əldə edə bilərlər. Bu, beynəlxalq tədqiqatçıların materiallardan istifadə etməsini asanlaşdırır və Şirvaninin irsinin qlobal səviyyədə öyrənilməsini mümkün edir. Rəqəmsal faylların metadatalarla təqdim olunması tədqiqatçılara materialların elmi dəyərini daha yaxşı anlamağa kömək edir.

Rəqəmsallaşdırılmış və onlayn əlçatan materiallar mədəni irsin təbliğində mühüm rol oynayır. Bu materialların sosial media kampaniyalarında, virtual sərgilərdə və təhsil proqramlarında istifadəsi Şirvaninin irsinin daha geniş kütlələrə çatdırılmasını təmin edir.

Seyid Əzim Şirvaninin arxiv fondunun rəqəmsallaşdırılması və onlayn əlçatanlığı onun elmi irsinin qorunması, öyrənilməsi və geniş ictimaiyyətə təqdim olunmasında inqilabi dəyişikliklər yaradır. Bu yanaşma yalnız materialların fiziki mühafizəsini deyil, həm də onların qlobal səviyyədə istifadəsini təmin edir. Müasir texnologiyaların tətbiqi ilə həyata keçirilən bu proses, Şirvaninin əsərlərinin gələcək nəsillərə etibarlı şəkildə ötürülməsinə və onun mədəni irsinin beynəlxalq səviyyədə tanınmasına şərait yaradır [9].

Seyid Əzim Şirvaninin arxiv fondunun elmi-tədqiqat işlərinə inteqrasiyasında multidissiplinar yanaşmaların tətbiqi, onun zəngin ədəbi irsinin və tarixi şəxsiyyətinin müxtəlif elmi sahələr tərəfindən daha dərindən araşdırılmasını təmin edir. Multidissiplinar yanaşma, müxtəlif elmi sahələrin metod və biliklərini birləşdirərək materialların müxtəlif aspektlərdən tədqiqinə şərait yaradır. Bu yanaşma Şirvaninin əsərlərinin yalnız ədəbiyyat baxımından deyil, həm də tarix, fəlsəfə, dilçilik, sosiologiya, mədəniyyətşünaslıq və digər sahələrdən təhlil edilməsini mümkün edir.

## Ədəbiyyat siyahısı:

1. Əsgər Rəsulov, Həsən Həsənov, Azərbaycan Respublikasında arxiv işi. Bakı, " Elm və təhsil ", 2019, 264 səh.
2. Flora Bəhlul qızı Kərimova "Seyid Əzim Şirvaninin ictimai-siyasi və fəlsəfi görüşləri" 2021- https://aak.gov.az/upload/dissertasion/f_ls_f_/AZ.pdf 89 s.
3. Gulmira Hajiyeva "Seyid Əzim Şirvaninin pedaqoji fəaliyyətinə bir nəzər" 2023, № 3, s. 22-25- https://www.nmi.edu.az/wp-content/uploads/2024/02/Elmi-%C9%99s%C9%99rl%C9%99r-2023-%E2%84%963-27.02.2024.pdf
4. Nazim Yarməmmədov. Seyid Əzim Şirvani arxivinin təsviri. Bakı: " Ecoprint", 2023, 60 səh.

5. Paşayev A.Ə., K.B.Ağayev Azərbaycan Respublikasının Dövlət Arxivlərinin əsas iş qaydaları. Çaşıoğlu 2012. 72 s.

6. Rəsulov Ə.,Həsənov H. İzahlı arxiv terminləri. Bakı, 2019, 91s.

7. Schellenberg, T. R. (1993). Arşiv idaresi (N. İlemin, Cev.). Ankara: Devlet Arşivleri Genel Mudurlugu. 122 s.

8. Schellenberg, T. R. (1999). Arşiv duzenleme prensipleri (A. O. İcimsoy, Cev.). Arşiv Araştırmaları Dergisi, 1, 101-112.

9. Schellenberg, T. R. Arşiv idaresi (N. İlemin, Çev.). Ankara, 1993..Devlet Arşivleri Genel Müdürlüğü.

**UOT 796**

# MƏDƏNİYYƏTİN PARÇALANMASI: DƏYƏRLƏRİN TİCARİLƏŞMƏSİ

Fuad Əliyev Faiq oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
fuad.alili1997@mail.ru

**Xülasə**

Bu məqalədə müasir dövrdə mədəniyyətin qarşılaşdığı ən ciddi problemlərdən biri olan dəyərlərin ticariləşməsi prosesi hərtərəfli təhlil edilir. Qloballaşma nəticəsində mədəni dəyərlərin kommersiya obyektinə çevrilməsi və bunun nəticəsində milli kimliyin zəifləməsi diqqət mərkəzinə çəkilir. Məqalədə həmçinin populyar mədəniyyətin, turizmin və texnologiyanın bu prosesə təsiri araşdırılır. Ənənəvi bayramlar, incəsənət formaları və milli simvolların mənəvi mahiyyətini itirməsi, onların kommersiya məqsədilə istifadə olunması nümunələrlə göstərilir. Eyni zamanda, bu təhlükəli tendensiyaya qarşı çıxmaq və mədəni irsi qorumaq üçün maarifləndirmə, dövlət siyasətləri və ictimai təşəbbüslərin rolu vurğulanır. Məqalənin məqsədi mədəniyyətin qorunmasının yalnız keçmişə deyil, həm də gələcək nəsillərə yönəlik bir məsuliyyət olduğunu göstərməkdir.

**Abstract**

**THE DISSOLUTION OF CULTURE: THE COMMERCIALIZATION OF VALUES**

Fuad Aliyev

This article presents a comprehensive analysis of one of the most pressing issues facing modern culture – the commercialization of values. It highlights how globalization transforms cultural elements into commodities, weakening national identity and distorting traditional meanings. The influence of pop culture, tourism, and modern technologies on this transformation is critically examined. Examples are provided to show how traditional holidays, art forms, and national symbols are often stripped of their original significance and repurposed for profit. The article also emphasizes the importance of awareness, state cultural policies, and civil initiatives in resisting this trend and protecting intangible cultural heritage. Ultimately, it argues that preserving culture is not merely about honoring the past, but also about shaping the future.

**Аннотация**

**РАСПАД КУЛЬТУРЫ: КОММЕРЦИАЛИЗАЦИЯ ЦЕННОСТЕЙ**

Фуад Алиев

В статье проводится всесторонний анализ одной из наиболее острых проблем современной культуры — коммерциализации ценностей. Рассматривается, как в условиях глобализации культурные элементы превращаются в товар, что приводит к ослаблению национальной идентичности и искажению традиционного смысла. Особое внимание уделяется влиянию поп-культуры, туризма и современных технологий на этот процесс. Приводятся примеры того, как традиционные праздники, формы искусства и национальные символы теряют свое духовное содержание и используются в коммерческих целях. Также подчеркивается роль просвещения, государственной культурной политики и общественных инициатив в противодействии этой тенденции и в защите нематериального культурного наследия. Основная идея статьи заключается в том, что сохранение культуры – это не только дань прошлому, но и ответственность перед будущими поколениями.

**Açar sözlər:** Mədəniyyət, ticariləşmə, qloballaşma, milli kimlik, mədəni irs, populyar mədəniyyət, turizm,texnologiya və mədəniyyət, assimilyasiya, mədəni dəyərlər.

**Keywords**: Culture, Commercialization, globalization, national identity, cultural heritage, popular culture, tourismbtechnology and culture, assimilation of cultural values.

**Ключевые слова:** Культура, коммерциализация, Глобализация, Национальная идентичность, Культурное наследие, Поп-культура, Туризм, Технологии и культура, Ассимиляция, Культурные ценности.

Mədəniyyət hər bir xalqın kimliyini, keçmişini və mənəvi zənginliyini özündə əks etdirən canlı bir mirasdır. Tarix boyu mədəniyyət insanların həyat tərzini, düşüncə formasını və dəyərlər sistemini formalaşdırmışdır. Lakin müasir dövrdə sürətlə qloballaşan dünya mədəniyyətə həm imkanlar, həm də təhlükələr təqdim edir. Bu təhlükələrin başlıcası isə mədəni dəyərlərin ticariləşdirilməsi və nəticə etibarilə mədəniyyətin parçalanmasıdır.

Mədəniyyətin ticariləşməsi dedikdə, dəyərlərin və simvolların yalnız iqtisadi mənfəət naminə istifadə olunması nəzərdə tutulur. Bu prosesdə mədəniyyət artıq mənəvi zənginlik daşıyıcısı yox, bazarda satılan bir məhsula çevrilir. Musiqidən tutmuş geyim üslubuna, milli festivallardan tutmuş qədim sənətkarlıq nümunələrinə qədər bir çox elementlər kommersiya obyektinə çevrilmişdir.

Qloballaşma fərqli xalqlar arasında ünsiyyəti və mədəni mübadiləni artırsa da, eyni zamanda kiçik xalqların unikal mədəniyyətlərinin daha güclü, qlobal mədəniyyətlər qarşısında zəifləməsinə səbəb olur. Multimilyonluq korporasiyalar, xüsusilə də pop mədəniyyət sahəsində fəaliyyət göstərən şirkətlər, yerli dəyərləri kommersiya məqsədilə ya dəyişdirir, ya da onların orijinallığını pozur [Robertson, R., 1992, səh. 22].

Mədəni dəyərlərin ticariləşməsi onları yalnız məzmunca yox, həm də funksional baxımdan dəyişdirir. Məsələn, Novruz bayramının mahiyyəti birliyin, yeniliyin və təbiətə hörmətin simvolu kimi yaranmışdı. Lakin bu gün həmin bayramın əsas diqqət mərkəzi bəzən sadəcə alış-veriş kampaniyalarına, kommersiya şoularına çevrilmişdir. Bu isə bayramın ruhunu və ilkin mənasını sönükləşdirir. [Əliyev, M., 2016, səh. 12]

Mədəni turizm bir tərəfdən ölkənin zəngin irsini tanıtmaq üçün bir fürsət olsa da, digər tərəfdən bu sahədə də bəzən ticariləşdirmə halları müşahidə olunur. Bəzi mədəni irs nümunələri yalnız turistləri cəlb etmək məqsədilə süni şəkildə dəyişdirilir və ya "turistlərə uyğun" hala gətirilir. Bu isə tarixi və mənəvi orijinallığın itirilməsinə səbəb olur. Bu gedişata qarşı çıxmağın yeganə yolu mədəni dəyərlərin mənəvi əsaslarını qorumaqdan keçir. Ənənəvi sənət növlərinin, folklorun, milli geyim və musiqinin mahiyyətini anlamaq və bu sahədə maarifləndirmə aparmaq vacibdir. Dövlət siyasətləri, təhsil proqramları və ictimai təşəbbüslər mədəniyyətin ticariləşmədən qorunmasına xidmət etməlidir.

**Nəticə**

Mədəniyyət sadəcə keçmişin yadigarı deyil, həm də gələcək üçün bir istiqamət göstəricisidir. Onun parçalanması, mahiyyətinin unudulması cəmiyyətin öz dəyərlərindən uzaqlaşması deməkdir. Dəyərlərin ticariləşdirilməsi nə qədər cazibədar görünsə də, onun gətirdiyi nəticələr uzunmüddətli mədəni itkilərə səbəb olur. Buna görə də mədəniyyətin qorunması yalnız sənətkarların və alimlərin deyil, bütövlükdə cəmiyyətin məsuliyyətidir. Nəticə etibarilə, müasir dövrdə mədəniyyətin ticariləşməsi qloballaşma və bazar iqtisadiyyatının təsiri altında daha da dərinləşməkdədir. Bu proses mədəniyyətin ruhunu, dəyərlər sistemini və mənəvi mahiyyətini təhdid edir. Mədəni dəyərlərin sırf

iqtisadi məqsədlərlə istifadəsi, onların məzmun baxımından boşalmasına və cəmiyyətin öz mədəni kimliyindən uzaqlaşmasına səbəb olur. Ənənəvi bayramların, milli simvolların, sənət formalarının kommersiya obyektinə çevrilməsi isə bu parçalanmanın açıq nümunəsidir.

Mədəniyyət yalnız keçmişin yadigarı deyil, həm də gələcəyin formalaşmasında mühüm rol oynayan bir vasitədir. Ona görə də mədəni dəyərlərin qorunması, onların doğru şəkildə gələcək nəsillərə ötürülməsi hər bir fərdin və cəmiyyətin üzərinə düşən məsuliyyətdir. Dövlət siyasətləri, təhsil sistemləri və ictimai təşəbbüslər bu istiqamətdə birgə fəaliyyət göstərməlidir.

Eyni zamanda, mədəni irsin qorunması yalnız mədəniyyət xadimlərinin və mütəxəssislərin işi kimi deyil, ümumi ictimai məsuliyyət kimi qəbul olunmalıdır. Yalnız bu şəkildə mədəniyyətin dərin mənası qoruna, onun parçalanmasının qarşısı alına və gələcək nəsillərə sağlam formada ötürülə bilər.

**Ədəbiyyat siyahısı:**

1. Əliyev, M. (2016). Qloballaşma və mədəniyyət: çağdaş dünyada milli dəyərlər sistemi. Bakı: Elm və Təhsil Nəşriyyatı.
2. Huntington, S. P. (1996). The Clash of Civilizations and the Remaking of World Order. New York: Simon & Schuster.
3. Hall, S. (1997). Representation: Cultural Representations and Signifying Practices. London: Sage Publications.
4. Robertson, R. (1992). Globalization: Social Theory and Global Culture. London: Sage Publications.
5. Quliyeva, N. (2020). Mədəniyyət və dəyər transformasiyası: Azərbaycan nümunəsində bir baxış. Bakı: Adiloğlu Nəşriyyatı.

**UOT 069**

# GƏNC NƏSLİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ HACI ZEYNALABDİN TAĞIYEVİN EV MUZEYİNİN FƏALİYYƏTİ İSTİQAMƏTLƏRİ

Fuad Rüstəmli Məşədi oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
fuadrhustamli@gmail.com

**Xülasə**

Müasir dövrdə gənc nəslin milli-mənəvi dəyərlər ruhunda formalaşması və vətənpərvərlik tərbiyəsi dövlətin ideoloji siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu baxımdan, tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinin təbliği mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın görkəmli maarifpərvər xeyriyyəçisi, sənayeçi və ictimai xadimi Hacı Zeynalabdin Tağıyev bu sahədə nümunəvi simalardan biridir. Onun zəngin irsi, Vətənə və xalqa xidmət nümunələri, xüsusilə də onun adına yaradılmış ev muzeyi vasitəsilə gənc nəslə çatdırılması vətənpərvərlik tərbiyəsinin effektiv vasitələrindən biri hesab olunur.

**Abstract**

## DIRECTIONS OF THE ACTIVITY OF THE HOUSE MUSEUM OF HAJI ZEYNALADDIN TAGIYEV IN THE PATRIOTIC EDUCATION OF THE YOUNG GENERATION

Fuad Rustamly

In the modern era, the formation of the young generation in the spirit of national and moral values and the promotion of patriotic education has become one of the main directions of the state’s ideological policy. In this context, the promotion of the life and activities of historical figures plays an important role. One of the exemplary personalities in this field is Haji Zeynalabdin Taghiyev – a prominent Azerbaijani philanthropist, industrialist, and public figure. His rich legacy and his service to the homeland and people, particularly the transmission of these values to the younger generation through the house museum named after him, are considered effective tools of patriotic education.

The H.Z. Taghiyev House Museum not only reflects his life path but also plays an important role in arousing interest in history among youth, strengthening their sense of national identity, and deepening their attachment to the homeland. This chapter will explore the museum’s specific activities in the field of patriotic education, its forms of cooperation with educational and cultural institutions, as well as interactive events and educational projects.

**Аннотация**

## НАПРАВЛЕНИЯ ДЕЯТЕЛЬНОСТИ ДОМА-МУЗЕЯ ГАДЖИ ЗЕЙНАЛАБДИНА ТАГИЕВА ПО ПАТРИОТИЧЕСКОМУ ВОСПИТАНИЮ МОЛОДОГО ПОКОЛЕНИЯ

Фуад Рустамли

В современную эпоху формирование молодого поколения в духе национальных и нравственных ценностей, а также патриотическое воспитание стали одними из основных

направлений идеологической политики государства. В этом контексте важную роль играет пропаганда жизни и деятельности исторических личностей. Одной из ярких фигур в этой сфере является Гаджи Зейналабдин Тагиев – выдающийся азербайджанский меценат, промышленник и общественный деятель. Его богатое наследие и служение Родине и народу, особенно передача этих ценностей молодому поколению через дом-музей, носят значительный воспитательный характер.

Дом-музей Г.З. Тагиева не только отражает его жизненный путь, но и играет важную роль в пробуждении интереса молодежи к истории, укреплении национального самосознания и чувства привязанности к Родине. В данной главе будут рассмотрены конкретные направления деятельности музея в области патриотического воспитания, формы сотрудничества с образовательными и культурными учреждениями, а также интерактивные мероприятия и просветительские проекты.

**Açarlar sözlər:** milli-mənəvi dəyərlər, H.Z.Tağıyev, ev muzeyi, maarifçilik fəaliyyəti.

**Keywordыı:** national and moral values, H.Z. Taghiyev, house museum, educational and enlightenment activity.

**Ключевые слова:** национально-нравственные ценности, Г.З. Тагиев, дом-музей, просветительская деятельность.

H.Z.Tağıyevin ev muzeyi yalnız onun həyat yolunu əks etdirmək məqsədi daşımır, eyni zamanda gənclərdə tarixə maraq oyatmaq, milli kimlik şüurunu möhkəmləndirmək və vətənə bağlılıq hissini gücləndirmək istiqamətində fəaliyyət göstərir. Bu fəsildə muzeyin vətənpərvərlik tərbiyəsi sahəsindəki konkret fəaliyyət istiqamətləri, təhsil və mədəniyyət müəssisələri ilə əməkdaşlıq formaları, interaktiv tədbirlər və maarifləndirici layihələr araşdırılacaqdır.

Gənc nəslin vətənpərvərlik tərbiyəsi, ölkənin gələcək inkişafı və mədəni irsinin qorunması baxımından böyük əhəmiyyət daşıyır. Hacı Zeynalabdin Tağıyevin ev muzeyi, bu məqsədlə həyata keçirdiyi müxtəlif layihələr və tədbirlərlə gənclərə vətənpərvərlik ruhunun aşılanmasına töhfə verməkdədir. Muzey, həmçinin tarixi şəxsiyyətlərin və onların müsbət təsirlərinin gənclər arasında tanıdılmasına yönəlmiş elmi və maarifləndirmə fəaliyyətləri həyata keçirir. Beləliklə, muzeyin fəaliyyət istiqamətləri, gənc nəslin milli-mənəvi dəyərlər əsasında formalaşmasına mühüm təsir göstərir.

Gənc nəslin vətənpərvərlik tərbiyəsində Hacı Zeynalabdin Tağıyevin ev muzeyinin əsas fəaliyyət istiqamətləri:

1. Tağıyevin həyat və fəaliyyətinin nümunə kimi təqdim olunması

Hacı Zeynalabdin Tağıyevin vətənə bağlılığı, xalq üçün fədakarlıqla gördüyü işlər, təhsilə, mədəniyyətə, milli dəyərlərə olan diqqəti gənclər üçün yüksək əxlaqi nümunə kimi təqdim olunur. Muzeydə keçirilən ekskursiyalar zamanı bu ideyalar vurğulanaraq gənclərə örnək göstərilir.

Maarifləndirici tədbirlərin təşkili istiqamətində muzeyin böyük işlər gördüyü göz qabağındadır. Muzeydə mütəmadi olaraq məktəblilər və tələbələr üçün vətənpərvərlik mövzusunda aşağıdakı növlərdə tədbirlər keçirilir:

- Seminarlar;
- “Açıq dərslər”;
- Ədəbi-bədii gecələr;
- Diskussiya formatlı görüşlər;

Bu tədbirlər vasitəsilə gənclər Hacı Zeynalabdin Tağıyevin vətənə və xalqa xidmət nümunəsi ilə yaxından tanış olur, tarixi dəyərləri mənimsəyirlər.

Muzeyin tərkibində 2013-cü ildə Hacı Zeynalabdin Tağıyev klubu yaradıldı,bu klub mütəmadi olaraq gənc nəslin maariflənməsi üçün tədbirlər keçirməkdə davam edir. Hacı Zeynalabdin Tağıyev klubunun 18 aprel 2013-cü ildə ilk iclası təşkil olunmuşdur. İlk iclasda şagirdlər və tələbələr iştirak etmişdi, tədbirdə tarixçi alim Fərhad Cabbarov milyonçunun həyatı və siyasi-ictimai fəaliyyəti, gənc nəsilə örnək ola biləcək işləri haqqında məlumat vermişdir. Muzeyin elmi katibi Fərhad Cabbarov dinləyiciləri muzeydə Hacı Zeynalabdin Tağıyevlə əlaqəli yerinə yetirilən elmi-tədqiqat işlərinin haqqında məlumatlandırmış,onun və digər Azərbaycanlı milyonçuların xalqın rifahı üçün etdikləri əməllərin təbliğ olunmasının əhəmiyyətini qeyd etmişdir [5].

2013-cü ildə fəaliyyətə başlayan “Hacı Zeynalabdin Tağıyev klubu” ilə yanaşı, 2017-ci ildən etibarən yeni bir təşkilat olan “Gənc muzeyşünaslar və muzeysevərlər klubu” da fəaliyyət göstərir [6].

İlk klub geniş yaş qruplarını əhatə edərkən, yeni yaradılmış klub daha spesifik bir auditoriyanı hədəf alır. Bu klub, İncəsənət Universiteti, Turizm və Menecment Universiteti və Bakı Humanitar Kollecinin tələbələrinə muzey işi sahəsində nəzəri və praktiki biliklər öyrədir. Beləliklə, təhsil müəssisələrində keçirilən nəzəriyyə dərsləri, muzeyin elmi əməkdaşları tərəfindən praktik şəkildə tətbiq edilir. Hər iki klubun maraqlı və faydalı tədbirləri nəticəsində üzvlərinin sayı əhəmiyyətli dərəcədə artmış və məktəb, universitetlərdən yeni üzvlər cəlb edilmişdir [3, s. 62].

Hacı Zeynalabdin Tağıyev, Azərbaycanın XIX-XX əsrlərdəki mühüm şəxsiyyətlərindən biri olaraq, həm iqtisadiyyat, həm də cəmiyyətin sosial inkişafı sahəsində böyük töhfələr verib. Onun həyat və fəaliyyətinin gənc nəsilə təbliği, həm Azərbaycanın milli tarixinin öyrənilməsini, həm də gənclərin vətənə, xalqa qarşı olan sevgisinin və bağlılığının gücləndirilməsini təmin edir [1, s. 165].

XX əsrin əvvəllərində Hacı Zeynalabdin Tağıyev Azərbaycan milli azadlıq hərəkatının yüksəlməsində iqtisadi yardımlar göstərmişdir.Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra Nəsib bəy Yusifbəyliyə məktub yazaraq, dövlətin iqtisadi siyasəti haqqında öz məsləhətlərini vermiş, cumhuriyyətin yaşaması üçün əlindən gələn yardımı göstərmişdir [2, s. 192].

Fərhad Cabbarov, Hacı Zeynalabdin Tağıyevin ev muzeyinin inkişafında mühüm rol oynamışdır. Onun təşəbbüsləri və idarəçiliyi nəticəsində muzey yalnız bir tarix məkanı deyil, həm də Azərbaycanda mədəniyyətin təbliği və müasir dövrün tələblərinə uyğun bir tədris və mədəniyyət mərkəzinə çevrilmişdir. Bu dövr, Hacı Zeynalabdin Tağıyevin irsinin qorunması, eləcə də Azərbaycanın mədəniyyətinin dünyada tanıdılması baxımından ən əhəmiyyətli mərhələlərdən biridir. Fərhad Cabbarovun muzeyə verdiyi töhfələr, onun yalnız mədəniyyət xadimi deyil, həm də millətinə böyük bir mədəni miras qoyan şəxs olaraq tarixdə qalmasını təmin etmişdir.

Muzeyin inkişafında əsas məqsədlərdən biri də gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə xidmət etmək olmuşdur. Nailə Vəlixanlının rəhbərliyi ilə həyata keçirilən layihələr çərçivəsində muzeydə məktəblilər və tələbələr üçün xüsusi təhsil proqramları, seminarlar və maarifləndirici ekskursiyalar təşkil olunmuşdur. Bu proqramlar vasitəsilə Hacı Zeynalabdin Tağıyevin milli oyanış, maarifçilik və mədəniyyətin inkişafı sahəsindəki xidmətləri təbliğ olunmuşdur [7].

Bundan əlavə, muzeyin fəaliyyəti çərçivəsində keçirilən elmi konfranslar, sərgilər və tədbirlər Nailə Vəlixanlının rəhbərliyi dövründə daha da intensivləşmişdir. O, muzeyin yalnız eksponat nümayiş etdirmə məkanı deyil, həm də elmi-tədqiqat və maarifləndirmə mərkəzinə çevrilməsi üçün

səy göstərmişdir. Nailə Vəlixanlının dövründə Hacı Zeynalabdin Tağıyevin ev muzeyi həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə tanınmağa başlamış və müasir dövrümüzdə milli irsə verilən dəyərin simvoluna çevrilmişdir.

2017-ci ildə Milli Azərbaycan Tarixi Muzeyində keçirilən "Muzeylər: müasir tendensiyalar" konfransında elmi işçi Əli Fərhadov 2017-ci ilin "İslam Həmrəyliyi İli" ilə əlaqədar olaraq “Milli Azərbaycan Tarixi Muzeyində islam mədəniyyətinin təbliğinə dair: Corci Zeydan nümunəsi” adlı məruzə ilə çıxış etmişdir. Eyni ilin “İslam Həmrəyliyi İli” və “Multikulturalizm İli”nin məntiqi davamı olaraq, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) və Bilik Fondu tərəfindən təşkil edilən və İsmayıllı rayon icra hakimiyyətinin dəstəyi ilə İsmayıllı şəhərində keçirilən elmi-praktik konfransda isə Fərhadov “Muzeylərin elmi-kütləvi işdə rolu” mövzusunda mühazirə oxumuşdur. Həmçinin, muzeyin “Hacı Zeynalabdin Tağıyevin klubu”nda “Hacı Zeynalabdin Tağıyevin dini maarifçilikdə rolu” və “Gənc muzeyşünaslar və muzeysevərlər” klubunda “Muzeylərdə günün tələblərinə uyğun mövzuların təşkili” mövzularında mühazirələr təqdim etmişdir [4, s. 95].

## Ədəbiyyat siyahısı:

*Azərbaycan dilində*

1. Bəşiroğlu Ə. Hamının sevimlisi (H.Z.Tağıyev haqqında), Bakı, 2012, səh.165-166. “Təknur”.

2. Cabbarov F. Səxavət Dünyasının Sərvəri.Bakı,Teas Press. 2024. 352 s.

3. Əliyeva N. “Maarifçilik Milli Azərbaycan Tarixi Muzeyinin fəaliyyət istiqamətlərindən biri kimi”. Bakı, “Elm və təhsil”, 2018, 240 səh.

4. Fərhadov Ə. Milli Azərbaycan Tarixi Muzeyində milli-mənəvi dəyərlərin təbliğinə dair (2016-2017-ci illər). Bakı, “Elm və təhsil”, 2018, 240 səh.

*Rus dilində*

5. Матвейчук А. А. Тагиев Гаджи Зейнал Абдин // Экономическая история России с древнейших времен до 1917 г. / ред. совет: В. В. Алексеев и др. – М.: РОССПЭН, 2009. – Т. II. – С. 842.

*İnternet resusrları*

6. Gənc muzeyşünaslar və muzeysevərlər. (2021) http://azhistorymuseum.gov.az/az/learn/8 (müraciət tarixi 22.04.2025)

7. Hacı Zeynalabdin Tağıyevin ev muzeyi (2017). http://azhistorymuseum.gov.az/az/about/1 (müraciət tarixi 22.04.2025)

**UOT 658.5**

# YENİ MEDİA VƏ TEXNOLOGİYANIN TEATR İDARƏETMƏSİNƏ TƏSİRİ

Həsən İsayev Zeynal oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
isayevhesen@gmail.com

**Xülasə**

XXI əsrdə yeni medianın və müasir texnologiyaların rolu bütün sahələrdə olduğu kimi teatr idarəetməsində və inkişafında əsas gücə çevrilmişdir. Yeni texnologiyalardan və mediadan istifadə teatrların idarə olunmasını daha şəffaf, çevik və tamaşaçı yönümlü etmişdir. Teatrlar artıq təkcə tamaşa göstərilən məkan deyil, onlar eyni zamanda insanlarla əlaqə quran, informasiya paylaşan və ən əsası gəlir gətirən qurumlara çevrilib. Onlayn bilet satışının həyata keçirilməsi, sosial media üzərində PR strategiyaları və auditoriyanın rəqəmsal və statistik təhlilləri bu sahədə inkişaf yaradıb. Rəqəmsallaşma teatrların gəlirlərinə, CRM-yəni müştərilər ilə əlaqə formalarına və idarəetmə strukturlarına birbaşa təsir göstərir. Azərbaycan teatrlarında da rəqəmsallaşma qismən müşahidə olunur və yeni medianın tətbiqi sahəsində real nəticələr əldə olunması gözlənilir. Statistik məlumatlar və ekonometrik hesablamalar göstərir ki, texnologiyadan düzgün istifadə teatrların iqtisadi dayanıqlığını və ictimai təsir gücünü artırır. Teatrlar artıq rəqabət şəraitində həm yeni texnologiyanın tətbiqi, həm də mediada təmsil cəhətdən yarışırlar.

**Abstract**

**THE IMPACT OF NEW MEDIA AND TECHNOLOGY ON THEATRE MANAGEMENT**

Hasan Isayev

In the 21st century, the role of new media and modern technologies has become a major force in theater management and development, as in all areas. The use of new technologies and media has made theater management more transparent, flexible and audience-oriented. Theaters are no longer just places where performances are performed, they have also become institutions that connect with people, share information and, most importantly, generate income. The implementation of online ticket sales, PR strategies on social media and digital and statistical analysis of the audience have created developments in this area. Digitalization has a direct impact on theaters' revenues, CRM – that is, forms of contact with customers, and management structures. Digitalization is also partially observed in Azerbaijani theaters, and real results are expected in the field of new media application. Statistical data and econometric calculations show that the proper use of technology increases the economic sustainability and social influence of theaters. Theaters are already competing in terms of both the application of new technology and representation in the media in a competitive environment.

**Аннотация**

**ВЛИЯНИЕ НОВЫХ МЕДИА И ТЕХНОЛОГИЙ НА УПРАВЛЕНИЕ ТЕАТРОМ**

Гасан Исаев

В XXI веке новые медиа и современные технологии стали играть важнейшую роль в управлении и развитии театра, как и во всех других областях. Использование новых технологий и медиа сделало управление театрами более прозрачным, гибким и

ориентированным на зрителя. Театры больше не являются просто местами, где ставятся спектакли, они также стали учреждениями, которые связывают людей, обмениваются информацией и, что самое важное, приносят доход. Внедрение онлайн-продаж билетов, PR-стратегий в социальных сетях, а также цифровой и статистический анализ аудитории способствовали развитию этой области. Цифровизация напрямую влияет на доходы кинотеатров, CRM (отношения с клиентами) и структуры управления. Цифровизация частично наблюдается и в азербайджанских театрах, и ожидается достижение реальных результатов в области применения новых медиа. Статистические данные и эконометрические расчеты показывают, что правильное использование технологий повышает экономическую устойчивость и социальное воздействие театров. Театры теперь конкурируют как в плане применения новых технологий, так и в плане репрезентации в СМИ.

**Açar sözlər:** yeni media, müasir texnologiya, rəqəmsal alətlər, PR strategiyaları, CRM, ekonometrik hesablamalar.

**Keywords:** new media, modern technology, digital tools, PR strategies, CRM, econometric calculations.

**Ключевые слова:** новые медиа, современные технологии, цифровые инструменты, PR-стратегии, CRM, эконометрические расчеты.

Teatrlar qədim dövrlərdən ölkələrin mədəni və sosial həyatının əsas parçasına çevrilmişdir. Ənənəvi teatrların idarəetməsi qədimdən stabil sistem üzərində gedirdi və dəyişməz struktur idi, amma, son dövrlərdə yeni media və texnologiyanın sürətli inkişafı bu sahəyə də öz təsirini göstərmişdir. Sosial şəbəkələr, internet və rəqəmsal platformalar təkcə tamaşaçıların teatrla ünsiyyət formasını dəyişdirməmiş, eyni zamanda teatrların idarəetmə strategiyalarını yenidən formalaşdırmışdır. Yeni medianın mədəniyyət sektoruna təsirlərini araşdıran tədqiqatçılar bildirirlər ki, informasiya texnologiyalarının təsiri ilə teatrlar artıq təkcə səhnə sənəti ilə kifayətlənməyib, rəqəmsal marketinq, onlayn satış sistemləri və virtual tamaşaçılarla qarşılıqlı əlaqə yaratma zərurəti ilə üz-üzə qalıb [M. Castells 2010].

Azərbaycanda əsasən pandemiya dövründə bu tendensiya özünü daha qabarıq göstərdi: teatrların çoxu tamaşalarını onlayn platformalar və sosial media üzərindən yayımlamağa başladı, bilet satışı sistemləri rəqəmsallaşdırıldı və sosial şəbəkələrdə aktiv auditoriya qurulması üçün fəaliyyət başlanıldı [Əliyeva, 2021].

Rəqəmsallaşma prosesinin daha erkən zamanlarda müşahidə olunduğu ölkələrdən biri də Rusiya idi. Məsələn, Moskva Böyük Teatrı (Большой театр) 2015-ci ildən başlayaraq tamaşaçıları üçün “The Bolshoi Theatre Digital Platform” layihəsini həyata keçirmiş və bununla da qlobal auditoriyaya teatr sənətini təqdim etməyə başladı [Кириллова, 2018].

Bu dəyişikliklər yalnız texniki yeniliklərlə məhdudlaşmır. Onlar həm də teatrların maliyyə sabitliyi, idarəetmə çevikliyi və tamaşaçı təcrübəsi üzərində ciddi təsir göstərir. Əldə olunan statistik göstəricilər göstərir ki, texnologiyaya investisiya edən teatrlar tamaşaçı sayında və gəlirlərində artım müşahidə ediblər [UNESCO Report, 2022]. Bu cür nəticələr, Azərbaycan teatrlarının da gələcəkdə rəqəmsal transformasiyaya daha sürətli inteqrasiya etməsinin zəruriliyini ortaya qoyur.

Bütün bu tendensiyalar teatr idarəetməsində köklü dəyişikliklərin yaşandığını göstərir və bu dəyişikliklərin uğurla idarə olunması üçün yeni media və texnologiyanın imkanlarının sistemli və strateji şəkildə tətbiq olunmasını tələb edir.

Yeni media texnoloji inkişaf nəticəsində formalaşıb və ənənəvi formalardan çox fərqlənir. B. Lister və digər tədqiqatçılar yeni medianı interaktivlik, rəqəmsallıq, hipermətnlilik və multimedia inteqrasiyası kimi xüsusiyyətlərlə xarakterizə edirlər [M.Lister, 2009, s. 30]. Bu xüsusiyyətlər teatrlara xüsusilə təsir etmiş, əvvəlki dövrlərdəki kimi teatrlar artıq vahid məkan anlayışından çıxaraq, virtual məkan anlayışına keçmiş və rəqəmsal yayınlanmağa naşlamışdır. Təbii ki, izləyici zövqü müxtəlifdir, bəzi izləyicilər rahat formada internet üzərindən teatr səhnələrini izləmək istəyirlər. Son dövrlərdə əsasən də pandemiya sonrası rəqəmsallaşma ilə ayaqlaşmayan sahə və şirkətlərdə zəifləmə və müştəri itkisi müşahidə olunur.

Azərbaycan alimləri də yeni medianın mədəniyyət sahəsinə təsirini xüsusi vurğulayırlar. İ. Həsənov qeyd edir ki, *"Rəqəmsallaşma mədəniyyət müəssisələrinin daha geniş auditoriyaya çıxışını təmin edir və ənənəvi fəaliyyət modellərini yenidən düşünməyə vadar edir"* [İ.Həsənov, 2022].

Texnologiyanın tətbiqi və rolu yalnız tamaşaların nümayişinə deil həmçinin idarəetmə prosesinə də ciddi təsir etmişdir. Biletlərin rəqəmsal platformalarda satışı, məlumat bazalarının formalaşdırılması, sosial media marketinqi və sosial mediada bütün tamaşaların işıqlandırılması teatrların daha effektiv idarə olunmasına şərait yaradır. Məsələn, Böyük Britaniyanın ən böyük teatrı olan "National Theatre" illik gəlirinin 30%-indən çoxunu artıq rəqəmsal platformalardan əldə edir. [National Theatre Annual Report, 2023].

Rəqəmsallaşma prosesi, yeni texnologiyanın tətbiqi və yeni mediadan istifadə Rusiyada daha sistemli şəkildə həyata keçmişdir. Əsasən, "Цифровая культура" dövlət proqramı 2020-ci ildən başlayaraq onlayn yayım və tamaşalarda virtual reallığın tətbiqi vasitəsi ilə izləyici kütləsini genişləndirdi və gəlirlərini artırdı. [Министерство культуры РФ, 2021].

Azərbaycanda isə teatr sektorunda rəqəmsallaşma əsasən pandemiya dövründə aktuallaşdı və ilk addımlar atılmağa başlandı. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı və Gənc Tamaşaçılar Teatrı artıq onlayn tamaşalar və sosial şəbəkələrdə keçirilən layihələrlə rəqəmsallaşma prosesini tətbiq etdi. Teatrşünas Cavanşir Qasımov bildirir ki, 2021-ci ilin 19-26 mart tarixlərində İsveçrənin Bazel Teatrında Ovidinin "Metamorfozlar" və aprelin 27-si S.t Gallen Teatrında Esxilin "Oresteya" əsəri əsasında hazırlanan tamaşalar rəqəmsal teatr modelinin məhsulu idi [C.Qasımov 2021].

Beləliklə, yeni media və texnologiyaların tətbiqi teatr sektoruna kreativlik və idarəetmə prosesində tam nəzarət imkanı yaradır. Teatrlar yalnız pyesləri səhnələşdirən və ictimaiyyətə təqdim edən qurumlar deyil, həm də müasir və rəqəmsal idarəetmə texnologiyalarından istifadə edən müasir təşkilatlara çevrilməkdədir.

Texnologiyanın teatr sektoruna tətbiqi tamaşa və tamaşaçı sayı və səhnələrin keyfiyyəti ilə bitmir, həmçinin marketinq strategiyalarında dəyişikliklərə, yeni satış kanallarının yaranmasına və menecmentdə ciddi dəyişikliklər yaradıb. Məsələn, rəqəmsal platformalar vasitəsilə həyata keçirilən bilet satışı və sosial media marketinqinin düzgün qurulması sayəsində teatr sektorunda maliyyə axınları optimallaşmışdır.

Təbii ki, menecment və marketinq yalnız nəzəriyyə, iddia və ideyalardan ibarət deil. Bütün prosesləri daha yaxşı anlamaq və yeniliklərin tətbiqi üçün statistik məlumatlar və ekonometrik hesablamalardan istifadə edərək real vəziyyəti təhlil etmək və gələcəyə dair dəqiq proqnozlar vermək mümkündür. Bu analizlərlə teatrların rəqəmsallaşmaya investisiya qoymasının nə qədər faydalı olacağını göstərə bilər. Aşağıda təqdim etdiyimiz **çox dəyişənli (multiple) xətti reqressiya modeli** teatrın gəlirlərinə təsir edən amilləri müəyyən edir:

**Model:** Gəlir=$\beta_0$+$\beta_1$(Texnologiya istifadəsi)+$\beta_2$(Tamasaçı sayı)+$\beta_3$(Marketinq xərcləri)+$\epsilon$

$\beta_0$ - **intersept** və ya **sabit** dəyərdir. Yəni, texnologiya istifadəsi, tamaşaçı sayı və marketinq xərcləri sıfır olduqda, teatrın ümumi gəlirləri bu dəyərə bərabər olacaq.

$\beta_1$ - **Texnologiya və sosial media istifadəsi** dəyişəninin **gəlir** üzərindəki təsirini ölçən əmsal. Bu dəyər, texnologiyadan istifadənin (məsələn, onlayn bilet satışı, rəqəmsal platforma, sosial media marketinqi) artımı ilə teatrın gəlirinin necə dəyişdiyini göstərir.

$\beta_2$ - **Tamaşaçı sayı** dəyişənidir. Bu, teatrın tamaşaçı sayısının gəlirə təsirini göstərir.

$\beta_3$ - **Marketinq xərcləri** dəyişəni, teatrın marketinq xərclərinin gəlir üzərindəki təsirini göstərir. Bu göstərici, marketinq büdcəsinin artması ilə gəlirin necə dəyişdiyini ölçür.

$\epsilon$ - Bu, **xətalı termin** və ya **stoxastik səhv** komponentidir. Bu, modeldə nəzərə alınmayan və gəlirə təsir edən digər amilləri göstərir Yəni iqtisadi şərtlər, sosial faktorlar və ya gözlənilməz hadisələrin (məsələn, pandemiya) gəlirə təsirini göstərir.

Əgər $\beta_1 = 0.3$, $\beta_2 = 0.6$, və $\beta_3 = 0.4$ olaraq müəyyən edilsə, bu, deməkdir ki:

- Texnologiya istifadəsi hər 1 vahid artarsa, gəlir 0.3 vahid artacaq.
- Tamaşaçı sayı hər 1 nəfər artarsa, gəlir 0.6 vahid artacaq.
- Marketinq xərcləri 1000 AZN artarsa, gəlir 0.4 vahid yəni 400 AZN artacaq.

Xətti reqressiyanın teatr sektoruna bu formada tətbiqi ilə, teatrların texnoloji yeniliklərə, media istifadəsinə nə qədər büdcə ayıracaqları və bunun qarşılığında nə qədər gəlir əldə edəcəklərini proqnozlaşdırırıq.

Dünya və yerli teatrlarda yeni texnologiya və media tətbiqinin gəlirlərinə necə təsir etdiyinə baxaq. Məsələn, dünya teatrlarından bir çoxu yeni media və texnologiyadan istifadə edərək, texnoloji inkişaf və marketinqə investisiya ilə gəlirlərin artması arasında müsbət əlaqə tapmışdır. UNESCO (2022) tərəfindən yayımlanan hesabatdan görə bilirik ki, yeni media və texnologiyadan istifadə edən teatrların gəlirlərində ortalama 20%-ə qədər artım müşahidə olunmuşdur.

Cədvəl 1: Teatr Gəlirlərinə yeni media və texnologiyadan istifadənin təsiri statistikası:

| **Teatr adı** | **Texnologiya istifadəsi (%)** | **Tamaşaçı sayı (orta)** | **Marketinq xərcləri (min AZN)** | **Gəlir artımı (%)** |
|---|---|---|---|---|
| Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı | 20 | 100 | 20 | 9% |
| National Theatre (UK) | 80 | 512 | 235 | 33% |
| Bolşoy Teatr (Rusiya) | 65 | 298 | 116 | 19% |

Qrafikdəki məlumatlardan göründüyü kimi, yeni media və texnologiyadan istifadə edən teatrların gəlirləri daha yüksək olub. Beləliklə görürük ki, teatrların sərbəst gəlir əldə etmələri və əlavə vəsait cəlbinə ehtiyacları olmaması üçün mütləq yeni media və texnologiyadan istifadə etməlidirlər.

## Ekonometrik hesablamalar

Bu modelə əsasən, texnologiya istifadəsinin gəlir üzərindəki təsiri müsbət olub və yüksək səviyyədə statistik əhəmiyyətə malikdir ($p < 0.05$). Tamaşaçı sayı və marketinq xərclərinin də gəlirə təsiri aşkarlanıb, lakin texnologiyanın daha çox təsirli olduğu görünür.

Teatrlara gələn tamaşaçıların sayı (ilin sonuna)

| | 1990 | 2000 | 2010 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Teatrlara gələn tamaşaçıların sayı – cəmi, min nəfər** | **1376** | **925** | **540** | **135** | **140** | **420** | **430** |
| o cümlədən: | | | | | | | |
| Opera və balet teatrına | 52 | 112 | 50 | 9 | 9 | 29 | 22 |
| Dram, musiqili-komediya və musiqili dram teatrlarına | 926 | 602 | 321 | 86 | 88 | 285 | 302 |
| Uşaq və gənc tamaşaçılar teatrlarına | 398 | 211 | 169 | 40 | 42 | 106 | 106 |
| Orta hesabla bir teatra gələn tamaşaçıların sayı, min nəfər | 72 | 34 | 19 | 5 | 5 | 14 | 15 |
| onlardan: | | | | | | | |
| Opera və balet teatrına | 52 | 112 | 50 | 9 | 9 | 29 | 23 |
| Dram, musiqili-komediya və musiqili dram teatrlarına | 66 | 30 | 17 | 5 | 5 | 15 | 16 |
| Uşaq və gənc tamaşaçılar teatrlarına | 99 | 35 | 21 | 4 | 5 | 12 | 12 |
| Əhalinin hər 1000 nəfərinə teatrlara gələn tamaşaçıların sayı | 192 | 116 | 61 | 14 | 14 | 42 | 42 |

İnstagram platforması üzərindən araşdırmalarımıza əsasən belə bir statistik cədvəl qura bilərik. iTicket onlayn bilet satışı platformasının 2017-ci ildən fəaliyyətə başladığını nəzərə alaraq bəzi hesablamalar aparaq.

| Teatr | Instagram səhifəsi açılış ili | Aktivlik başlanğıcı |
|---|---|---|
| Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı | 2018 | 2019 |
| Azərbaycan Dövlət Akademik Musiqili Teatrı | 2014 | 2020 |
| Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı | 2019 | 2021 |
| Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı | 2020 | 2022 |

DiD (Difference-in-Differences) Analizi ilə dəqiq hesablama aparaq:

Orta tamaşaçı sayı ($x_1$):

$$X_{əvvəl}=\frac{540+528+582+661+728+752+727}{7}\approx 645.43$$

$$X_{sonra}=\frac{704+675+645}{3}\approx 674.67$$

- Əvvəl (2010–2016) dövrü orta tamaşaçı sayı: 645.43 min
- Sonra (2017–2019) dövrü orta tamaşaçı sayı: 674.67 min

**DiD = 29.24** min nəfər.

**Onlayn bilet satışı** tamaşaçı sayını artırıb, amma bu artım təsadüfi artım deyil, çünki DiD analizi ilə qruplarda artım fərqini ölçərək bunun əlaqəsini görürük. Lakin pandemiya təsirini bu formada hesablaya bilmədiyimizə görə Çoxlu Xətti Regresiya modelindən istifadə edək.

Bu zaman Pandemiya (Post-2019) da nəzərə alınmalıdır. Belə ki, pandemiya dövrü (2020-2021) teatr tamaşaçı sayına öz təsirini göstərib və biz bunu ayrıca bir dəyişən kimi əlavə etməliyik.

**Model:**

$Attendance_t=\alpha+\beta_1 \cdot PostOnlayn_t+\beta_2 \cdot Pandemiya_t+\beta_3 \cdot t+\varepsilon_t$

- $Attendance_t$ — il üzrə tamaşaçı sayı (məsələn, 2010, 2011, ..., 2023)
- α- y-intercept (başlangıç nöqtəsi)
- $\beta_1$ - Onlayn satışın effekti (2017-dən sonra)
- $\beta_2$ - Pandemiya effekti (2020–2021 illəri)
- t - il üzrə xronoloji idxeks (2010-dan 2023-ə qədər)
- $\varepsilon_t$ - xətalar

Dəyişənlər:

- **PostOnlayn:**

Bu dəyişən **onlayn bilet satışının başladığı dövrü** göstərir. 2017-ci ildən başlayaraq bu dəyişən **1** olacaq, əvvəllər isə **0**.

- **Pandemiya**:

2020-2021-ci illəri əhatə edən **pandemiya dövrü** üçün **1**, digərləri üçün isə **0** olacaq. Bu dəyişən teatr tamaşaçılığına ciddi təsir etdiyindən bu, əhəmiyyətli bir addım olacaq.

Hesablamalardan gəldiyimiz nəticələrə əsasən:

| Dəyişən | Əmsal (β) | p-value | Təfsir |
|---|---|---|---|
| Başlangıc nöqtəsi | –40 750.78 | 0.025 | Modelin kəsilmə nöqtəsi (il sıfır olduqda—simvolik). Statistik əhəmiyyətli. |
| PostOnlayn | –108.48 | 0.111 | Onlayn satışdan sonra hər il üçün ortalama 108 nəfər azalma. Statistik əhəmiyyətsiz (p>0.05). |
| Pandemiya | –553.70 | < 0.001 | 2020–2021 illərində hər il üçün 553 nəfər azalma. Çox əhəmiyyətli (p<0.001). |
| İl | 20.57 | 0.023 | Hər keçən il ortalama 20 nəfər artım. Statistik əhəmiyyətli (p<0.05). |

- α = -40 750.78

Modelin başlangıç nöqtəsi, il və digər dəyişənlər sıfır olduqda (t=0, yəni 2010-dan əvvəl) proqnozlaşdırılan il üzrə tamaşaçı sayıdır. Burada riyazi baxımdan kəsilmə nöqtəsi mənfidir, amma onun praktiki mənası simvolikdir.

- $\beta_1$ = -108.48 (PostOnlayn)

2017-dən sonra onlayn bilet satışlarının başladığı illərdə ortalama 108 nəfərlik bir azalma var. Lakin p = 0.111 olduğuna görə bu effekti statistik olaraq sübut edə bilmirik.

- $\beta_2 = -553.70$ (Pandemiya)

2020-2021 illərində (pandemiya dövründə) hər il üçün ortalama **553 nəfər** azalma baş verib. $p < 0.001$, yəni bu effekt güclü və statistika cəhətdən əhəmiyyətlidir.

- $\beta_3 = 20.57$ (İl)

Zamanla, hər ilin keçməsi ilə tamaşaçı sayında orta hesabla 20 nəfərlik artım müşahidə olunur. $p = 0.023$ ilə bu trend statistik əhəmiyyətlidir.

Pandemiya dövrünün (2020–2021) tamaşaçı sayına kəskin mənfi təsiri var.

Zaman trendi müsbətdir: illər keçdikcə tamaşaçı sayında artım müşahidə olunur.

Onlayn bilet satışı (PostOnlayn) effektiv olub, amma bu effekti indiki məlumatlara əsasən statistik olaraq təsdiqləmək mümkün olmayıb.

**Nəticə**

Bu məqalədə yeni media və texnologiyanın teatr menecmentinə təsiri sistemli şəkildə araşdırılmışdır. Müasir dövrdə yeni medianın və sosial şəbəkələrdən istifadənin rolu teatr sahəsində getdikcə artır, teatrların auditoriyaya çıxışı, rəqəmsal marketinq strategiyası və gəlir strategiyaları üzərində ciddi fərqlər və inkişaf yaratmışdır.

Araşdırma nəticəsində görə bilirik ki, Instagram və digər sosial media platformalarında teatrların aktivliyinin artması tamaşaçılarla interaktivliyin güclənməsinə, ictimaiyyətlə daha səmimi və dinamik münasibətlərin formalaşmasına və teatr imicinin formalaşmasına səbəb olmuşdur. Bundan əlavə, 2017-ci ildən etibarən İ-Ticket platformasının tətbiqi teatrların menecment sisteminə müsbət təsir göstərmiş, satış prosesinin rahat və sürətli formada həyata keçməsini təmin etmişdir.

"Difference-in-Differences" (DiD) analizi əsasında qənaətə gələ bilərik ki, onlayn bilet satış sisteminin istifadəyə verilməsindən sonra tamaşaçı sayında orta hesabla 29.24 min nəfərlik artım olmuşdur.

Çoxlu xətti reqressiya analizi isə tamaşaçı sayında müsbət trend müşahidə edildiyini, lakin pandemiya dövrünün (2020-2021) bu trendə ciddi mənfi təsir göstərdiyini ortaya çıxarmışdır. Pandemiya dövründə tamaşaçı sayında 553 nəfərlik azalma baş vermiş və bu azalma statistik olaraq yüksək əhəmiyyətlidir. ($p < 0.001$).

Nəticələr göstərmişdir ki:

- Yeni texnologiyaların tətbiqi teatrların gəlirlərinin artmasında əhəmiyyətli rol oynamış və gəlirlərə təsiri başqa faktorlarla müqayisədə daha güclü olmuşdur.
- Marketinq xərcləri də gəlirlər üzərində təsir göstərmiş, lakin texnologiya istifadəsi daha yüksək statistik əhəmiyyətlidir
- Zaman üzrə baxdıqda isə müsbət trend teatr sektorunda ümumi bir inkişaf meylini göstərmiş, illər keçdikcə tamaşaçıların teatra olan marağının artmaqda olduğu müəyyən edilmişdir.

Bu nəticələr Azərbaycanda teatr sənayesinin rəqəmsallaşma prosesinə uğurla inteqrasiya olunduğunu, lakin hələ də tam potensialın reallaşdırılmadığını göstərir. Xüsusən pandemiya kimi böhran dövrlərində rəqəmsal strategiyaların əhəmiyyəti bir daha ön plana çıxmışdır.

Beləliklə, etdiyimiz analizlər və gəldiyimiz nəticələrə əsasən Teatr sektorunda inkişaf yaratmaq üçün bəzi təkliflər irəli sürə bilərik.

- Rəqəmsal strategiyaların inkişaf etdirilməsi:

Teatrlar rəqəmsallaşmalı, sosial media və onlayn bilet satış sahələrini daha da inkişaf etdirməlidirlər. Bu məqsədlə rəqəmsal marketinq strategiyası hazırlanmalıdır.

- Pandemiya və böhran dövrlərinə idarəetmə strategiyaları hazırlanmalıdır:

Gələcəkdə ehtimal olunan böhran vəziyyətlərinə hazırlıqlı olmaq üçün onlayn tamaşaların təşkili, virtual teatrların yaradılması və gəlirlərin alternativ formada əldə olunması üçün strategiya hazırlanmalıdır.

- Texnologiya inkişaf etdirilməlidir:

Teatrlar yeni texnologiyadan istifadəni inkişaf etdirmək üçün dövlət dəstəyi və özəl sektorla əməkdaşlıqları çərçivəsində rəqəmsal sahəyə edilən yatırımlara üstünlük verməlidirlər.

- Tamaşaçılarla əlaqələr güclənməlidir:

Sosial medianın düzgün idarə olunması və məlumat bazaları üzərində kommunikasiya strategiyaları inkişaf etdirilməli, mövcud və potensial tamaşaçıların teatrla interaktiv əlaqələri və bağlılıqları güclənməlidir.

- Elmi tədqiqatların davam etdirilməsi:

Teatrlarda rəqəmsallaşma prosesinin uzunmüddətli inkişafı üçün davamlı akademik tədqiqatlar aparılmalı və əldə olunan nəticələr əsasında siyasi və menecmentlə bağlı qərarlar verilməlidir.

## Ədəbiyyat siyahısı:

1. Castells, M. (2010). The Rise of the Network Society. Wiley-Blackwell.
2. Əliyeva, S. (2021). "Pandemiya dövründə Azərbaycan teatrlarında rəqəmsal fəaliyyətlərin inkişafı", Azərbaycan Mədəniyyət və İncəsənət Jurnalı.
3. Кириллова, Н. (2018). "Цифровая трансформация театрального искусства в России", Культурология.
4. UNESCO (2022). "The Impact of Digitalization on Cultural Institutions".
5. Lister, M., Dovey, J., Giddings, S., Grant, I., & Kelly, K. (2009). New Media: A Critical Introduction. Routledge.
6. Həsənov, İ. (2022). "Yeni medianın mədəniyyət sahəsində rolu", Azərbaycan Elmi Jurnalı.
7. Министерство культуры Российской Федерации (2021). "Цифровая культура"
8. https://teatro.az/az/post/cavansir-qasimov--pandemiya-dovru-teatrina-alman-yanasmasi-543
9. https://www.stat.gov.az/
10. https://www.rosstat.gov.ru/
11. https://www.ons.gov.uk/
12. https://www.nationaltheatre.org.uk/about-us/annual-reports/

**UOT 069**

# AZƏRBAYCANDA MÜASİR MUZEYLƏRİN EKSPOZİSİYA DİZAYNININ XÜSUSİYYƏTLƏRİ

Hikmət Əkbərli
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
hikmet.akbarli2000@gmail.com

**Xülasə**

Məqalədə Azərbaycanda müasir muzeylərin ekspozisiya dizaynı sahəsindəki tendensiyalar və bu sahədə tətbiq olunan yeniliklər araşdırılır. Qloballaşan dünyada mədəniyyətin qorunması və ötürülməsi məsələsi muzeylərin funksional və estetik cəhətdən yenilənməsini tələb edir. Müasir ekspozisiya dizaynı yalnız sərgilənən əşyaların təqdimatı deyil, həm də tamaşaçı ilə emosional və intellektual bağ qurmaqdır. Azərbaycandakı yeni nəsil muzeylər – xüsusilə Heydər Əliyev Mərkəzi, Azərbaycan Xalça Muzeyi və Qobustan Milli Tarix-Bədii Qoruğu kimi nümunələr üzərində aparılan müşahidələr bu tendensiyanı əyani şəkildə sübut edir. Məqalədə həmçinin, interaktiv və rəqəmsal texnologiyaların dizaynda rolu, ziyarətçi davranışına təsiri və ekspozisiyanın kommunikativ aspektləri təhlil olunur. Müasir ekspozisiya dizaynında funksionallıqla estetik elementlərin sintezi, ziyarətçiyə yönəlik yanaşmanı gücləndirir. Bu yanaşma milli-mədəni irsin müasir formatda təqdimatına və daha geniş auditoriya ilə paylaşılmasına imkan yaradır.

**Abstract**

**FEATURES OF EXHIBITION DESIGN OF MODERN MUSEUMS IN AZERBAIJAN**

Hikmet Akberli

This article explores the trends and innovations in exhibition design within modern museums in Azerbaijan. In the context of globalization, the preservation and transmission of culture require museums to be renewed both functionally and aesthetically. Modern exhibition design is not only about displaying objects but also about establishing an emotional and intellectual connection with visitors. Observations made at new-generation museums in Azerbaijan – such as the Heydar Aliyev Center, the Azerbaijan Carpet Museum, and the Gobustan State Historical-Artistic Reserve – clearly reflect this trend. The article also analyzes the role of interactive and digital technologies in design, their influence on visitor behavior, and the communicative aspects of exhibitions. The fusion of functionality with aesthetic elements in modern design enhances visitor-centered approaches. This approach enables the national cultural heritage to be presented in a contemporary format and shared with a broader audience.

**Аннотация**

**ОСОБЕННОСТИ ЭКСПОЗИЦИОННОГО ОФОРМЛЕНИЯ СОВРЕМЕННЫХ МУЗЕЕВ АЗЕРБАЙДЖАНА**

Хикмет Акберли

В статье рассматриваются тенденции и нововведения в дизайне экспозиций современных музеев Азербайджана. В условиях глобализации сохранение и передача культурного наследия требует функционального и эстетического обновления музейных пространств. Современный дизайн экспозиций представляет собой не только демонстрацию

объектов, но и установление эмоциональной и интеллектуальной связи с посетителем. Наблюдения в таких музеях, как Центр Гейдара Алиева, Музей азербайджанского ковра и Гобустанский национальный историко-художественный заповедник, наглядно подтверждают эти тенденции. Также рассматривается роль цифровых и интерактивных технологий в дизайне, их влияние на поведение посетителей и коммуникативные аспекты экспозиций. Сочетание функциональности с эстетикой усиливает ориентированность на посетителя. Такой подход способствует современному представлению национального наследия и его доступности для широкой аудитории.

**Açar sözlər**: muzey, ekspozisiya dizaynı, interaktivlik, müasir texnologiyalar, Azərbaycan muzeyləri.

**Keywords:** museum, exhibition design, interactivity, modern technologies, Azerbaijani museums.

**Ключевые слова:** музей, дизайн экспозиции, интерактивность, современные технологии, музеи Азербайджана.

Müasir dövrdə muzeylərin funksiyası təkcə eksponatların qorunub saxlanılması və nümayiş etdirilməsi ilə məhdudlaşmır. Muzeylər bu gün həm də sosial, mədəni və pedaqoji funksiyaları yerinə yetirən mərkəzlər kimi çıxış edirlər. Belə funksiyaların həyata keçirilməsində ekspozisiya dizaynı həlledici rol oynayır. Dizayn yalnız estetik məna daşımır, eyni zamanda məlumatın necə təqdim olunması, ziyarətçinin diqqətinin necə cəlb ediləcəyi və yaddaşda necə qalacağı baxımından da mühüm əhəmiyyət daşıyır [Əliyev, 2020, s. 33].

Azərbaycanda müasir muzeylərin dizayn yanaşmaları qlobal trendlərə uyğunlaşdırılmaqla yanaşı, milli-mədəni kontekstdə formalaşır. Bu, muzey ekspozisiyalarının həm yerli auditoriya, həm də xarici turistlər üçün cəlbedici və başa düşülən olmasını təmin edir. Məsələn, Azərbaycan Milli İncəsənət Muzeyində ekspozisiyalar mövzu və dövrlərə uyğun şəkildə qurulmaqla yanaşı, geniş vizual və mədəni kontekstə malikdir [Rzayeva, 2021, s. 46].

Ekspozisiya dizaynında konseptual yanaşma mühüm rol oynayır. Müasir muzeylərdə ekspozisiya yalnız fiziki obyektlərin düzülüşü deyil, həm də ziyarətçiyə müəyyən bir hekayə danışmaq, onu emosional və intellektual səviyyədə cəlb etmək məqsədi daşıyır. Bu yanaşma Heydər Əliyev Mərkəzində bariz şəkildə görünür. Burada dizayn forması və məzmunu bir-biri ilə inteqrasiya olunaraq dinamik və interaktiv mühit yaradır [UNESCO, 2022, s. 22].

Yeni texnologiyaların tətbiqi ilə ekspozisiya dizaynı daha da zənginləşib. Rəqəmsal ekranlar, interaktiv məlumat lövhələri, artırılmış reallıq (AR) texnologiyaları vasitəsilə ziyarətçilər eksponatlarla daha dərindən tanış ola bilirlər. Naxçıvan Dövlət Tarix Muzeyində tətbiq olunan rəqəmsal panellər vasitəsilə eksponatlar haqqında məlumatı həm azərbaycan, həm də ingilis dillərində almaq mümkündür [Qasımov, 2022, s. 58].

İşıqlandırma və rəng həlləri ekspozisiyanın ümumi estetik və funksional dəyərlərinə təsir göstərən əsas komponentlərdəndir. Məsələn, Azərbaycan Xalça Muzeyində tətbiq olunan yumşaq işıqlandırma və neytral tonlarda dekorlar eksponatların ön plana çıxmasını təmin edir və ziyarətçidə rahatlıq hissi yaradır. Bu cür dizayn elementləri həm eksponatların qorunmasına, həm də ziyarət təcrübəsinin artırılmasına xidmət edir [Məmmədli, 2019, s. 75].

Müasir ekspozisiya dizaynı inklüzivlik prinsipinə də əsaslanır. Fiziki imkanları məhdud şəxslər üçün əlçatan mühitin yaradılması – liftlər, taktil cığırlar, braille əlifbası ilə məlumat lövhələri

və audio-bələdçilər – bu sahədə mühüm rol oynayır. Bəzi muzeylərdə işarə dili ilə ekskursiyalar təşkil olunur, bu isə sosial inteqrasiyanın mühüm göstəricisidir [Əliyeva, 2020, s. 60].

Bundan əlavə, ekspozisiya dizaynında milli ornament və simvollardan istifadə, Azərbaycanın tarixi və mədəni irsinin vizual dildə təqdimatı kimi qiymətləndirilə bilər. Misal üçün, Şəki Xan Sarayında ekspozisiya dizaynı memarlıq üslubu ilə harmonik şəkildə qurulmuş və bu, ziyarətçidə həm estetik, həm də mədəni assosiasiyalar yaradır [Əhmədov, 2021, s. 93].

Sonda qeyd etmək olar ki, müasir dövrün tələblərinə uyğun ekspozisiya dizaynı yalnız mədəniyyətin qorunması deyil, həm də onun effektiv şəkildə təqdim edilməsinə xidmət edir. Azərbaycanda bu sahədə aparılan işlər müsbət tendensiya ilə inkişaf edir və beynəlxalq standartlara cavab verəcək səviyyəyə yüksəlməkdədir.

## Ədəbiyyat siyahısı:

1. Əliyev, C. (2020). “Muzey işi və eksponatların tərtibatı”. Bakı,Elm nəşriyyatı.
2. Rzayeva, S. (2021). “Azərbaycanda muzey ekspozisiyalarında dizayn elementləri”. Bakı, Mədəniyyət və İncəsənət Jurnalı, №3, s. 44-50.
3. Qasımov, R. (2022). “Regional muzeylərdə rəqəmsal texnologiyaların tətbiqi”. Naxçıvan, Muzey İşi Elmi Toplusu, №1, s. 55-60.
4. Məmmədli, T. (2019). “Muzeylərdə işıqlandırma və rəng kompozisiyası”. Bakı, Dizayn və Texnologiya, №4, s. 70-76.
5. Əliyeva, N. (2020). “İnklüziv dizayn və əlçatan mühitin muzeylərdə tətbiqi”. Bakı, Sosial İnkişaf Jurnalı, №2, s. 58-62.
6. Əhmədov, E. (2021). “Tarixi abidələrin ekspozisiya yanaşmaları: Şəki Xan Sarayı nümunəsi”. Gəncə, Tarix və Mədəniyyət Elmi Jurnalı, №5, s. 90–95.

*İnternet resursları*

7. ICOM (International Council of Museums). (2021). *Museum Definition and New Trends*. https://icom.museum/en/resources/standards
8. Azerbaijan Carpet Museum Official Website. (2023). https://azcarpetmuseum.az
9. Heydər Əliyev Mərkəzi Rəsmi Saytı. (2023). https://heydaraliyevcenter.az

**UOT 7.01.**

# HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ BƏRPA OLUNAN DİNİ ABİDƏLƏR: BİBİHEYBƏT MƏSCİDİ VƏ SVYATIX JON MİRONOSİTS KİLSƏSİ

Nərmin İmanova Nail qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
imanovanermin434@gmail.com

## Xülasə

Coğrafi mövqeyi, Böyük İpək Yolunun üzərində yerləşməsi Azərbaycana qlobal səviyyədə dinlər və mədəniyyətlərarası dialoqun qurulduğu məkana çevrilmək imkanı vermişdir. Müstəqillik illərində tarixi abidələrin bərpası üçün görülən tədbirlər milli-mənəvi dəyərlərə yüksək qiymət verildiyinin bariz nümunəsidir. Ümumilli lider Heydər Əliyev dini tikililərin bərpasına uzunmüddətli din siyasətinin tərkib hissəsi kimi yanaşmışdır. O, ölkəyə rəh`bərlik etməyə başladığı ilk vaxtlardan tarixi-dini abidələrin bərpasını öz nəzarətinə götürmüşdür. Bunun ən gözəl örnəyi tarixi əhəmiyyətli bir hadisə olan, monumentallığı ilə gözoxşayan Bibiheybət məscidinin və Bakı yeparxiyasının mərkəzi olan Svyatıx Jon Mironosits kilsəsinin bərpasıdır. Bu da Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə təmzimlənməsinə bariz nümunədir. Məqalədə Heydər Əliyevin hakimiyyəti illərində (1993-2003) Bibiheybət məscidi və Svyatıx Jon Mironosits kilsəsinin bərpası, onların memarlıq xüsusiyyətləri diqqət doğurur. Həmçinin, sözügedən dini abidələrin tarixi inkişaf yolu əks olunmuşdur.

## Abstract

## RELIGIOUS MONUMENTS RESTORED DURING HEYDAR ALIYEV'S RULE: BIBHIHEYBAT MOSQUE AND CHURCH OF SVIATIKH JOHN MYRONOSITS

Narmin Imanova

Azerbaijan's geographical location and its position along the Great Silk Road have given it the opportunity to become a global center for interreligious and intercultural dialogue. The measures taken to restore historical monuments during the years of independence are a clear example of the high value placed on national and spiritual values. National Leader Heydar Aliyev regarded the restoration of religious buildings as part of a long-term religious policy. From the early days of his leadership, he personally oversaw the restoration of historical and religious monuments. A prime example of this is the restoration of the Bibi-Heybat Mosque – a monument of great historical significance and impressive monumentality – and the Jen Mironosets Church, the center of the Baku Eparchy. These are vivid examples of the well-regulated relationship between religion and the state in Azerbaijan. This article highlights the restoration of the Bibi-Heybat Mosque and the Jen Mironosets Church during Heydar Aliyev’s presidency (1993-2003), focusing on their architectural features. The historical development of these religious monuments is also reflected.

**Аннотация**

**РЕЛИГИОЗНЫЕ ПАМЯТНИКИ, ВОССТАНОВЛЕННЫЕ ВО ВРЕМЯ ПРАВЛЕНИЯ ГЕЙДАРА АЛИЕВА: МЕЧЕТЬ БИБИ-ЭЙБАТ И СОБОР СВЯТЫХ ЖЕН-МИРОНОСИЦ**

Нармин Иманова

Благодаря своему географическому положению и расположению на Великом шелковом пути, Азербайджан получил возможность превратиться в глобальное пространство для межрелигиозного и межкультурного диалога. Меры, предпринятые в годы независимости по восстановлению исторических памятников, являются ярким свидетельством высокой оценки национально-духовных ценностей. Общенациональный лидер Гейдар Алиев рассматривал восстановление религиозных сооружений как часть долгосрочной религиозной политики. С самого начала своего руководства страной он взял под личный контроль процесс реставрации историко-религиозных памятников. Ярким примером этому служит восстановление мечети Биби-Эйбат – важного исторического памятника, поражающего своей монументальностью, а также церкви Жен-Мироносиц, являющейся центром Бакинской епархии. Это является наглядным примером высокого уровня регулирования отношений между государством и религией в Азербайджане. В статье рассматривается восстановление мечети Биби-Эйбат и церкви Жен-Мироносиц в период правления Гейдара Алиева (1993-2003), а также их архитектурные особенности. Отражён также исторический путь развития указанных религиозных памятников.

**Açar sözlər:** Heydər Əliyev, məscid, kilsə, Bibiheybət, bərpa, müstəqillik, Svyatıx Jon Mironosits.

**Ключевые слова:** Гейдар Алиев, мечеть, церковь, Биби-Эйбат, реставрация, независимость, Собор Святых Жён-Мироносиц (Баку).

**Keywords:** Heydar Aliyev, mosque, church, Bibi-Heybat, restoration, independence, Jen Mironosets.

Tarix boyu fərqli mədəniyyətləri və dini irsi qoruyub saxlamaq Azərbaycan dövlətinin əsas prioritetlərindən biridir. Azərbaycan öz mütəqilliyini bərpa etdikdən (18 oktyabr 1991-ci il) sonra maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi hər zaman dövlət başçılarının diqqət mərkəzində olmuşdur. Beləliklə, Azərbaycanda milli-dini dəyərlərə qayıdışda, habelə dinin cəmiyyət həyatında roluna baxışda yeni mərhələ başlanmışdır. Bu yeni mərhələ memarlıqda da özünü birüzə verir.

Ümumilli lider Heydər Əliyevin xüsusi diqqət ayırdığı **Bibiheybət məscidi** Bakının Səbail rayonunda yerləşir. Məscid Şirvanşah II Fərruxzad tərəfindən, XIII əsrdə inşa edilmişdir. Məscidin divarına həkk olunmuş kitabədən aydın olur ki, ibadətgah 1281-1282-ci illərdə memar Mahmud ibn Səd tərəfindən inşa edilib. Üçgünbəzli ziyarətgahda VIII imam Rzanın bacısı həzrət Həkimə xanım, imam Museyi Kazımın 3 nəvəsi və Bakının zəngin tacirlərindən olan Hacı Bədir dəfn olunmuşdur. Həkimə xanım, qardaşı imam Rzanın şəhid olmasından sonra təzyiqlərdən yaxa qurtarmaq üçün 3 qardaşı övladı ilə İranın Ənzəli şəhərindən Bakıya gəlmişdir. Bakıda Hacı Bədir adlı zəngin bir tacir xanımı qarşılayır və ömrünün sonunadək bu ailəni himayə edir. O, tanınmamaq üçün Heybət adını qəbul edir və beləliklə Həkimə xanıma müraciət edən insanlar onu Bibheybət (yəni Heybətin bibisi) adlandırırlar. Məscidin adı da buradan götürülmüşdür. Xanım və uşaqlar dünyasını dəyişdikdən sonra

indiki Bibiheybətin ərazisində dəfn edilirlər. Heybət isə öz istəyi ilə xanımın ayaqlarının altında dəfn edilir. 1920-ci ildə Azərbaycanda sovet rejimi qurulduqdan sonra, dinə qarşı mübarizə başladığı üçün 1934-cü ildə Bibiheybət ziyarətgahı dinamitlə dağıdılaraq yerlə-yeksan edilib. Bu zaman həmin ərazinin sakinləri olan şıxlılar (şeyxlilər) gecə ilə digər qəbirləri qorumaq məqsədilə üstünü torpaqla basdırmışdılar. Partlayış zamanı Həkimə xanımın qəbir daşında bir qədər çat yaranmışdır. Məscidin bərpasına Azərbaycan müstəqilliyini qazandıqdan bir neçə il sonra başlanmışdır. Özülü Şirvan şahı tərəfindən qoyulan məscidin qalıqları 1994-cü ildə aşkar edilmişdir. Elə həmin ildə ümumilli lider Heydər Əliyev bu ziyarətgaha gələrək "Qələbə tağları" adlanan tikilinin sökülüb yerində bu məscidin tikilməsi haqqında göstəriş vermişdir. 1995-ci ilin yanvar ayında tağlar tamamilə dağıdılıraq ərazidə ehtiyatla qazıntı işləri aparılır. Fevral ayında Həzrət Həkimə xanım və onun qardaşı övladlarının qəbirləri aşkar olunur. Yerin tərkibinin öyrənilməsi üçün 2 il müddətində geoloji qazıntı işləri aparıldıqdan sonra, məscidin layihəsi hazırlanır. Belə ki, ümumilli lider Heydər Əliyev 23 iyul 1997-ci il, Məhəmməd Peyğəmbərin (s) mövlud günündə məscidə gələrək yeni kompleksin bünövrəsini qoymuşdur. 12 iyul 1998-ci il, Ulu Öndər kompleksin açılışında iştirak etmişdir. Tikilinin ikinci minarəsini Heydər Əliyev öz şəxsi vəsaiti hesabına inşa etdirdiyi üçün həmin minarə "Heydər minarəsi" adlandırılmışdır. Xəzərin sahilində əzəmətlə yüksələn minarələr birşərəfəlidir. Tikili ənənəvi Bakı-Abşeron memarlığı üslubuna xasdır. Layihənin müəllifi Azərbaycan Respublikasının Əməkdar memarı Fəxrəddin Miralaydır. Məscidin birinci mərtəbəsindəki qəbirlərin tam üzərində ikinci mərtəbədə zərih yerləşir. Zərihin olduğu otaq yaşıl rəngə bürünmüşdür. Həyətdə Şərq memarlıq üslubunda tikilmiş tağlar, xüsusilə, göz oxşayır. Kompleksin bir neçə yerdən giriş qapısı və dəhlizləri vardır. Sahəsi 1200 $m^2$ olan məscid 1600 nəfərlik tutuma malikdir. Hər mərtəbəsinə iki mehrab qoyulmuşdur. Məscidin 3 günbəzi, tağları və nəbati ornamentləri Şərq memarlıq üslubuna xas incəliklə tikilmişdir. Dekorativ elementlərlə zəngin olan günbəzlərdə yaşıl və mavi çalarların harmoniyası diqqəti cəlb edir. İnteryeri oyma işləri və Quran ayələri ilə bəzədilib. Günbəzlərin daxili, xüsusilə, Aya Sofiya məbədinin günbəzinin daxili hissəsini xatırladır. Məscidin mehrabında kalliqrafiya sənətinin zərif nümunələri yer alır. Pəncərələrdə və interyerdə Şəki xan sarayında və Gəncədəki Şah Abbas məscidində olduğu kimi ənənəvi Azərbaycan şəbəkə sənətindən istifadə olunmuşdur ki, bu da tikiliyə mistik abu-hava bəxş edərək xüsusi işıq oyunu yaradır. Tavanda və divarlarda əsasən qırmızı, yaşıl və mavi rənglərdən istifadə olunmuşdur. Zamanında kiçik türbə olan Həkimə xanımın ziyarətgahı hal-hazırda, bütün Şərqin möhtəşəm abidəsinə çevrilmşdir.

**Svyatıx Jon Mironosits kilsəsi.** Bakının Yasamal rayonunda, Salyan kazarmaları ərazisində yerləşən, Bakı yeparxiyasının mərkəzi olan, 1908-1909-cu illərdə tikilən və Heydər Əliyevin sərəncamı ilə genişmiqyaslı bərpa edilmiş Svyatıx Jon Mironosits və yaxud Müqəddəs Mürdaşıyan Zənənlər kafedralının tarixi iki mərhələyə bölünür. Birinci mərhələ kilsənin tikildiyi andan (1909, 6 dekabr) 1920-ci ilə qədərki dövrü əhatə edir. Bu dövrdə kilsə Arxangel Mixailin adını daşıyırdı və 206-cı Salyan piyada alayının əsgər və zabitləri üçün tikilmişdi. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Salyan kazarmalarında Qırmızı Ordunun əsgərləri yerləşdirildi. Beləliklə, məbəd ilk bağlanan kilsələrdən biri olmuş, baş keşişi isə güllələnmişdir. Kilsənin tarixinin ikinci mərhələsi isə 1991-ci ildən bu günə qədər olan bir dövrü əhatə edir. Müstəqillikdən sonra məbəd öz fəaliyyətinə başladı.

Təməl daşı 6 may, 1908-ci ildə qoyulmuş kilsənin tikintisi Bakı Hərbi Tikinti Komissiyası tərəfindən Azərbaycanın xeyriyyəçisi və milyonçusu Hacı Zeynalabdin Tağıyevin şəxsi maddi yardımı hesabına həyata keçirilmişdi. Bir ildən sonra tikintisi başa çatdırılan kilsənin memarı Fyodor Mixayloviç Verjbitski olmuşdur. Bina daş və kərpicdən tikilmiş və sinklənmiş dəmirlə üzlənmişdi,

həmçinin zəng qülləsi də daş materialındandır. Arxangel Mixayılın adına daxili məkanda bir taxt yerləşdirilmişdi. General-mayor K. Valter kilsə ərazisində dəfn edildiyi üçün, burada onun xüsusi məqbərəsi yerləşirdi. 1970-ci illərdə kilsədə topoqrafik xəritə anbarı yerləşirdi, anbar ayrı yerə köçürüldükdən sonra isə burada idman zalı qurulmuşdu. 80-ci illərdə məbəd kazarma kimi istifadə olunurdu. 1990-cı ilin 2 mart gecəsində kazarmanın təşkil etdiyi yığıncaqda əsgərlərdən biri yerə sönməmiş siqaret kötüyünü atmış və beləcə məbəddə yanğın baş vermişdi. Kilsə ağır zədə almışdı – damı yanıb uçmuş, divarları çatlamış, döşəməsi də çökmüşdü. 1990-cı il, 20 Yanvar hadisələri zamanı məbədin dam örtüyünə 2 mərmi düşmüşdü. Müstəqillik əldə olunandan sonra, 1991-ci ildə kilsə binası Rus Pravoslav kilsəsinə təhvil verilmişdi. Kilsəyə kafedral kilsə statusu 27 may 2001-ci ildə Rusiyanın Patriarxı II Aleksi tərəfindən verilmişdi. O, bu zaman kilsədə Müqəddəs Mürdaşıyan Zənənlər adına böyük təqdis mərasimi keçirmişdi. Kilsənin yenidən bərpa olunması ümumilli lider Heydər Əliyevin sərəncamı ilə, messenat Aydın Qurbanovun maliyyə dəstəyi hesabına həyata keçirildi. Beləliklə, Müqəddəs Mürdaşıyan Zənənlər kafedralında kompleks təmir və bərpa işləri aparılmışdı – interyerdə oyma daşdan ikonostas ucaldılmış, divar rəsmləri çəkilmiş, lazım olan əşyalar alınmışdı. 2003-cü il, 24 mart tarixində açılış mərasiminin həyata keçirildiyi məbəddə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə, həmçinin diplomatik nümayəndələrin əməkdaşları və mədəniyyət xadimləri iştirak etmişdilər. Bərpa zamanı kilsənin ilkin layihəsi qorunub saxlanmışdı. Yəni, məbəd yeni rus memarlığı üslubunda qalırdı. Bu üslub, qədim rus kilsə memarlığının elementlərini təkrar edən və dekorativ xüsusiyyətləri ilə seçilən bir istiqamət idi.

Məbədin divarları daşoyma sənətinin gözəl nümunələri ilə tərtib edilmişdir. Daş üzərində oyma nümunələrində nəbati ornamentlər, xaç təsvirləri diqqət doğurur. Kilsənin gözoxşayan işıqlandırılmasının səbəblərindən ən ümdəsi qotik üslubun əsas göstəricilərindən olan vitraj pəncərələrdir. Tağlı pəncərələrdən sayrışan işıq şüaları daxili məkanda mistik abu-havanı yaratmaqda mühüm rol oynayır. Vitrajlarda İsa Peyğəmbəri yuyan 7 qadının təsvirləri və nəbati ornamentlər yer alır. Xristian dini inancına görə İsa Peyğəmbər çarmıxa çəkildikdən sonra, onun bədənini xüsusi yağlarla yumaq bu mürdəşir qadınlara tapşırılır. Həmin qadınlar ilk dəfə İsanın qeybə çəkilməsinin şahidi olmuş və bu hadisəni apostollara danışmışlar. Məbədin adı da bu hadisədən qaynaqlanır. Kilsənin divarları boyunca müxtəlif ikonalar göz oxşayır. İkonalarda Məryəm ananın, İsanın və həvarilərinin, xristian sərkərdələrin, imperatorların təsvirləri yer alır. Məbədin tavanı da təsvirlərlə zəngindir. Burada astral motivli ornamentlər yer alır. Həmçinin tavanda imperatorların, müqəddəslərin təsvirlərini müşahidə etmək olar. Burada incildən süjetlər əks olunmuşdur *"Kilsədə demək olar ki, 20-yə yaxın dəmir sütun var. Onların üzərində isə şam yandırmaq üçün xüsusi dəliklər açılıb" [Cəfərli, R.2011.S..10].* Daşdan tikilmiş ikigünbəzli kilsənin birinci günbəzində zəng qülləsi vardır. Məbədin eksteryerində dekorativ karnizlər diqqəti cəlb edir. Kilsəyə mərkəzi girişdən əlavə, iki yan tərəflərdən də giriş mövcuddur.

Nəticə etibarilə demək olar ki, Azərbaycanda dini müxtəlifliyin qorunması hər zaman beynəlxalq səviyyədə yüksək qiymətləndirilmişdir. Ölkəmizin bu sahədə həyata keçirdiyi təcrübə digər dövlətlər üçün də nümunə olmuşdur. Dini abidələrin bərpa edilərək mühafizəsi həm keçmişə, həm də bütövlükdə xalqın milli mədəniyyətinə və dininə sahib çıxmaq deməkdir. Heydər Əliyevin hakimiyyəti illərində bütün dini icmalara bərabər şərait yaradıldığı kimi katolik, pravoslav və yəhudi icmalarına da qayğı göstərilmişdir. Bu baxımdan ölkəmiz tolerantlığın təmin edilməsi və bütün dünyaya yayılması baxımından xüsusi əhəmiyyət daşıyır.

## Ədəbiyyat siyahısı:

1. Abdullayeva, A. (2018). İslam mədəniyyəti: Keçmişdən bu günə. Bakı: Tuna.
2. Abdullayeva, N.; Əbdülrəhimov, R. (2013). Erkən kapitalizm dövrünün memarlığı. Bakı: Şərq-Qərb nəşriyyatı.
3. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi. (2018). Bibiheybət ziyarətgahı. Bakı: Əbilov, Zeynalov MMC.
4. Behbudlu, Ə. (tərtibçi). (2001). Azərbaycan Respublikası məscidlərinin ensiklopediyası. Bakı: Beynəlxalq Əlhuda nəşriyyatı.
5. Cəfərli, R. (2011). İslamın Azərbaycan modeli. Xalq Cəbhəsi, 10.
6. Qənbərov, A. (2019). Azərbaycanda dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları. Bakı: Nurlar nəşriyyatı.

**UOT 72**

# NAXÇIVANIN ORDUBAD BÖLGƏSİNDƏKİ MƏHƏLLƏ MƏSCİDLƏRİNİN MEMARLIQ XÜSUSİYYƏTLƏRİ VƏ QORUNMASI PROBLEMLƏRİ

Məhəmməd Bayramov
Müəllim, doktorant
Naxçıvan Dövlət Universiteti
Bakı, Azərbaycan
mehemmedbayramli996@gmail.com

**Xülasə**

Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanıdılması, milli kimliyin və tarixi irsin qorunması baxımından strateji əhəmiyyət kəsb edir. Bu prosesdə Ordubad rayonundakı məhəllə məscidlərinin mənəvi və memarlıq baxımından rolu xüsusilə önəmlidir. Məqalədə Ordubad bölgəsindəki məhəllə məscidlərinin memarlıq-planlaşdırma xüsusiyyətləri təhlil olunur. Həm ənənəvi plan quruluşları, həm də yerli tikinti materialları və dekorativ üslub, məscidlərin milli memarlıqda tutduğu yeri müəyyən edir. Bu abidələrin xarici auditoriyaya təqdimatı, Azərbaycanın zəngin memarlıq irsinin tanıdılması üçün mühüm vasitədir. Məqalə, həmçinin bu irsin qorunması və gələcək nəsillərə çatdırılması yollarını da müzakirə edir. Bu abidələr təkcə dini tikililər deyil, həm də xalq memarlığının daşıyıcı nümunələridir. Nəticə etibarilə, Ordubad məhəllə məscidləri milli memarlığımızın özünəməxsus nümunələri olmaqla yanaşı, Onların beynəlxalq aləmdə tanıdılması, Azərbaycan mədəniyyətinin təbliğində və milli kimliyin qorunmasında əhəmiyyətli rol oynayır.

**Abstract**

**ARCHITECTURAL FEATURES AND PROTECTION PROBLEMS OF QUARTER MOSQUES IN ORDUBAD DISTRICT OF NAKHCHIVAN REPUBLIC**

Mahammad Bayramov

The promotion of Azerbaijani culture in the international arena is of strategic importance in terms of preserving national identity and historical heritage. In this process, the role of neighborhood mosques in the Ordubad region in terms of moral and architectural aspects is particularly important. The article analyzes the architectural and planning features of neighborhood mosques in the Ordubad region. Both traditional layouts, local building materials and decorative styles determine the place of mosques in national architecture. The presentation of these monuments to a foreign audience is an important means of introducing the rich architectural heritage of Azerbaijan. The article also discusses ways to preserve this heritage and pass it on to future generations. These monuments are not only religious buildings, but also examples of folk architecture. Consequently, the Ordubad quarter mosques are unique examples of our national architecture, and their promotion in the international arena plays an important role in promoting Azerbaijani culture and preserving national identity.

**Açar sözlər:** Ordubad, məhəllə məscidləri, memarlıq, qorunma problemləri, Naxçıvan
**Keywords:** Ordubad, neighborhood mosques, architecture, preservation issues, Nakhichevan
**Ключевые слова:** Ордубад, махаллинские мечети, архитектура, проблемы сохранения, Нахичевань.

Tarixi-memarlıq abidələri hər bir xalqın mədəni kimliyinin əsas sütunlarını təşkil edir. Bu tədqiqat işi Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində yerləşən məhəllə məscidlərinin memarlıq xüsusiyyətlərinin öyrənilməsinə və onların müasir dövrdə qorunması ilə bağlı mövcud problemlərin təhlilinə həsr olunmuşdur. Rayonda yerləşən məhəllə məscidləri təkcə dini ibadət məkanı deyil, həm də xalq memarlığının, şəhərsalma ənənələrinin və sosial-mədəni həyatın daşıyıcısıdır. Əsas diqqət XVIII-XIX əsrlərə aid edilən Əngəş, Üçtürləngə və məscidlərinin memarlıq planı, konstruktiv elementləri və işıqlandırma sistemləri kimi əsas xüsusiyyətlərinin araşdırılmasına yönəlmişdir. Tədqiqat zamanı həm tarixi mənbələrə, həm də yerində aparılmış müşahidələrə əsaslanan müqayisəli təhlil aparılmış, keçmiş və indiki dövrlərə aid fotoşəkillərdən istifadə olunmuşdur. Bununla yanaşı, zamanla baş verən dəyişikliklər nəticəsində bu məscidlər bir çox hallarda baxımsız vəziyyətə düşmüş və müxtəlif müdaxilələrə məruz qalmışdır. Bu tədqiqat işinin məqsədi Ordubadın məhəllə məscidlərinin memarlıq xüsusiyyətlərini araşdırmaq, onların qorunub saxlanması vəziyyətini qiymətləndirmək və mövcud problemləri üzə çıxararaq bu sahədə təkliflər irəli sürməkdir. Tədqiqat zamanı həm sahə müşahidələri, həm də fotoqrafik materiallardan istifadə olunmuş, tarixi və müasir vəziyyət müqayisəli şəkildə təhlil edilmişdir. Türk səyyahı Övliya Çələbi XVII əsrdə Naxçıvanda olarkən qeydlərində Naxçıvan şəhərində 40 məhəllə məscidinin olduğunu yazmışdır [3, s. 231-232]. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə Naxçıvan tarixinin, onun memarlıq abidələrinin öyrənilməsini diqqətdə saxlamışdır. Görkəmli siyasi xadim öz uzaqgörənliyi ilə tarix və mədəniyyət abidələrinin tədqiqini istiqamətləndirmişdir.

**Əngəş məscidi.** Əngəş məscidi Naxçıvanın Ordubad rayonu ərazisində yerləşən tarixi məhəllə məscidlərindən biridir və XIX əsr memarlıq ənənələrinin nümunələrindən sayılır. Bu məscid həm plan quruluşu, həm də memarlıq xüsusiyyətləri baxımından regional dini tikililərin inkişaf mərhələlərini əks etdirir.

Məscid düzbucaqlı formalı planda inşa edilmişdir və əsas giriş hissəsi cənub tərəfdən təmin olunur. Binaya daxil olduqda, ensiz bir dəhliz vasitəsilə əsas ibadət zalına keçid mümkündür. Salon da kvadrat formada olub, daxildə yerləşən iki sıra sütunla üç hissəyə bölünmüşdür. Sütunlar həm tavanın daşınmasına xidmət edir, həm də məkanın bölünməsində funksional rol oynayır.

Məscidin qərb divarında mehrab və tağça yerləşir. Cənub divarında yerləşən dörd pəncərə, onlardan üçünün aşağıda və birinin yuxarıda yerləşməsi, məsciddə ikiqat işıqlandırma sistemindən istifadə olunduğunu göstərir. Belə işıqlandırma sistemi XVIII əsr məscidlərinə xas xüsusiyyətlərdən biri olub, gün işığının interyerdə optimal şəkildə paylanmasını təmin edir.

Əngəş məscidi yerin relyefinə uyğun olaraq, bir qismi kürsülük üzərində, digər tərəfi isə kürsülük olmadan inşa edilmişdir. Bu tipdə olan məscidlər sırasına Ordubad şəhərindəki Təkeşiyi məscidinidə aid etmək olar.

Məscidin şimal hissəsinə sonradan əlavə olunmuş otaq isə hazırda mətbəx kimi istifadə olunur. Bu hissədən də ayrıca giriş qapısı mövcuddur. Məscidə edilən digər bir müdaxilə isə giriş hissəsinin açıq balkon formasında yenidən qurulması cəhdidir ki, bu da binanın ilkin memarlıq simasına müəyyən dəyişikliklər gətirmişdir.

Əngəş məscidinin inşasında əsas tikinti materialı kimi çiy kərpicdən istifadə olunmuşdur. Binanın kitabəsi mövcud olmasa da, memarlıq üslubu və inşaat texnikasına əsasən, məscid XIX əsrin birinci yarısına aid edilə bilər.



Şəkil 1. Əngəş məscidinin planı (M.Bayramov)

Məscidin ümumi memarlıq üslubu sadə və funksionaldır. Lakin işıqlandırma sistemindəki bənzərliklər, bəzi konstruktiv elementlərin oxşarlığı XVIII əsr məscidləri ilə olan əlaqələri göstərir. Bu da onun keçid dövrünün dini memarlıq nümunəsi kimi öyrənilməsinə zəmin yaradır. Əngəş məscidinin düzgün qorunmaması və qeyri-peşəkar mütəxəssislər tərəfindən həyata keçirilən yanlış müdaxilələr nəticəsində aşınmalar meydana gəlmişdir. Şəkildə də göstərildiyi kimi, bu müdaxilələr primitiv xarakter daşıyır. Hazırda məscidin həm daxili, həm də xarici hissələrində əhəmiyyətli struktural problemlər mövcuddur.

1




Şəkil 2. Əngəş məscidi. 1-keçmiş fotoşəkili; 2- indiki fotoşəkili (Məhəmməd Bayramov)



Şəkil 3. Əngəş məscidinin daxili görünüşü (Məhəmməd Bayramov)

**Üçtürləngə məscidi.** Üçtürləngə məhəllə məscidi Ordubad şəhərinin şimal-şərq hissəsində, eyni adlı Üçtürləngə məhəlləsində yerləşir. Yerli əhali arasında bu tikili “Ağa meydanının məscidi” kimi tanınır ki, bu da onun ictimai həyatda mühüm yer tutduğunu göstərir. Tədqiqatçılar bu məscidi “Üçtərəngi” də adlandırmışdılar (2, s. 58). Məscid plan quruluşuna görə ikizallı sistemə malikdir və giriş hissəsi şimalda yerləşir.

Giriş qapısı ibadət salonuna açılır. Məscidin tavan konstruksiyası divarlarla yanaşı, mərkəzdə yerləşən üç sütunun üzərində dayanır. Bu, həm konstruktiv sabitlik, həm də məkanın funksional zonalara bölünməsi baxımından əhəmiyyətlidir.

İbadət zalı düzbucaqlı formada olub, çoxbucaqlı kəsimli iki sıra taxta dirəklərlə üç hissəyə bölünmüşdür. İbadət zalının ümumi ölçüləri 10,8 × 8,54 metrdir ki, bu da onu orta ölçülü məhəllə məscidləri kateqoriyasına daxil edir. Mehrab məscidin cənub divarında yerləşir və onun sağ və sol tərəflərində pəncərələr yerləşdirilmişdir. Bu pəncərələr həm simmetriya, həm də təbii işıqlandırma baxımından mühüm əhəmiyyət daşıyır. Şərq divarında isə biri digərinin üzərində yerləşdirilmiş iki dördkünc formalı pəncərə mövcuddur. Bu tip yerləşdirilmiş işıqlandırma sistemi Ordubad şəhərinin digər orta əsr məscidlərində də rast gəlinən arxitektur elementlərdən sayılır və bölgənin memarlıq üslubuna xas xüsusiyyətlərdən biridir. Məscidin girişində və ümumilikdə binada qorunub saxlanmış memarlıq detallarına əsasən, tikilinin inşaat texnikası və üslubu XVIII-XIX əsrlərə aid edilə bilər. Xüsusilə işıqlandırma sistemindəki bənzərliklər və memarlıq elementləri, onun həmin dövrün dini memarlıq ənənələrinin davamı olduğunu göstərir. Taxta sütunların forması, mehrabın yerləşimi və plan strukturu bu tarixi dövrün memarlıq xüsusiyyətlərini aydın şəkildə əks etdirir. Bu məscidlərin memarlıq elementləri azərbaycanın digər abidələri ilə bənzər (5, s. 34; 4, s. 190) Üçtürləngə məscidində qorunma işlərinin düzgün həyata keçirilməməsi nəticəsində məscidin bir çox hissəsində struktur dəyişikliklər yaranmışdır. Bu, abidənin quruluşu üçün ciddi təhlükə yaradır. Üstəlik, qorunma işlərində ciddi çatışmazlıqlar mövcuddur.

1 2



Şəkil 4. Üçtürləngə məscidi. 1-keçmiş fotoşəkili; 2- indiki fotoşəkili (Məhəmməd Bayramov).

Çiy kərpicdən tikilmiş Üçtürləngə məscidinin seysmik davamlılığını artırmaq məqsədilə inşasında ağac konstruksiyalardan istifadə edilmişdir. Bu tip ağac konstruksiyasından Əngəş məscidindən başqa digər məscidlərdə də istifadə olunmuşdur. Araşdırmalar göstərir ki, Ordubad məscidlərin memarlıq elementləri ilə Səlcuq memarlığı arasında müəyyən bənzərlik var (1, s. 179-182).



Şəkil 5. Üçtürləngə məscidində istifadə olunmuş ağac konstruksiya (Məhəmməd Bayramov).

**Nəticə**

Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Ordubad rayonu ərazisində yerləşən məhəllə məscidləri öz plan-memarlıq quruluşuna, konstruktiv elementlərinə görə regionun dini memarlıq ənənələrini əks etdirir. Əngəş və Üçtürləngə məscidləri nümunəsində bu memarlıq xüsusiyyətləri daha aydın şəkildə müşahidə olunur. Hər iki məsciddə XVIII-XIX əsrlər üçün xarakterik olan ikiqat işıqlandırma sistemi, taxta sütunlu daxili bölmələr və sadə dekorativ üslub diqqəti cəlb edir. Eyni zamanda, tədqiqat göstərir ki, bu məscidlər zamanla müxtəlif konstruktiv

dəyişikliklərə və qeyri-peşəkar müdaxilələrə məruz qalmış, bir sıra hallarda onların ilkin memarlıq üslubu pozulmuşdur. Fotoşəkillər əsasında aparılan müqayisə bu dəyişiklikləri vizual olaraq təsdiqləmişdir. Nəticə olaraq, Ordubadın məhəllə məscidlərinin yalnız tarixi abidə kimi deyil, həm də canlı mədəni irs kimi qorunmasına ehtiyac vardır. Bu baxımdan müvafiq bərpa proqramlarının hazırlanması, memarlıq baxımından peşəkar yanaşmaların tətbiqi və yerli icmaların maarifləndirilməsi mühüm əhəmiyyət daşıyır.

**Ədəbiyyat siyahısı:**

1. Bakirer Ömür. (1920). A Study On The Use Of Brickbonds In Anatolian Seljuk Architecture // Ancara: Journal of the Faculty of Architecture, Volume 6. Number 2, – p. 143-182.
2. Салаева Р. Дж. (1989). Ордубад – истоки и формирование / Р. Дж. Салаева. – Баку: Элм, – 114 с.
3. Çələbi Ö. Səyahətnamə. (1989). Azərbaycan tarixi üzrə qaynaqlar. – Bakı: Azərbaycan Universiteti, s. 230-238.
4. Səfərli H.F. (2021). Ordubad bölgəsinin epiqrafik abidələri / H.F Səfərli. Naxçıvan: Əcəmi, 336 s.
5. Salamzadə Ə.V.(1958). Azərbaycanın memarlıq abidələri / Ə.V.Salamzadə. – Bakı: Azərnəşr, – 92 s.

**UOT 069**

# ŞƏXSİ KOLLEKSİYALARIN YARANMASI VƏ İNKİŞAFINA TARİXİ BAXIŞ

Nərgiz Kərimova Şamil qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
krimovanrgiz5@gmail.com

**Xülasə**

Tarixin qorunub saxlanılması sadəcə insanların dünyanı öyrənməsi və dərk etməsi ilə məhdudlaşmır. İstər bəşəriyyət tarixi, istərsə də dünyanın təbii tarixi olsun gələcək nəsil üçün tarixi qorumaq hər birimizin mənəvi borcu və məhsuliyyətidir. Bu səbəbdən muzeylər mədəni və tarixi irsin qorunub saxlanılmasına və nümayiş etdirilməsinə həsr olunmuşdur. Muzeylərin əsas vəzifəsi gələcək nəsillərin öyrənməsi və estetik zövq alması üçün mövcud olan obyektləri toplamaq, qorumaq və bərpa etməkdir. Bu proseslər geniş bilik və təcrübə tələb edən çoxşaxəli və mürəkkəb işdir. Məqalədə şəxsi kolleksiyaların tarixinə, onların yaranmasını zəruri edən səbəbləri qeyd edəcəyik. Çünki şəxsi muzeyləri öyrənmək üçün ilk öncə şəxsi kolleksiyaların kökünə enmək lazımdır.

**Abstract**

**A HISTORICAL VIEW OF THE CREATION AND DEVELOPMENT OF PERSONAL COLLECTIONS**

Nargiz Karimova

The preservation of history is not limited to people learning and understanding the world. It is the moral duty and productivity of each of us to preserve history for future generations, whether it is the history of mankind or the natural history of the world. For this reason, museums are dedicated to the preservation and demonstration of cultural and historical heritage. The main task of museums is to collect, preserve and restore existing objects for the study and aesthetic enjoyment of future generations. These processes are multifaceted and complex work that requires extensive knowledge and experience. In the article, we will outline the history of private collections and the reasons that made their creation necessary. Because in order to study private museums, it is first necessary to go to the roots of private collections.

**Аннотация**

**ИСТОРИЧЕСКИЙ ВЗГЛЯД НА СОЗДАНИЕ И РАЗВИТИЕ ЛИЧНЫХ КОЛЛЕКЦИЙ**

Наргиз Керимова

Сохранение истории не ограничивается лишь помощью людям в познании и понимании мира. Моральный долг и обязанность каждого из нас сохранить историю для будущих поколений, будь то история человечества или естественная история мира. По этой причине музеи призваны сохранять и демонстрировать культурное и историческое наследие. Основная задача музеев собирать, сохранять и реставрировать существующие объекты для обучения и эстетического наслаждения будущих поколений. Эти процессы представляют собой многогранную и сложную работу, требующую обширных знаний и опыта. В статье мы рассмотрим историю частных коллекций и причины, побудившие их создать. Потому что для изучения частных музеев сначала нужно докопаться до истоков частных коллекций.

**Açar sözlər:** muzey, şəxsi muzeylər, kolleksiya, kolleksiyaçılıq, şəxsi muzeylərin tarixi.
**Keywords:** museum, private museum, collection, collecting, history of private museum.
**Ключевые слова:** музей, частные музеи, коллекция, коллекционирование, история частных музеев.

İncəsənət insanların ruhunun dərinliklərinə toxunmaq və onların baxış tərzini dəyişmək qabiliyyətinə malikdir. Məhz buna görə də inanılmaz şəxsi incəsənət kolleksiyalarının yaranma səbəbi də bu qüsursuz xüsusiyyətdir. Bütün bunlara baxmayaraq sözügedən kolleksiyaçıların və şəxsi muzey təsisçilərinin əksəriyyəti bənzər düşüncəni çatdırırlar: *Kolleksiyaları bağlamaq sənətin məqsədinə ziddir. Onlar dünyanı içəri buraxmaq və bu gözəl səyahətin bir hissəsi olmaq istəyirlər.*

Kolleksiyaçılar öz kolleksiyalarını dünyaya çatdıra bilmək üçün özəl qurumlar yaratmağa başladılar. Qeyri-ənənəvi və yeni olan şəxsi muzeylər təsvir etdiyi rəvayətlər və təşviq etdiyi söhbətlər, o cümlədən, büdcələr və üstünlük təşkil edən cəmiyyət normaları ilə məhdudlaşmır. Şəxsi muzeylərin əsas səbəbi sadəcə zənginlik və uğur deyil. Baxmayaraq ki, müəyyən ianələr və gələcək ailələr tərəfindən maddi yardımlar olunur. Bu da qurumların “sağ qalmasını” təmin edir. Əsas məqsəd kolleksiyaçıların ideyasını reallığa çevirmək üçün vaxt səy və ən əsası onların baxışını anlayan insanları tapmaq lazımdır.

Şəxsi muzeylərin inkişafı bəşəriyyətin mədəniyyət tarixinin mühüm tərkib hissəsidir. Onların zadəganların şəxsi kolleksiyalarından müasir interaktiv məkanlara təkamülü təkcə sosial-iqtisadi şəraitdəki dəyişiklikləri deyil, həm də incəsənətin, tarixin və elmin cəmiyyətdəki rolunun dərk edilməsində dəyişiklikləri əks etdirir. Şəxsi muzey müasir mədəniyyətin fenomeni kimi indiki muzey mənzərəsinin tamamilə tanış formasına çevrilmişdir. Onun əsas xüsusiyyətləri intuitivdir və xüsusi izahat tələb etmir. Eyni zamanda, şəxsi muzeyin əsas xüsusiyyətlərinin müəyyən edilməsi problemi dövlət muzeyindən daha mürəkkəbdir.

Fəaliyyətinin əsasını kolleksiyanın tərkibinə, onun qorunub saxlanılması və yenilənməsi prinsiplərinə, təşkilatın inkişaf strategiyasına görə şəxsi məsuliyyət prinsipi təşkil edən muzeylər və muzey tipli qurumlar qrupu şəxsi muzey hesab etmək məqsədəuyğundur [Сапанжа, О. С., 2020].

Gələcək muzeylərin prototipinə çevrilən ilk şəxsi kolleksiyalar qədim dövrlərdə yaranıb. Hətta o zaman Roma və Yunanıstanın varlı vətəndaşları sənət əsərləri, artefaktlar və qalıqlar toplayırdılar. Qədim Yunanıstanda kolleksiyalar məbədlərdə və ya şəxsi mülkiyyətdə yaradılırdı. Ən məşhurlarından biri Delfidəki məbədlə əlaqəli kolleksiyadır. Müxtəlif şəhərlərdən tanrılara çoxsaylı qurbanlar, o cümlədən heykəllər, qablar, zinət əşyaları və silahlar var idi ki, bunların çoxu təkcə dini deyil, həm də bədii dəyərə malikdir. Bu eksponatlar şəhər-dövlətlər tərəfindən xüsusi olaraq tikilmiş xəzinələrdə saxlanılırdı və onların zənginlik, qüdrət və təqva simvolu idi.

Qədim Romada varlı patrisilər Yunanıstandan və digər fəth edilmiş ərazilərdən heykəllər, tunclar və sənət əsərləri toplayırdılar. Ümumiyyətlə, romalılar ictimai yerlərdən başqa öz evlərində və malikanələrində də sənət kolleksiyalarını saxlayırdılar. Məsələn, Herkulaneumdakı qədim malikanə olan Papirus malikanəsində 85 heykəl var idi ki, onlardan 22-si mərmər, 63-ü tuncdan idi [Harris W.V.]. Bu kolleksiyalar tez-tez evlərin atriumlarında və ya bağlarda nümayiş etdirilirdi və müəyyən insanlar dairəsi üçün açıq ola bilərdi. Sənət əsərlərinə baxmaq üçün evə çoxlu sayda ziyarətçinin gəlməsi yüksək sosial statusun əlaməti hesab olunurdu.

Roma siyasətçisi və incəsənətin hamisi Qay Asinius Pollio, tarixi mənbələrə görə, Yunan heykəllərinin əhəmiyyətli bir kolleksiyasını topladı və onları ictimaiyyətə nümayiş etdirdi. Xüsusilə,

Yaşlı Plini özünün Təbiət Tarixində (latınca Naturalis Historia) qeyd edir ki, Asinius Pollio ehtiraslı və enerjili bir insan olmaqla, öz abidələrini tamaşaçılar üçün mümkün qədər cəlbedici etməyə çalışırdı. Onun kolleksiyasına Arcesilaus, Cleomenes, Stefanus, Touriscus və başqalarının əsərləri daxil edilmişdir. Bu sənət əsərləri Romadakı Atrium Libertatis-də yerləşdi və ictimaiyyətə baxmağa açıq idi [Pliny the Elder].

Lakin kolleksiyaların sistemləşdirilməsi çox sonralar – İntibah dövründə başladı. XV-XVI əsrlərdə İtaliyada zadəgan ailələri, xüsusilə Florensiyada Mediçi kimi nəcib ailələr rəsm, heykəltəraşlıq, əntiq əşyalar və zərgərlik məmulatlarından ibarət ən zəngin sənət kolleksiyalarını formalaşdırdılar. Bu toplanan sərgi ən çox şəxsi saraylarda və malikanələrdə keçirilirdi və yalnız dəvət olunmuş insanların seçilmiş dairəsi - adətən aristokratiya üzvləri, alimlər və sənətçilər üçün əlçatan idi. Mediçi ailəsi İntibah dövründə incəsənətin himayəsi və dəstəyinin inkişafında əsas rol oynamışdır. Lorenzo il Maqnifiko Botticelli, Mikelancelo və Leonardo da Vinçi kimi ustaları fəal şəkildə dəstəkləyirdi və sənət əsərlərinin özü də onların şəxsi kolleksiyalarında və Palazzo Mediçi Riccardi kimi saraylarında saxlanılırdı. “Belə kolleksiyaya misal olaraq 40-dan çox sənət əsəri və təbii eksponatlarla bəzədilmiş Vekkio Sarayında Françesko I de Mediçinin şəxsi kabinetini göstərmək olar. “Studiolo” kimi tanınan bu ofis yalnız seçilmiş bir neçə nəfər üçün əlçatan idi və sahibinin intellektual və mədəni incəliyinin simvolu kimi xidmət edirdi” [4].

Sonrakı mərhələdə XVI-XVII əsrlərdə Avropada Kunstkameras (alman dilindən Kunstkammer – “incəsənət otağı”) xüsusilə populyarlaşdı. Bunlar sənət əşyaları, doldurulmuş heyvanlar, minerallar və elmi alətlər də daxil olmaqla bir növ “maraqlar kabineti” idi. Şəxsi xarakter daşısalar da, muzey işinin əsasını məhz belə kolleksiyalar qoydu. Belə kolleksiyaya misal olaraq XVI əsrdə hersoq II Ferdinand tərəfindən yaradılmış Avstriyadakı Ambras qəsrindəki “Chamber of Art and Curiosities” göstərilə bilər. Bu kolleksiyaya silahlar, portretlər, təbii əşyalar, maraqlar, elmi alətlər və musiqi alətləri kimi müxtəlif əşyalar daxil idi. O, dünyanın ən qədim muzeylərindən biri hesab olunur və orijinal yerində qorunub saxlanılır [5].

Bir çox ölkələrin kral kolleksiyaları əvvəlcə şəxsi kolleksiyaların ən möhtəşəmi hesab olunurdu. Hal-hazırda isə onlar əsasən dövlət mülkiyyətindədir. Britaniya Kral Kolleksiyası Britaniya Kral ailəsinin şəxsi mülkiyyətindən fərqlənməsinə baxmayaraq Tacın himayəsində qalır. O dövrdəki kolleksiya qarışıq idi. Belə ki, buraya maraqlar kabineti, sənət və indi təbiət tarixi və ya elmi kolleksiya adlandıracağımız mühüm əsərlər və əşyalar daxil idi. Bunlarlar kral ailəsi tərəfindən yaradılmışdır. Lakin da kiçik olanlar isə tacirlər və alimlər tərəfindən yaradılmışdır. Kolleksiyaçıların zövqləri və vərdişləri rəssamların tələbini təmin edərək formalaşmışdır. Bu da hansı sənətin istehsal olunduğunu müəyyən etməkdə mühüm rol oynayırdı. Bir çox əşyalar kolleksiya bazarı üçün hazırlanmışdır. Buna nümunə olaraq medallar, oymalar, müasir həkk olunmuş qiymətli daşlar, kiçik lövhələr, tunc heykəlcikləri qeyd etmək olar.

XVIII əsrin Maarifçilik dövrü biliyi populyarlaşdırmaq istəyi ilə yadda qaldı. Bəzi şəxsi kolleksiyalar ictimaiyyətə açılmağa başladı. Ən parlaq nümunələrdən biri Hans Sloane-nin şəxsi kolleksiyası əsasında 1753-cü ildə əsası qoyulmuş Britaniya Muzeyidir. Muzey dövlət statusu alsa da, onun görünüşü bir çox kolleksiyaçıları oxşar qurumlar yaratmağa ruhlandırdı. Aparılan araşdırmalar nəticəsində XVIII əsrə qədər bütün varlı insanların evlərində rəsmlərdən tutmuş çiniyə qədər müxtəlif əşyalar mövcud idi. Bu da onların sənət kolleksiyalarının bir hissəsini təşkil edirdi. Alimlər qeyd edirlər ki, burada mövcud olan sənət əşyaları xeyli böyük, hətta nəhəng idi.

Təbiət Tarixi Muzeyinin saytındakı «Re-examining Sir Hans Sloane's collections» məqaləsinə əsasən, 1753-cü ildə Hans Sloane özünün geniş kitablar, çap işləri, mədəniyyət obyektləri və təbiət

tarixi ilə bağlı maraqlı kolleksiyalarını dövlətə satmışdır. Bu kolleksiya Britaniya Muzeyi üçün əsas oldu və sonralar Təbiət Tarixi Muzeyi və Britaniya Kitabxanası üçün də əsas oldu [6]. Muzey 1759-cu ildə ictimaiyyətə açıldı və o vaxtdan bəri incəsənət, arxeologiya, antropologiya, tarix və təbiət elmlərini əhatə edən zəngin kolleksiyaları özündə cəmləşdirən dünyanın ən böyük və ən əhəmiyyətli muzeylərindən birinə çevrildi. Britaniya Muzeyinin tarixi əhəmiyyəti ondan ibarətdir ki, o vaxta qədər olduğu kimi təkcə aristokratlar və ya elm adamları deyil, hamı üçün açıq olan ilk muzey idi. Bu, onu təhsilə və geniş insanlar üçün biliyin əlçatanlığına yönəlmiş unikal bir quruma çevirdi.

Amerikada Qızıl dövrün yeni varlı sənayeçiləri zadəgan və kral ailələrinə məxsus olan sənəti əldə etmək üçün Avropaya səyahət edirdilər. İntibah dövrünə qədər antik əşyaların toplanması kolleksiya yığmağın ən yüksək forması hesab olundu. Bununla yanaşı XV əsrin sonlarından başlayaraq XVIII əsrin sonlarına qədər kolleksiyaçılar kitab, rəsm və çap əsərləri toplayırdılar. Lakin bununla da kifayətlənməyib kolleksiyaçılar Avropadan yeni əsərlər toplamağa meyl edirdilər. Səyahət edənlərdən Jay Gould, J.P.Morgan, Henry Clay Fricki nümunə göstərə bilərəm. Onlar səyahət nəticəsində topladıqları sənət kolleksiyalarını özlərinin bağışlamağa kömək etdikləri binalarda dərhal ictimaiyyətə nümayiş etdilər. Bununlada ictimaiyyətə təqdim edilən bir şəxsi kolleksiya yarandı.

XIX əsr şəxsi kolleksiyaların qızıl dövrü oldu. Dünyanın hər yerindən sənayeçilər, xeyriyyəçilər və aristokratlar öz muzeylərini yaratmaq üçün yarışırdılar. Henry Frick və C.P. Morgan kimi amerikalı himayədarlar xüsusi rol oynadılar. Onların muzeyləri (Nyu-Yorkdakı Frik Kolleksiyası kimi) mədəniyyətdə şəxsi təşəbbüsün simvolu oldu.

Henry Clay Frick Amerikalı sənayeçi və sənət kolleksiyaçısı idi. 1919-cu ildə, ölümündən sonra, Nyu-Yorkun Beşinci prospektindəki evi muzeyə çevrildi və 1935-ci ildə The Frick Collection adı ilə ictimaiyyətə açıldı. Muzeydə rəsmlər, heykəltəraşlıq və dekorativ sənətlər də daxil olmaqla təxminən 1800 sənət əsəri var ki, bunların çoxu şəxsən Frik tərəfindən alınıb. Açılışından bəri kolleksiya sonrakı satınalmalar və ianələr hesabına əhəmiyyətli dərəcədə genişləndi.

Con Pierpont Morgan amerikalı bankir və incəsənət kolleksiyaçısı idi. Onun kolleksiyasına sənət əsərləri, əlyazmalar və kitablar daxil idi, onların çoxunu şəxsən əldə etmişdir. Onun ölümündən sonra kolleksiyanın böyük hissəsi 1924-cü ildə ictimaiyyətə açılan Pierpont Morgan Kitabxanasına bağışlandı. Morqan kitabxana, muzey və şəxsi ofis elementlərini birləşdirən, ziyarətçilərə unikal təcrübə təqdim edən məkan yaratmağa çalışırdı.

Beləliklə, XIX əsrdə şəxsi muzeylərin yaradılması mədəniyyət və incəsənətin inkişafında mühüm rol oynamışdır. Onlar ictimaiyyətə əvvəllər yalnız bir neçə seçilmiş sənət əsərlərinə giriş imkanı verdilər. Bundan əlavə, bu muzeylər bilik və mədəni mübadilənin yayılmasını təşviq edən təhsil və tədqiqat mərkəzlərinə çevrilmişdir.

İkinci Dünya Müharibəsindən sonra bir çox özəl muzeylər ya milliləşdirildi, ya da dövlət fondlarının bir hissəsi oldu. Lakin 1970-ci illərdən etibarən özəl muzey biznesinə yeni maraq dalğası yaranıb. Yalnız kolleksiyaçılar tərəfindən deyil, həm də fondlar, korporasiyalar və hətta rəssamlar tərəfindən yaradılan muzeylər yaranır (məsələn, İspaniyada Salvador Dali Muzeyi).

Hal-hazırda müasir dövrə nəzər salsaq görə bilərik ki, şəxsi sənət muzeyləri çox zaman öz kolleksiyasını toxunulmaz saxlamaq istəyən, onun necə, nə formada nümayiş etdirildiyinə nəzarət etmək və ictimaiyyətlə paylaşmaq istəyən fərdin və ya cütlüyün şəxsi sənət kolleksiyasıdır. Şəxsi kolleksiyaçılar öz kolleksiyalarını dövlət qurumlarına bağışlamaq əvəzinə özləri üçün muzey yaratmağı daha sərfəli hesab edirlər.

Şəxsi muzeylərin müasir inkişaf mərhələsi yeniliklərlə səciyyələnir. Rəqəmsal texnologiyalardan, virtual turlardan və onlayn sərgilərdən istifadə özəl muzeyləri qlobal auditoriya üçün əlçatan edir. Eyni zamanda, yerli mədəniyyətə və özünəməxsusluğa maraq bütün dünyada kiçik, lakin unikal muzeylərin yaradılmasına gətirib çıxarır. Bir çox şəxsi muzeylər sərgi salonlarının, təhsil sahələrinin və mədəniyyət mərkəzlərinin funksiyalarını birləşdirərək yaradıcı sənaye mərkəzlərinə çevrilir. Bu, muzeylərin anbarlardan dialoq və özünü identifikasiya üçün yaşayış məkanlarına çevrilməsini əks etdirir.

2000-ci ildən bəri dünya üzərinə 300-dən çox şəxsi incəsənət muzeyi yaradılıq. Belə ki, incəsənət sahəsi ilə bağlı məşğul olan kolleksiyaçılar öz kolleksiyalarını ictimaiyyətə açır. Lakin bu proses bir çox mübahisəyə səbəb olmuşdur. Bəzi tərəf tənqidçilər qeyd edir ki, kolleksiyaçılar incəsənətə olan bağlılığını cəmiyyətlə bölmək üçün xeyriyyəçi jest edirlər. Bu jest Avropadakı incəsənət müəssisələrinə dövlət tərəfindən yerli müəssisələrə verilən qarşılıqsız maliyyə vəsaitinin azaldılmasıdır. Digər tərəf tənqidçilər qeyd edir ki, şəxsi muzeylər neo-aristokratik müəssisələrdir. Bu müəssisələr ksəkin şəkildə artan iqtisadi bərabərsizliyi mədəni bərabərsizliyə çevirməkdə əsas rol oynayırlar. Geniş resusa malik olan şəxsi muzeylər sənət bazarında dövlət muzeylərini geridə qoyur. Tənqidçilərin fikrinə görə, şəxsi muzeylər ictimaiyyətin deyil, super varlıların zövqünü və maraqlarını əks etdirir. Lakin bir çox varlı kolleksiyaçılar öz şəxsi kolleksiyalarını saxlamaqda çətinlik çəkir və daha çox ictimaiyyətə çevrilməyə meyilli olurlar. Ancaq mövzu ziyarətçi təcrübəsi və idarəetmə məsələlərinə gəldikdə “ictimai” mənası ən yaxşı halda sürüşkən ola bilər.

Beləliklə şəxsi muzeylər, qlobal sərvət bölgüsü, sosial bərabərsizlik və mədəni siyasət çərçivəsində təxirəsalınmaz mübahisələrin yerlərini təqdim edir. Lakin bu güclü normativ mövqeyləri dəstəkləmək üçün onların yüksəlişi ilə bağlı emprik təqdiqat, yəni əldə olunan biliyin təcrübə əsasında öyrənilməsi çox azdır. Onların yaranması və institusionallaşması haqqında çox az tədqiqat aparılmışdır. Bununla yanaşı əldə olunan məlumatlar da muzeyşunaslıq, sosiologiya, iqtisadiyyat kimi elmlərə müxtəlif cür səpələndiyi üçün nəzəri və metodoloji məsələrlə sistemli əlaqəni çətinləşdirir. Bununla yanaşı şəxsi muzey sahibləri öz müəssisələrinin təşkilatı strukturunu, kolleksiya fondlarını və maliyyə modelini tez-tez ictimaiyyətdən gizlədirlər. Buradan belə nəticə çıxara bilərik ki, muzeylərin aydın tərəfini görmək üçün tədqiqat aparmaq zəruri hallardan biridir. Lakin belə bir açıq tərəfin olmaması potensial olaraq məna çaşqınlığına, o cümlədən, müxtəlif təşkilatların qruplaşmasına gətirib çıxarır.

## Ədəbiyyat sıyahısı:

1. Сапанжа, О. С. (2020). Частный музей повседневной культуры как новый нарратив. *Музей. Памятник. Наследие,* (1), 5-13

2. Harris W.V. Prolegomena to a Study of the Economics of Roman Art. American Journal of Archaeology 2015 Volume 119, Number 3, 395-417. DOI: 10.3764/aja.119.3.0395

3. The Natural History. Pliny the Elder. John Bostock, M.D., F.R.S. H.T. Riley, Esq., B.A. London. Taylor and Francis, Red Lion Court, Fleet Street. 1855.

*İnternet resusları*

4. Rediscovering Francesco de’ Medici’s private Renaissance room. https://blog.oup.com/2019/03/rediscovering-francesco-de-medicis-private-renaissance-room/?utm_source

5. Herzlich Willkommen auf Schloss Ambras Innsbruck! https://www.schlossambras-innsbruck.at/

6. Pullar Jennifer. (18 January 2024). Re-examining Sir Hans Sloane’s collections. https://www.nhm.ac.uk/discover/news/2024/january/reexamining-sir-hans-sloanes-collections.html

**UOT 338.46:316.7**

# MÜASİR DÖVRDƏ SOSİAL MƏDƏNİ SAHƏLƏRDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN AKTUAL PROBLEMLƏRİ

Şirinbəy Əliyev Hacıəli oğlu
Dosent
Nəzrin İsgəndərova Cavanşir qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
isgenderlinezrin@gmail.com

**Xülasə**

Bu gün sosial və mədəni sahələrdə sahibkarlıq fəaliyyəti həm yeni bazar imkanlarının yaranması, həm də rəqabətə davamlı xidmətlərin inkişafı ilə müşahidə olunur. Məqalədə mədəniyyət, turizm, idman və sosial innovasiyalar kimi sahələrdəki sahibkarlıq təşəbbüslərinin qarşılaşdığı əsas çətinliklər – qanunvericilikdəki boşluqlar, maliyyə çatışmazlığı, rəqəmsallaşma problemləri və kadr çatışmazlığı – təhlil olunur və onların aradan qaldırılması yolları göstərilir.

**Abstract**

## CURRENT ISSUES OF ENTREPRENEURIAL ACTIVITIES IN SOCIO-CULTURAL AREAS IN THE MODERN ERA

Shirinbey Aliyev
Nazrin Isgenderova

Today, entrepreneurial activity in the social and cultural fields is marked by the emergence of new market opportunities and the development of competitive services. The article analyzes the main challenges faced by entrepreneurial initiatives in areas such as culture, tourism, sports, and social innovation – including gaps in legislation, lack of financial resources, issues in digitalization, and shortages in human capital – and suggests ways to overcome them.

**Аннотация**

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В СОЦИОКУЛЬТУРНЫХ ОБЛАСТЯХ В СОВРЕМЕННУЮ ЭПОХУ

Ширинбек Алиев
Незрин Искендерова

Сегодня предпринимательская деятельность в социально-культурной сфере характеризуется как появлением новых рыночных возможностей, так и развитием конкурентоспособных услуг. В статье анализируются основные трудности, с которыми сталкиваются предпринимательские инициативы в таких сферах, как культура, туризм, спорт и социальные инновации – включая пробелы в законодательстве, нехватку финансовых ресурсов, проблемы цифровизации и дефицит кадров, – и предлагаются пути их преодоления.

**Açar sözlər:** sosial-mədəni sahibkarlıq; yaradıcılıq iqtisadiyyatı; mədəniyyət sənayesi; rəqəmsallaşma; innovativ biznes-model

**Keywords:** socio-cultural entrepreneurship; creative economy; cultural industries; digitalisation; innovative business model.

**Ключевые слова:** социально-культурное предпринимательство; креативная экономика; индустрия культуры; цифровизация; инновационная бизнес-модель.

Sosial-mədəni sahələr – yəni mədəniyyət, incəsənət, turizm, idman və geniş mənada yaradıcılıq iqtisadiyyatı – XXI əsrdə həm iqtisadi artım, həm də cəmiyyətin sosial kapitalının formalaşması üçün strateji əhəmiyyət kəsb edir. Dünya Bankının hesablamalarına görə, yalnız yaradıcı sənayelərin qlobal dövriyyəsi 2,2 trilyon ABŞ dollarını aşır və təxminən 30 milyon insana məşğulluq yaradır. Sosial-mədəni sahibkarlığın cəlbediciliyi həm də qeyri-maddi aktivlərin – brend, mədəni irs, icma etimadı – yüksək payı ilə izah olunur [4], [2].

Lakin əksər ölkələrdə bu sahənin sahibkarları bir sıra sistemli problemlərlə üzləşir:

**Normativ-hüquqi çərçivənin yetərsizliyi.** Mövcud kommersiya qanunvericiliyi mədəni təşəbbüslərin spesifik gəlir modellərini nəzərə almadan tətbiq olunur.

**Maliyyə resurslarına çıxışın məhdudluğu.** Yaradıcı layihələrin yüksək riskli kimi qiymətləndirilməsi, onların maliyyə mənbələrinə, o cümlədən bank kreditləri və vençur investisiyalarına çıxışını məhdudlaşdırır.

**Rəqəmsal bərabərsizlik.** Rəqəmsallaşma sürətlə getsə də, infrastruktura və rəqəmsal bacarıqlara bərabər çıxış yoxdur; xüsusən regionlarda fəaliyyət göstərən KOB-lar geri qalır.

**İnsan kapitalının çatışmazlığı.** Menecment, marketinq və texnologiya üzrə ixtisaslaşmış kadrların azlığı innovativ biznes-modellərin tətbiqini məhdudlaşdırır.

**Aktual problemlərin təhlili.** Sosial-mədəni sahibkarlığın qarşısındakı baryerləri sadəcə "qüsur siyahısı" kimi deyil, onların arxasındakı sistem məntiqini açmaq vacibdir.

Aşağıdakı bölmələrdə hər problem bloku dörd prizma üzrə şərh edilir: (a) cari simptomlar, (b) kök səbəblər, (c) qlobal təcrübədən çıxarılan dərslər, (d) 2025-2030 perspektivində risk və imkan pəncərəsi.

**Normativ-hüquqi baryerlər:**

a) Simptomlar. Yaradıcılıq startaplarının 60 %-i QHT statusu seçərək kommersiya investisiyalarına çıxışı məhdudlaşdırır; rəqəmsal müəllif ödənişlərinin toplanması üçün proses orta hesabla 140 gün çəkir.

b) Kök səbəblər. "Sahibkarlıq Məcəlləsi" qeyri-maddi aktivlərin (marka, ssenari, dizayn) dəyərini aktiv-girov kimi etiraf etmir; Müəllif Hüquqları Agentliyi hələ də fiziki daşıyıcı (CD, DVD) logikasında işləyir.

c) Qlobal dərs. Böyük Britaniyanın Community Interest Company (CIC) modeli gəlirin 35 %-ni sosial missiyaya yönəltmə şərti ilə sərbəst investisiya cəlbinə imkan yaradır; Estoniyanın e-Residency platforması xarici yaradıcı şirkətlərə 24 saatda qeydiyyat imkanı verir [7], [9].

d) Risk & imkan. Hibrid formaların olmaması investor riskini artıraraq "şirkət axını"na (firm exodus) səbəb ola bilər; əks halda, 2026-da planlaşdırılan kommersiya qanunvericiliyi islahatı "yaradıcılıq sandbox"u yaradaraq regional investorları cəlb edə bilər.

**Maliyyə mexanizmləri:**

a) Simptomlar. Bank kreditlərinin orta faiz dərəcəsi 18 %; intellektual aktivlər girov kimi qəbul olunmur; dövlət qrantları son üç ildə 27 % azalıb.

b) Kök səbəblər. Risk qiymətləndirmə alqoritmləri istehsal sektoruna optimallaşdırılıb; çıxış (exit) alətləri – intellektual aktiv birjası, ikincil token satışları – formalaşmayıb.

c) Qlobal dərs. Cənubi Koreyanın 1 mlrd USD-lik “K-Culture Fund”u dövlət zəmanətli fond-of-funds kimi çalışır; Kanadanın Creative Export Canada proqramı layihə başına 2,5 milyon CAD-a qədər qrant verir [6], [8].

d) Risk & imkan. Likvid maliyyə alətlərinin olmaması “ölüm dərəsi”ni (valley of death) dərinləşdirir; əksinə, kütləvi maliyyələşdirmə (diaspora + yerli) 2027-yə qədər sektora illik 40 milyon AZN əlavə kapital cəlb edə bilər.

**Rəqəmsal transformasiya boşluqları**

a) Simptomlar. Bakı ilə regionlar arasında internet sürəti nisbəti 3:1-dir; KOB-ların cəmi 12 %-i e-commerce inteqrasiyası edib; metaverse-də yerli kontent payı 0,3 %-dən aşağıdır.

b) Kök səbəblər. Fiber investisiyası əsasən energetika kəmərlərinə paralel çəkilir; rəqəmsal bacarıq proqramları İKT-yönlüdür, yaradıcı məzmun kurasiyasına fokuslanmır.

c) Qlobal dərs. Finlandiyanın “Cultural Digiplan”ı hər bələdiyyədə medi-lab şəbəkəsi qurub; BƏƏ “5G cultural free-zone” modeli ilə VR-turizmi ixrac edir.

d) Risk & imkan. Metaverse və generativ İA trendini qaçırmaq yerli kontentin qlobal bazar payını azaldar; 5G əsaslı “smart culture hub” şəbəkəsi qurulsa, 2028-ə qədər yaradıcılıq ixracını 2 dəfə artırmaq olar [3], [4].

**İnsan kapitalı**

a) Simptomlar. Sektorun 43 %-i ali təhsilsiz mikrosahibkarlardır; yaradıcılıq menecerlərinin orta maaşı İKT sektorundan üç dəfə aşağıdır.

b) Kök səbəblər. Təhsil sistemi silo şəkildədir: incəsənət və biznes ayrıdır; beyin axını yüksəkdir – gənc yaradıcıların 17 %-i xaricdə təhsil alır, geri dönüş göstəricisi 22 %-dən aşağıdır.

c) Qlobal dərs. Sinqapurun NUS-LASALLE dual magistri dizayn-düşüncə və biznesi birləşdirir; İrlandiyanın “Springboard+” proqramı 6 aylıq reskilling paketləri ilə kreativ sektora kadr axını yaradır.

d) Risk & imkan. T-formalı lider çatışmazlığı innovasiya dövrünü uzadır; COP-29 kontekstində yaşıl və inklüziv dizayn bacarıqları formalaşarsa, yerli kadrların beynəlxalq layihələrdə payı 40 %-dən 65 %-ə yüksələ bilər [6], [10].

Cədvəl 1.

| Problem bloku | Qısamüddətli tədbirlər | Uzunmüddətli strategiyalar |
|---|---|---|
| Hüquqi çərçivə | - Mədəni bizneslər üçün sadələşdirilmiş qeydiyyat<br>- Hibrid hüquqi formaların pilotu | - Sosial təsirə əsaslanan vergi güzəştləri<br>- Rəqəmsal müəllif hüquqları üçün regionlararası platforma |
| Maliyyə | - Kredit zəmanət fondlarında “yaradıcılıq pəncərəsi” | - Dövlət-özəl “yaradıcılıq kapitalı” fondu<br>- Rəqəmsal kütləvi maliyyələşdirmə ekosistemi |
| Rəqəmsallaşma | - Regionlarda 5G və fiber pilot zonaları | - Açıq mədəni data platforması<br>- AI-əsaslı auditoriya analitikası |
| İnsan kapitalı | - Qısa təlim bootcamp-ləri | - İkili magistr proqramları (biznes + mədəniyyət)<br>- Yaşıl/inklüziv dizayn mərkəzləri |

**Nəticə**

Azərbaycanda sosial-mədəni sahibkarlıq iqtisadi inkişaf, milli brendin tanıdılması və ictimai rifahın artırılması üçün mühüm sahədir. Lakin bu sahənin inkişafı qarşısında dörd əsas maneə mövcuddur:

- Əlverişli olmayan hüquqi çərçivə
- Maliyyə vəsaitlərinə çıxışın çətinliyi
- Rəqəmsal infrastrukturun qeyri-bərabərliyi
- Lazımi bacarıqlara malik kadrların çatışmazlığı

Bu problemlərin həlli üçün dövlət, bank sektoru, universitetlər və kiçik və orta biznes assosiasiyalarının birgə əməkdaşlığı vacibdir. Birlikdə aşağıdakı tədbirləri həyata keçirmək tövsiyə olunur:

- Hüquqi islahatların aparılması (məsələn, benefit korporasiya modelinin tətbiqi)
- Yaradıcı zəmanət fondunun yaradılması
- Kütləvi maliyyələşdirmə platformalarının qurulması

Eyni zamanda, regionlarda 5G və fiber-optik əsaslı "ağıllı mədəniyyət mərkəzləri"nin yaradılması, süni intellekt əsaslı auditoriya analitikası və bizneslə incəsənəti birləşdirən ikili magistr proqramlarının təşkili insan resursları və texnologiya sahəsindəki boşluqları aradan qaldıra bilər.

Əgər bu tədbirlər koordinasiyalı şəkildə həyata keçirilsə, 2030-cu ilə qədər sosial-mədəni sektorun ÜDM-dəki payı təxminən 5%-ə çata bilər, mədəni ixrac və turizm gəlirləri orta hesabla 30% arta bilər, 50,000 yeni ixtisaslı iş yeri yaradıla bilər və ölkənin "yumşaq güc" göstəricisi əhəmiyyətli dərəcədə yüksələ bilər.

Beləliklə, sosial-mədəni sahibkarlıq Azərbaycanın post-neft dövründə rəqabət üstünlüyünün əsas sütunlarından birinə çevrilə bilər.

**Ədəbiyyat siyahısı:**

1. Florida, R. (2019). The Rise of the Creative Class: Revisited. Basic Books.
2. Throsby, D. (2021). Economics and Culture (3rd ed.). Cambridge University Press.
3. European Commission. (2022). Towards a Green, Digital and Resilient Cultural and Creative Economy. Brussels: Publications Office of the EU.
4. UNCTAD. (2024). Creative Economy Outlook 2024: Prospects for Developing Countries. Geneva: United Nations.
5. World Bank. (2023). Cultural Heritage and Sustainable Tourism: Policy Toolkit. Washington, DC.
6. OECD. (2023). Financing SMEs and Entrepreneurs 2023: An OECD Scoreboard. Paris: OECD Publishing.
7. British Council. (2022). Creative Hubs for Good Practice: Policy Lessons from CICs in the UK. London.
8. Korea Creative Content Agency (KOCCA). (2023). K-Culture Fund Annual Report. Seoul.
9. Estonian Ministry of Economic Affairs. (2022). e-Residency and the Creative Industries: Impact Study. Tallinn.
10. Singapore Economic Development Board. (2024). Design Thinking & Entrepreneurship Dual-Degree Outcomes. Singapore.

11. Ministry of Culture of the Republic of Azerbaijan. (2024). Mədəniyyət və Yaradıcı Sənayelər üzrə Dövlət Proqramı 2025–2030. Bakı: rəsmi nəşr.

12. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2023). KOB-ların Rəqəmsallaşması üzrə Yol Xəritəsi. Bakı.

13. Məmmədov, A., & Əliyeva, L. (2023). "Yaradıcı Sənayelərdə Alternativ Maliyyələşdirmə Alətləri: Azərbaycan təcrübəsi." Azərbaycan İqtisadiyyat Jurnalı, 31(2), 45-62.

14. Qasımov, E. (2024). "COP-29 Kontekstində Yaşıl Mədəniyyət Obyektlərinin İnkişaf Perspektivləri." İqtisadi və Sosial Araşdırmalar, 12(1), 17-29.

15. Yusifova, N. (2022). Azərbaycan Regionlarında Rəqəmsal İnfrastrukturun Təhlili. Bakı: ADA Universitet Nəşriyyatı.

**UOT 930.22**

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI VƏ QURUCUSU HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK İDEYALARI

Rəqsanə Seyidəhmədova Rauf qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
seyidehmedovareqsane@gmail.com
https://orcid.org/0009-0007-0030-2067

**Abstract**

**IDEAS ON STATE OF HEYDAR ALIYEV – ARCHITECT AND FOUNDER OF THE INDEPENDENT AZERBAIJAN STATE**

Ragsana Seyidahmedova

The article makes extensive reference to the statehood ideas of the great leader of our people, the great politician, the national leader of our people, Heydar Aliyev, who played a special role in world politics. His life and activities are presented as one of the main priorities. As a result of the work done by the Great Leader, the establishment of a democratic society has become the main cornerstone of our independence and dynamic development, and significant achievements have been achieved in the direction of building a legal state and forming a civil society. As a leader who has constantly fought for the sake of his people since coming to power, Heydar Aliyev has worked tirelessly to strengthen the independence of Azerbaijan, ensure stability in the country and improve the well-being of the people. He also strengthened political and economic relations with integration into the West, ensured access of Azerbaijan's energy resources to the world market, expanded the scope of partnership with international organizations and turned our country into the center of regional cooperation.

**Аннотация**

**ГОСУДАРСТВЕННЫЕ ИДЕИ ГЕЙДАРА АЛИЕВА – АРХИТЕКТОРА И ОСНОВАТЕЛЯ НЕЗАВИСИМОГО АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА**

Раксана Сейидахмедова

В статье широко рассматриваются идеи государственности общенационального лидера нашего народа, великого политика Гейдара Алиева, сыгравшего особую роль в мировой политике. Его жизнь и деятельность представлены как один из главных приоритетов. В результате проделанной Великим Лидером работы становление демократического общества стало главным краеугольным камнем нашей независимости и динамичного развития, достигнуты значительные успехи в направлении построения правового государства и формирования гражданского общества. Будучи лидером, постоянно боровшимся на благо своего народа, с момента прихода к власти Гейдар Алиев неустанно трудился ради укрепления независимости Азербайджана, обеспечения стабильности в стране и повышения благосостояния народа. Он также укрепил политические и экономические связи за счет интеграции с Западом, обеспечил выход энергоресурсов Азербайджана на мировой рынок,

расширил сферу партнерства с международными организациями и превратил нашу страну в центр регионального сотрудничества.

**Açar sözlər**:lider,azərbaycançılıq,xalq,siyasət,inteqrasiya,demokratiya,milli inkişaf.

**Keywords**: leader, Azerbaijaniism, people, politics, integration, democracy, national development.

**Ключевые слова**: лидер, азербайджанство, народ, политика, интеграция, демократия, национальное развитие.

Hər bir xalqın milli müstəqilliyi və istiqlaliyyəti uğrunda xilaskar rolunu oynayan dahi insanlar mütləq ki mövcud olmuşdur. Həmin dahilər öz əzmləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş dahi şəxsiyyət, parlaq zəka,istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.Heydər Əliyevin adı Azərbaycan xalqının milli qürur simvoluna çevrilmiş, onun əməlləri isə qəhrəmanlıq nümunəsi kimi qiymətləndirilmişdir.Ulu Öndərin həyat yolu və fəaliyyəti Vətənə olan sonsuz sevgi və sədaqətin parlaq nümunəsidir. O, dövlətçilik prinsiplərinin möhkəmləndirilməsində və demokratik cəmiyyətin qurulmasında misilsiz töhfələr vermişdir.Heydər Əliyevin liderlik bacarığı və strateji düşüncə tərzi beynəlxalq miqyasda geniş qəbul olunmuş və yüksək dəyərləndirilmişdir. Bir çox rəhbər uzun illər ərzində təcrübə ilə tanınsa da, Heydər Əliyev doğuşdan gələn istedadı və parlaq zəkası ilə fərqlənmişdir. Onun müdrik siyasəti sayəsində Azərbaycan xalqı onu unudulmaz rəhbər və dövlət xadimi kimi tanıyır və tanıdır.Bu gün ölkəmizin müxtəlif sahələrində inkişafın izləri görünür və bu, Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycanın müstəqilliyi və inkişafı onun quruculuq fəaliyyətinin bəhrəsidir. Heydər Əliyev xalqın yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi yaşayacaqdır.Azərbaycan tarixində taleyüklü məsələlərin həllində onun müstəsna xidmətləri olmuşdur. Ulu Öndər Heydər Əliyev idarəetmə və siyasət sahəsində mühüm bilik və təcrübəsi ilə dünya miqyasında tanınan liderlərdən olub.

Heydər Əliyev bildirirdi ki, reallığı ustadlıqla qiymətləndirən, zəngin təcrübədən yaradıcılıqla istifadə edən və problemlərin mürəkkəbliyini nəzərə alan siyasətçi mütləq ki uğur qazanacaqdır.Belə bir siyasət cəmiyyətin siyasi sabitliyinə və inkişafına xidmət göstərir. Azərbaycan bu gün də Heydər Əliyevin siyasəti ilə irəliləyir və inkişaf edir. Heydər Əliyevin siyasi kursu dövlət müstəqilliyimizin qorunması və möhkəmləndirilməsində, Azərbaycanın beynəlxalq nüfuzunun artırılmasında və sosial-iqtisadi tərəqqidə mühüm rol oynamışdır.Bu gün Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır" fikri reallaşmış və onun ruhu şad olmuşdur.Azərbaycan Silahlı Qüvvələri, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında, işğal altında olan torpaqlarımızı azad edərək xalqımızı doğma yurd yerlərinə qovuşdurmuşdur.Ümummilli Liderin xatirəsi hər bir azərbaycanlının qəlbində daimi yaşayacaq və sözsüz onun ideyaları həyat amalına çevriləcəkdir.. Müstəqil və qüdrətli Azərbaycan Heydər Əliyevin ideyaları əsasında inkişaf edir və şanlı tariximizi yazır.

Milli dövlət konsepsiyası əsrlər boyu xalqların gücünü, mübarizə əzmini və beynəlxalq arenada layiqli yer tutmaq istəyini əks etdirən əsas amillərdən biri olmuşdur.Bu baxımdan, hər bir xalqın müəyyən hədəflərə doğru uğurla irəliləməsi üçün milli dövlətin mövcudluğu zəruri şərtlərdən sayılır. Yalnız öz kimliyini milli bir etnos olaraq dərk edən xalqlar, öz dövlətlərini quraraq onun davamlılığını təmin edə bilmişlər. Tarixi təcrübə göstərir ki, əlverişli siyasi şərait yarananda xalqlar milli kimliyinə dönüş edərək, uzun əsrlər ərzində formalaşdırdıqları mənəvi dəyərlərə və

dünyagörüşünə əsaslanaraq öz varlıqlarını qoruyub saxlamışlar. Belə dönüşlərdə böyük şəxsiyyətlərin və onların missiyalarının rolu danılmazdır.

XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi dahi liderlərdən biri olan Heydər Əliyev, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yalnız ideya səviyyəsində yaşayan milli dövlətçilik arzularını real dövlət quruculuğuna çevirməyi bacarmışdır.1970-ci illərin əvvəlindən başlayaraq Heydər Əliyev azərbaycançılıq düşüncəsini gücləndirmiş, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi önəm verərək gələcək müstəqil Azərbaycan dövlətinin təməlini qoymuşdur.

Heydər Əliyev həmin dövrlərdə milli ruhun gücləndirilməsi, milli kadrların yetişdirilməsi və milli mənəvi dəyərlərin qorunması istiqamətində mühüm addımlar atmışdır. Əgər Ulu Öndərin birinci rəhbərlik dönəmində Azərbaycanın sosial,siyasi,iqtisadi və mədəni sahələrin inkişafına yönəlik həyata keçirdiyi islahatlar olmasaydı, bu gün müstəqil Azərbaycanın varlığından danışmaq belə çətin olardı.

XX əsrin sonlarında, uzun illər davam edən mübarizənin nəticəsi olaraq, Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdi. Bu dövrdə ölkənin milli inkişaf istiqamətləri və ideoloji əsasları məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında formalaşmağa başladı. Bütün ruhu, qanı, canı ilə özünü ölkəsinə fəda edən ümummilli lider cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər görərək ümumxalq birliyinin,vəhdətinin dərin politoloji və nəzəri əsaslarını irəli sürdü.

Heydər Əliyev uzun illər ərzində formalaşmış azərbaycançılıq düşüncəsinin müxtəlif istiqamətlərini bir araya toplayaraq onu vahid siyasi nəzəriyyə kimi dövlətin idarəetmə modelinə tətbiq etmişdir. Ulu öndər, tarix boyu yaranmış milli ideyaları sistemləşdirərək onları dövlətin idarəçilik fəlsəfəsinə uyğunlaşdırmış və elmi baxımdan əsaslandırılmış bir struktura çevirmişdir . Məhz onun uzaqgörən siyasəti nəticəsində azərbaycançılıq ideyası nəzəriyyədən çıxaraq real həyata uyğunlaşdırıldı və tətbiq olunmağa başlandı. Liderin möhkəm iradəsi və strateji baxışı ilə azərbaycançılıq ideologiyası yalnız düşüncə səviyyəsində qalmadı, real siyasətdə də öz yerini tapdı və gündəlik həyatla vəhdət təşkil etdi.

Ümummilli lider Heydər Əliyev tez-tez qeyd edirdi ki, azərbaycançılıq ideologiyası, Azərbaycanın real müstəqilliyinə nail olmaq və onun bütövlüyünü qorumaq üçün mühüm vasitədir. Heydər Əliyevin düşüncəsinə görə, azərbaycançılıq milli kimliyin və mənəvi dəyərlərin qorunması ilə yanaşı, bu dəyərlərin ümumbəşəri prinsiplərlə sintezini və inteqrasiyasını əhatə edir. Azərbaycançılıq ideologiyası, xalqımızın milli-mənəvi dəyərlərini qorumaq və müdafiə etməklə yanaşı, dövlət və vətəndaşların maraqlarını birləşdirərək, ölkədə vətəndaş birliyi və sosial həmrəylik üçün möhkəm bir təməl yaradır. Heydər Əliyev vurğulayırdı ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir və o, həmişə fəxr etmişdir ki, azərbaycanlıdır.

Bu gün, siyasi mövqeyindən asılı olmayaraq, hər kəs qəbul edir ki, 1993-cü ildə xalqın təkidi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanda yaranan milli birlik, ölkəmizin ən dəyərli mənəvi və ideoloji irsidir. Xalqın gözündə real və milli şəxsiyyət olaraq təmsil olunan Heydər Əliyev, Azərbaycanın ikinci rəhbərliyi dövründə vətəndaş birliyi və ümumxalq həmrəyliyinin gücləndirilməsi istiqamətindəki siyasətini davam etdirmiş, həmin siyasəti konkret və əmin addımlarla mükəmməl bir elmi və nəzəri konsepsiyaya çevirmişdir.

Azərbaycan dövləti dünya miqyasında yaşayan azərbaycanlıların potensialını bir araya gətirmək, müstəqil dövlət quruculuğu prosesində üzləşilən müxtəlif məsələlərin həllinə yönəlmiş addımlar atmaq, həmçinin daha yaxın əlaqələr qurmaq və milli birliyi təmin etmək məqsədilə ardıcıl və planlı şəkildə fəaliyyət göstərmişdir.

Heydər Əliyev güclü və dayanıqlı dövlət quruculuğu siyasətini həyata keçirərək, hüquqi, siyasi və iqtisadi sahələrdə islahatların başlanmasına əsas yaratdı. 1994-cü ilin 20 sentyabrında imzalanan “Əsrin müqaviləsi” Azərbaycanın neft sektorunda yeni bir başlanğıcın, yeni bir dövrün təməlini qoydu. Bu müqavilə ölkəyə çox mühüm xarici investisiyalar gətirərək Azərbaycanın beynəlxalq enerji bazarında daha da güclü bir mövqe tutmasına və beynəlxalq miqyasda tanınmasına səbəb olmuşdur. Eyni zamanda, ordu quruculuğu, beynəlxalq əlaqələrdə balanslı və səmərəli siyasət yürütmək, milli birliyi və daxili sabitliyi qorumaq Heydər Əliyevin dövlətçilik anlayışının əsas prinsipləri idi.

2001-ci ilin ən önəmli, yadda qalan hadisələrindən biri, noyabrın 9-u və 10-da paytaxt Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı olmuşdur. Bu tədbir, milli birliyimizin ən parlaq nümunələrindən biri kimi qiymətləndirilir.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldiyi gündən etibarən hüquqi dövlət quruculuğunun əsasında daimi və məqsədyönlü islahatları ilə xalqın qəlbində böyük yer tutmuşdur. Böyük lider, hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin olunması və cəmiyyətin modern inkişafını əsas götürərək, islahatlar proqramını hazırlamış və ilk olaraq müstəqil Azərbaycan Respublikasının hüquqi əsaslarını gücləndirmək məqsədilə Konstitusiyanın qəbul edilməsini vacib amil hesab etmişdir.Ulu lider, hər bir vətəndaşın hüquq və azadlqılarının təmin olunması və cəmiyyətin müasir dərəcədə inkişafını əsas götürərək, islahatlar proqramını hazırlamış və ilk növbədə müstəqil Azərbaycan Respublikasının hüquqi əsaslarını gücləndirmək məqsədilə ali hüquqi qüvvəyə malik Konstitusiyanın qəbul edilməsini vacib hesab etmişdir.

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı, Azərbaycanın iqtisadiyyatının bərpasına və yeni istehsal sahələrinin yaranmasına ciddi dərəcədə təsir göstərdi. Ölkədə ictimai-siyasi sabitliyin təmin olunması və həyata keçirilən islahatlar xarici sərmayəçilərin ölkəmizdə fəaliyyət göstərməsi üçün əlverişli şərait yaratdı. Bu inkişaflar Azərbaycanın beynəlxalq arenada nüfuzunun güclənməsinə, iqtisadi çətinliklərin dəf olunmasına və iqtisadi yüksəlişin başlanğıcına gətirib çıxardı.. Demokratiya, siyasi sabitlik və inkişaf müstəqil Azərbaycanın əsas prioritetlərindən birinə çevrildi.

Heydər Əliyevin ardıcıl və məqsədyönlü xarici siyasətinin ən mühüm nailiyyətlərindən biri, 2001-ci ilin əvvəllərində Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması və Avropa ailəsinə inteqrasiyası oldu. Bu, ölkəmizin beynəlxalq aləmdə tanınmasına, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən hörmət qazanmasına səbəb oldu, eyni zamanda, ölkəmizdə hüquqi və demokratik dövlət quruculuğu sahəsində müsbət irəliləyişlərə yol açdı.

Heydər Əliyev siyasətinin davamçısı olan, onun ideyalarını uğurla həyata keçirən cənab İlham Əliyevin apardığı genişmiqyaslı islahatlar, ölkəmizin və xalqımızın inkişafı üçün imzaladığı sərəncamlar və fərmanlar, həmçinin müntəzəm olaraq xalqla birbaşa əlaqə qurması, Ümummilli Liderin başladığı işlərin təbii davamıdır.

Müstəqil Azərbaycan dövləti, Heydər Əliyevin rəhbərliyi altında qurulmuş və bugünkü mövcudluğu ilə Ulu öndərimizin Azərbaycan xalqına verdiyi ən dəyərli hədiyyədir. Hər bir Azərbaycan vətəndaşının vəzifəsi isə Heydər Əliyevin qurduğu bu nəhəng dövləti qorumaq,tanıtmaq yaşatmaq və onun müdrik ideyalarını daha da inkişaf etdirməkdir.

## Ədəbiyyat siyahısı:

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. 1998 C. V, Bakı: Azərnəşr. S. 323

2. Hüseynov İ. Əmirxanov S. İctimaiyyətlə əlaqələr. Ali məktəblər üçün dərslik. Bakı: 2017. S. 195.
3. Quliyev Ə. Quliyeva A. (2023). Heydər Əliyev: tariximizdə və taleyimizdə AMEA nəşriyyatı
4. Mahmudov Y. (2011). Heydər Əliyev ideyalarının zəfər yürüyüşü. Bakı: “Təhsil” nəşriyyatı
5. Maqsudov F. (1998). Heydər Əliyev və Azərbaycan elmi. Bakı: Elm nəşriyyatı.
6. Muradverdiyev A; İbrahimov N; Ağayev T. (1996). Heydər Əliyev. Müstəqillik Yollarında. Bakı: “Azərbaycan” nəşriyyatı.
7. Heydər Əliyev dövlətçilik haqqında. https://anl.az/el/Kitab/2015/2008-2095.pdf
8. Namini Nəmidə. Müstəqil Azərbaycan Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. http://shirvan-ih.gov.az/az/news/musteqil-azerbaycan-heyder-eliyevin-ideyalari-esasinda-inkisaf-edir.html
9. Cəbrayılov Rafael. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. http://www.anl.az/down/meqale/azerbaycan/2011/may/175824.htm

**UOT 785**

# AZƏRBAYCAN BƏSTƏKARLARININ QARMON ÜÇÜN KÖÇÜRÜLMÜŞ ƏSƏRLƏRİNİN İNTERPRETASİYA XÜSUSİYYƏTLƏRİ

Rəsul Mütəllimov Nazim oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
resulmutellim@gmail.com

**Xülasə**

Təqdim olunan məqalə Azərbaycan bəstəkarlarının qarmon üçün köçürülmüş əsərlərinin interpretasiya xüsusiyyətlərinin araşdırılmasına həsr olunmuşdur. XX əsrin ikinci yarısından başlayaraq qarmon alətinin tədris metodikası ilə bağlı Azərbaycan və xarici ölkə bəstəkarlarının bir sıra əsərləri qarmon üçün köçürülərək, tədris proqramlarına daxil edildi. Müasir dövrümüzdə qarmon ifaçılığında yeni istiqamətlərin müəyyənləşdirilməsi, alətin sağ və sol əllə birgə tədrisinə başlanılması zəruriyyət kəsb edir. Belə olduğu halda qarmon ifaçılığı daha da təkmilləşərək, dünya ifaçılıq səviyyəsi ilə bərabərləşər.

**Abstract**

**FEATURES OF INTERPRETATIONS OF AZERBAIJANI COMPOSERS, ARRANGED FOR BUTTON ACCORDION**

Rasul Mutallimov

The presented article is dedicated to the study of interpretative features of works by Azerbaijani composers adapted for the accordion. Starting from the second half of the 20th century, a number of compositions by Azerbaijani and foreign composers have been transcribed for the accordion and included in educational programs as part of the teaching methodology for this instrument. In modern times, it is essential to define new directions in accordion performance and begin the simultaneous training of the right and left hands. By doing so, accordion performance will further develop and reach a level comparable to world performance standards.

**Açar sözlər:** qarmon, akkordeon, bəstəkar, əsər, ifaçılıq, süita, oktava, fiqurasiya.
**Keywords:** button accordion, composer, work, performance, suite, octave, figuration.
**Ключевые слова:** гармонь, аккордеон, композитор, произведение, исполнение, сюита, октава, фигурация.

XX əsrin ikinci yarısından başlayaraq Azərbaycan və xarici ölkə bəstəkarlarının müxtəlif janrlı əsərlərinin qarmon üçün köçürülməsi, qarmon ifaçılığının formalaşmasında mühüm rol oynadı. Qarmon alətinin texniki və tembr imkanları bu alətdə ən mürəkkəb quruluşlu akkordları istər şaquli, istərsə də üfüqü vəziyyətdə çalmağa imkanlar verir. Qarmon alətinə çoxsəsli və harmonik bir alət kimi yanaşmağımızın daha bir real əsası bu alətdə oktavalarla və hər iki əldə sərbəst şəkildə ifanın mümkünlüyüdür. Professor Zakir Mirzəyev uzun illər pedaqoji fəaliyyət göstərərək, qarmon ifaçılığının peşəkar səviyyədə gələcək nəsillərə çatdırılmasına çalışmışdır. O, eyni zamanda bir çox

musiqi əsərlərini ilk dəfə olaraq qarmon üçün köçürmüş, bununla da tədris repertuarını zənginləşdirmişdir. Məlumdur ki, qarmon ifaçılığında sol əlin funksiyalarının artırılması məsələsi ilk dəfə görkəmli ifaçılar: Z.Mirzəyev və A.İsrafilov tərəfindən irəli sürülmüşdür. Müasir dövrümüzdə qarmon ifaçılığının tədrisi metodikası Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərinin köçürülməsi əsasında aparılır. Əfsuslar olsun ki, bir əsrdən artıqdır ki, xalq çalğı alətərimizlə birgə səslənən və Azərbaycan qarmonu adını alan bu alət üçün bəstəkarlarımız əsərlər bəstələməmişlər. Bu gün qarmon alətinin bir qədər fiqqətdən kənarda qalması: alətin musiqi ali təhsil müəssisələrində fasilələrlə tədrisi, peşəkar xalq çalğı alətləri orkestrinin tərkibindən çıxarılması qarmon alətinin inkişafına maneələr yaradır. Düşünürəm ki, qarmon ifaçılığını daha da təkmilləşdirmək, aləti ona qohum olan akkordeon aləti kimi iki əllə (sağ və sol əldə müstəqil partiyalarla) ifa etmək çox önəmlidir. Azərbaycan və xarici ölkə bəstəkarlarının digər əsərlərini sağ və sol əl qarmon üçün köçürməklə qarmon ifaçılığının formalaşmasına təkan verə bilərik.

Azərbaycan bəstəkarlarından**:** Q.Qarayev "Yeddi gözəl" baletindən "Vals", A.Məlikov "Məhəbbət əfsanəsi baletindən "Türk qızlarının rəqsi", V.Adıgözəlov "Layla", Q.Hüseynli "Ay işığında", E.Sabitoğlu "Bu gecə", Adil Gəray "Səfikürd"; mürəkkəb formalı əsərlərdən: T.Bakıxanov tar ilə simfonik orkestr üçün 1 saylı konsert, A.Bəbirov "Konsert pyesi", V.Adıgözəlovun "Bayram süitası" və s. əsərlər tərəfimizdən ilk dəfə olaraq sağ və sol əl qarmon üçün işlənilməsi nəzərdə tutulur. T.Bakıxanovun tar ilə simfonik orkestr üçün 1 saylı Konserti klassik konsert formasında bəstələnərək, üç hissədən ibarətdir. Birinci hissə sonata alleqrosu formasında olub, giriş mövzusu və əsas mövzu "sol" mayəli "Bayatı-Şiraz" məqamında, təntənəli (Maestoso) şəkildə şərh olunur. Əsas və köməkçi mövzuların təntənəli və oynaq xarakterini ifadə etmək üçün qarmon alətinin sol əl mövzusuna akkordlar qatı həvalə etmək mümkündür. Hesab edirəm ki, qarmon alətinin sol əl mövzusunun işlənməsi zamanı əsərin xarakteri nəzərə alınmalıdır. Belə ki, təntənəli, oynaq və şux xarakterli əsərlərin köçürülməsi zamanı sol ələ üçüsəsli akkordlar həvalə etmək olar. Kəskin xarakteri artırmaq üçün septakkordların tətbiqi də qaçılmazdır. Lakin, lirik xarakterli əsərlərin ifa prosesində sol ələ əsasən ikili notlar, sadə intervalların həvalə olunması daha məqsədəuyğundur. Üçüncü hissə isə *Rondo* formasında olub, *Alleqro* tempində və birinci hissədə olduğu kimi "Bayatı-Şiraz"da səslənir. V.Adıgözəlovun "Bayram süita"sının I hissəsi *Alleqro not troppo* tempində, fortepiano müşayiəti D-dur tonallığında, qarmon aləti isə yarım ton zil Es-dur tonallığında səslənir. Məlumdur ki, qarmon alətinin kökü *in H* olduğu üçün onun notları fortepianodan yarım ton zil yazılır. Birinci hissə qarmon və fortepianonun birgə giriş mövzusu ilə başlayır. Giriş mövzusu qısa və lakonik olub, iki xanəni əhatə edir. Burada qarmonun sağ və sol əlləri eyni funksiyanı yerinə yetirə bilərlər. Belə ki, qarmonun sağ əl partiyası oktavalı səkkizlik notlarla çıxış edir. Eyni fiqurasiyanı bir oktava bəmdə sol ələ də həvalə etmək mümkündür. İkinci hissə birinci hissə ilə kontrast olub, ikinci hissə *Andante* tempində səslənən lirik bir musiqi lövhəsidir. Burada qarmonun sağ əlində ecazkar bir melodiya səslənir. Sol ələ oktavalı hərəkət həvalə etmək daha məqsədəuyğundur. Üçüncü hissə digər hissələrdən daha təntənəli və şən xarakterli olub, *Alleqro* tempində səslənir. Sağ əlin onaltılıqlarla hərəkət edən melodiyasını sol əl oktavalı gedişlərlə müşayiət etməlidir. Süitanın dördüncü hissəsi *Maestoso* daha təntənəli səslənir. Artıq bu hissədə qarmonun sağ və sol əlləri tonikası ikiləşmiş üçsəslilər və onların dönmələri ilə vurğulu notlarla çıxış edirlər.

Beləliklə, müasir dövrümüzdə qarmon ifaçılığında yeni istiqamətlərin müəyyənləşdirilməsi, alətin sağ və sol əllə birgə tədrisinə başlanılması zəruriyyət kəsb edir. Belə olduğu halda qarmon ifaçılığı daha da təkmilləşərək, dünya ifaçılıq səviyyəsi ilə bərabərləşər. Qarmon ifaçılığında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri mühüm yer tutur. Bu səbəbdən də bəstəkarların

konsert, fantaziya, süita janrında bəstələdikləri əsərlər sağ və sol əl qarmon üçün işlənilərək tədris repertuarına əlavə edilməlidir.

## Ədəbiyyat siayhısı:

1. Nəcəfzadə A. Xalq çalğı alətlərinin tədrisi metodikası. Bakı, MBM, 2007, 68 səhifə.
2. Rəhmanlı Ə. Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi. Bakı, MBM, 2014, 704 səh.
3. Rəhmanlı Ə., Nağıyev E. Qarmon ifaçılığında Firuz Babaşovun xidməti. “Konservatoriya” jurnalı, №2 (36), 2017. Səh. 52-58.

**UOT 719**

# HEYDƏR ƏLİYEVİN NAXÇIVAN ABİDƏLƏRİNİN BƏRPA VƏ MÜHAFİZƏSİNDƏ ROLU

Rübabə Quluzadə Əli qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
r.quluzade8@icloud.com

**Xülasə**

Tarixi memarlıq və arxeoloji abidələrlə zəngin olan Azərbaycanda abidələrin qorunması və bərpasında Heydər Əliyevin rolu danılmazdır. Onun göstərişi ilə abidələrin bir çoxu bərpa edilmiş və onların qorunaraq mühafizə edilməsində bir sıra tədbirlər görülmüşdür. Məhz onun dövründə abidələr və onların qorunması dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdi. Heydər Əliyevin xüsusi diqqətlə yanaşdığı bölgə isə arxeoloji və tarixi-memarlıq abidələri ilə zəngin olan Naxçıvan Muxtar Respublikası idi. O, bir sıra çıxışlarında Naxçıvanın önəmindən bəhs etmiş və abidələrinin tədqiqi, bərpa və qorunmasının önəmindən danışmışdır. Onun təşəbbüsü nəticəsində Naxçıvan abidələrinin mühafizə və bərpa məsələləri gündəmə gəlmiş və bu addım öz nəticəsini vermişdi.

**Abstract**

**HEYDAR ALIYEV'S ROLE IN THE RESTORATION AND PRESERVATION OF NAKHCHIVAN MONUMENTS**

Rubaba Guluzadeh

The role of Heydar Aliyev in the protection and restoration of monuments in Azerbaijan, which is rich in historical architectural and archaeological monuments, is undeniable. On his instructions, many of the monuments were restored and a number of measures were taken to protect and preserve them. It was during his time that monuments and their protection became one of the main priorities of state policy. The region that Heydar Aliyev paid special attention to was the Nakhchivan Autonomous Republic, which is rich in archaeological and historical-architectural monuments. In a number of his speeches, he spoke about the importance of Nakhchivan and the importance of studying, restoring and protecting its monuments. As a result of his initiative, the issues of protecting and restoring the monuments of Nakhchivan came to the agenda, and this step bore fruit.

**Аннотация**

**РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ВОССТАНОВЛЕНИИ И СОХРАНЕНИИ ПАМЯТНИКОВ НАХЧЫВАНА**

**Рубаба Гулузаде**

В Азербайджане, богатом историко-архитектурными и археологическими памятниками, роль Гейдара Алиева в деле охраны и реставрации памятников неоспорима. По его указанию были отреставрированы многие памятники и принят ряд мер по их охране и сохранению. Именно при нем памятники и их охрана стали одним из главных приоритетов государственной политики. Регионом, которому Алиев уделил особое внимание, была Нахчыванская Автономная Республика, богатая археологическими и историко-архитектурными памятниками. В ряде выступлений он говорил о значении Нахчывана и

важности исследования, реставрации и охраны его памятников. В результате его инициативы на повестку дня вышли вопросы охраны и реставрации памятников Нахчывана, и этот шаг принес свои плоды.

**Açar sözlər:** Heydər Əliyev, Naxçıvan, abidələr, bərpa, mühafizə.
**Keywords:** Heydar Aliyev, Nakhchivan, monument, restoration, protection.
**Ключевые слова:** Гейдар Алиев, Нахчыван, памятник, восстановление, защита.

Azərbaycanın qədim tarixə və zəngin irsə sahib olan bölgələrindən biri olan Naxçıvan Muxtar Respublikasının qədimdən başlayaraq bir çox sivilizasiyaların, mədəniyyətlərin təsirinə məruz qalması onu arxeoloji və tarixi-memarlıq abidələrinin, şəhərsalma mədəniyyətinin zəngin və çoxqatlı olmasına gətirib çıxarmışdır. 1162 tarixi-mədəniyyət abidəsi qeydiyyata alınmışdır Naxçıvanda. Onlardan isə 58-i dünya əhəmiyyətli, 455-i ölkə əhəmiyyətli, 649-u isə yerli əhəmiyyətlidir. Qeydiyyata alınan bu abidələrin 663-ü arxeoloji, 285-i memarlıq, 31-i monumental sənət, 36-sı tarixi, 140-ı ziyarətgah, 7-si isə təbiət abidələridir [8].

Müasir dövrdə dünyada sürətli gedən qloballaşma prosesi nəticəsində hər bir xalq öz abidələrinə sahib çıxmaq, onları qoruyub gələcək nəsillərə miras qoymağa çağırır. Abidələrin qorunması, bərpa və konservasiyası mədəni irsin yaşadılaraq gələcək nəsillərə ötürülməsində önəmli rola sahibdir. İrsin düzgün mühafizə edilməməsi tarixi köklərin məhvi ilə nəticələnə bilər. 1946-cı ildə yaradılan UNESCO-nun fəaliyyəti də məhz bu üzrədir. Azərbaycan da öz abidələrinə sahib çıxan, onları qoruyub saxlayan, gələcək nəsillərə ötürərək tarixini yaşatmaq istəyən bir ölkə olaraq 1992-ci ildən UNESCO-nun üzvüdür. Məhz Heydər Əliyevin buradakı rolu danılmazdır. Heydər Əliyevin mədəni siyasətinin bir qolunu abidələr təşkil edirdi. O, abidələrin qorunması, bərpası və təbliği məsələlərini hər zaman ön planda saxlayırdı. UNESCO ilə əməkdaşlığın genişləndirilməsi də məhz bu siyasətin əsasını təşkil edirdi. Beləliklə, onun rəhbərliyi dövründə abidələr və onların qorunması dövlət siyasətinin əsas prioritetinə çevrildi. Heydər Əliyevin rəhbərliyi dövründə Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyaraq, bu sahələrdə dirçəliş və tərəqqi əldə etmişdir. Abidələr mövzusu 1970-1980-ci illərdə daha çox qabaqdılmağa başlanmışdır. Heydər Əliyev 1981-ci ildə "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" adlı qərar imzalamışdır. Bu qərara əsasən bərpa edilməsi nəzərdə tutulan abidələr sırasında Naxçıvandakı Qarabağlar türbəsi də var idi [Məmmədova G. 2023, s 3 ]. Abidələrin əhəmiyyətini dəfələrlə vurğulayan Əliyev yerli əhali arasında maarifləndirmənin də vacib olduğunu qeyd edirdi. Elə bu məqsədlə bütün rayonlarda Tarix Diyarşünaslıq muzeyləri yaradılmışdı. Abidələrin mühafizəsi sahəsində Heydər Əliyevin həyata keçirdiyi əhəmiyyətli qərarlardan biri "Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" qanunun qəbul edilməsidir [7].

H. Əliyevin təşəbbüsü ilə ilk genişmiqyaslı tədqiqatlar Naxçıvanda başlamışdır. Başlıca səbəb isə ermənilərin Naxçıvana olan əsassız iddiaları idi. Naxçıvana xüsusi önəm verən Heydər Əliyev öz çıxışlarında da bu önəmdən bəhs edirdi. Xüsusilə onun "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyar olduğunu və həddindən çox dünyamiqyaslı tarix-memarlıq abidələrin yaşadığı sözləri ilə başlayan nitqi maraqlıdır [6]. Maddi mənəvi sərvətimizin qorunub saxlanılmasında muzeylərin rolu böyükdür. Bunu bilən Heydər Əliyev də 1980-ci ildə bu məsələ ilə bağlı qərar qəbul etmişdi. Naxçıvan şəhərində Xatirə muzeyinin, həmçinin 1980-ci ildə Culfa, Şərur, Ordubad rayonunda Dövlət Tarix-Diyarşünaslıq muzeylərinin yaradılması, 1972-ci ildə

M. Ordubadinin, 1975-ci ildə Y. Məmmədəliyevin, Şaxtaxtı kəndində və Naxçıvan şəhərində H.Cavidin, Naxçıvan şəhərində C.Naxçivanskinin ev muzeyinin təşkili, 1998-ci ildə Naxçıvan şəhərində C. Məmmədquluzadənin ev muzeyinin yaradılması mühüm hadisə idi [Cabbarlı Ə. 2015, s 172]. Ümumilikdə isə muzeylərin sayı 1970-ci ildə 2 idisə, 2003-cü ildə 20-ə qədər yüksəlmişdi. 1996-cı ildə Hüseyin Cavidin möhtəşəm məqbərəsinin ucaldılmasında da onun rolu danılmazdır. Məqbərənin açılışı zamanı Cavidin büstü də qoyulub. Heydər Əliyevin təşəbbüsü ilə abidələrin bərpa edilməsində də bir sıra mühüm addımlar atılmışdır. 14 oktyabr 1999-cu ildə Naxçıvanda Möminə Xatun türbəsini ziyarət edən Əliyev abidənin bərpası ilə bağlı Vasif Talıbova tapşırıq verir. [Heydər Əliyev və Mədəni irs. 2014, s 60]. Türbə 2003-cü ildə bərpa edilir. Ümumilikdə isə 1996-2001-ci illərdə 8 muzey, 6 tarixi abidə yaradılmış, 23 mədəniyyət obyekti bərpa edilərək yenidən öz gözəl mənzərəsini yaratmışdı. Digər diqqət mərkəzində isə tarixi abidələrin və müqəddəs yerlərin bərpası idi. Heydər Əliyevin tapşırığı ilə Əshabi-Kəhf ziyarətgahı, Aza körpüsü, Zaviyə məscidi, Buzxana, Yusif ibn Küseyir türbəsi, İmamzadə məscid kompleksi də bərpa edilib [Qasımlı Ə. 2013, s 222]. Bu dövrdə yeni məscidlər də tikilmişdi. Bunlardan Kazım Qarabəkir Paşa məscidini, 1992-ci ildə salınmış yeni məscidi qeyd edə bilərik. 2000-2003-cü illərdə isə H. Cavidin ev muzeyi, Bəhruz Kəngərlinin ev muzeyi, Xan evi, Nuh türbəsində bərpa işləri aparılıb [Qasımlı Ə. 2013, s 223]. Heydər Əliyev əsas tədqiqat obyekti olan Gəmiqaya kompleksinin tədqiq edilməsinə də xüsusi önəm vermişdir. Belə ki, Vasif Talıbov 2001-ci ildə "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” sərəncam imzalamışdı [5]. Sərəncama əsasən “Naxçıvan Gəmiqaya arxeoloji ekspedisiyası yaradıldı. “Naxçıvan Gəmiqaya” arxeoloji ekspedisiyasının 2001-2003-cü illərdə apardığı tədqiqatlar nəticəsində çoxlu sayda yaşayış yerləri, qəbir abidələri, 1500-ə yaxın qayaüstü təsvirlər üzə çıxarıldı [7].

**Ədəbiyyat siyahısı:**

1. Cabbarlı Ə. (2015). Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan. 232 s.
2. Heydər Əliyev və Mədəni irs. (2014). Ministry of culture and tourism of the republic of Azerbaijan, Bakı. 274 s.
3. Qasımlı Ə. (2013). Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi 1969-2003-cü illər. Bakı, “Turxan” NPB 264 s.
4. Məmmədova G. (2023). Heydər Əliyev və Azərbaycan memarlığı. Respublika, № 93. 8 s.

*İnternet resursları*

5. Baxşəliyev V. (2015). https://qlobal.az/naxcivanda-tarixi-medeni-irsin-qorunub-saxlanilmasi-diqqet-merkezindedir/ (18.04.2016).
6. Kəngərli,R(2000). https://azertag.az/xeber/serq_memarliginin_incileri___naxchivan_turbeleri-1100205 (06.10.2017).
7. Müseyibli N. (1995). https://science.gov.az/az/news/open/23836 (06.02.2023).
8. Naxçıvan Muxtar Respublikası, Prezident kitabxanası. (2009-2025). https://nakhchivan.preslib.az/az_d1.html

**UOT 930.25**

# HEYDƏR ƏLİYEVİN ARXİV SAHƏSİNİN İNKİŞAFI ÜÇÜN GÖRDÜYÜ TƏDBİRLƏR

Şadgün Məmmədova Araz qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
sadgunsahin@gmail.com

**Xülasə**

Azərbaycan xalqının ümummilli lideri olan Heydər Əliyev ölkənin milli-mədəni irsinin qorunub saxlanılması işində, eləcə də onun gələcək nəsillərə ötürülməsi prosesində mühüm rol oynayan, önəmli şəxsiyyətlərdəndir. İstər onun siyasi iradəsi, istərsə də uzaqgörənliyi sayəsində arxiv işi Azərbaycan Respublikasında mühüm inkişaf mərhələlərindən keçətək günümüzə qədər gəlib çatmışdır. Ümumilli liderimiz arxiv işi və arxivşünaslıq sahəsinə hər zaman xüsusi diqqət ayırmış, həmçinin bu sahənin təşkilati, texniki və normativ-hüquqi əsaslarının möhkəmləndirilməsi üçün ciddi tədbirlər görmüşdür. Müstəqillik illərində həmin sahənin inkişafı üçün müxtəlif sərəncamlar, fərmanlar, qanunlar qəbul edərək arxiv sahəsini diqqətdənkənar buraxmamışdır.

**Abstract**

**MEASURES TAKEN BY HEYDAR ALIYEV FOR THE DEVELOPMENT OF THE ARCHIVE FIELD**

**Shadgun Mamedova**

Heydar Aliyev, the national leader of the Azerbaijani people, is one of the important figures who played an important role in the preservation of the country's national and cultural heritage, as well as in the process of its transmission to future generations. Thanks to both his political will and his foresight, archival work in the Republic of Azerbaijan has passed through important stages of development and has reached the present day. Our national leader has always paid special attention to the field of archival work and archival science, and has also taken serious measures to strengthen the organizational, technical and normative-legal foundations of this field. During the years of independence, he did not leave the field of archives unattended, adopting various orders, decrees, and laws for the development of this field.

**Аннотация**

**МЕРЫ, ПРИНЯТЫЕ ГЕЙДАРОМ АЛИЕВЫМ ПО РАЗВИТИЮ АРХИВНОГО ДЕЛА**

**Шадгюн Мамедова**

Общенациональный лидер азербайджанского народа Гейдар Алиев является одной из выдающихся личностей, сыгравших важную роль в сохранении национального и культурного наследия страны, а также в процессе его передачи будущим поколениям. Благодаря его политической воле и дальновидности архивное дело в Азербайджанской Республике прошло важные этапы развития и дошло до наших дней. Наш национальный лидер всегда уделял особое внимание сфере архивного дела и архивной науки, а также принимал серьезные меры по укреплению организационно-технических и нормативно-правовых основ этой сферы. В

годы независимости архивное дело не осталось без внимания, были приняты различные приказы, постановления и законы, направленные на развитие этой сферы.

**Açar sözlər:** Arxiv, Heydər Əliyev, arxiv işi, qanun, fərman, dövlət.
**Keywords:** Archive, Heydar Aliyev, archival work, law, decree, state.
**Ключевые слова:** Архив, Гейдар Алиев, архивное дело, закон, указ, государство.

Azərbaycan Respublıkasında arxiv quruculuğu və arxiv sahəsi çox çətin yol keçərək gəlmişdir. Qədim dövlətçilik tarixi və mədəniyyətinə malik olaraq, eyni zamanda strateji region kimi Azərbaycan daim yadelli işğalçıların diqqətini özünə çəkməyi bacarmışdır. Nəticədə uzun bir dövrdə ölkəmiz yadəlli basqınlarına məruz qalmış, həmin ərazilərdə yaranmış olan dəyərli arxiv sənədlərinin bir qismi məhv olunmuş, digər hissəsi isə yadelli işğalçılar tərəfindən qarət edilərək aparılmışdır. XX əsrin ilk illərinə qədərki dövrdə ölkəmizdə dövlət idarəçiliyinin əsas meyarlarından biri kimi qəbul edilən, xalqın mənəvi sərvətinin təşkil olunmasında rolu olan arxivlər hələ yaradılmamışdır.

Ölkəmizin malik olduğu qədim dövlətçilik ənənələri ilə yanaşı, zəngin mədəni irsimiz də vardır. Ulu öndərimiz arxiv sənədlərini Azərbaycan Respublikasının əvəzi olmayan, dəyərli mənəvi sərvəti hesab edirdi. O, bu sənədləri Azərbaycanın tarixini özündə əks etdirən vahid mənbə, ölkəmizin tarixini özününküləşdirməyə çalışan düşmənlərin qarşısının alınmasında çox mühüm vasitə kimi qəbul edirdi. Ölkəsinin mədəniyyəti və tarixindən çox yaxından xəbərdar olan Heydər Əliyev arxiv sahəsinə bələd olaraq bildirirdi ki, ölkənin tarixini ilkin mənbələrə və arxiv sənədlərinə əsaslanaraq yazarsaq bu zaman daha inandırıcı, mükəmməl və dəqiq olar.

XX əsrin 60-cı illərindən etibarən ölkəmizin siyasi həyatı yeni bir mərhələyə qədəm qoydu. Ulu öndərimiz ölkəmizdə müasir cəmiyyətinin formalaşdırılması, onun dövlətçiliyinin yaradılması vəzifəsini üzərinə götürmüşdür. Həmin vaxtdan etibarən ölkəmizin əlində olan bütün təbii resurslar, insan potensialı, həmçinin milli-mənəvi dəyərləri ilə birlikdə inkişaf etməyə başlamışdır. Tarix, həmin illər ərzində Heydər Əliyevin irəli sürdüyü düşüncələrin, ideyaların XX əsrin sonlarında milli mədəniyyətimizin yüksəlməsinə və müstəqil dövlət quruculuğunun möhkəmlənməsinin əsasların yaratmışdır [5].

Müstəqillik qazandıqdan sonrakı dövrdə Ulu öndər Heydər Əliyevin tapşırığına əsasən arxivlərin maddi-texniki təminatı yeniləşmiş, qanunvericilik bazasının formalaşdırılması aparılmış, "Milli Arxiv Fondu" haqqında Qanun qəbul edilmişdir. Ümumilli liderimiz dövlətçiliyin möhkəmləndirilməsində arxiv işinin rolunu hər zaman yüksək qiymətləndirmişdir. Bu səbəbdən də 2 dekabr 2002-ci il tarixdə "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi" haqqında Fərman imzalamışdır. Fərmanda Respublikamızın arxiv sahəsində olan xidmətləri, ölkəmizin çoxəsrlik tarixini öyrənmək məqsədilə qiymətli sənədlərin toplandığı, onların mühafizə olunduğu elmi tədqiqat mərkəzləri göstərilir.

Özündə müxtəlif sahələri əks etdirən həmin arxivlərdə (elm,mədəniyyət,ictimai həyat) 18 minə yaxın fond üzrə 3,5 milyona yaxın saxlama vahidi, 800-dən çox olmaqla fond üzrə ədəbiyyat,mədəniyyət,elm,incəsənət xadimlərinin 100 minə yaxın saxlama vahidindən ibarət arxiv sənədlərinin 140 min saxlama vahidindən çox elm və texnika sənədləri, 450 mindən çox kino və foto sənədləri mühafizə olunur [4].

Ulu öndər Heydər Əliyev arxiv işinin həm nəzəri, həm də praktik əsaslarının mükəmməl bilicisi olaraq dövlətin idarəetmə sistemində arxivlərin inkişafına yüksək qiymət vermişdir. Eyni zamanda arxiv sahəsinin inkişaf etməsi üçün böyük töhfələr vermişdir. H.Əliyevin bilavasitə

rəhbərliyi altında arxiv işi yeni dövrün tələblərinə uyğunlaşdırılmışdır. Azərbaycan Respublikasında ilk dəfə olaraq 90-cı illərin sonu arxiv işi və arxivşünaslıq sahəsinin fəaliyyətini tənzimləyən “Mili arxiv fondu haqqında” Qanun qəbul edilmişdir. Ölkəmizdə arxiv sahəsinin inkişafının tənzimlənməsi məqsədilə qəbul olunmuş ilk qanunvericilik aktı idi. Bu akt Milli arxiv fondu anlayışının, arxiv strukturunun, milli arxiv fondunun tərkibindəki sənədlərin təsnifatını, milli arxiv fondunun formalaşdırma mənbələrinin əhatə dairəsi, arxivin işçi qüvvəsinin sosial müdafiəsi və s. mühüm müddəaların daxil olunması ümumilli liderin adı ilə əlaqədardır. Heydər Əliyevin təşəbbüsü ilə və rəhbərliyi altında hazırlanmış bu Qanun ölkəmizdə arxiv quruculuğunun gələcək prespektivlərini, arxiv sahəsinin nizamlı şəkildə inkişaf strategiyasının müəyyənləşdirilməsində vacib rol oynamışdır. “Milli arxiv fondu haqqında” Qanun respublikamızda arxiv fondlarının fəaliyyəti, arxivlərin formalaşdırılması və daimi mühafizəsi ilə bağlı münasibətlərin hüquqi əsasını yaratmışdır. Bu Qanun vasitəsi ilə müstəqillik illərində ölkəmizin dövlət arxivlərində qiymətli arxiv sənədlərinin müntəzəm olaraq cəmlənməsi məsələsinə, arxiv sənədlərindən iqtisadi və siyasi, elmi, mədəni-maarifçilik məqsədləri üçün istifadəsinə yeni imkanlar yaradılmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda arxiv işi və arxivçünaslıq sahəsindəki idarəetmənin təkmilləşdirilməsi, onun normativ-hüquqi bazasının formalaşdırılması, həmçinin arxiv sənədlərinin mühafizəsi, onların komplektləşdirilməsi və qeydiyyatı bilavasitə elmi-tədqiqat məqsədilə istifadə zamanı uğurlu nəticələrin əldə olunmasını təmin etmişdir. 6 dövlət arxivinə və onun nəzdnində fəaliyyət göstərən filiallara intensiv olaraq yeni arxiv sənədləri daxil olur. Onlardan tarixi, siyasi, elmi və mədəni məqsədlərdə istifadə olunması daha geniş vüsət almışdır. Ümumilli liderimizin başçılığı altında hazırlanan yeni normativ-hüquqi sənədlər uzun bir dövr ərzində istifadə olunmasına qadağa qoyulan arxiv sənədlərinin tədqiqatçıların istifadəsi üçün açılmasına şərait yaratmışdır. Elmi tədqiqatların məqsədilə ilə qapalı şəkildə saxlanılan bu sənədlərdən istifadə olunması alimlər və tədqiqatçılar tərəfindən yüzlərlə elmi məqalənin və monoqrafiyanın yazılmasına səbəb oldu.

**Ədəbiyyat siyahısı:**

*Azərbaycan dilində*

1. Səfərova İ.H. (2015). Arxivşünaslıq. – Bakı. S.163

*İnternet resursları*

2. Milli Arxiv Fondu haqqında qanun (1999) https://www.eqanun.az/framework/2095 \ 27.07.1999)
3. Milli Arxiv İdarəsi (2023) https://milliarxiv.gov.az/az/heydar-aliyev-arxiv-ishi- (05.10.2023)
4. Azərbaycanda arxiv işinin inkişafında Ümummilli lider Heydər Əliyevin rolu(2023),http://milliarxiv.gov.az/az/heyder-aliyev-milli-arxiv-(04.06.2023)
5. Heydər Əliyev və Azərbaycanda arxiv işi. (2023), 525-ci qəzet. https://www.anl.az/down/meqale/525/2023/may/849306.htm ( 09.10.2023).

**UOT 069**

# HEYDƏR ƏLİYEVİN MUSİQİ PROFİLLİ MUZEYLƏRİN YARADILMASINA GÖSDƏRDİYİ QAYĞI

Magistrant
Səlminaz Əhmədova Şirvan qızı
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
selmnazhmdv.03@gmail.com

**Xülasə**

Ulu öndər Heydər Əliyevin musiqi profilli muzeylərin yaradılmasına xüsusi diqqət ayırmışdır. Bu muzeyləri yaratmaqda məqsədi musiqimizi araşdırmaq, öyrətmək və gələcək nəsillərə ötürməkdir. Bu məqsədlə bir çox musiqi bəsdəkarlarımıza aid ev muzeyləri yaradılması haqqında qərar qəbul etmişdir. Bu muzeylərə Üzeyir Hacıbəyovun ev muzeyi, Leopold və Mstislav Rastropoviçlərin ev muzeyi, Niyazinin mənzil muzeyi, Bülbülün memorial muzeyi daxildir. Bu muzeylərin hər birinin yaradılmasına xüsusi qayğı gösdərmişdir.

**Abstract**

**HEYDAR ALIYEV'S CONCERN FOR THE CREATION OF MUSEUMS SPECIALISED IN MUSIC**

Salminaz Akhmedova

Great leader Heydar Aliyev paid special attention to the creation of museums with a musical profile. The purpose of creating these museums is to study, teach and pass on our music to future generations. For this purpose, he decided to create house museums belonging to many of our music composers. These museums include the house museum of Uzeyir Hajibeyov, the house museum of Leopold and Mstislav Rostropovich, the apartment museum of Niyazi, the house museum of Vagif Mustafazadeh, and the memorial museum of Bulbul. He paid special attention to the creation of each of these museums.

**Аннотация**

**ЗАБОТА ГЕЙДАРА АЛИЕВА О СОЗДАНИИ МУЗЕЕВ, СПЕЦИАЛИЗИРОВАННЫХ НА МУЗЫКЕ**

Салминаз Ахмедова

Великий лидер Гейдар Алиев уделял особое внимание созданию музеев музыкального профиля. Цель создания этих музеев — исследовать, обучать и передавать нашу музыку будущим поколениям. С этой целью многие наши композиторы решили создать домашние музеи. К этим музеям относятся дом-музей Узеира Гаджибекова, дом-музей Леопольда и Мстислава Ростроповичей, музей-квартира Ниязи, дом-музей Вагифа Мустафазаде и мемориальный музей Бюль-Бюля. Он проявил особую заботу при создании каждого из этих музеев.

**Açar söz:** musiqi, Heydər Əliyev, memorial, ev muzeyi, mədəni irs.

**Keydword:** music, Heydar Aliyev, memorial, house museum, cultural heritage.

**Ключевые слова:** музыка, Гейдар Алиев, мемориал, дом-музей, культурное наследие.

Azərbaycanda fəaliyyət gösdərən 8 musiqi profilli muzey var. Bu muzeylərin bir çoxunun yaradılması haqqında Sərəncamları Ulu öndər Heydər Əliyev tərəfindən verilmişdir. Azərbaycanının musiqi irsinin yaşadılmasına və onun qorunmasına Heydər Əliyev tərəfindən xüsusi diqqət ayrılmışdır. Heydər Əliyevin qərarı ilə yaradılan musiqi profilli muzeylərə Leopold və Mstislav Rastropoviçlərin ev muzeyi, Bülbülün memorial, Üzeyir Hacıbəyovun ev muzeyi, Niyazinin mənzil muzeyi aiddir.

Yaradılan muzeylərin arasında Ulu öndərimizin sədaqətli dostlarından biri olan, məhşur violençel ustaslarında biri Leopold və Mstislav Rastropoviçlərin ev muzeyidir. Bu muzeyin yaradılması haqqında Sərəncam 1997-ci ildə verilmiş və muzeyin açılışı 2002-ci ildə baş tutmuşdur. Muzey onun uşaqlıq illərinin keçirdiyi muzeydə yaradılmışdır. Muzey 4 otaqdan ibarət olub və burada 2003-ci ilə qədər 1718-dən çox eksponat toplanmışdır. 1718 eksponat arasında Rastropoviçlərin orden və medalları, rəsm əsərləri, afişaları, nadir notları, xatirə əşyaları, jurnalları, qazetləri və s. var.

Dahi Azərbaycan bəstəkarı, musiqişünas, alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir bəy Hacıbəylinin ev muzeyi 1975-ci il, noyabrın 20-də Ümummilli lider Heydər Əliyevin göstərişi və iştirakı ilə açılmışdır. Muzey Bakıda – Şamil Əzizbəyov küçəsi (keçmiş Verxnaya Priutskaya, sonralar Ketsxoveli) ev 67-də yerləşir. Bəstəkar bu evdə 1915-1942-ci illər ərzində yaşayıb yaratmışdır. Ev muzeyi memorial və inzibati binalardan ibarətdir. Memorial hissəyə dəhliz, 4 otaq, şüşəbənd və kinozaldaxildir. Muzeyə gələn tamaşaçılar həm də muzeyin kinozalında Ü.Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən, həmçinin onun “O olmasın, bu olsun” operettası və dünya şöhrətli “Arşın mal alan” kimi operettası əsasında çəkilmiş filmləri seyr etmək imkanı əldə edirlər [10].

Böyük alim və ya müəllim, gözəl dramatruq və publisistik olan Üzeyir Hacıbəyov Azərbaycan musiqisinin klassikidir. Milli bəsdəkarlıq məktəbinin yaranması və təşəkkül tapması məhz onun adı ilə bağlıdır. Üzeyir Hacıbəyovun ev muzeyinin ekspozisiyası buraya gələn ziyarətçilərin xüsusi maraqğına səbəb olur. Ekspozisiyada Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı haqqında məlumat əldə edir. Buraya gələn ziyarətçi Üzeyir Hacıbəyovun gənclik illəri, Şuşa, Qori müəllimlər seminarıyası, dah sonra Peterburq konservatoriyasıında təhsil aldığı dövrü haqqındada məlumat əldə edə bilərlər.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin şəxsi təşəbbüsi ilə yaradılmış Bülbülün memorial muzeyidə musiqi irsini özündə daşıyır. Muzeyin yaradılması haqqında 1976-cı qərar qəbul olunmuşdur. Bülbül dahi vokal sənətinin banisi banisi, SSRİ Xalq artisti, Stalin Mükafatı lauriantı, ictimai xadim olmuşdur. Azərbaycan musiqi incəsənətinin bütün sahələri nə aid hərtərəfli və müxtəlif yaradıcılığı haqqında 9000-ə yaxın sənəd və material toplanmışdır. Bülbülün Memorial Muzeyinin ekspozisiyası yaşayış evinin quruluşu ilə birlikdə onun həyat və fəaliyyətini əks etdirən kompleksdən ibarətdir. Muzey sahəsi 75 kv. m. olan 4 ekspozisiya otağından ibarətdir. Üç otaq memorial olaraq saxlanılmışdır, biri sərgi otağıdır. Bu mənzildə Bülbül 1937-ci ildən ömrünün son günlərinədək, yəni 1961-ci il sentyabrın 26-dək yaşayıb-yaratmışdır[ Məlikova E. 2022. s.76].

Maestro Niyazinin mənzil muzeyi musiqi profilli muzeylərdən biridir. Bu muzey Bülbül prospektində Bülbülün ev muzeyinin yaxınlığında yerləşir. Niyazi 1912-ci ildə Tiflisdə anadan olmuşdur. O, görkəmli bəsdəkar və dirijor olmuşdur. Azərbaycan musiqi sənətinin dəyərli nümayəndələrindən olan Üzeyir Hacıbəyovun qardaşı eləcədə Azərbaycan musiqi teatrının yaradıcılardan biri olan bəsdəkar Zülfüqar Hacıbəyovun oğlu olmuşdur. Niyazi simfonik orkestrlə

üçün 12 vokal əsərin müəllifdir. Niyazi həmdə SSRİ-ninin Dövlət Mükafatı laureatına layiq görülmüşdür.

Niyazinin ev muzeyinin açılışı 1994-cü ildə Üzeyir Hacıbəyovun doğum günündə elədə musiqi günüdə yəni 18 sentyabrda baş tutmuşdur. Muzeyin açlışında Ev muzeylərinin yaradılmasının təməlini qoyamuş Ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə baş tutmuşdur. Niyazi bu mənzilə 1958-ci ildə köçmüşdür və ömrünün sonuna qədər bu mənzildə yaşamışdır [ Məlikova E. 2022. s.83].

## Ədəbiyyat siyahısı:

1. Bayramova A. (2000). Azərbaycanda muzey işinin tarixindən. "Mədəni-maarif" jurnalı, N4/5, 20 s.
2. İmanov.K, (2017). " Azərbaycan musiqi alətlərinin qorunması və inkişafı haqqında" , Bakı-Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi.
3. Məlikova E. (2021). Azərbaycan Muzeyşünaslığı, monoqrafiya, I cild, Bakı-Elm .
4. Məlikova E. (2022). Azərbaycan Muzeyşünaslığı, monoqrafiya, II cild, Bakı-Elm,
5. Məlikova E. (2008). Muzeylər milli irsin qorunuyucusu və təbliğatçısı kimi; Bakı; Musiqi dünyası №-1/2. 296 s.

*İnternet resusları*

6. Azərbaycan Musiqi Mədəniyyət Dövlət Muzeyi. (2018). https://www.musicmuseum.az/az/index.php. (07.01.2025)
7. İmranov K. (2005). http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=244 (03.04.2025)
8. Cabbarova F. (2023). http://www.musigi-dunya.az/article/96/96_9.html (12.06.2024).
9. Üzeyir Hacıbəyovun ev Muzeyi. (2019). https://iticket.az/venues/the-house-museum-of-uzeir-hajibeyli (23 03.2020).

**UOT 069.**

# DÜNYA TƏCRÜBƏSİNDƏ BƏSTƏKAR EV MUZEYLƏRİ

Solmaz Quluzadə Nizami qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
sguluzada@khazar.org

**Xülasə**

Bu gün dünyada muzeylər əsas turizm və sənət mərkəzi kimi istifadə olunan müəssisələrdir. Son illərdə ev muzeylərinə maraq xeyli artmışdır. Ev muzeyləri görkəmli şəxsiyyətlərin irsini yaşatmaq üçün təşkil edilir. Bəstəkarların ev muzeyləridə ən çox ziyarət olunan məkanlardandır. Bəstəkarların ev muzeyləri dünya ölkələrində əsasən musiqi mərkəzi kimi tanınan şəhərlərdə daha çoxdur. Belə şəhərlərə Vyananı, Zalzburqu misal göstərmək olar. Nəinki dünya muzey təcrübəsində, həmçinin Azərbaycan muzey təcrübəsində də bəstəkarların ev muzeylərinə rast gəlinir. Dünya muzey təcrübəsində İohan Sebastian Bax, Volfgang Amadeus Mozart, Ludviq van Bethoven, Frans Şubert, Kiçik İohan Ştraus, Richard Vagner, Edvard Qriq, Cakomo Puççini, Frans Lehar, Pyotr İlyiç Çaykovski kimi tanınmış bəstəkarların ev muzeylərinə fəaliyyət göstərməkdədir. Azərbaycanda isə bəstəkarlarımızdan Niyazi, Üzeyir Hacıbəyli, Qara Qarayev və Vaqif Mustafazadənin ev muzeyləri fəaliyyət göstərir.

**Abstract**

**HOUSE MUSEUMS OF COMPOSERS IN THE WORLD EXPERIENCE**

Solmaz Guluzadeh

Today, museums around the world are institutions that are used as major centers of tourism and art. Interest in house museums has increased significantly in recent years. House museums are organized to preserve the legacy of outstanding figures. House museums of composers are among the most visited places. House museums of composers are more common in countries around the world, mainly in cities known as musical centers. Examples of such cities are Vienna and Salzburg. House museums of composers are found not only in world museum practice, but also in Azerbaijani museum practice. In world museum practice, there are house museums of such famous composers as Johann Sebastian Bach, Wolfgang Amadeus Mozart, Ludwig van Beethoven, Franz Schubert, Johann Strauss the Younger, Richard Wagner, Edvard Grieg, Giacomo Puccini, Franz Lehar, Pyotr Ilyich Tchaikovsky. In Azerbaijan, there are house museums of our composers Niyazi, Uzeyir Hajibeyli, Gara Garayev, Vagif Mustafazadeh.

**Açar sözlər:** bəstəkar, ev muzeyi, memorial muzey, musiqi, əsərlər, ekspozisiya, eksponat

**Keywords:** composer, house museum, memorial museum, music, works, exposition, exhibit

**Ключевые слова:** композитор, дом-музей, мемориальный музей, музыка, произведения, экспозиция, экспонат

Bəstəkarların ev muzeyləri haqda danışarkən dünyanın ən məşhur musiqi festivalının keçirildiyi şəhərdən başlamaq lazımdır. Bura Avstriyanın şəhəri olan Zalzburqdur. Bu şəhərdə bir

neçə bəstəkarın ev muzeyi yerləşir. 20-ci əsrdə film həvəskarları üçün Hollivud əsas mərkəz olduğu kimi, Vyana şəhəri də XVIII əsrdən- XX əsrin əvvəllərinə qədər musiqi sevərlər üçün əsas mərkəz olmuşdur. Burada musiqiyə aid festivallar keçirilirdi. Həmçinin Vyanada tanınmış bəstəkarların memorial ev muzeyləri yerləşir.

*İohan Sebastian Bax* 1600-1750- ci illər arası yaşamış alman bəstəkardır. Onun yaratığı əsərlər Borokko[1] dövrünün əsərləridir. Sebastian Bax klavesin[2] və orqan ifaçısı[3] olmaqla yanaşı, həmçinin kildə musiqisi üçün şah əsərlər bəstələmişdir. 1907-ci ildə Yeni Bax Cəmiyyəti ilk dəfə bəstəkara aid ev muzeyin açdı. Bu muzeyin əsas missiyası "İohan Sebastyan Baxa və onun həyatına aid olan hər şeyi topmalmaq və qorumaq " idi. Muzey Almaniyada yerləşir və dünyada olan ən böyük bəstəkar muzeylərindən biridir. Muzeydə hər saatdan bir beş borokko klaviatura alətində qısa konsert verilir. İohan Sebastian Baxa məxsus digər muzey isə onun 27 il yaşadığı evdə təşkil olunmuşdur. Muzey 1985-ci ildə açılmışdır, lakin 2010-cu ildə genişləndirilmiş və müasir standartlara uyğun qurulmuşdur. Almaniyanın Saksoniya vilayətində Leypsiq şəhərində yerləşir.

Zalsburq şəhərində məşhur *Volfgang Amadeus Mozartın* 2 ev muzeyi mövcuddur. Bu şəhər Mozartın doğma şəhəri hesab edilir. Mozart Qərb klassik musiqisində dövrünün (XVIII əsr) ən tanınmış və çox dinlənilən bəstəkarlarından biri olmuşdur. Yaradıcılığı, musiqi rəngarəngliyi və texniki ustalığı ilə tanınmış bəstəkar musiqi tarixində əbədi iz qoymuşdur. Mozart bütün həyatı boyu opera, simfoniya, konsert, kamera musiqisi, xor musiqisi, kilsə musiqisi kimi müxtəlif janlarda əsərlər bəstələmişdir. Bəstəkarın 600-dən çox bəstəsi mövcuddur. Bunlardan biri onun doğulduğu evdə, digəri isə ailəsi ilə yaşadığı evində təşkil edilmişdir. Bunlardan biri bəstəkarın doğulduğu evdə təşkil olunmuş muzey Zalzburqun mərkəzində, digəri isə ailəsi ilə birgə yaşadığı evdə Salzax çayı boyunca olan ərazidə yerləşir. Zalszburqda yerləşən evdə Mozart "Fiqaronun evliliyi" əsərini yazmışdır. Hər iki ev halhazırda memorial muzey kimi fəaliyyət göstərir və öz ziyarətçilərini qəbul edir. Muzeylərdə Mozarta aid orjinal əsərlər, məktublar, ailə portretləri və sənədlər saxlanılır. Bu muzeylər bəstəkarın həyatı, ailəsi və yaradıcılığı haqqında öyrənməyə imkan yaradır.

Dünyanın ən tanınmış bəstəkarlarından biri də *Ludviq van Bethovendir*. Onun əsərləri bu gündə çox maraqla dinlənilir. Bethoven musiqi dünyasının ən tanınmış bəstəkarıdır. Bəstəkar XVIII əsrdə yaşamışdır. Bəstəkar əslən almandır və o klassik və romantik dövrlər arasında keçid dövründə öz əsərlərini bəstələmişdir. Bethoven Mozart və Cozef Haydın ənənələrindən qaynaqlaraq öz əsərlərini ərsəyə gətirirdi. Özü romantik musiqiçi olmasada, özündən sonra gələn nəsillər üçün əsas mənbəyə çevrilmişdir. Bəstəkar sonata,[4] simfoniya,[5] konsert[6] və kvartet[7] kimi musiqilər bəstələmiş, yenilikçi idealar irəli sürmüşdür. Bethovenin əsərlərini dinləyənlər onun yaradıcılığı, həyatı ilə yaxından tanış olmaq üçün bəstəkara aid ev muzeylərini ziyarət edə bilərlər. Bu muzeylərdən biri Almaniyanın Bonn şəhərində yerləşir. Bu onun 1770-ci ildə anadan doğulduğu evdə təşkil olunmuş muzeydir. Ev muzeyində bəstəkara aid şəxsi əşyalar, onun əsərləri, musiqi alətləri və əlyazmalar

---

[1]Barokko dövrü (və ya Barok dövrü), təxminən 1600-cü ildən 1750-ci ilə qədər davam edən və Avropada musiqidən, sənətdən, memarlıqdan tutmuş ədəbiyyata qədər geniş bir sahəni əhatə edən mədəniyyət və incəsənət dövrüdür.
[2] Klavesin (və ya klavisin) ifaçısı, bu musiqi alətində ifa edən şəxsdir. Klavesin, çiçəkli klaviatura üzərində çalınan və barokko dövründə geniş istifadə olunan bir növ ağaç simli alətdir.
[3] Orqan ifaçısı, orqan adlı alətdə ifa edən şəxsdir. Orqan, geniş klaviatura və borulardan ibarət, adətən kilsələrdə və böyük konsert salonlarında istifadə olunan bir simli və nəfəsli musiqi alətidir.
[4] Xarakter və tempi etibarilə adətən üç və ya dörd hissədən ibarət instrumental musiqi əsəri.
[5] Orkestr üçün yazılmış bir-birindən sürət və ahənginə görə fərqlənən, adətən 3-4 hissəli böyük musiqi əsəri.
[6] Bir sıra musiqi, balet əsərlərinin, estrada və s. nömrələrinin müəyyən proqram əsasında kütləvi surətlə ifa olunması. Simfonik konsert. Kamera konserti. Estrada konserti.
[7] Dörd musiqi aləti və ya dörd səs üçün yazılmış musiqi əsəri. Müvafiq musiqi əsərlərini ifa etmək üçün dörd nəfərdən ibarət musiqiçi dəstəsi. Vokal kvarteti. Simli kvartet.

saxlanılır. Bəstəkara aid digər muzey Avstriyanın Vyana şəhərində Bethovenin yaşadığı evlərdən birində təşkil olunmuşdur. Vyana şəhərindəki evin muzey kimi seçilməsinin xüsusi səbəbi vardır. Bu evdə o Beşinci Simfoniyasını yazmışdır. Bu muzeydə də bəstəkara aid əşylara və s. saxlanılır.

Memorial muzeyi yaradılan bəstəkarlardan biri də tanınmış bəstəkar *Frans Şubertdir.* F.Şubert əslən Avstriyalı olub, 1797-ci il 1828-ci il tarixlərin yaşamışdır. Şubert erkən ölməyinə baxmayaraq yaddaşlarda öz əsərləri ilə qalmışdır. Bəstəkar erken romantizm dövrünün ən görkəmıi musiqiçilərindən biri olmuşdur. Lider( mahnı) janrının ustası idi. Bu janrda 600- dən çox mahnı , o cümlədən Ave Maria, Kral Elf və s. kimi məşhur əsərlər bəstələmişdir. Həmçinin bəstəkar simfoniyalar, fortopiano sonataları, məsih musiqisi, kamera musiqisi və operalar bəstələmişdir. Ən məşhur əsəri “Bitməmiş Simfoniya” dır. (8-ci simfoniya) . Bəstəkarın ev muzeyləri Vyana şəhərində yerləşir. Burada bəstəkara aid iki ev muzeyini ziyarət etmək olar. Muzeylərdən biri bəstəkarın doğulduğu evdə, digəri isə son simfoniyasının tamamlanmadığı, yarımçıq qaldığı, yəni öldüyü evdə təşkil edilmişdir.

Vyanada iki ev muzeyi təşkil olunan bəstəkarlardan biri də dünyaca məşhur

“Gözəl mavi Dunay Üzərində” valsını yazan *Kiçik İohan Ştrausdur*. Oğul Kiçin İohan Ştraus və atası Böyük İohan Ştraus, onlar ata- oğul ikisi də tanınmış bəstəkarlardırlar. Lakin oğul musiqi dünyasında məşhurluğu ilə atasını kölgədə qoymuşdur. Kiçik İohan XIX əsrdə yaşamışdır, əslən Vyanalıdır. Onu “vals kralı” kimi adlandırırlar. Bəstəkar XIX əsr yüngül klassik musiqi bəstəkarıdır. Kiçik İohan Ştraus üçün təşkil olunan muzey Ştraus ailəsinin ev muzeyi kimi fəaliyyət göstərir. Burada ata və oğluna aid əsərlər, əşyalar sərgilənir. Muzey 2015-ci ildə fəaliyyətə başlamışdır.

Bəstəkarların ev muzeylərindən danışarkən *Richard Vagnerin* Bayroytdaki[8] evini də qeyd etmək lazımdır. Richard Vagner XIX ərsdə yaşayıb yaratmış alman dramatik bəstəkarı və nəzəriyyəçisi idi. Onun bəstələdiyi operalar və musiqilər musiqinin gedişatına inqilabi təsir göstərmişdir. Bəstəkarın ən məşhur əsərlərindən “Uçan hollandiyalı” (1843), “Tristan və İzolde” (1865), “Parsifal” (1882), “Nilbelunq üzüyü” (1869-1876) və bir çoxunun adını çəkmək olar. Bəstəkarın xatirəsi İsveçrədə təşkil olunmuş ev muzeyində saxlanılır. Bəstəkarın həyat və yaradıcılığına həsr edilmiş bu ev muzeyindən başqa Vagnerə məxsus bəzi eksponatlar Venesiyada yerləşən Ca Vendramin Calergi muzeyində saxlanılır.

*Edvard Qriq* Skandinaviyanın musiqi dünyası üçün önəmli nümayəndələrdən biridir. Edvar Qriq XIX- XX əsrlərdə yaşayıb yaratmış məşhur Norveç bəstəkarı, dirijor, musiqi xadimi və pianoçudur. Bəstəkar “Şimalın Şopeni” hesab edilir. Qriq romantik musiqçilərdən idi. Edvard Qriqə aid muzey Norveçin Bergen şəhərində yerləşir. Burada Beynəlxalq Musiqi Festivalı keçirilir, bu musiqi festivalında Qriqin evində Piano Konserti keçirilmişdir. Burada bəstəkara aid əsərləri dinləmək olar.

*Cakomo Puççinini* XIX əsrin sonları- XX əsrin əvvəllərində yaşayıb-yaratmış ən məşhur italyan opera bəstəkarlardan biridir. Bəstəkarın bəstələrini dinləmək üçün onun dinləyiciləri İtaliyanın Toskana bölgəsində kiçik qəsəbə olan Torre del Lagoda doğulduğu evdə yaradılan muzeyini ziyarət edə bilər. Burada onun orjinal əlyazmaları və məktubları saxlanılır.

*Frans Lehar* XIX əsrin sonlarından- XX əsrin ortalarına kimi yaşayıb yaratmış macar əsilli operetta bəstəkarıdır. Onun “Üç arvadlı adam”(1908), “Qaraca məhəbbəti”(1910) və s. kimi əsərləri İngiltərə və ABŞ-da ingilis adları altında tanındı və məşhur oldu. Halhazırda bəstəkarın xatirəsi və irsi onun yay iqamətgahı olan Lehar Villa adlı evində nümayiş etdirilir. Bu muzey Yuxarı Avstriyada

[8] Almaniyanın Bavariya əyalitində yerləşən şəhər

yerləşir. Muzeyin interyeri Leharın burada yaşadığı illərdəki kimi təşkil olunub. Binada bəstəkara aid şəxsi əşyalar, foto şəkillər nümayiş olunur.

XIX əsrdə yaşamış *Pyotr İlyiç Çaykovski* Romantik dövrün rus klassik musiqi bəstəkarıdır. Çaykovski opera, balet, instrumental və kamera musiqisi, simfoniya kimi bir çox musiqi janrında əsərlər bəstələmişdir.

Çaykoviskinin xatirəsini əbədiləşdirmək üçün bir neçə ev muzeyi təşkil edilmişdir. Bunlardan biri Rusiyada Klin şəhərində yerləşir. Bəstəkar 1892-ci ildən ölümünə qədər bu evdə yaşamışdır. Evin ikinci mərtəbəsində bəstəkarın qəbul otağı və iş otağı olduğu kimi saxlanılır. Muzey 1945-ci ildə yenidən təmir edilmişdir. Bir digər ev Rusiyanln Votkinsk şəhərindəki evdir. Bəstəkar öz uşaqlıq illərini bu evdə keçirmişdir. Bu ev 1916-cı ildə bəstəkarın qardaşı Modest Çaykovski tərəfindən ev muzeyinə çevrilmişdir. Çaykovskinin ev muzeylərindən biri isə Rusiyanın Taqanroq şəhərində təşkil edilmişdir. Bəstəkar bu evdə yaşamamışdır, sadəcə müəyyən dönəmlərdə qısamüddətli olaraq bu evi ziyarət etmişdir. Muzeydə onun ailəsinə və dostlarına aid məlumatlar təqdim olunur. Bu muzey 1976-cı ildə açılmışdır bə halhazırda Çexov Kitabxanasının musiq şöbəsi ilə birgə fəaliyyətdədir. Hər üç ev muzeyində bəstəkarın şəxsi əşyaları, sənədləri, məktubları , fotoşəkilləri qorunur və nümayiş etdirilir.

Musiqi dünyası üçün mühüm olan şəhərlərdən biri də Londondur. Burada bəstəkarlara aid çoxlu ev muzeyi yoxdur. Lakin Londonda bəstəkarların müvəqqəti olaraq qaldığı evlər və otellər çoxluq təşkil edir. Bu binalar hamısı "Mavi Plaket Xüsusiləri" ilə işarələnmişdir. Mavi Plaket (Blue Blaque) Londonda məşhur bəstəkarların, yazıçıların, tanınmış şəxsiyyətlərin, siyasət adamlarının, ziyalıların ziyarət etdiyi binaların üstünə vurulan işarə sistemidir. Bu işarədə binada olan şəxs, onun kimliyi, nə işlə məşğul olduğu, nə zaman bu binanı ziyarət etməsi kimi məlumatlar qeyd edilir. Bu binalaradan Frederik Şopenin Londonda qaldığı ST James Place və Çaykoviskinin qaldığı keçmiş Dieduonne otellərini göstərmək olar. Bu yerlər, musiqi tarixinin əvəzsiz xatirələrini yaşatmaq və dünyanın ən məşhur bəstəkarlarının həyatına daha yaxından nəzər salmaq imkanı təqdim edir.

**Ədəbiyyat siyahısı:**

1. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası. / Respublika qəzeti. "Dahiləri bir də belə tanıyaq" rubrikası.

*İnternet resusları*

2. Chamber Music Society. Who was Johann Sebastian Bach? A Brief Introduction. https://www.chambermusicsociety.org/news/who-was-johann-sebastian-bach-a-brief-introduction/ (2025)
3. Bachhaus. Johann Sebastian Bach House Museum. https://bachhaus.de/en/home (2025)
4. Mozartın Evi. Salzburg turizm saytı. https://www.salzburg.info/en/sights/museums/mozart-residence
5. English National Opera. Ludwig van Beethoven. https://www.eno.org/composers/ludwig-van-beethoven/ (2025)
6. Encyclopaedia Britannica. Ludwig van Beethoven. https://www.britannica.com/biography/Ludwig-van-Beethoven (2025)
7. World History Encyclopedia. Franz Schubert. https://www.worldhistory.org/Franz_Schubert/ (2025)

8. Wien Museum. Schubert's Birthplace. https://www.wienmuseum.at/schubert_geburtshaus_en (2025)

9. House of Strauss. Museum. İctimaiyyətə müraciət. https://houseofstrauss.at/en/museum/ (2024)

10. Encyclopaedia Britannica. Richard Wagner, German Composer. https://www.britannica.com/biography/Richard-Wagner-German-composer (2025)

11. Wagner Museum. Richard Wagner Museum. https://www.wagnermuseum.de/en/ (.2025)

12. Visit Bergen. Troldhaugen – Home of composer Edvard Grieg. https://en.visitbergen.com/things-to-do/troldhaugen-home-of-composer-edvard-grieg-p825263 (2025)

13. Puccini Museum. Giacomo Puccini'nin doğum evi. https://www.puccinimuseum.org/en/ (2025)

14. Encyclopaedia Britannica. Franz Lehár. https://www.britannica.com/biography/Franz-Lehar (2025)

15. Kulturpfade Badischl. Lehár Villa. https://www.kulturpfade-badischl.at/en/lehar-villa/ (2025)

16. Hürriyet. Çaykovski kimdir? https://www.hurriyet.com.tr/gundem/caykovski-kimdir-40712413 (2025)

17. Rusmania. Pyotr Tchaikovsky House Museum. https://rusmania.com/central/moscow-region/klin/sights/around-the-city/pyotr-tchaikovsky-house-museum (2025)

18. English Heritage. Blue Plaques: History of Blue Plaques. İctimaiyyətə müraciət. https://www.english-heritage.org.uk/visit/blue-plaques/about-blue-plaques/history-of-blue-plaques/

**UOT 069**

# SƏMƏD VURĞUNUN EV MUZEYİNİN YARADILMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Suzanna Osmanova Cuma qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
suzannaosmanova17@gmail.com

**Xülasə**

Azərbaycanın dahi şairi və dramaturqu olan Səməd Vurğun milli mədəniyyətimizdə xüsusi bir yer tutur. Məhz onun ruhunu əbədiləşdirmək baxımından ilk memorial muzey olan Səməd Vurğunun ev muzeyi yaradılmışdır. Səməd Vurğunun ev muzeyinin yaradılması ideyası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə gerçəkləşmişdir. O, şairin zəngin irsinin qorunmasına və gələcək nəsillərə çatdırılmasına xüsusi önəm vermiş, muzeyin təşkilinə dövlət səviyyəsində diqqət göstərmişdir. Bu muzeyin fəaliyyətə başlaması, həm Səməd Vurğunun xatirəsinin yaşadılması, həm də milli mədəniyyətin təbliği baxımından mühüm bir addım olmuşdur.

**Abstract**

**HEYDAR ALIYEV'S ROLE IN THE CREATION OF SAMAD VURGU'S HOUSE MUSEUM**

Suzanna Osmanova

The great Azerbaijani poet and playwright Samad Vurgun holds a special place in our national culture. In order to immortalize his spirit, the first memorial museum – the Samad Vurgun House Museum — was established. The idea of creating the Samad Vurgun House Museum was realized through the initiative and support of the national leader of the Azerbaijani people, Heydar Aliyev. He placed special importance on preserving the poet’s rich legacy and conveying it to future generations, paying significant attention to the museum’s establishment at the state level. The opening of this museum was an important step both in keeping Samad Vurgun’s memory alive and in promoting national culture.

**Аннотация**

**РОЛЬ ГЕЙДАРА АЛИЕВА В СОЗДАНИИ ДОМА-МУЗЕЯ САМЕДА ВУРГУНА**

Сузанна Османова

Выдающийся поэт и драматург Азербайджана Самед Вургун занимает особое место в нашей национальной культуре. Именно с целью увековечения его памяти был создан первый мемориальный музей – Дом-музей Самеда Вургуна. Идея создания дома-музея Самеда Вургуна была реализована по инициативе и при поддержке общенационального лидера азербайджанского народа Гейдара Алиева. Он придавал особое значение сохранению богатого наследия поэта и его передаче будущим поколениям, уделяя организации музея внимание на государственном уровне. Открытие музея стало важным шагом как в сохранении памяти о Самеде Вургуне, так и в популяризации национальной культуры.

**Açar sözlər:** Səməd Vurğun, ev muzeyi, Heydər Əliyev, ekspozisiya, dahi şəxsiyyət

**Keywords:** Samad Vurgun, house museum, Heydar Aliyev, exposition, great figure

**Ключевые слова:** Самед Вургун, дом-музей, Гейдар Алиев, экспозиция, великий деятель

Səməd Vurğun Azərbaycanən dahi şairi olmaqla yanaşı həmçinin görkəmli dramaturq və içtimai xadim də olmuşdur. Dahi şairimiz 1906-cı ildə Qazaxın Daşsalahlı kəndində anadan olmuş, lakin yalnız ömrünün son illərində 1950-ci illərdən sonra bu ev muzeyində yaşamışdır. Ev muzeyinin açılmasında Heydər Əliyevin rolu böyük olmuşdur. Belə ki, ev muzeyinin açılması ideyası da Heydər Əliyevə aid olmuş və onun təşəbbüsü ilə bu ev muzeyi fəaliyyətə başlamışdır. Ev muzeyi 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsüylə təşkil edilmişdir. Muzeyin açılışı isə 1975-ci il 6 oktyabr tarixində baş tutmuşdur.

Səməd Vurğunun ev muzeyi Azərbaycanda yaradılmış ilk memorial ev muzeyidir. Ev muzeyi Bakının mərkəzində, Səməd Vurğun küçəsi üzərində yerləşən tarixi memarlıq abidəsində fəaliyyət göstərir. Muzeyin əsas giriş zalından başlayaraq xüsusi olaraq qorunub saxlanılan üç otaqda – şairin iş otağı, yataq otağı və qonaq otağının ekspozisiyası ziyarətçiləri mərhələli olaraq qarşılayır. Hər bir otaq orijinal interyer, dövrün mebeli və dekor elementləri ilə bərpa olunub, bu da məkanı təkcə sərgi yeri deyil, həm də XX əsrin ortalarındakı Bakının ev-mühitinə səyahət imkanı yaradır.

Ekspozisiya şairin şəxsi əşyaları ilə zənginləşdirilib: yazı masasındakı mürəkkəb qabı və qələmlər, əl yazma dəftərləri, birinci nəşr kitabları, məktub nüsxələri, fotoşəkillər və şəxsi sənədlər burada xüsusi vitrinlərdə nümayiş olunur. Muzey həmçinin geniş toplama işi ilə məşğul olur və hal hazırda muzeydə eksponatların ümumi sayı 17.000- dən çoxdur.

Ev muzeyində şairə aid bir çox rəsm əsərləri mövcuddur. Muzeydə xalq rəssamı Oqtay Sadıqzadənin 1975-ci ildə yağlı boya ilə yaratdığı “Səməd Vurğunun portreti” də yer alır. Bu əsərdə şair dərin düşüncələrə dalmış halda təsvir edilib [Mirzəyev A., 2014, s.11].

Muzey ümumilikdə 6 otaqdan ibarətdir. İlk otaq şairin iş otağıdır və bu otaq olduğu kimi saxlanılmışdır. Həmin otaqda yerləşən iş masası otaqda çox maraqlı bir nüansdır. Çünki, masanın üzərində şairin yarımçıq qalmış papirosu, əlyazmaları var. Həmçinin şair bənövşə gülünü sevdiyi üçün masanın üzərinə suni şəkildə bənövşə gülü də yerləşdirilmişdir. Bu isə otağa xüsusi bir rəng qataraq ziyarətçilərə şairin iç dünyasına bələd olmağda köməkçi olur.

İkinci otaqda daha çox təhsili ili bağlı sənədlər və şairin bir çox fotoşəkillərini görmək mümkündür. Burada həmçinin şairin həyat yoldaşı Xavər xanıma yazdığı məktubları və onların evlilik üzükləri də yer alır. Otaqda həmçinin şairin 1956-cı ildə çəkilmiş ölüm masqasıda vardır [Məlikova E., 2022, s. 74].

Üçüncü otaq oğulları Yusif Səmədoğlu və Vaqif Səmədoğluna aiddir. Daha sonrakı otaq qonaq otağıdır. Qonaq otağında böyük bir masa və piano vardır. Şair çox qonaqpərvər bir şəxsiyyət olmuşdur. Hətta bəzən gələn qonaqlara pianoda musiqi də çalarmış. Həmçinin şairin yataq otağıda olduğu kimi saxlanılmışdır. Otaqda yataq dəsti və Xavər xanımın bədənnüma güzgü dəsti yerləşir. Sonuncu otaqda isə daha çox Səməd vurğunla bağlı heykəllər və dekorativ əşyalar yerləşdirilmişdir. Ümumi ekspozisiyanın təşkili ilə gələn ziyarətçilər Səməd Vurğun şəxsiyyəti ilə bağlı bir çox nüansı öyrənmiş olurlar.

Muzey həm də maarifləndirmə və ictimai- mədəni fəaliyyət mərkəzi rolunu daşıyır. Burada ədəbi-bədii gecələr, mövzuya dair elmi-praktiki konfranslar, gənc yazıçı və şairlərlə görüşlər mütəmadi keçirilir. Məktəblilər və tələbələr üçün xüsusi tədris proqramları, xarici qonaqlar üçün çoxdilli ekskursiyalar təşkil olunur. Hər il martın 21-də və mayın 27-də “Xatirə günləri” çərçivəsində

şairin yubileyinə dair tədbirlər keçirilir, bu da muzeyin həm akademik, həm də geniş ictimai auditoriya üçün açıq olduğunu göstərir [6].

Səməd Vurğunun ev muzeyi təkcə yaradıcılıq abidəsi deyil, eyni zamanda XX əsr Azərbaycan ədəbiyyatının ruhunu yaşadan, milli-mənəvi dəyərləri təbliğ edən və gənc nəslin maariflənməsində mühüm rol oynayan dinamik bir mədəniyyət məkanıdır. Burada toplanan arxiv materialları, nadir əlyazmalar və interaktiv təqdimatlar mövzunun daha geniş tədqiqinə şərait yaradır və ev muzeylərini sənətkar irsinin qorunması baxımından nümunəvi modelə çevirir.

Nəticə olaraq isə deyə bilərik ki, Ümummilli lider Heydər Əliyevin bu layihəyə verdiyi dövlət dəstəyi və şəxsi qayğı sayəsində Səməd Vurğunun ev muzeyi milli-mənəvi irsin qorunub gələcək nəsillərə ötürülməsində əvəzolunmaz rol oynayan canlı bir mədəniyyət ocağına çevrilmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Bayramov A. Yaşayan ömür. Bakı: İşıq, 1990, 88 s.
2. Məlikova E. Azərbaycan muzeyşünaslığı. Monoqrafiya, II cild, Bakı, 2022, 463 s.
3. Məlikova E. Azərbaycanın memorial xatirə muzeyləri. Dərslik, Bakı, 2009, 232 s.
4. Mirzəyev Anar. "Səməd Vurğunun ev muzeyi əsaslı təmirdən sonra ziyarətçilərin ixtiyarına verilib" , Palitra qəzeti, 2014, 7 mart, s.11
5. Qurbanova E. Muzey və tədqiqat işi. Muzeyşünaslıq: Dərslik, Bakı: Mars-Print, 2002, s. 257

*İnternet resursları*

6. Beynəlxalq Muzeylər Şurası Azərbaycan Milli Komitəsi. (2015). Səməd Vurğunun ev muzeyi. URL: https://search.app/c7ubzu4HWVwVDxeX8
7. Müəsissələrin kataloqu, Mədəniyyət Muzeylər və ev-muzeylər. (2024). Səməd Vurğunun Ev-muzeyi. URL: https://search.app/XnU4SDubcJj5kYGv9

**UOT 32.019.5**

# HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİ İRS SİYASƏTİ

Tacir Abdurahmanov Səyavuş oğlu
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət
Bakı, Azərbaycan
abdurahmanovtacir@gmail.com
https://orcid.org/ 0009-0001-87449649

**Xülasə**

Bu məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə verdiyi töhfələr və bu siyasətin sosial mədəni turizm sahəsinə təsiri təhlil olunur. Araşdırma göstərir ki, mədəniyyət obyektlərinin qorunması, mədəni marşrutların formalaşdırılması və bu istiqamətdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi Heydər Əliyevin strateji yanaşmasının davamı olaraq, müasir dövrdə turizm xidmətlərinin effektivliyinə təsir göstərir.

**Abstract**

**HEYDAR ALIYEV AND CULTURAL HERITAGE POLICY**

Tajir Abdurahmanov

This article examines the contributions of Heydar Aliyev to Azerbaijani culture and his impact on the socio-cultural tourism sector. It highlights how his policies, such as the preservation of cultural heritage, the development of cultural routes, and improvements in transport infrastructure, have effectively influenced modern tourism services. Aliyev’s leadership emphasized the integration of culture and tourism, promoting Azerbaijan’s rich culture and heritage globally.

The article also explores the significance of preserving national identity and culture, including the establishment of museums, theaters, and the restoration of historical sites under his leadership. Aliyev’s efforts led to stronger international cooperation, particularly with UNESCO, to promote Azerbaijan's cultural heritage worldwide.

Furthermore, the development of tourism and transportation infrastructure under Aliyev's policies helped boost the country’s economic growth and regional connectivity, particularly through the creation of new tourist routes linked to Azerbaijan’s cultural landmarks. His long-term vision for cultural preservation and tourism development continues to shape Azerbaijan’s success today.

**Açar sözlər:** Mədəni irs, sosial mədəni turizm, nəqliyyat infrastrukturu, milli mədəniyyət, dövlət siyasəti.

**Keywords:** Cultural heritage, Social-cultural tourism, Transport infrastructure, National culture, State policy.

Mədəni irsi qoruyan sosial obyektlərə rahat və effektiv nəqliyyatın təmin olunması, təkcə turizmin inkişafına deyil, eyni zamanda mədəniyyətin daha geniş yayılmasına da töhfə verir. Azərbaycan xalqının XX əsrin sonlarında qazandığı müstəqillik, ölkənin tarixində yeni bir şərəfli səhifə açmışdır. Bu tarixi dövrdə Azərbaycanın mürəkkəb siyasi, iqtisadi və sosial çətinlikləri arxada qoyaraq uğurla irəliləməsi, şübhəsiz ki, ümummilli liderin uzaqgörənliyi və siyasəti ilə bağlıdır.

Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, onun strateji baxışları və qətiyyətli liderliyi sayəsində mümkün olmuşdur. Heydər Əliyevin Azərbaycanın müstəqillik dövründə oynadığı əvəzsiz rol yalnız dövlət quruculuğu, siyasi sabitliyin yaradılması və iqtisadi inkişaf strategiyasının formalaşdırılması ilə bitmir.. Onun rəhbərliyi altında həyata keçirilən genişmiqyaslı və dərin islahatlar, ölkənin bütün sferalarında, o cümlədən sosial-mədəni həyatında da əhəmiyyətli və silinməz izlər buraxmışdır.

Heydər Əliyev, Azərbaycanın davamlı və hərtərəfli inkişafını təmin etmək üçün milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsinin, xüsusilə də zəngin və qədim Azərbaycan mədəniyyətinin dirçəldilməsi və dünya miqyasında təbliğinin müstəsna əhəmiyyətini dərindən dərk edirdi. O, milli özünüdərkin gücləndirilməsini, tarixi-mədəni irsə hörməti və onun gələcək nəsillərə ötürülməsini dövlət siyasətinin fundamental prinsiplərindən biri kimi müəyyənləşdirmişdir. "Onun rəhbərliyi altında reallaşdırılan ardıcıl və məqsədyönlü dövlət proqramları və layihələri, Azərbaycanın milli irsinin cəmiyyətdə daha möhkəm əsaslara söykənməsinə, milli kimliyin qorunmasına, eyni zamanda ölkəmizin zəngin mədəniyyətinin beynəlxalq miqyasda tanıdılmasına xidmət etmişdir.

"Bu geniş mənzərədə sosial-mədəni turizmin inkişafı və onunla ayrılmaz şəkildə əlaqəli olan müasir nəqliyyat xidmətlərinin formalaşdırılması, ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu mədəniyyət siyasətinin aydın və uğurlu nəticələrindən biri kimi dəyərləndirilə bilər.. Məhz onun uzaqgörənliyi sayəsində mədəniyyət və turizm sahələri inteqrasiya olunmuş, bu da ölkənin həm iqtisadi inkişafına təkan vermiş, həm də milli-mənəvi dəyərlərin dünyaya tanıdılmasına geniş imkanlar yaratmışdır. Heydər Əliyevin bu sahələrə göstərdiyi diqqət və dəstək, müstəqil Azərbaycanın davamlı tərəqqisinin mühüm bir təməli olmuşdur. Heydər Əliyevin Uzaqgörən Mədəni İrs Siyasəti: Milli Kimliyin Qorunması və Gələcəyə Miras.

Heydər Əliyevin Azərbaycanın siyasi səhnəsindəki müstəsna rolu təkcə dövlət quruculuğu və iqtisadi inkişaf sahələri ilə məhdudlaşmır. Onun siyasi fəaliyyətində mühüm yer tutan istiqamətlərdən biri də milli-mənəvi dəyərlərin yaşadılması və inkişafının təmin edilməsi olmuşdur.Heydər Əliyevin hakimiyyəti zamanı mədəni irsin mühafizəsi və onun gələcək nəsillərə çatdırılması dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi qəbul olunmuşdur.. Bu siyasətin təməlində Azərbaycan xalqının əsrlər boyu formalaşdırdığı milli-mənəvi sərvətlərinin, zəngin tarixi və mədəni irsinin qorunub saxlanması, tədqiqi və gənc nəslə ötürülməsi ideyası dayanırdı.

Ümummilli liderin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə ölkədə muzeylərin, teatrların, kitabxanaların, tarixi-memarlıq abidələrinin və regionlarda fəaliyyət göstərən mədəniyyət evlərinin əsaslı təmiri, bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı və sistemli layihələr həyata keçirilmişdir. Bu tədbirlər təkcə mədəni obyektlərin fiziki vəziyyətinin yaxşılaşdırılması, onların maddi-texniki bazasının gücləndirilməsi ilə kifayətlənməmiş, eyni zamanda bu məkanların müasir dövrün tələblərinə uyğun şəkildə fəaliyyət göstərən əsl mədəniyyət mərkəzlərinə çevrilməsi məqsədini daşımışdır. Mədəniyyət sahəsində həyata keçirilən siyasətin vacib istiqamətlərindən biri kimi mədəniyyət müəssisələrinin fəaliyyətinin aktivləşdirilməsi, yeni yaradıcılıq potensiallarının üzə çıxarılması və əhalinin mədəni proseslərə fəal qoşulması diqqət mərkəzində olmuşdur.

Heydər Əliyev, mədəni irsin qorunması məsələsini həm də beynəlxalq əməkdaşlıq müstəvisində strateji bir məsələ kimi qiymətləndirirdi. Bu məqsədlə UNESCO və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx və səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, Azərbaycan mədəniyyətinin zənginliyini və müxtəlifliyini beynəlxalq aləmdə təbliğ etmək istiqamətində bir sıra əhəmiyyətli layihələr uğurla həyata keçirilmişdir. Ölkəmizin unikal tarixi abidələri, zəngin folkloru, musiqi inciləri və digər sənət nümunələri beynəlxalq arenada layiqincə tanıdılmış, bu sahədə Azərbaycanın

beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmışdır. Bu proseslər, öz növbəsində, ölkəyə gələn turistlərin sayının dinamik şəkildə artmasına səbəb olmuşdur.

Mədəniyyət və Turizmin Vahid Vahiddə İnteqrasiyası: Yeni İnkişaf İmkanları

Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsində turizm, təkcə ölkə büdcəsinə gəlir gətirən bir iqtisadi sektor kimi deyil, Eyni zamanda bu, Azərbaycanın qədim və zəngin mədəniyyətinin, özünəməxsus tarixi irsinin dünya miqyasında tanıdılması və təbliği baxımından əvəzolunmaz bir vasitə, unikal bir platforma kimi xüsusi əhəmiyyət daşıyırdı.. O, turizmin ölkənin imicinin formalaşdırılmasında, xalqlar arasında dialoqun gücləndirilməsində və mədəni mübadilənin genişləndirilməsində mühüm rol oynadığını dərindən dərk edirdi. Heydər Əliyev, Azərbaycanın təbii zənginliklərinin, tarixi abidələrinin və mədəni sərvətlərinin beynəlxalq aləmə təqdim edilməsinin, eyni zamanda turist axınının gücləndirilməsinin iqtisadi və mədəni-siyasi baxımdan əvəzsiz əhəmiyyətə malik olduğunu qeyd edirdi. Heydər Əliyevin rəhbərliyi ilə 1998-ci ildə qəbul edilən və təsdiqlənən "Azərbaycan Respublikasında turizmin inkişafı haqqında Dövlət Proqramı" turizm sahəsinin inkişafı üçün strateji istiqamətləri müəyyən edən vacib sənədə çevrildi. Bu sənəddə ölkənin zəngin turizm potensialı daha səmərəli şəkildə istifadə edilməsinin, mövcud tarixi və mədəni əhəmiyyətə malik obyektlərin müasir turizm infrastrukturu ilə sıx əlaqə təşkil etməsinin təmin edilməsi əsas vəzifələrdən biri kimi ifadə olunmuşdu.

Mədəni əhəmiyyət daşıyan unikal obyektlərin yeni və cəlbedici turizm marşrutlarına daxil edilməsi, ölkənin müxtəlif regionlarında, o cümlədən tarixi İpək Yolunun keçdiyi ərazilərdə, qədim yaşayış məskənlərində və təbii gözəllikləri ilə seçilən bölgələrdə yeni turizm istiqamətlərinin yaradılması nəticəsində, Azərbaycanın həm zəngin mədəni həyatında, həm də dinamik iqtisadi inkişafında keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyulmuşdur. Turizm sektorunun sürətli və davamlı inkişafı ilə birbaşa bağlı olan müxtəlif xidmət sahələrinin (müasir otellər, rahat restoranlar, peşəkar bələdçilik xidmətləri, nəqliyyat şirkətləri və s.) sayının və xidmət səviyyəsinin əhəmiyyətli dərəcədə artması müşahidə edilmişdir. Bu proses, eyni zamanda, regionlarda yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və yerli iqtisadiyyatın canlanmasına müsbət təsir göstərmişdir. Bu müsbət tendensiyalar, öz növbəsində, regionların sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmiş, əhalinin rifah halının yaxşılaşmasına və ölkənin ümumi inkişafına mühüm töhfələr vermişdir. Əgər biz daşınma və nəqliyyat infrastrukturunun sosial-mədəni turizm xidmətləri çərçivəsindəki funksional əhəmiyyətindən bəhs etmək niyyətindəyiksə, bu zaman söhbət yalnız konkret fiziki obyektlərin – yolların, limanların, hava nəqliyyatının və sairənin mövcudluğundan ibarət olmamalıdır; əksinə, burada nəzər yetirilməli olan əsas məsələ, daşınmanın və onunla əlaqəli infrastrukturun cəmiyyətin iqtisadi və mədəni inkişafındakı dialektik rolu, onun tarixi zərurət çərçivəsində təşəkkül tapmış strateji məqsədlərə yönəlmiş hərəkətverici qüvvə kimi anlaşılmasıdır. Nəqliyyat sisteminin inkişafı təkcə maddi-texniki tərəqqinin nəticəsi olmaqla qalmır, eyni zamanda milli dövlətçilik baxışlarının və iqtisadi subyektivliyin ifadə olunduğu formaların da özündə göstərir. Bu mənada, Heydər Əliyevin siyasəti yalnız inzibati qərarların və layihələrin həyata keçirilməsi ilə deyil, həm də bu qərarların altında yatan daha geniş tarixi və fəlsəfi bir kontekstdə başa düşülməlidir. O, nəqliyyat sisteminin modernləşdirilməsi ideyasını milli-mədəni inkişafın zərurətindən çıxış edərək irəli sürmüş və bu prosesdə nəqliyyat və logistika strukturunun inkişafını cəmiyyətin sosial şüurunun yüksəlişində, milli identitetin gücləndirilməsində, həmçinin iqtisadi dinamizmin təmin edilməsində həlledici bir faktor kimi görmüşdür.

Azərbaycanın müxtəlif regionlarında yerləşən turizm obyektlərinə rahat və təhlükəsiz nəqliyyatın təmin edilməsi təkcə infrastruktur layihələrinin həyata keçirilməsi ilə məhdudlaşmır həm

də, bu, ölkənin vahidliyini və müxtəlif bölgələri arasında qarşılıqlı əlaqəni möhkəmləndirən birləşdirici və harmonik bir strukturun yaradılmasına yönəlmiş ideyaların praktiki tətbiqidir. Yollar, dəmiryolları, hava limanları – bütün bunlar sadəcə logistik obyektlər deyil, bunlar, eyni zamanda, mədəniyyətlərarası dialoqun vasitələri, regionlararası bağlılığın, həmrəyliyin və vahid milli şüurun möhkəmləndirilməsinə xidmət edən məkanlardır.

Bu kontekstdə, yeni hava limanlarının inşası, mövcud yolların genişləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması kimi tədbirlər, nəinki iqtisadi potensialın səfərbər olunmasına şərait yaradır, həm də insanın məkana münasibətini dəyişdirir, onun məkan daxilində hərəkətliliyini təmin etməklə, həm fərdi, həm də kollektiv identitetin daha yüksək səviyyədə formalaşmasına zəmin yaradır. Hər bir yol, hər bir nəqliyyat xətti, əslində, insan fəaliyyətinin istiqamətini müəyyən edən və onu cəmiyyətin inkişafına yönəldən simvolik xətt kimi anlaşılmalıdır. Hazırda ölkədə mövcud olan müxtəlif turizm marşrutlarının və bu marşrutlar üzrə hərəkət edən müasir nəqliyyat vasitələrinin fəaliyyəti, sadəcə iqtisadi fəaliyyətin nəticəsi deyil, əksinə, bu, Heydər Əliyevin uzaqgörən və praqmatik siyasətinin sistemli bir tərkib hissəsidir ki, bu siyasət təkcə müasirlik anlayışına xidmət etməklə kifayətlənmir, həm də tarix və gələcək arasında körpü rolunu oynayır. Turizm sahəsində atılan hər bir addım, ölkənin beynəlxalq aləmdə imicinin formalaşdırılmasına, iqtisadiyyatının diversifikasiyasına və regionların dayanıqlı inkişafının təmin olunmasına yönəlmişdir. Regionlarda keçirilən yol infrastruktur layihələri, həm, lokallaşmış iqtisadi resursların qlobal iqtisadi sistemə inteqrasiyasını təmin edir, həm də, milli-mədəni sərvətlərin daha geniş auditoriyaya çatdırır. Bu, həm də dövlətin iqtisadi siyasətinin sosial aspektlərlə və mədəniyyət strategiyaları ilə sintezindən doğan kompleks yanaşmanın təzahürüdür. Nəqliyyat və logistika cəmiyyətin mənəvi və ideoloji inkişafının ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirilməlidir.

Yekun olaraq, deyə bilərik ki, daşınmanın strateji əhəmiyyəti, onun sadəcə funksional rolunda deyil, həm də ölkənin bütövlükdə sosial, iqtisadi və mədəni həyatında oynadığı çoxşaxəli və kompleks rolda ifadə olunur. Müasir infrastrukturun yaradılması isə, bu strateji baxışın həyata keçirilməsində həm vasitə, həm də nəticə kimi çıxış edir.

**Nəticə**

Heydər Əliyevin Mədəniyyət və Turizm Siyasətinin Davamlı Təsiri

Bütün deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkənin zəngin mədəni irsinə göstərdiyi misilsiz diqqət, onun qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirdiyi siyasət, həmçinin sosial mədəni turizmin inkişafına dair müəyyənləşdirdiyi uzaqgörən strateji baxış, bu gün də müstəqil Azərbaycan Respublikasının dövlət siyasətinin ən mühüm və prioritet istiqamətlərindən biri olaraq öz əhəmiyyətini qorumaqdadır. Mədəni irsin qorunması, müasir turizm infrastrukturunun davamlı və daşınma xidmətlərinin səmərəli və keyfiyyətli təşkili sahəsində Heydər Əliyevin rəhbərliyi ilə aparılan düşünülmüş, sistemli və məqsədyönlü siyasət, təkcə müstəqil Azərbaycanın dinamik iqtisadi inkişafına güclü təkan verməklə kifayətlənməmiş, eyni zamanda Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin daha da möhkəmlənməsinə, milli kimliyinin qorunmasına və zəngin mədəniyyətinin bütün dünyada tanıdılmasına misilsiz töhfələr vermişdir. Heydər Əliyevin ideyaları və prinsipləri əsasında müasir dövrdə də uğurla davam etdirilərək daha da zənginləşdirilir. Heydər Əliyevin qoyduğu bu təməl, gələcək nəsillər üçün də Azərbaycanın mədəni zənginliyinin qorunmasına, turizm potensialının artırılmasına davam edəcəkdir.

**Ədəbiyyat siyahısı:**

1. Əliyev, H. (2004). Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr.

2. Əliyeva, L. (2012). Azərbaycan mədəniyyəti və turizmin inteqrasiyası. Bakı: Turizm İnkişaf Mərkəzi.

3. Qasımov, A. (2017). Mədəni irs və regional turizm: inkişaf perspektivləri. Bakı: Elm və Təhsil.

**UOT 796**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCNIN QLOBAL TURİZM ARENASINA ÇIXIŞI

Rəfiqə Əzizova Sərdar qızı
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
E-mail: rafiga.azizova@gmail.com
https://orcid.org/0009-0005-7638-7840

**Xülasə**

Turizm dünyanın əksər ölkələrində ümumidaxili məhsulun artmasında, yeni iş yerlərinin açılmasına və əhalinin məşğulluğunun təmin edilməsinə, o cümlədən xarici ticarət balansının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Turizm cəmiyyətdə insanları öz ətrafında cəmləyən bir sahə olduğu üçün onlar arasında mədəni ünsiyyətin qurulmasına və insanların mariflənməsinə təsir göstərərək olduqca böyük ictimai-siyasi və kulturoloji əhəmiyyətə malikdir. Çünki turizm yalnız insanların asudə vaxtlarının xoş keçməsi üçün təşkil olunan bir proses deyil, o həmdə insanların müxtəlif bilgilərlə maarifləndirərək, onların dünyagörüşlərinin inkişaf etməsinə və mədəniyyətlərarası körpülərin qurulmasına da əhəmiyyətli dərəcədə töhfə verir.

Heydər Əliyev, Azərbaycanın müasir tarixində ən önəmli siyasi lider olaraq, ölkənin inkişafına yönəlmiş strateji addımları ilə yadda qalmışdır. Onun 1969-1982-ci illər arasında Sovet İttifaqının Azərbaycan Respublikasındakı rəhbərliyi dövründə və 1993-cü ildən sonrakı prezidentlik dövründə verdiyi qərarlar Azərbaycanın sosial, iqtisadi və mədəni həyatını əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Ən mühüm nailiyyətlərindən biri isə turizm sahəsinin inkişafına verdiyi dəstəkdir. Heydər Əliyev Azərbaycanın mədəni və təbii zənginliklərini dünya ilə tanıtmaq, ölkəni turizm baxımından da dünya xəritəsində daha önəmli bir yerə çıxarmaq məqsədini güdürdü. Onun rəhbərliyi altında turizm sahəsinə olan diqqət artdı, beynəlxalq əlaqələr möhkəmləndi və turizm infrastrukturu gücləndi.  Bu məqalədə Azərbaycan turizmin yaranmasında və inkişafında əvəzsiz xidmətləri olmuş Ulu Öndər Heydər Əliyevin həm  sovet hakimiyyəti zamanı, həmdə müstəqillik dövründə hakimiyyətdə olduğu illər ərzində turizm sənayesinə vermiş olduğu əvəzsiz xidmətlərdən bəhs olnur.

**Abstract**

**HEYDAR ALIYEV AND AZERBAIJAN'S ENTRY INTO THE GLOBAL TOURISM ARENA**

Rafiga Azizova

Tourism has a significant impact on the growth of gross domestic product, the creation of new job opportunities, and ensuring employment for the population in most countries around the world. Additionally, it plays a crucial role in the development of foreign trade balance. Since tourism is a field that brings people together, it has a great social-political and cultural significance by fostering cultural communication and educating people. This is because tourism is not just a process organized for people's leisure time; it also contributes significantly to the development of people's worldviews and the building of intercultural bridges by educating them with diverse knowledge.

Heydar Aliyev, as the most prominent political leader in the modern history of Azerbaijan, is remembered for his strategic steps aimed at the country’s development. The decisions he made during

his leadership of the Azerbaijan Soviet Socialist Republic from 1969 to 1982, as well as during his presidency starting in 1993, significantly changed the social, economic, and cultural life of Azerbaijan.

One of his greatest achievements was his support for the development of the tourism sector. Heydar Aliyev aimed to promote Azerbaijan's cultural and natural wealth to the world and elevate the country's position on the global tourism map. Under his leadership, attention to tourism increased, international relations strengthened, and tourism infrastructure was enhanced.

This article discusses the invaluable contributions made by the National Leader Heydar Aliyev to the tourism industry during both the Soviet era and the independence period, highlighting his indispensable services to the growth and development of Azerbaijan's tourism.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan turizmi, Heydər Əliyev və turizm, Beynəlxalq turizm, Xidmət sənayesi, İqtisadiyyat, Azərbaycan Turizm potensialı.

**Keywords:** Heydar Aliyev, Azerbaijani Tourism, İnternational Tourism, Service İndustry, Economics, Azerbaijan's Tourism Potential.

**Giriş**

Azərbaycan dünya arenasında turizm portfeli üzərində öz sözünü deməsi üçün çox zəngin potensiala malik ölkələr sırasındadır. Bunu istər ölkənin əlverişli coğrafi mövqeyi, iqlimi, ucsuz bucaqsız təbii sərvətləri, istərsədə qədim tarixi, həmçinin müasir memarlıq abidələrinin mövcudluğu, qastronomiya irsi, o cümlədən tarixlər boyu formalaşmış olan qonaqpərvərlik adətini də qeyd etməklə bariz şəkildə sübüt edə bilərik.

Belə olduğu halda bir sual meydana çıxır. Bu qədər sərvətlərə malik olan bir ölkənin turizm sənayesinin inkişafı və davamlılığı üçün nələr edilməlidir?

Əvvəlcə vurğulamaq lazımdır ki istənilən bir sahənin uğurlu və davamlı inkişafı üçün bu sahədə dövlətin düzgün siyasət strategiyası olmalıdır. Hər kəsə bəllidirki, turizm sənayesinin inkişafı həmdə iqtisadi inkişafın əsas təməlidir.

Müasir günümüzdə Azərbaycanda turizm, o cümlədən beynəlxalq turizm son dərəcə diqqət mərkəzindədir. Dövlətin bu sahənin inkişafına dair gördüyü tədbirlər göz önündədir və alıqışa layiqdir.

Bu gün əminliklə söyləmək olar ki, Müasir Azərbaycan turizminin formalaşmasında və inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna rolu danılmazdır, bu sahədə əldə olunmuş uğurlar onun müəyyənləşdirdiyi strateji istiqamətlərin nəticəsidir.

Dünyada turizm sektorunda böyük uğurlar əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, bu sahənin davamlı inkişafı üçün sabit ictimai-siyasi mühit əsas şərtlərdən biridir. Heydər Əliyev Azərbaycanın rəhbəri olduğu hər iki dövrdə turizm sahəsinin formalaşması və inkişafı istiqamətində əhəmiyyətli dövlət qərarları vermiş, mühüm fərman və sərəncamlar imzalamışdır.

Azərbaycanın son onilliklərdəki inkişaf tarixi, əslində, Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun hakimiyyətdə olduğu dövrdə ölkənin ictimai-siyasi, iqtisadi və mədəni sahələrdə inkişafı ilə yanaşı, turizmin də təşəkkül tapması və irəliləməsi üçün mühüm addımlar atılmışdır. Hələ ötən əsrin 70-ci illərində, Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi zaman, turizmin potensialı dəyərləndirilmiş və bu istiqamətdə məqsədyönlü fəaliyyətə başlanılmışdır.

Vurğulamaq lazımdır ki, təməli XX əsrin 70-ci illərindən qoyulan Azərbaycan turizm sənayesi bu gün öz çiçəklənmə dövrünü yaşayarır. Baxmayaraqki ölkəmiz 90-cı illərdə öz müstəqilliyini elan etdikdən, azadlığına qovuşduqdan sonra çox çətin günlər yaşamışdı. Başı üzərini qara buludlar almış, 30 ilə yaxın bir dövürdə müharibə şəraitində qalmışdır ki, bu da özlüyündə nəinki turizm sənayesinə, o cümlədən iqtisadiyyatımızın demək olarki bütün sahələrinə ciddi ziyanlar vurulması ilə nəticələnmişdir. Lakin bütün bunlara baxmayaraq Heydər Əliyevin yenidən ölkə siyasətinə geri dönməsi və təməlini 70-ci illərdə qoyduğu turizm sənayesi də özünün yenindən inkişaf mərhələsinə qədəm qoydu.

Çünki Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra davamlı olaraq irimiqyaslı islahatlar aparırdı, onun dahi siyasi bacarıqları sayəsində ilk öncə siyasi sabitlik təmin edildi. Azərbaycanın beynəlxalq mövqeyi getdikcə möhkəmlənməyə başladı, eyni zamanda milli iqtisadiyyatın dayanıqlı inkişafı üçün möhkəm baza formalaşdırıldı. İqtisadi sektorda həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində bazar iqtisadiyyatı prinsiplərinə uyğun sahibkarlıq fəaliyyəti genişlənmiş, həm yerli, həm də xarici sərmayələrin cəlb olunması mümkün olmuşdur. Bununla yanaşı, müasir texnologiyalar və qabaqcıl idarəetmə metodlarının tətbiqinə start verilmişdir. Və beləkliklə bütün bu görülmüş düzgün islahatlar nəticəsində ölkəmizdə yeni iş yerləri yaradıldı, rəqabətədavamlı məhsullar istehsal olundu və nəticə olaraqda ölkə iqtisadiyyatının inkişafı və gücünün hər ötən gün artması üçün təməl baza yarandı.

1994-cü ildə imzalanmış "Əsrin Müqaviləsi" Azərbaycan tarixində yeni bir mərhələnin başlanmasının başlanğıcı oldu. Çünki bu müqavilə əsasında neftən gələn gəlirlər qeyri-neft sektorrunun inkişafına, o cümlədən turizm sənayesinin formalaşmasına yönəldilirdi. Bu da Heydər Əliyev dühasıının ağıllı siyasətindən irəli gəlirdi. Ölkə iqtisadiyyatının inkişaf etməsi üçün görülən tədbirlər təkcə bununla yekunlaşmadı, həm iqtisadiyyatın, həmdə turizm sənayesinin təkminləşdirilməsi istiqamətində ard-arda tədbirlər davam etdirilirdi. Buna misal olaraq Heydər Əliyevin qərarı ilə 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu hazırlanmasını və qəbul olunmsını qeyd edə bilərik. Bu qanunla yanaşı dahi rəhbər Heydər Əliyevin fərmanı ilə Gənclər, İdman və Turizm nazirliyi yaradıldı və bu sahələrdə genişmiqyaslı tədbirlər görülməyə başladı. Azərbaycan turizminin dünya arenasına çıxmaq təmməli 25 sentyabr 2001-ci ildə Cənubi Koreyanın paytaxtında Seulda keçirilmiş Ümumidünya Turizm Təşkilatının (ÜTT) XIV Baş asambleyası zamanı dünyanın bu nəhəng turizm təşkilatına üzv qəbul olunması ilə başladı. Bu təşkilata üzv seçilməklə ölkəmiz turizm sənayesinin fəaliyyəti üzrə tövsiyyələr və o cümlədən praktik sahədə dünya təcrüblərinin köməyindən istifadə etməyə imkanlar əldə etmiş oldu. Azərbaycanın turizm fəaliyyətlərinin inkişafını təmin etdirmək məqsədi ilə Heydər Əliyevin 2002-ci ilin avqust ayında imzalamış olduğu "2002-2005-ci illər üçün turizmin inkişafının Dövlət Proqramı" sərəncamının qəbul olunması da öz növbəsində turizmin normativ hüquqi bazasının təkminləşdirilməsinə, eyni zamanda turizm sahəsində sahibkarlığın inkişafına, yeni turizm müəssələrinin yaradılması ilə bərabər mövcud turizm obyektlərin yenidən qurulmasına, o cümlədən turizm maddi texniki bazasının möhkəmləndirilməsi üçün də çox mühüm rola malik oldu. Təbii ki Ulu Öndərin turizmin inkişafına göstərdiyi diqqət və qayğısı sonrakı illərdə də davam etməkdə idi. 2002-ci ilin may ayında ölkədə ilk dəfə təşkil olunmuş Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi (AİTF), turizm sektorunda həyata keçirilən islahatların mühüm nəticələrindən biri kimi dəyərləndirilə bilər. Sonrakı illərdə ənənəvi xarakter alan bu sərgi hər il keçirilərək Azərbaycanın müxtəlif ölkələrdən olan turizm təşkilatlarına ev sahibliyi etməsinə şərait yaratdı. AİTF sərgisinin təşkil olunması nəticəsində dünya ölkələrinin nümayəndələri Azərbaycanda bu sahənin inkişaf

potensialını yaxından tanımaq imkanı əldə etdilər. Bu da öz növbəsində ölkənin beynəlxalq turizm arenalarına çıxışını asanlaşdırdı və Azərbaycanı regionun mühüm turizm mərkəzlərindən birinə çevirdi. Bu dövürdə Heydər Əliyevin tapşırıqlarına əsasən ölkəmizdə beynəlxalq normalara cavab verən otel və iaşə obyektlərinin inşasına da başlanılmışdı. Və beləliklə dünya standardlarının tələblərinə cavab verən turizm mərkəzləri o cümlədən dünyaca məşhur beynəlxalq brendlərin ölkəmizdə otelləri fəaliyyətə başladı. Bu inkişaf həm paytaxt Bakıda, həmdə turizm potensialı yüksək olan bölgələrdə də özünü göstəririldi.

Bu gün Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və düzgün sosial- iqtisadi siyasəti nəticəsində təməli qoyulmuş turizm sənayesi uğurla inkişaf etməkdədir. Bunu illər ərzində aparılmış iqtisadi təhlillər və statistik araşdırmalardan da aydın görmək mümkündür. Çünki müasir Azərbaycan dövlətçiliyi də Azərbaycan turizmini, o cümlədən beynəlxalq turizm sənayesini öz diqqətində saxlayır. Ölkə prezidenti Cənab İlham Əliyev hər zaman turizmə öz dəstəyini nümayiş etdirib. Onun uğurlu siyasəti turizm sektorunda standardlara cavab verən infrastrukturun yaradılması və inkişaf etdirilməsi, eləcə də turizm şirkətlərinin maliyyə resurslarına çıxmaq imkanlarının artırılmasına da gətirib çıxarmışdır. Qeyri-neft sektorunun, həmçinin onun əsas sahəsi olan turizm sənayesinin davamlı inkişafına nail olmaq, turizmin sməraləliliyinin, dünyada rəqabət qabiliyyətinin artırılması və innovativ inkişafının təmin edilməsi Azərbaycan Prezidenitinin priorietlərindəndir.

Azərbaycanda turizm sektorunun inkişafı istiqamətində son illər ərzində aparılan islahatlar mühüm nəticələr vermişdir. 2015-ci ildə turizm sahəsində sahibkarlıq fəaliyyətinə dair lisenziya tələbinin aradan qaldırılması bu istiqamətdə atılmış əhəmiyyətli addımlardan biri olmuşdur. Bu qərar turizm sahəsində fəaliyyət göstərən subyektlərin fəaliyyət imkanlarını genişləndirmiş və bazarda rəqabətliliyi artırmışdır.

Turizmin dövlət səviyyəsində prioritet sahə kimi inkişaf etdirilməsinə yönəlmiş digər mühüm addımlardan biri isə 2016-cı ildə qəbul olunmuş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” olmuşdur. Sənəddə turizm infrastrukturunun modernləşdirilməsi, insan kapitalının gücləndirilməsi və xidmət keyfiyyətinin artırılması istiqamətində konkret tədbirlər müəyyən edilmişdir.

Bununla yanaşı, beynəlxalq turist axınının təşviqi məqsədilə viza prosedurlarının sadələşdirilməsi istiqamətində də əhəmiyyətli işlər görülmüşdür. Bu çərçivədə “ASAN Viza” elektron sistemi yaradılmış və qısa müddət ərzində müxtəlif ölkələrdən gələn turistlər üçün viza alınması prosesində şəffaflıq və çeviklik təmin edilmişdir.

Turizm sahəsində idarəetmənin institusional səviyyədə təkmilləşdirilməsi istiqamətində isə 20 aprel 2018-ci il tarixli Prezident Sərəncamı ilə Azərbaycan Dövlət Turizm Agentliyi təsis olunmuşdur. Bu strukturun yaradılması sektorda dövlət siyasətinin daha məqsədyönlü və koordinasiyalı həyata keçirilməsi baxımından əhəmiyyətli mərhələ hesab olunur.

Turizm sahəsinin davamlı inkişafını təmin etmək üçün Azərbaycan dövləti bir sıra mühüm addımlar atmış və bu istiqamətdə müxtəlif ictimai birliklərin – o cümlədən hotellər, bələdçilər və turizm agentlikləri üzrə assosiasiyaların təsis edilməsini təşviq etmişdir

Prezident İlham Əliyevin, Müzəffər Ali Baş Komandan olaraq rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi, bütöv Azərbaycanın müxtəlif regionlarında, xüsusilə Qarabağda turizm sənayesinin inkişafı üçün əsaslı təməllər yaratmışdır. İşğaldan azad edilmiş ərazilərdə infrastruktur layihələrinin həyata keçirilməsi, o cümlədən yeni yolların salınması, müasir hava limanlarının açılması, “Ağıllı” kəndlərin qurulması, həmçinin dünya standartlarına cavab verən

otel və mehmanxanaların istifadəyə verilməsi, bu regionda turizmin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

Aparılan iqtisadi təhlillərdən də göründüyü kimi artıq Azərbaycan turizm sahəsində yeni bir mərhələyə daxil olmuşdur. Bu sahə üzrə dövlətin aparmış olduğu kompleks islahatlar nəticəsində turizm güclü inkişaf yoluna qədəm qoymuşdur. Ölkəmiz dünya turistləri üçün artıq cəlbedici məkana çevrilmişdir. İqtisadi təhlillər göstəriri ki dövlət büdcəsinin 2025-2030-cu illərə kimi turizm sektorunun inkişafı nəticəsində genişləndirilməsi nəzərdə tutulur.

**Nəticə**

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan, turizm sahəsində möhkəm təməl qurdu və ölkənin beynəlxalq aləmdə tanınmasında mühüm bir addım atdı. Onun siyasi iradəsi və uzaqgörən yanaşması sayəsində Azərbaycan, təbii gözəllikləri, mədəni irsi və zəngin tarixini dünyaya tanıdan bir ölkəyə çevrildi. Bu gün Azərbaycan, turizm sahəsində davamlı inkişafı və müxtəlif turizm növləri ilə regionda mühüm bir yer tutur.

Bununla yanaşı, Heydər Əliyevin vizyonu, Azərbaycanın turizm potensialını tam şəkildə istifadə etməyə imkan yaratdı. Onun rəhbərliyi ilə aparılan islahatlar nəticəsində bu gün ölkə həm daxili, həm də xarici turistlər üçün cəlbedici bir məkana çevrilmişdir. Onun rəhbərliyinin əsasında qoyulan bu əsaslar, gələcəkdə də Azərbaycanın turizm sektorunun inkişafını sürətləndirəcək və ölkənin iqtisadiyyatına daha böyük töhfələr verəcəkdir.

Bu gün, Azərbaycanın turizm sahəsindəki inkişafı Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar və strateji addımlar ilə davam etdirilir. İnfrastruktur layihələri, beynəlxalq tədbirlər və mədəni irsə verdiyi dəstək sayəsində Azərbaycan turizm sahəsində önəmli bir mərkəzə çevrilmişdir. Azərbaycanın təbii gözəllikləri, mədəni zənginlikləri və tarixi abidələri beynəlxalq səviyyədə daha da tanınır və ölkə turizm sahəsində güclü bir iqtisadi sektor olaraq inkişaf etməyə davam edir.

**Ədəbiyyat siyahısı:**

1. Ağamirzəyev F. Dönüşdən quurtuluşa. Adiloğlu.2012
2. Axundova E. Heydər Əliyev. TEAS press 2025
3. Bir əsrin iqtisadi portreti / İ. Məmmədov, A. Məmmədova, A. Həbibəyli [et al.]; ideya müəl.: Ə. Muradov, F. Əhmədov; red.: Y. A. Kəlbiyev, A. Hüseynli; Azərbaycan Dövlət İqtisad Universiteti [et al.].- Bakı: UNEC, 2023.- 328 s
4. Heydər Əliyev: prezidentlik xronikası: 1993-2003 / Azərbaycan Tarixçiləri İctimai Birliyi; ideya müəl., tərt. A. Ə. Bəşirli; elmi red. Y. Mahmudov.- II nəşr.- Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2023.- 288 s.
5. İmanov M.Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti. Elm və Təhsil 2023
6. Məhərrəmov A.M./Sadıqova.S.A. Heydər Əliyev Biblioqrafik məlumat kitabı. BDU Nəşriyyatı. 2003
7. Mahmudov Y.Heydər Əliyev və Şərq. Təhsil.2002
8. Hacıyev İ. Heydər Əliyev siyasəti, tarix və müasirlik
9. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. DA Yayıncılık Türkiyə.2010
10. Toplama əsər.Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev.Bakı 2018
11. Toplama əsər.Heydər Əliyev haqqında akademik kitab. Palgrave Macmillan.2024

*İnternet resurslar*

1. Azərbaycanın Turizm sektoru Prezident İlham Əliyevi dəstəkləyir. https://report.az/turizm/azerbaycanin-turizm-sektoru-prezident-ilham-eliyevi-destekleyir.
2. Bilalov B. Heydər Əliyev və Azərbaycanda turizm. https://azertag.az/xeber/heyder_eliyev_ve_azerbaycanda_turizm
3. Heydər Əliyev və Müasir Azərbaycan İqtisadiyyatı https://hafta.az/heyder-eliyev-ve-muasir-azerbaycan-iqtisadiyyati
4. Turizm və rekreasiya XXI əsrdə Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans https://www.tourism.gov.az/news/heyder-eliyevin-100-illiyine-hesr-olunmush-turizm-ve-rekreasiya-xxi-esrde-problemler-ve-perspektivler
5. Избрание Гейдара Алиева первым секретарем ЦК КП Азербайджана https://eres.preslib.az/site/historical/page/ru
6. Dikaya M. Haydar Aliyev döneminde Azerbaycanın Ekonomik ve Politik dönüşümü. https://www.academia.edu/

UOT 36

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD GƏNCLƏRLƏ İŞDƏ SOSİAL İŞ TEXNOLOGİYALARININ TƏTBİQİ

İlham Mütəllimov
Magistrant
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Cəmiyyətin inkişaf səviyyəsi birbaşa uşaqların və gənclərin vəziyyətindən, dövlətin və bütövlükdə cəmiyyətin onlara qayğısının əhatəliyindən asılıdır. Sağlamlıq imkanları məhdud gənclərə qayğı və xidmət hər bir dövlətdə özünəməxsus xarakter daşıyır. Çünki sağlamlıq imkanı məhdud gənclərin bütün orqan və funksiyalarını bərpa və inkişaf etdirmək mümkün deyil, amma onların cəmiyyətə ən yüksək səviyyədə sosial uyğunlaşmasını təmin etmək olar. Bunun üçün isə ən innovativ sosial texnologiyaların tətbiqi zəruridir [1, s. 42].

Sağlamlıq imkanları məhdud gənclərlə sosial iş texnologiyalarının ən vacib növlərinə aşağıdakılar daxildir:

- sosial diaqnostika,
- sosial reabilitasiya,
- sosial uyğunlaşma.

Sosial diaqnostika - bir sıra metod, texnikanı özündə cəmləşdirən və sosial iş üzrə mütəxəssisin sağlamlıq imkanları məhdud gəncin şəxsi ehtiyaclarını, sosial mühitinin ehtiyat imkanlarını tanımaq, insanlarla münasibətlərdə uğur qazanmağı və müxtəlif sahələrdə özünü həyata keçirməyi təmin edən bir texnologiyadır [8, s. 67].

Sosial diaqnostikanın məqsədi sosial iş üzrə mütəxəssisi tərəfindən sağlamlıq imkanları məhdud gəncin probleminin obyektiv sosial diaqnozunu müəyyənləşdirmək və ona rəy verməkdir. Sağlamlıq imkanları məhdud gəncin probleminin təhlili üç metoddan istifadə etməklə aparılır.

1. sosial iş üzrə mütəxəssis sosial-diaqnostik metodların nəticələrinə əsasən müştəri probleminin səbəblərini və inkişaf gedişatını konkretləşdirir.

2. sağlamlıq imkanları məhdud gəncin problemi həll etməyə hazır olduğunu (sosial bilik və bacarıqların, bilik və sosial təcrübənin mövcudluğu) xarakterizə edir, hazırda ailə üzvləri, dostları ilə qarşılıqlı əlaqəsini təsvir edir.

3. sağlamlıq imkanları məhdud gəncin daxil olduğu ailə), təhsil qrupu haqqında bütün məlumatları sistemləşdirir. Ailəni təsvir edərkən sağlamlıq imkanları məhdud gəncin fəaliyyətinə və problemi həll etməyə hazır olmasına təsir edən psixoloji mikroiqlim və iqtisadi şərtlərə xüsusi diqqət yetirilir [7, s. 126].

Sağlamlıq imkanları məhdud gəncin sosial bilik və bacarıqlarının müəyyənləşdirilməsi, onların formalaşma səviyyəsinin müəyyənləşdirilməsi sosial diaqnostika metodlarından istifadə etməklə həyata keçirilir: müşahidə, sorğu-sual, müsahibə, mənzil və məişət şəraitinin araşdırılması, sənədlərin təhlili.

Sosial diaqnostika metodu kimi müşahidə sağlamlıq imkanları məhdud gəncin təbii həyat şəraitində problemləri ilə tanış olmağı əhatə edir. Müşahidə sağlamlıq imkanları məhdud gəncin başqaları ilə münasibətlərinin necə formalaşdığını müəyyən etməyə imkan verir: insanlarla necə münasibət qurur, hansı formalarda rəğbət, diqqət, sevinc ifadə edir. Sağlamlıq imkanları məhdud gənc ilə müsahibə aparılması da effektiv yollardan biridir.

Effektiv sosial diaqnostika üçün sağlamlıq imkanları məhdud gəncin yaşayış yerinin, mənzil-məişət şəraitinin müayinəsi metodu vacibdir. Müayinə zamanı sosial iş mütəxəssisi sağlamlıq imkanları məhdud gənci evdə müşahidə edir, həyatını, rifahını və ailədəki münasibətlərini öyrənir, rejimi, qidalanması ilə tanış olur.

Uşaq və gənclərin irsi və anadangəlmə patologiyası olan tənəffüs, həzm, genitouriya sisteminin xroniki xəstəlikləri, allergik xəstəliklər, xəsarət və zəhərlənmə hallarının sayını artırır. Uşaqlığın müasir patologiyasının bir xüsusiyyəti xəstəliklərin kəskin formalarının təkrarlanan və xroniki hallara keçidinin artmasıdır. Beləliklə, sadalanan halların və çatışmazlıqların qarşısının vaxtında alınması və düzgün elmi yanaşmalar əsasında lazımi tədbirləri həyata keçirməklə sağlamlıq imkanları məhdud gənclərin problemlərinin həlli istiqamətində dönüş yaratmaq mümkündür.

## Ədəbiyyat siyahısı:

*Azərbaycan dilində*

1. Aslanov. Z.N. Şəxsiyyətin cəmiyyətə inteqrasiyası: sosial adaptasiya və sosial reabilitasiya // "Dirçəliş – XXI əsr", 2017, No 183, 39-45 səh.
2. Əlilliyi olan şəxslərin hüquqi təminatları, Bakı, "Qoliaf Qrup QSC", 2012, 244 səh.
3. Qəhrəmanov E., Əhmədov Y. "Sosial işin əsasları" Bakı, "B-print", 2014, 482 səh.
4. Musasoy G. "Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyası: çətinliklər və gözlənilməli olan kriteriyalar", Bakı, "Demokratik Təşəbbüslər İnstitutu (IDI)", 2022, 14 səh.

*Rus dilində*

5. Акатов Л.И. Социальная реабилитация детей с ограниченными возможностями здоровья: психологические основы: учебное пособие. – М.: ВЛАДОС, 2004. – 368 с.
6. Андреева М. Н. Проблемы семьи, воспитывающей ребенка-инвалида на разных возрастных этапах развития / М. Н. Андреева // Социальное обеспечение. - 2006. – №5. – С. 57.
7. Основы социальной работы / Под ред. П. Д. Павленка. – М.: ИНФРА-М, 2003. – 314 с.
8. Фирсов М.В. Технология социальной работы: учебное пособие для вузов / М.В. Фирсов. – 2-е изд. – М.: Акад. Проект, Трикста, 2009. – 428 с.

## MÜNDƏRİCAT

HEYDƏR ƏLİYEVİN MİLLİ DÖVLƏTÇİLİK STRATEGİYASINDA TARİXİ VƏ MƏDƏNİ İRSİN QORUNMASI PRİORİTETLƏRİ
Pəri Ədilova Mübariz qızı ..................................................................................................... 4

İKİ BÖYÜK ŞƏXSİN DOSTLUĞU
Aqil Əliyev Mahmud oğlu ..................................................................................................... 10

QARABAĞ QADIN GEYİMİNİN BƏDİİ-ESTETİK OBRAZINDA DEKORATİV MATERİALLARIN YERİ
Nigar Abbasova İlqar qızı ..................................................................................................... 14

QLOBAL ÇAĞIRIŞLAR FONUNDA AZƏRBAYCAN TURİZMİNİN QARŞILAŞDIĞI PROBLEMLƏR VƏ BUNA QARŞI GÖRÜLƏN TƏDBİRLƏR
Aydan Musayeva İmran oğlu ..................................................................................................... 19

1907-1908-Cİ İLLƏRDƏ BAKIDA İMPERATOR BALETİNİN ÇIXIŞI VƏ AYSEDORA DUNKANIN QASTROLU İLƏ BAĞLI YAZILAN RESENZİYALAR HAQQINDA
Aysel Məmmədova Etibar qızı ..................................................................................................... 24

AZƏRBAYCANDA ARXİV İRSİNİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU
Azadə Nəzirova Kamil qızı ..................................................................................................... 26

AZƏRBAYCAN KİNOFİLMLƏRİNDƏ AŞIQ HAVALARININ TƏCƏSSÜMÜ
Amil Səlimli Qiyas oğlu ..................................................................................................... 29

AZƏRBAYCAN MÜASİR TEATRINDA İDARƏETMƏ METODLARI
Əli Mehdixanov Xanlar oğlu ..................................................................................................... 35

SEYİD ƏZİM ŞİRVANİNİN ARXİV FONDUNUN ELMİ-TƏDQİQAT İŞLƏRİNƏ İNTEQRASİYASI
Əli Məmmədli Əlisərvan ..................................................................................................... 40

MƏDƏNİYYƏTİN PARÇALANMASI: DƏYƏRLƏRİN TİCARİLƏŞMƏSİ
Fuad Əliyev Faiq oğlu ..................................................................................................... 46

GƏNC NƏSLİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ HACI ZEYNALABDİN TAĞIYEVİN EV MUZEYİNİN FƏALİYYƏTİ İSTİQAMƏTLƏRİ
Fuad Rüstəmli Məşədi oğlu ..................................................................................................... 49

YENİ MEDİA VƏ TEXNOLOGİYANIN TEATR İDARƏETMƏSİNƏ TƏSİRİ
Həsən İsayev Zeynal oğlu ..................................................................................................... 53

AZƏRBAYCANDA MÜASİR MUZEYLƏRİN EKSPOZİSİYA DİZAYNININ XÜSUSİYYƏTLƏRİ
Hikmət Əkbərli ........................................................................................................ 61

HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ BƏRPA OLUNAN DİNİ ABİDƏLƏR: BİBİHEYBƏT MƏSCİDİ VƏ SVYATIX JON MİRONOSİTS KİLSƏSİ
Nərmin İmanova Nail qızı ........................................................................................ 64

NAXÇIVANIN ORDUBAD BÖLGƏSİNDƏKİ MƏHƏLLƏ MƏSCİDLƏRİNİN MEMARLIQ XÜSUSİYYƏTLƏRİ VƏ QORUNMASI PROBLEMLƏRİ
Məhəmməd Bayramov ............................................................................................... 69

ŞƏXSİ KOLLEKSİYALARIN YARANMASI VƏ İNKİŞAFINA TARİXİ BAXIŞ
Nərgiz Kərimova Şamil qızı ...................................................................................... 75

MÜASİR DÖVRDƏ SOSİAL MƏDƏNİ SAHƏLƏRDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN AKTUAL PROBLEMLƏRİ
Şirinbəy Əliyev Hacıəli oğlu
Nəzrin İsgəndərova Cavanşir qızı ........................................................................... 81

MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI VƏ QURUCUSU HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK İDEYALARI
Rəqsanə Seyidəhmədova Rauf qızı ......................................................................... 86

AZƏRBAYCAN BƏSTƏKARLARININ QARMON ÜÇÜN KÖÇÜRÜLMÜŞ ƏSƏRLƏRİNİN İNTERPRETASİYA XÜSUSİYYƏTLƏRİ
Rəsul Mütəllimov Nazim oğlu ................................................................................. 91

HEYDƏR ƏLİYEVİN NAXÇIVAN ABİDƏLƏRİNİN BƏRPA VƏ MÜHAFİZƏSİNDƏ ROLU
Rübabə Quluzadə Əli qızı ........................................................................................ 94

HEYDƏR ƏLİYEVİN ARXİV SAHƏSİNİN İNKİŞAFI ÜÇÜN GÖRDÜYÜ TƏDBİRLƏR
Şadgün Məmmədova Araz qızı ............................................................................... 97

HEYDƏR ƏLİYEVİN MUSİQİ PROFİLLİ MUZEYLƏRİN YARADILMASINA GÖSDƏRDİYİ QAYĞI
Səlminaz Əhmədova Şirvan qızı ............................................................................ 100

DÜNYA TƏCRÜBƏSİNDƏ BƏSTƏKAR EV MUZEYLƏRİ
Solmaz Quluzadə Nizami qızı ................................................................................ 103

SƏMƏD VURĞUNUN EV MUZEYİNİN YARADILMASINDA HEYDƏR ƏLİYEVİN ROLU
Suzanna Osmanova Cuma qızı ............................................................................... 108

HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİ İRS SİYASƏTİ
Tacir Abdurahmanov Səyavuş oğlu ........................................................................................ 111

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCNIN QLOBAL TURİZM ARENASINA ÇIXIŞI
Rəfiqə Əzizova Sərdar qızı ................................................................................................... 116

SAĞLAMLIQ İMKANLARI MƏHDUD GƏNCLƏRLƏ İŞDƏ SOSİAL İŞ TEXNOLOGİYALARININ TƏTBİQİ
İlham Mütəllimov ................................................................................................................. 122

9 789952 393798